**Kafedra: Psixologiya, Pedaqogika və Sosial fənnlər kafedrası**
**İxtisas: Psixologiya**
**Fənn: Uşaq Psixologiyası**

# G İ R İ Ş

Uşaqlıq dövrü hər bir insanın həyat yolunun, fərdi inkişafının başlanğıcı və əsasıdır. O, insanın ontogenezdə inkişafının şərti qəbul edilmiş digər mərhələlərinə nəzərən tez, coşqun bir tərzdə ötüb keçir. Dilimizdə artıq çoxdan aforizmə çevrilmiş «Hər şey uşaqlıqdan başlanır» fikri bu yaş dövrünün insanın həyatı və taleyində həlledici rol oynadığını bir daha təsdiq edir. Uşaqlıq dövrü insanın şəxsiyyət kimi təşəkkülünün, sosial dəyərləri mənimsəməsinin məhsuldar dövrüdür. Dilindən, dinindən, irqindən və milli-etnik xüsusiyyətlərindən asılı olmayaraq, bütün uşaqlarda psixika eyni qanunauyğunluqlar əsasında inkişaf edir. Dünyanın müxtəlif coğrafi ərazilərində yaşamasından asılı olmayaraq, bütün uşaqlar öz inkişaflarında çağalıq, körpəlik, məkəbəqədər uşaqlıq, kiçik məktəb yaşı, yeniyetməlik və erkən gənclik kimi mərhələlərindən keçir: onların hamısında inkişaf böhranlı və sabil olmaqla iki əsas cəhətlə xarakterizə olunur.

Ailədə uşağın doğulması yaşlılarda həmişə böyük sevinc hissləri doğurur. Elm pedaqogikasının banisi Y.A.Kominski uşaqları «valideynlərin bölünməz sərvəti», böyük yazıçı M.Qorki «torpağın canlı çiçəkləri», məşhur pedaqoq A.S. Makarenko isə «cəmiyyətin canlı qüvvəsi» adlandırırdı. Görkəmli rus psixoloqu A.N.Leontyev uşaqlıq dövrünü «faktiki olaraq şəxsiyyətin ilkin təşəkkülü» dövrü hesab edirdi. «Uşaq bəd övlad olsa öldürər dərd atanı» deyən xalqımız yaxşı övladı pəncərədən düşən işığa bənzətmiş, onu «könül meyvəsi», «atadan nişanə» adlandırmışlar. Böyük şairimiz M.Ə.Sabir yazırdı ki, həqiqi ananın ən şərəfli bəzəyi ədəbli, tərbiyəli çocuqdur.

Qədim dövrlərdə uşaqlara qarşı etinasızlıq hökm sürür, onların doğulması və ölümü təbii hal hesab edilirdi. Bəşəriyyət inkişaf etdikcə, elmi-texniki və mənəvi tərəqqi genişləndikcə, uşaqlara qayğı cəmiyyətin predmetinə çevrilmiş, onların qanuni hüquqları təmin edilmişdir. İlk dəfə 1924-

cü ildə Millətlər Cəmiyyəti (Liqası) «Uşaq hüquqları haqqında» Cenevrə Deklarasiyası»nı qəbul etmişdir. 1945-ci ildə, BMT yarandıqdan sonra uşaq hüquqları məsələlərinə diqqət daha da artmış, Beynəlxalq Uşaq Yardımı Fondu- «YUNİSEF» yaradılmışdır. 1959-cu il noyabrın 20-də BMT-nin Baş Assambleyası «Uşaq Hüquqları haqqında» Deklarasiya qəbul edilmişdir.

1989-cu il noyabr ayının 20-də «Uşaq Hüquqları haqqında» Konvensiyanın qəbul edilməsi uşaqların hüquqlarının genişləndirilməsi ilə yanaşı, onların hüquqlarının beynəlxalq aləmdə qorunmasına etibarlı təminat yaratmışdır. Müasir statistikaya görə, Yer Kürəsi əhalisinin 2,2 milyard nəfəri uşaqlardır.

Dünyanın bir çox ölkələrində hələ də uşaq əməyi istismar edilir, onlar girov götürülür, onlardan narkotika alverində istifadə olunur. Uşaqlar diskriminasiyaya məruz qalır: uşaq alveri, uşaq dilənçiliyi, uşaqlara qarşı seksual zorakılıq, uşaqların atılması və s. kimi neqativ halların kökü hələ də kəsilməmişdir. Uşaq ölümü hallarının artması narahatlıq doğurur. Yüzminlərlə uşaq qaçqınlıq şəraitində yaşamağa məhkum edilmişdir.

İnsanın həyatının hansı dövrünün uşaqlıq dövrü hesab edilməsi hal-hazırda da elmi mübahisə predmetidir. Bir çox psixoloqlar 6 yaşadək, başqaları 10 yaşadək olan mərhələni, üçüncü qrup alimlər isə orta məktəb illəri də daxil olmaqla insanın həyatının ilk 16-17 ilini, cinsi yetişmənin tamamlanmasınadək olan dövrü uşaqlıq dövrü hesab edirlər.

1965-ci ildə Moskvada keçirilmiş Yaş Morfologiyası, Fiziologiyası və Biokimyası problemlərinə həsr olunmuş VII Ümumittifaq Konfransında qəbul edilmiş yaş dövrlərinin təsnifatında həyatın ilk 4-7 ili birinci uşaqlıq, 8-12 ili (qızlarda 8-11 ili) ikinci uşaqlıq dövrü kimi qəbul edilişdir.Alman psixoloqu Erik Erikson 5-11 yaş dövrünü erkən uşaqlıq dövrü hesab edirdi.

Uşaq psixologiyası haqqında yazılmış bəzi dərsliklərdə (V.S.Muxina, E.O.Smirnova və b) uşaqlıq dövrü 6 yaşın sonu ilə tamamlanmış hesab olunur. Əslində isə, bu yaş dövrü bütövlükdə uşaqlıq dövrünü deyil,

məktəbəqədər uşaqlıq dövrünü əhatə edir. Uşaqlıq dövrünü isə məktəbəqədər dövr ilə məhdudlaşdırmaq olmaz. Görkəmli rus psixoloqu A.A.Lyublinskayanın 1971-ci ildə çap olunmuş «Uşaq psixologiyası» dərsliyində uşaqlıq dövrü kiçik məktəb yaşı dövrünü də əhatə edir.

Yaş psixologiyasının tərkib hissəsi olan uşaq psixologiyası uşağın psixi inkişafının xüsusiyyətlərini öyrənir. O, hal-hazırda psixologiya elminin müstəqil sahələrindən birinə çevrilmiş və uşağın psixikası haqqında zəngin nəzəri və emprik material əldə etmişdir.

Uşaq psixologiyası bir tədris fənni kimi gələcək müəllim və tərbiyəçilərin peşə hazırlığı sistemində mühüm yer tutur. Onun öyrənilməsi tələbələrin ümumpsixoloji və ixtisas hazırlığının dərinləşməsinə, uşaq psixikasının təbiətinə, onun formalaşması xüsusiyyətləri haqqında konsepsiyalara bələd olmasına imkan yaradır.

Azərbaycanda uşaq psixologiyası sahəsində ilk tədqiqatlara ötən əsrin 20-ci illərindən rast gəlmək mümkündür. Bu sahədə ilk əsərin müəllifi o vaxtlar Azərbaycanda çalışan rus alimi A.O.Makovelskidir. Milli psixoloq kadrlar hazırlandıqdan sonra Ə.K. Zəküyev, Ş.S.Ağayev, Ə.S.Bayramov, M.C.Məhərrəmov, M.Ə. Həmzəyev, Ə.Ə.Əlizadə, Z.M.Mehdizadə, Q.E.Əzimov, Ə.Ə.Qədirov, İ.N.Məmmədov, R.İ.Əliyev, E.M.Quliyev və b. uşaq psixologiyası sahəsində xeyli tədqiqatlar aparmış, bir sıra dəyərli əsərlər yazmışlar.

Son onilliklər ərzində respublikamızda uşaq psixologiyası sahəsində ayrıca dərslik və dərs vəsaitinin çap olunmaması ali və orta ixtisas məktəblərində təhsil alan tələbələri çətinlik qarşısında qoymuşdur.

1982, 1984, 1988-ci illərdə prof.Z.M.Mehdizadənin müəllifi olduğu üç hissədən ibarət «Uşaq psixologiyası» adlı, Azərbaycan psixoloqlarının tanınmış nümayəndələrinin birgə əməyi ilə hazırlanmış, 1977, 1978 və 1980-cı illərdə çap olunmuş üç hissədən ibarət «Yaş və pedaqoji psixologiya» adlı tədris vəsaitlərinin ADPU-nun nəşriyyatında çap olunmasından 20 ildən artıq vaxt keçir. Psixoloq alimlərdən Ə.Ə.Qədirov və İ.N.Məmmədovun

həmmüəllifliyi ilə yazılmış «Yaş psixologiyası» adlı dərsliyin 1986-cı ildə çap olunması belə bir vəsitə olan ehtiyacı xeyli ödəmişdir. 1990-cı ildə prof. Ə.Ə.Əlizadə, prof.Q.E.Əzimov və dos.E.M.Quliyevin birgə yazdıqları «Məktəblinin psixologiyası», 2000-ci ildə prof. M.Ə.Həmzəyevin müəllifi olduğu «Yaş və pedaqoji psixologiyanın əsasları» adlı, 2003-cü ildə E.M.Quliyevin yazdığı «Kiçik məktəblinin psixologiyası» adlı dərs vəsaitləri qiymətli vəsaitlər kimi dəyərləndirilə bilər.

Bununla belə, ali pedaqoji məktəblərin bəzi fakültələrinin tədris planında «Uşaq psixologiyasının ayrıca bir tədris fənni kimi nəzərdə tutulması, onların bəzilərində bu fənn üzrə 80-90 saat mühazirə kursunun keçilməsi tələbələrin bakalavr hazırlığı sistemi üçün ayrıca, həm də mükəmməl hazırlanmış «Uşaq psixologiyası» adlı dərslik və ya dərs vəsaitinə ehtiyacın olduğunu aşkar surətdə göstərir.

2002-ci ildə dos. E.M.Quliyev tərəfindən hazırlanmış və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş bakalavr hazırlığı üçün «Uşaq psixologiyası» proqramına uyğun yazılmış bu dərs vəsaiti haqqında söhbət gedən boşluğu doldurmağa xidmət edir. Dərs vəsaitində uşaq psixologiyasının nəzəri-metodoloji məsələlərinə, onun inkişafı tarixinə, psixi inkişafın yaş dövrləri probleminə və s. geniş yer verilmişdir. Sonrakı fəsillərdə çağalıq və körpəlik, erkən uşaqlıq və məktəbəqədər yaş dövrlərində psixi inkişaf məsələlərinə, ayrı-ayrı psixi proseslərin, funksiya və vəziyyətlərin inkişaf xüsusiyyətlərinin, intellektual inkişaf məsələlərinin şərhinə xüsusi diqqət yetirilmişdir. «Uşaq psixologiyası» fənni üzrə proqramda nəzərdə tutulduğuna görə, vəsaitin «Məktəblinin psixologiyası» adlanan sonuncu fəslində kiçik məktəb yaşı, yeniyetməlik və erkən gənclik dövrünün psixologiyasına aid məsələlərə də yer ayrılmışdır. Təqdim olunan bu vəsait girişdən, 5 fəsildən, onlara daxil olan 23 paraqrafdan, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Vəsaiti hazırlayarkən müəllif ali məktəbdə 15 ilə yaxın iş təcrübəsinə, apardığı tədqiqatlara, bu sahədə son illər çap olunmuş elmi mənbələrə geniş istinad

etmişdir. Vəsaitdə nəzəri materiallarla yanaşı, praktik materiallara, illüstrasiyalara da geniş yer verilmişdir.

Müəllif bu dərs vəsaitinin tələbələr üçün gərəkli bir elmi mənbə olacağına əminliyini bildirir. Vəsaitdən pedaqoji texnikum və kolleclərin tələbələri, valideyn və tərbyəçilər də istifadə edə bilərlər.

Vəsat haqqında söyləniləcək tənqidi fikirlərin gələcəkdə onun məzmunca dolğunluğunun təmin edilməsinə xidmət edəcəyinə əminik

# I.fəsil. Uşaq psixologiyasının ümumi məsələləri.

## I.1. Uşaq psixologiyasının mövzusu, vəzifələri və başqa elmlərlə əlaqəsi.

Müasir dövrdə özünün emprik və nəzəri elmi biliklər fondu ilə bir çox elmləri kölgədə qoymaqda olan və XXI əsrin elmi kimi səciyyələndirilən psixologiya çox geniş, şaxələnmiş biliklər sisteminə çevrilmişdir. Hal-hazırda psixologiya elminin 100-ə yaxın sahəsi mövcuddur ki, onların da çox böyük hissəsi artıq müstəqil bilik sahəsinə çevrilməkdədir.

Psixologiya elminin sahələri içərisində şəxsiyyətin müxtəlif psixi xassə və proseslərinin, onun formalaşmasının və inkişafının qanunauyğunluqlarını, yaş xüsusiyyətlərini öyrənən yaş psixologiyası arıq nüfuzlu bir elm sahəsidir. Yaş psixologiyasının tərkibində insanın ontogenezdə psixi inkişafının dinamikasını və qanunauyğunluqlarını öyrənən bir sıra bölmələr: uşaq psixologiyası, yeniyetmənin psixologiyası, gəncliyin psixologiyası, yaşlı adamın psixologiyası və qocalıq dövrünün psixologiyası xüsusi olaraq fərqləndirilir.

Yaş psixologiyasının xüsusi sahələrindən biri kimi uşaq psixologiyası ontogenezdə uşağın psixi inkişafının faktlarını, qanunauyğunluqlarını, dinamikasını və spesifik xüsusiyyətlərini öyrənir. Uşaq psixologiyasının **tədqiqat obyektini** uşaqlar təşkil edir.

Uşağın orqanizmi özünün fiziki, fizioloji və morfoloji əlamətlərinə görə yaşlı adamın orqanizmindən fərqləndiyi kimi, onun psixikası da yaşlıların psixikasından köklü surətdə fərqlənir. Uşağın fiziki inkişafı kimi, onun psixi inkişafının faktları və təzahürləri də yaşlıların diqqət mərkəzində olmaqla onlarda böyük sevinc və maraq doğurur.

Uşağın fəallığı, yeni olan hər şeyə marağı, rəftar və davranışındakı təkrarsızlıqlar, müstəqillik meyli, müşahidəçiliyi, nitqə yiyələnməsi, yaşlılarla

qarşılıqlı əlaqə üsulları, hissi, hərəki və emosional həyatında günbəgün müşahidə olunan dəyişikliklər onun psixi inkişafına aid edilən faktlardır.

Uşağın ən məxsusi xüsusiyyəti məhz onun «kiçik adam» deyil, uşaq olmasıdır.O, hər şeydən əvvəl fiziki və psixi imkanlarının məhdudluğu ilə yaşlılardan fərqlənsə də, özünün inkişaf tempinə, dinamik göstəricilərinə, artan psixi və fiziki imkanlarının surətinə görə yaşlıları xeyli geridə qoyaraq bioloji varlıq, fərd səviyyəsindən sosial varlıq, şəxsiyyət səviyyəsinə doğru inkişaf edir.

Fərdin inkişafının irsiyyət və ya mühitlə, təbiət və ya cəmiyyətlə, təlim və ya tərbiyə ilə nə dərəcədə şərtlənməsi uzun illərdir ki, elmi ədəbiyyatlarda mübahisə predmeti olmiuşdur və bu günədək özünün birqiymətli həllini tapmamışdır. Bir cəhət aydındır ki, uşağın fiziki inkişafı kimi, onun psixi inkişafı da həyat təcrübəsi və orqanizmin yetişməsi prosesinin birgə təsirindən asılıdır. Məsələn, bütün digər canlıların balalarından fərqli olaraq, insan övladı doğularkən potensial nitq imkanlarına malik olur. Normal inkişaf şəraitində bu imkan həyatın birinci iki ilində reallaşır. İntensiv təlim bu prosesi müəyyən qədər sürətləndirə bilsə də, inkişafın müvafiq mərhələsi üçün uyğün olan sərhədləri kəskin şəkildə dəyişdirə bilməz. Məsələn, indiyədək heç bir uşağa bir yaşından əvvəl sərbəst danışmaq nəsib olmamışdır. Avropa ölkələrində uşaqlar bir yaşında nitqi mənimsədikləri halda, Qvamatemalanın San-Merkos adlanan ucqar kəndində uşaqlar daha gec – iki yaşında dil açır.

Ontogenezdə (yunanca- genezis, mənşə) uşağın psixi inkişafının faktlarını qanunauyğunluqlarını, hərəkətverici qüvvələrini, zəmini və şərtlərini araşdıran uşaq psixologiyası uşağın psixikasının inkişafı prosesini izləyir. Psixologiyada ontogenez uşaqlıq dövründən başlayaraq fərdin psixikasının əsas strukturlarının formalaşması prosesini nəzərdən keçirir. Müasir elmi-psixoloji təsəvvürlərə görə, ontogenezin əsas məzmununu uşağın əşyavi fəaliyyəti, ünsiyyəti , xüsusilə , yaşlılarla birgə ünsiyyəti təşkil edir. Həyatın ilkin dövrlərində uşaq fəaliyyətin sosial, işarə- simvolik strukturlarını, ünsiyyəti

mənimsəyir və bu amillər onun şüurunun və şəxsiyyətinin formalaşmasında güclü stimul rolunda çıxış edir. Bu prosesdə uşağın tələbatlar sisteminin, formalaşmaqda olan motivlərinin, həyat şəraitinin coğrafi- iqlim amillərinin, yaşlıların, həmçinin cəmiyyətin məqsədəyönəlmiş, fəal təsirlərinin həlledici rolu vardır. Xüsusi tədqiqatlar vasitəsilə sübut edilmişdir ki, uşaq artıq 3-4 yaşlarında öz milli mədəniyyətinin əsas sterotiplərini emosional səviyyədə mənimsəmiş olur. Müxtəlif mədəniyyətlərdə uşaqların tələbatlarının məzmunu fərqli olur. Onun sosial əhəmiyyəti və mahiyyəti uşağın sosial mövqeyinin formalaşmasında, mədəni dəyərlərə sahib olmasında, sosial yönəlişliyində təsirsiz qalmır. Uşağın şəxsiyyətinin inkişafında əxlaqi milli və dini prinsiplər, miflər, onun fərdiləşmə meyllərini gücləndirir, passivlik, sosial təsirlərə etinasız münasibət yaradır.

Uşaqlıq insanı həyatında daha sürətli və intensiv inkişaf mərhələsidir. Ona görə də, yaş dövrlərinin təsnifatında insanın həyatının ilk altı ilində bir sıra konkret dövrlər-çağalıq, körpəlik, erkən uşaqlıq və məktəbəqədər yaş dövrləri xüsusi olaraq fərqləndirilir.

Uşaq psixologiyası uşağın psixi həyatını, uşaq yaşı dövründə psixi inkişafın xüsusiyyətlərini öyrənir.

Dünyanın bir çox ölkələrində sosial-iqtisadi və mədəni həyat səviyyəsinin aşağı olması səbəbindən uşağın yaşlılarla ünsiyyəti məhdudlaşır. Ananın məşğulluğu, atanın olmaması, uşaq tərbiyə müəssisələrinin yoxluğu, yoxsulluq və s. kimi amillər uşağın normal psixi inkişafına əngəllər yaradır, yaşıdlarından geridə qalmasına gətirib çıxarar. Bir çox ölkələrdə cəmiyyətin doğurduğu uşaq alveri, uşaq dilənçiliyi və uşaq cinayətkarlığı kimi sosial bəlaların artması ciddi həyəcan doğurur. Ailə nəzarətindən kənarda qalan uşaqlar küçə icmaları kimi qurumlar yaradır, **avtonom əxlaq** normaları ilə yaşayaraq əhatə olunduqları sosial mikromühitdə zorakılıq, təcavüzkarlıq, oğurluq və reketçiliyə qurşanırlar.

Uşağın şəxsiyyətinin formalaşmasında güclü, təsiredici amillərdən biri **sosial mühitdir**. İnsanın doğulub boya-başa çatdığı sosial gerçəkliyin fəal təsiredici rolu danılmaz bir fakt kimi uzun yüzilliklər boyudur ki, dünyanın mütərəqqi alim, filosof və maarifçilərinin diqqət mərkəzində olmuşdur. Sosial mühiti sağlamlaşdırmadan sağlam şəxsiyyət-vətəndaş tərbiyə etmək qeyri mümkündür.

Fərd, iqtidarsız bir məxluq kimi dünyaya gələn uşağın sosial keyfiyyətlərə, insanı dəyərlərə yiyələnməsində yaşlılar, onların mühiti ilə yanaşı, **uşağın şəxsi fəallığının** da böyük rolu vardır. Onun doğulduğu ilk günlərdən başlanan irəliyə doğru daimi hərəkəti, sadə reaksiyalardan mürəkkəb və məzmunlu əməliyyatlara keçidi, nitqi mənimsəməsi, müstəqilliyinin ilk təzahürlərinin meydana çıxması psixi inkişafı səciyyələndirən başlıca faktlardır. Uşaq psixologiyası bu faktlardan xammal kimi istifadə edərək, elmi nəticələr əldə edir. Ayrı-ayrı uşaqların inkişafında aşkar nəzərə çarpan fərdi fərqlərin olmasına baxmayaraq, bütün uşaqları aid edildikləri yaş qrupları üzrə bir çox ümumi, oxşar cəhətlər birləşdirir: onların hamısı öz inkişaflarında müəyyən mərhələlərdən, dövrlərdən, yaş böhranlarından keçirlər. Psixoloqlar şəxsiyyətin inkişafı və formalaşmasında iki başlıca mərhələnin **məktəbəqədər** və **məktəb yaşı dövrlərinin** rolunu xüsusi olaraq fərqləndirirlər.

Uşaq psixologiyası uşaqlıq dövründə uşağın psixikasının necə formalaşması, onun davranışının müxtəlif təzahürləri arasındakı səbəb-nəticə əlaqələrini tədqiq edərək, tərbiyə üçün proqram xarakterli istiqamətləri müəyyənləşdirir.

Ailədə uşağın doğulması valideynlər və ailənin yaşlı üzvləri üçün fərəh mənbəyi, tamamilə yeni bir həyatın başlanğıcıdır. Ər və arvad valideyn olduqdan sonra ailədə psixoloji mühit dəyişir, ailədaxili münasibətlərdə övlad mərkəzi mövqedə durmaqla, ailə münasibətlərinin möhkəmlənməsi, qarşılıqlı məsuliyyətin yüksəlməsini şərtləndirir: ailənin yeni qayğıları meydana çıxır.

Ailə hər iki sahildən tikilən körpünü xatırladır. Onun dayaqlarının möhkəmliyində uşağın mövcudluğu ciddi amil hesab olunur. Statistik göstəricilərə görə, ailənin dağılmasında sonsuzluğun rolu aparıcı yerlərdən birini tutur. Uşaq ailənin fərəh mənbəyi olmaqla yanaşı, gələcəkdə yüzlərlə yeni qayğı və problemlərin yaranmasının səbəbkarıdır. Gənc ailədə ilk uşağın doğulması ərlə arvadın adət edilmiş maraq və vərdişlərinə təsir göstərir, ailənin həyat stili kəskin şəkildə dəyişikliyə məruz qalır: ərlə arvad çətin və sehrli valideynlik- ata və ana rollarının ifaçılarına çevrilirlər. Ensiklopedik zəka sahibi böyük alim N.Tusi «Əxlaqi-nasir» adlı məşhur əsərində «qadın-ana» obrazının psixoloji-sosial portretini əsvir edərək yazırdı: «Ləyaqətli qadını anaya ona görə oxşatmışlar ki, ərinin yanında olmasını istər, səfərə gedəndə darıxar, onun arzu və istəklərini yerinə yetirməkdə əzab və əziyyətə dözər, anna da övladı üçün belə edər»[1]

Ailədaxili münasibətlərdə mülayimlik, səmimiyyət, sevgi, qayğı və qarşılıqlı məsuliyyət yeni doğulmuş körpənin fiziki və psixi baxımdan sağlam böyüməsinin, normal inkişafının əsas şərtidir.

Uşaq psixologiyasını öyrənməklə uşağın psixi aləminin möcüzələrinə, onların sirli-sehrli uşaq dünyasına bələd olmaq olar.

Ailədə və tərbiyə müəssisələrində uşağın düzgün tərbiyə edilməsi üçün uşaq psixologiyasını öyrənmək olduqca vacibdir. Uşaqların həyatının məqsədəmüvafiq təşkili onların tərbiyəsində başlıca prinsiplərdən biridir. Dünyaya gəldikdən sonra uşaq fiziki baxımdan olduğu kimi, psixi imkanların dinamik inkişafı və genişlənməsi baxımından da hər gün dəyişir. Onun hərəki (motor), hissi (sensor), emosional, manipulyativ, yaşlılarla qarşılıqlı fəaliyyət üsullarında günbəgün dəyişikliklər müşahidə olunur. Bütün bu yeniləşmə və inkişafın mənbəyində isə **uşağın psixikasının hərəkətverici qüvvələri** rolunda çıxış edən daxili və xarici ziddiyyətlər dayanır. Uşağın meydana çıxan tələbat və istəkləri ilə onları şəxsən ödəmək imkanları

[1] N.Tusi. Əxlaqi-nasir. B., «Elm» 1980, s.155

arasında yaranan ziddiyyətlər onun fəallığının yüksəlməsinə təkan verir, təhrikedici qüvvələrə çevrilir. Odur ki, uşağın psixikasının öyrənilməsində onun formalaşmış və formalaşma istiqamətində olan psixi xüsusiyyət, keyfiyyət və tələbatlarının nəzərə alınması olduqca zəruridir. Uşaq öz həyatının əvvəlki mərhələlərində müəyyən psixi xassə və keyfiyyətlərə yiyələnərək, bu psixoloji zəmin üzərində özünün gələcək inkişafının ilkin bazasını yaratmış olur. Onun malik olduğu faktiki real imkanlar «aktual inkişaf zonası» (L.S.Vıqodski) adlanan mərhələnin məhsuludur. Uşağın **aktual yaş dövrü** ərzində yaşlıların köməyi ilə əldə etdiyi psixi imkanlar sonralar daha da inkişaf edərək onun müstəqillik imkanlarının artmasına təkan verir, psixi inkişafının «yaxın inkişaf zonası» adlandırılan yeni inkişaf mərhələsində psixi funksiya və xassələri, daha da genişləndirir və keyfiyyətcə zənginləşdirir.

Görkəmli rus psixoloqu L.S.Vıqotski uşaqların psixi inkişafında təlim və tərbiyə proseslərinin aparıcı rol oynadığını qeyd etmiş və onları **«inkişafın həlledici qüvvəsi»** adlandırmışdır.

Uşaq psixologiyası müstəqil və fundamental elmlərdən biri kimi onun üçün vacib elmi əhəmiyyət kəsb edən bir sıra digər elmlərin əldə etdiyi fakt və arqumentlərə istinad edir. Bunların vasitəsilə uşaq psixologiyası həm nəzəri, həm də emprik səviyyəli bir elm sahəsi olduğunu sübut edir, özünün elmi strukturunu zənginləşdirir. Konseptual müddəalardan çıxış edən uşaq psixologiyası eyni zamanda **pedaqoji psixologiya, pedaqogika** və **praktik psixologiya** elmləri üçün emprik material verir. Uşaq psixologiyasının qarşılıqlı əlaqədə olduğu elmlərdən biri **fəlsəfə, dialektik materializmdir.** Fəlsəfi ideyalar psixoloji nəzəriyyə və konsepsiyaların yaranmasına təkan verir və psixologiyanın metodoloji əsasını təşkil edir. Fəlsəfə insanın cəmiyyətdə rolunu, onun dünya ilə qarşılıqlı münasibətlərini aşkara çıxarır. Psixoloji biliklərin əldə edilməsi prosesi fəlsəfənin öyrəndiyi **elmi idrakın ümumi qanunauyğunluqlarına** tabedir. Bu fəlsəfi təlim təbiətin, cəmiyyətin və idrakın ən ümumi inkişaf qanunlarını müəyyənləşdirərək insanın şüurunun

ictimai təbiətə malik olduğunu, ictimai inkişafın məhsulu olduğunu əsaslandırır. İnkişafın ümumi qanunları haqqında biliklər uşaq psixologiyasına uşağın psixi inkişafını öyrənməkdə düzgün metodoloji yanaşmanı müəyyənləşdirməyə, bioloji, təbii varlıq kimi doğulan körpənin ictimai- tarixi təcrübəni mənimsəyərək cəmiyyətin xadiminə, fəal dəyişdirici subyektə-şəxsiyyətə çevrilməsinin dinamikasını, tendensiya və istiqamətlərini izləməyə imkan yaradır.

Uşaq psixologiyası psixologiya elminin sahələrindən biri olduğu üçün onun sıx qarşılıqlı əlaqədə olduğu fundamental bilik sahələrindən biri **ümumi psixologiyadır.** İnsan psixikasının faktları, mexanizmləri və qanunauyğun-luqlarını öyrənən ümumi psixologiya elminin prinsiplərini, tədqiqat metodlarını, əsas elmi anlayışlar sistemini, qanunauyğunluqlarını müəyyənləşdirməklə, özünün bütün sahə və şöbələrinin inkişafının fundamentalbazasını yaratmış olur. Ümumi psixologiyanın əldə etdiyi elmi-nəzəri müddəalar uşaq psixologiyasının tədqiqat istiqamətlərini müəyyənləşdirməyə, şəxsiyyətin psixoloji strukturunu açmağa imkan yaradır. Psixikanın ayrı-ayrı təzahürlərinin -onun fəaliyyətinin, ünsiyyətinin, psixi xassə, proses və fərdi xüsusiyyətlərinin, iradi və emosional vəziyyətlərinin öyrənilməsində uşaq psixologiyası ümumi psixologiya elminin müəyyənləşdirdiyi başlıca müddəalara istinad edir. Bu cəhətdən ümumi psixologiya psixologiya elminin bütün sahələri üçün məhz ümumidir, «açar» rolunu oynayır. Məsələn, psixi proseslərin mahiyyətini, fizioloji əsaslarını və mexanizmlərini bilmədən, psixikanın ayrı-ayrı cəhətlərinin spesifik xüsusiyyət-lərini öyrənmək qeyri-mümkündür. Çünki uşağın psixi inkişafı da bir çox cəhətdən yaşlı adamın inkişafının tabe olduğu **biososial qanunlara** tabedir.

Uşaq psixologiyası yaş psixologiyasının bir bölməsi olduğu üçün o, psixologiya elminin bu sahəsi ilə daha sıx qarşılıqlı əlaqəyə malikdir. Psixologiya elminin sahələrindən biri olan **yaş psixologiyası** insan psixikasının inkişafının yaş dinamikasını izləyir, bir yaş dövründən digərinə

keçidin qanunauyğunluqlarını, psixi proseslərin, biliklərin mənimsənilməsinin, şəxsiyyətin təşəkkülünün yaş amilindən asılılıqlarını, senzitiv mərhələləri və s.öyrənir. Bu cəhət yaş psixologiyası ilə uşaq psixologiyasının qarşılıqlı əlaqələrində, xüsusən onlarının qohumluq əlaqələrinin daha dərin olmasında əks olunur.

Uşaq psixologiyası uşaqların təlimi, tərbiyəsi və inkişafının məqsədi, məzmunu və səmərəli yollarından bəhs edən **pedaqogika** ilə sıx, ənənəvi qarşılıqlı əlaqələrə malikdir. Pedaqogika şəxsiyyətin formalaşması, onun təlimi və tərbiyəsində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınmasını mühüm prinsip kimi qəbul edir, təlim və tərbiyənin daha səmərəli metodlarının müəyyənləşdirilməsinin praktik yollarını nəzəri cəhətdən əsaslandırır. Uşaqların yaş və fərdi xüsusiyyətləri haqqında psixoloji biliklər tərbiyəçini uşağın inkişaf perspektivini proqnozlaşdırmağa, onlarla tərbiyə işində daha fəal, təsirli metod və vasitələr seçməyə istiqamətləndirir. Vaxtilə böyük çex pedaqoqu **U.A. Komenski** (1592-1670) yazırdı ki, hətta xarrat belə, ağacdan stol düzəltməzdən əvvəl ona verilən materialın xüsusiyyətlərinə bələd olmağa, onun necəliyini təyin etməyə çalışır. Komenski qeyd edirdi ki, müəllim çox zaman belə hesab edir ki, dünyada ən mürəkkəb, ən incə xammal olan insan qəlbini, onun necə qurulduğunu, necə işlədiyini, yəni heç bir xüsusiyyətini bilmədən dəyişdirmək mümkündür. Klassik pedaqogikanın tanınmış simalarından biri **K.D. Uşinski** (1824-1871) kiçik məktəblilərin psixologiyasına aid çox geniş tədqiqatlar aparmaqla belə hesab edirdi ki, tərbiyənin məqsədinin müəyyən edilməsində, təlim və tərbiyənin nəticələrinin qiymətləndirilməsində, metodların işlənilməsində, pedaqoji təcrübənin təhlili və ümumiləşdirilməsində psixologiya elminin əhəmiyyəti olduqca böyükdür. Onun «İnsan tərbiyənin predmeti kimi» (1867) adlı əsəri pedaqoji təsirin obyekti olan insanın psixoloji cəhətdən öyrənilməsi məsələlərinə həsr edilmişdir. Böyük pedaqoq belə hesab edirdi ki, pedaqogika bütöv şəxsiyyətin tərbiyəsi planını yalnız **anatomiya, fiziologiya, fəlsəfə, məntiq** və s. kimi

elmlərə xüsusilə, ilk növbədə psixologiyaya istinad etməklə işləyib hazırlaya bilər. O yazırdı ki, əgər pedaqogika insanı bütün münasibətlərdə tərbiyə etmək istəyirsə, o hər şeydən əvvəl insanı bütün münasibətlərdə öyrənməlidir.

Uşaq psixologiyasının sıx əlaqələrə malik olduğu elmlərdən biri **uşaq anatomiyası və fiziologiyasıdır.**

Psixikanın anatomik fizioloji əsaslarının və mexanizmlərinin, uşaq orqanizminin xüsusiyyətlərinin öyrənilməsi baxımından bu elmlərin uşaq psixologiyası üçün böyük əhəmiyyəti vardır. Uşağın sinir sisteminin, xüsusilə **ali psixi funksiyalarının** inkişafı haqqında elmi fakt və məlumatlar uşaq psixologiyası üçün fundamental əhəmiyyət kəsb edir. Uşağın sinir sisteminin normal inkişafı və fəaliyyəti onun psixi inkişafının birinci və əsas şərtidir. Psixika aləti olan beynin funksional fəaliyyətinin fizioloji mexanizmlərini, sinir proseslərinin xüsusiyyətlərini, onun dinamik göstəricilərini nəzərə almadan uşağın psixi inkişafını idarə etmək və onun formalaşmasına optimal təsir edən amillərin müəyyən edilməsi qeyri mümkündür.

Uşaq psixologiyasının fiziologiya ilə əlaqəsi uşağın ayrı-ayrı yaş dövrlərində orqanizmində baş verən fizioloji dəyişmələrin uşaqların psixi aləminə təsirinin aydınlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Uşağın sinir sistemi tipinin, onun orqanizmində baş verən funksional dəyişikliklərin nəzərə alınması uşağa pedaqoji -psixoloji təsir zamanı ciddi amildir. Bu cəhətdən fiziologiya elmini psixologiyanın təbii-fizioloji əsası kimi qiymətləndirmək olar. Görkəmli rus maarifçi- demokratı V.Q.Belinski (1811-1848) hələ XIX əsrdə yazırdı ki, fiziologiyaya istinad etməyən psixologiya anatomiyanın mövcudluğundan xəbəri olmayan fiziologiya qədər müflisdir.

### Suallar və tapşırıqlar.

1. Uşaq psixologiyası nəyi öyrənir və onun mövzusunu nə təşkil edir?
2. Uşaqlıq yaşı dövrü həyatın digər mərhələlərindən nə ilə fərqlənir?

3. Uşağın psixi inkişafını hansı amillər şərtləndirir?
4. Uşağın psixi inkişafının hərəkətverici qüvvələri nədən ibarətdir?
5. Psixi inkişafın «yaxın» və «aktual» zonası anlayışlarının elmi mahiyyətini izah edin.
6. Uşaq psixologiyasının ümumi psixologiya elmi ilə qarşılıqlı münasibətlərini göstərin.
7. Uşaq psixologiyası daha hansı elmlərlə qarşılıqlı əlaqədədir?
8. Nə üçün tərbiyəçi, pedaqoq və praktik psixoloqa uşaq psixologiyasını bilmək zəruridir?

## I.2. Uşaq psixologiyasının metodları.

Hər bir elmdə elmi fakt, qanun və qanunauyğunluqların aşkara çıxarılmasında həmin elmin spesifik tədqiqat metodları müstəsna əhəmiyyət kəsb edir. Metod sözü yunanca «methods» sözündən götürülmüşdür. Bu söz adətən hər hansı idraki və praktik məsələnin həlli yolu mənasında işlənir. Metod tədqiqat faktlarının əldə edilməsinin ümumi strategiyasıdır. Psixologiya elminin metodları sistemi ümumi psixologiyada geniş şəkildə verilmişdir. Hər bir elmin ümumi metodları ilə yanaşı, onun ayrı-ayrı sahələrinin məxsusi, spesifik metodları da olur. Həm yaş psixologiyasının, həm də onun konkret bölməsi olan uşaq psixologiyasının spesifik metodları vardır. Uşaq psixologiyası uşağın psixi inkişafının faktlarını, qanunauyğunluqlarını və xüsusiyyətlərini öyrənərkən həm ümumi psixologiyanın, həm yaş psixologiyasının tədqiqat metodlarına, həm də özünün spesifik metodlarına istinad edir.

Uşaq psixologiyasının tədqiqat obyektini uşaqlar təşkil etdiyinə, uşağın psixikası digər yaş qruplarına aid edilən insanların psixikasından fərqləndiyinə görə, onun tədqiqat metodları da məzmunca spesifik cəhətlərə malikdir. Bu hər şeydən əvvəl özünü uşaq psixikasının mahiyyətində, onun yaşlıların psixi imkanlarından fərqli və məhdud cəhətlərində göstərir. Məsələn, **«ana gündəlikləri», «əkizlər»** metodları uşağın ontogenezinin ilkin dövrlərində onların psixi inkişafının xüsusiyyətlərinin öyrənilməsinə xidmət etdiyinə görə, ancaq uşaq psixologiyasının metodları kimi nəzərdən keçirilməlidir. Məktəbəqədər uşaqlıq dövründə uşağın fəaliyyətinin məhsuldar növləri olan yanma, quraşvırma, applikasiya, təsviri fəaliyyət kimi fəaliyyət növlərinin icrası prosesində uşağın psixi fəaliyyəti bu fəaliyyətin nəticəsi olan əl işlərində, konkret fəaliyyət mühsullarında ifadə olunur. **Fikri fəaliyyət məhsullarının öyrənilməsi** həm ümumi psixologiya, həm də onun bir sıra sahələrində bir

tədqiqat metodu kimi tətbiq edilsə də, uşaq psixologiyasında bu metodun spesifik xüsusiyyətləri mövcuddur.

Uşaq psixologiyasının metodları uşağın inkişafının psixi faktlarını aşkara çıxarmaq üsullarıdır. Bu faktlar bizi hər yerdə- uşaqların mövsud olduğu bütün gerçəklikdə əhatə edir. Uşağın inkişafını müşahidə edən, izləyən hər bir ana, tərbiyəçi, başqa sözlə yaşlı adam bu inkişafın necə baş verdiyi haqqında çoxsaylı faktlar, nümunələr göstərə bilər. Lakin belə faktların elmi cəhətdən inandırıcılığına, obyektivliyinə heç də həmişə ümid bəsləmək olmaz. Çünki onlar çox vaxt yaşlının şəxsi təəssüratından asılı olduğuna və onların əksəriyyətinin psixologiya sahəsində təhsili olmadığına görə, belə fakt və nümunələr subyektiv xarakter kəsb edir.

Uşaq psixologiyası uşağın psixi inkişafının öyrənilməsində uzun illər boyu sınaqdan çıxmış bir sıra etibarlı tədqiqat metodlarından istifadə edir. Görkəmli rus psixoloqu B.Q.Ananyev psixologiya elminin metodlarını dörd əsas qrupa ayırmışdır[1]:

**Birinci qrup metodlar:** təşkilati metodlar ( müqayisəli, lonqityud, kompleks)

**İkinci qrup metodlar:** emprik metodlar (müşahidə və özünümüşahidə; eksperimental metodlar; psixodiaqnostik metodlar (testlər, anketlər, sorğular, sosiometriya, müsahibə, söhbət): proseslərin və fəaliyyət məhsullarının təhlili; bioqrafik metodlar (insanın həyat yoluna aid hadisələrin təhlili, sənədlərin öyrənilməsi və s.);

**Üçüncü qrup metodlar:** əldə edilmiş faktların işlənilməsi: Kəmiyyətcə (statistik) və keyfiyyətcə (materialların qruplara, variantlara ayrılması, differensiallaşdırılması) təhlil;

**Dördüncü qrup metodlar:** interpretasiya metodları: (genetik və struktur metodlar)

[1] Bax. Ананьев В.Г. О методах современной психологии. В кн: Психологические методы Л., 1976, стр.23-35

Müasir uşaq psixologiyasında uşağın psixi həyatının öyrənilməsində başlıca olaraq aşağıdakı metoldardan istifadə olunur.

**Müşahidə metodu:** Uşağın psixi həyatının öyrənilməsində geniş tətbiq olunan emprik metodlardan biri müşahidə metodudur. Müşahidə metodunun vasitəsilə uşağın psixi inkişafının ayrı-ayrı təzahürləri, onun sensor, hərəki emosional sferası, ünsiyyət fəaliyyəti, yaşlılarla qarşılıqlı əlaqə üsullarının xüsusiyyətləri öyrənilir. Uşağın həyatının sonrakı inkişaf dövrlərində – ilk uşaqlıq, məktəbəqədər və məktəb yaşı dövründə onun ayrı-ayrı **psixi prosesləri** (qavrayış, hafizə, təfəkkür və s), **psixi xüsusiyyətləri** (xarakter, temperament və s), **psixi vəziyyətləri** (əhvalları, affektləri və s) müşahidə obyekti olaraq götürülür. Müşahidə metodunun xarakterik cəhəti ondan ibarətdir ki, o, uşağın psixi fəaliyyətinin xarici təzahürlərini təbii həyatı şəraitdə izləməyə imkan verir. Tədqiqatçı, uşaq aləmi ilə maraqlanan hər bir kəs onun rəftar və davranışını, danışıq və ünsiyyət tərzini, başqa adamlarla qarşılıqlı münasibətlərini bu metod vasitəsilə öyrənə bilər. Müşahidə metodu vasitəsilə əldə edilən obyektiv psixi faktlar uşağın daxili subyektiv aləminin xüsusiyyətləri haqqında mühakimə yürütməyə, müəyyən nəticələr əldə etməyə imkan verir. Müşahidə metodu vasitəsilə əldə edilən nəticələr o zaman obyektiv və etibarlı hesab edilə bilər ki, o, məqsədəyönəlmiş məzmun kəsb etsin. Belə ki, tədqiqatçı uşaqda nəyi, hansı xüsusiyyətləri və hansı məqsədlə harada və nə vaxt müşahidə edəcəyini irəlicədən müəyyənləş-dirməli, bu məqsədlə müşahidə proqramı, gündəliyi və protokolu tərtib etməlidir. Əks halda, müşahidə təsadüfi faktlar yığınına çevrilə bilər. Müşahidənin keçirilməsində bir sıra tələbləri ciddi surətdə nəzərə almaq lazımdır. **Birincisi,** müşahidə təsadüfdən-təsadüfə deyil, sistematik olaraq aparılmalıdır. Bu cəhət müşahidənin daimi şəraitini saxlamağa, müşahidə faktları arasında sıx əlaqə yaratmağa imkan yaradır. **İkincisi,** psixoloji müşahidə bir qayda olaraq, uzun müddət davam etməlidir. Müşahidənin müddəti nə qədər uzun olarsa, əldə edilən faktların verdiyi psixoloji nəticələr

bir o qədər dərin və etibarlı hesab edilə bilər.Adətən, uzunmüddətli müşahidə uşaqların yaş xüsusiyyətlərinin məsələn, **nitqin və təfəkkürün, emosional təzahürlərin, iradi hərəkətlərin, cəhdlərin və maraqların, xarakter əlamətlərinin** və **qabiliyyətlərin** öyrənilməsi zamanı tətbiq edilir. Belə uzun-müddətli müşahidənin nəticələri ya gündəlikdə qeyd olunur, uşağın psixi inkişafı prosesi bu faktlar əsasında təhlil olunur, ya da psixoloji xarakteristikalar tərtib edilir.

Uşaqlar üzərində müşahidə aparan tədqiqatçı uşağın psixi fəaliyyətinin xarici təzahürlərini- onun əşyalarla fəaliyyətini, sözlü mühakimələrini, ifadəli hərəkətlərini və s. izləyir. Lakin psixoloqu belə xarici təzahürlər deyil, onların arxasında gizlənən psixi proseslər, kefiyyətlər, vəziyyətlər maraqlandırır.

Müşahidə metodunun **tam** və **seçmə** olmaqla iki əsas növü fərqləndirilir. Tam müşahidə eyni vaxtda uşağın davranışını bir çox cəhətdən izləməyi nəzərdə tutur və o, əsasən uzun müddətli olur. Bu, bir və ya bir neçə uşaq üzərində aparıla bilər. Əlbəttə, tam müşahidə zamanı bir neçə uşağı bir çox cəhətdən öyrənmək, müşahidə etmək çox çətindir. Odur ki, tam müşahidə zamanı tədqiqatçı əsasən daha mühüm, əhəmiyyətli, xüsusilə uşaqda yeni keyfiyyət və təzahürləri əks etdirən faktları qeydə almalıdır.

Tam müşahidənin nəticələri gündəlik qeydlər şəklində yazılır və bu faktlardan uşağın psixi inkişafının qanunauyğunluqlarının aşkar edilməsində istifadə olunur.

Bir sıra böyük psixoloqlar öz uşaqları üzərində apardıqları müşahidələr əsasında belə gündəliklər tərtib etmişlər. Müşahidə vasitəsilə uşaqların inkişaf xüsusiyyətlərini öyrənən ilk tədqiqatçılardan biri ingilis alimi **Ç.Darvin** (1809-1882) olmuşdur. O, müəyyən etmişdir ki, 45-46 günlük körpədə təbəssüm, 5 aylıqda isə yaşlıya bağlılıq müşahidə olunur. Alman psixoloqu **V.Ştern** (1871-1938) arvadı **K.Şternlə** birlikdə apardığı müşahidə vasitəsilə uşağın psixi inkişafına təsir göstərən səbəbləri aydınlaşdırmaq üçün öz fərziyyələrinin doğruluğunu sübut etməyə nail olmuş və **«Erkən uşaqlığın**

**psixologiyası»** (1914)adlı əsər yazmışdır. Məşhur İsveçrə psixoloqu **J.Piaje** (1896-1980) erkən uşaqlıq dövründə əqli inkişafın mərhələlərini öyrənmək üçün öz nəvələri üzərində müşahidələr aparmışdır. Rus zoopsixoloqu N.N. Ladıgina- Kots (1889-1963) İoni adlı körpə şimpanze balası və oğlu Rudolf üzərində dörd il sistemli müşahidələr aparmaqla insan və heyvan balasının inkişaf xüsusiyyətlərinin müqayisəli təhlilini vermişdir. **Seçmə müşahidə** tam müşahidədən fərqli cəhətlərə malikdir. Bu müşahidə növü uşağın psixikasının, onun davranışının konkret bir cəhətini izləməyə yönəldiyi üçün məhz seçmə müşahidə adlandırılır. Bu cür müşahidə prosesində müəyyən konkret zaman kəsiyi ərzində, məsələn, yalnız oyun, yalnız qidalanma zamanı uşağın psixi fəaliyyəti müşahidə obyekti kimi götürülür. Seçmə müşahidənin klassik nümunəsi kimi təkamül nəzəriyyəsinin banisi, ingilis təbiətşünas alimi Ç.Darvinin öz oğlu üzərində emosiyaların ifadəsini öyrənmək məqsədilə apardığı müşahidəni göstərmək olar. Bu müşahidədən əldə etdiyi faktları ümumiləşdirən alim **«İnsanlarda və heyvanlarda emosiyaların ifadəsi» (1872)** adlı əsərini yazmışdır. Bu metoddan istifadə edən digər rus dilçi alimi A.N. Qvozdyeva öz oğlu üzərində səkkiz il nitq təzahürlərini müşahidə etməklə, «Uşaqda rus dilinin qrammatik quruluşunun formalaşması» (1949) əsərini qələmə almışdır.

Məşhur uşaq psixoloqu D.B.Elkonin (1904-1984) uşaqda əşyavi fəaliyytin formalaşması prosesini öyrənmək üçün öz nəvəsi üzərində davamlı müşahidələr aparmışdır. Azərbaycan psixoloqu, professor Z.M.Mehdizadənin nəvəsi zəfər üzərindəki müşahidə faktları da maraq doğurur.

Uşaq psixologiyasında bəzən tədqiqatın məqsədi və xarakterindən asılı olaraq müşahidə metodunun xüsusi forması olan **kamera müşahidəsi** adlanan metoddan da istifadə olunur. Bu metodun mahiyyəti elə onun adında ifadə olunmuşdur. Kamera müşahidəsi bir tədqiqat metodu kimi ilk dəfə Amerikan psixoloqu Arnold Gezell tərəfindn ötən əsrin 20-ci illərində tətbiq olunmuşdur. Ona görə də bu metodun tətbiqi zamanı istifadə olunan xüsusi

şüşə «Gezell güzgüsü» adlanır. Psixoloq 3 yaşınadək olan uşaqlar üzərində apardığı müşahidələr zamanı foto və kino çəkilişlərindən də istifadə etmişdir. Müşahidənin bu forması xüsusi kamerada aparılır. Məqsəd ondan ibarətdir ki, uşaqlar onların üzərində müşahidə aparıldığını hiss etməsin. Bu metod vasitəsilə xüsusi otağın başqa otaqla ortaq olan divarında əvvəlcədən elə bir şüşə yerləşdirilir ki, onun uşağın olduğu otaqdakı tərəfi güzgü, tədqiqatçıya tərəf olan üzü isə adi şüşədir. Tədqiqatçı uşağın təbii davranışını çox sərbəst izləmək imkanı əldə etmiş olur. Müşahidə metodu ilə əldə edilən nəticələrin obyektivliyi, etibarlığı və səmərəsi müşahidəçinin ixtisas səviyyəsindən və məqsədin aydın qoyuluşundan asılıdır. Uşağın psixikasının öyrənilməsində istifadə olunan **«ana gündəlikləri»** adlanan spesifik metod böyük elmi faktlar mənbəyidir. Bir sıra psixoloqlar öz övladları və ya nəvələri üzərində bu tədqiqat metodundan istifadə etməklə, maraqlı faktlar əldə etmişlər. Rus psixoloqları N.A. Mençinskaya oğlu Saşanın, Lodıgina- Kot isə oğlu Rudolfun üzərində apardıqları təcrübələrdə bu tədqiqat metoduna geniş yer vermişlər. Psixologiya elmləri doktoru, professor V.S.Muxina da bu metoddan istifadə etmiş onun vasitəsilə əldə etdiyi tədqiqat materiallarını ümumiləşdirərək «Ananın gündəliyi: Birinci sinif şagirdləri» (1977) adlı dəyərli əsərini yazmışdır. Sistematik aparılan qeydlərə əsaslanan «ana gündəlikləri» metodu uşağın psixi inkişaf tarixi haqqında qiymətli materiallar əldə etməyə imkan verir. Ayrı-ayrı psixi proseslərin təşəkkülü, psixi keyfiyyətlərin təzahürləri haqqında ana gündəlikləri vasitəsilə əldə edilən faktlar uşağın psixi inkişafının tam mənzərəsi haqqında zəngin məlumat mənbəyidir.

Uşaq psixologiyasında tətbiq olunan metodlar sırarasında **psixo-genetik metodlar** da əhəmiyyətli yer tutur. Bu metod fərdin bu və ya digər psixi funksiyalarının formalaşmasında irsi amillərin və mühitin nə dərəcədə təsirli olduğunu öyrənmək məqsədilə tətbiq olunur. Psixogenetik metodlar sırasında özünün daha çox informasiya tutumu ilə seçiləni **əkizlər metodu-dur.** Bu metod monoziqot əkizlərin (hər ikisi oğlan və ya hər ikisi qız) identik,

genotip olmasına, diziqot əkizlərin (biri oğlan, biri qız) isə qeyri identik olması prinsipinə əsaslanır. İstənilən tip əkiz cütlər eyni tərbiyə mühitində olmalıdırlar.

Əkizlər metoduna görə, monoziqot əkizlərin diziqot əkizlərə nəzərən daha çox **cütdaxili oxşarlığı** onlarda öyrənilən əlamətin irsiyyətdən asılılıq dərəcəsi haqqında məlumat əldə etməyə imkan yaradır. Əkizlər metodu əkiz cütlərin üzərində müşahidələrə, həmçinin ata və ana xətti ilə qohumluq əlaqələrinin tarixinə, daha geniş şəkildə qan qohumluğunun müəyyən edilməsinə, bu nəsillərin hansında əkizlərin doğulub- doğulmaması hallarının araşdırılmasına istinad edir. Fransız psixoloqu **R. Zazzo** menoziqot əkizlər cütü üzərində uzun illər boyu tədqiqatlar apararaq onlarda sosial mühitin təsiri ilə şəxsiyyət sferasında yaranan fərqlərin araşdırılmasına nail olmuşdur.

Uşaq psixologiyasının metodları sırasında əhəmiyyətli bir metod kimi **söhbət (sorğu) metodu** özünəməxsus yer tutur. Bu metod tədqiqat zamanı uşaqla verbal (sözlü) kommunikasiyaya əsaslanır və uşaq psixologiyası ilə yanaşı, sosial, pedaqoji, hüquq, tibbi və s. kimi elm sahələrində də geniş tətbiq olunur. O, müsahiblə sıx qarşılıqlı şəxsi əlaqəyə əsaslanır. Söhbət metodu məktəbəqədər yaşlı uşaqların psixikasının öyrənilməsində faydalı metodlardan biri hesab olunsa da, o, məhdud səviyyədə həyata keçirilir. Belə ki, dörd yaşdan aşağı uşaqlarla bu metod əsasında tədqiqat apararkən onların lüğət fondunun məhdud olduğunu, təfəkkürü və qavrayışının xüsusiyyətlərini nəzərə alaraq, söhbəti konkret obyektlər və ya onların obrazları üzərində aparmaq lazımdır. Bu baxımdan şəkil üzrə sorğu aparmaq məqsədəuyğundur. Məsələn, «Böyük toplar haradadır?» «Kiçik toplar haradadır?» «Hansı toplar daha çoxdur?» «Göy rəngli topları göstər» və s. Söhbət metodu vasitəsilə uşaqların əşyalar, hadisələr, insanlar və onların fəaliyyəti, uşağın özü haqqında bilik və təsəvvürlərinin səviyəsini öyrənmək mümkündür. Uşaqlarla söhbət üçün sualların düzgün seçilməsi tədqiqatçıdan xüsusi məharət tələb edir. Verilən suallar uşaq üçün maraqlı və anlaşıqlı olmalıdır, uşağı cəlb etməli və onun söhbətə qoşulmasını motivləşdirməlidir.

Suallar uşağın «hə» və ya «yox» cavabı ilə məhdudlaşmamalıdır. Uşağa veriləcək hər hansı sual tədqiqatçı tərəfindən irəlicədən müəyyən edilməli, hər bir uşağın fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmalıdır. Tədqiqat zamanı uşağın verəcəyi cavablar, onun mühakimləri yalnız sualın xarakterindən deyil, həm də onun tədqiqatçıya münasibətindən asılıdır. Tədqiqatçının məharəti, səmimi olması uşaqla aparılaraq söhbətin müvəffəqiyyətini şərtləndirən əsas amillər hesab edilir. Söhbət metodunun xüsusi forması olan **kliniki söhbətlər** (yunanca klinike- xəstəyə qulluq) metodu patsientin yalnız fikirlərini, hisslərini, lüğət fondunu, arzu və ideyalarını deyil, həm də onun gizli davranış motivlərini və s. öyrənməyə xidmət edir. Bu metod söhbət metodunun nisbətən sərbəst formasıdır, çünki bu zaman davranış reaksiyaları heç də nəzərə alınmır.

Bu metod məşhur İsveçrə psixoloqu J.Piaje tərəfindən işlənilmişdir. Kliniki söhbət metodu öz mahiyyəti etibarı ilə söhbətlə eksperimentin uzlaşdırılmasıdır. Onun tətbiqi zamanı uşağa xüsusi seçilmiş məsələlər və onların cavabları təqdim olunur. Məsələn, uşağa gil komacığı və həmin ölçüdə və formada fiqur düzəltmək tapşırığı verilir. Bundan sonra eksperimenti aparan şəxs gil komacığının formasını dəyişir və ya onları bir neçə hissəyə bölərək uşaqdan bu hissələrin həcm və çəkicə əvvəlki fiqurla eyni olub olmadığını soruşur. Bu metodun psixiatrların tətbiq etdiyi metoda oxşar olduğunu nəzərə alan J.Piaje onu kliniki söhbət metodu adlandırırdı. Kliniki söhbət metodunun tətbiqi bir sıra çətinliklərlə və bəzən təhlükəli olması isə səciyyələnir.

Kliniki söhbətlər metodunun səmərəliliyi psixoloqla söhbətin iştirakçıları arasında səmimi şəxsi qarşılıqlı münasibətlərdən əhəmiyyətli şəkildə asılıdır. Bu isə tədqiqatçıdan səbr, dözümlülük, patsientin maraqlarına ehtiyatla yanaşmağı tələb edir.

Söhbət metodunun səmərəliliyinin təmin edilməsi üçün bir sıra tələblərin yerinə yetirilməsi zəruridir:

1. Söhbət zamanı uşağa verilən suallar tədqiqatın mövzusuna uyğun olmalıdır.
2. Suallar əvvəlcədən düşünülməli, qısa, konkret və anlaşıqlı olmalıdır.
3. Tədqiqatçı ilə uşaq arasında elə qarşılıqlı münasibətlər yaradılmalıdır ki, alınacaq cavabların səmimiliyi şübhə doğurmasın.
4. Söhbətin nəticələri dəqiq şəkildə qeydə alınmalıdır.

Son illər uşaq psixologiyasında geniş tətbiq olunan metodlardan biri də **diaqnostik sorğu** (yunanca dioqnosis- müəyyən edən) metodudur. Bu metod daha geniş şəkildə tibbi psixologiyanın sahələrindən biri olan psixoterapiyada istifadə olunsa da, onun uşaq psixologiasında tətbiqi imkanları artmaqdadır. O, uşaqların psixodioqnostik imkanlarının- psixi funksiya, proses, xassə və keyfiyyətlərinin ölçülüb inkişaf səviyyəsini qiymətləndirmək məqsədinə xidmət edir.

Uşaq psixologiyasında tətbiq olunan emprik metodlardan biri də **anket sorğusudur.** Bu metodu sosiometrik metod da adlandırırlar. Anket sorğusu statistik materialların toplanmasına xidmət edir. Uşaqlarla keçirilən anket sorğusu zamanı onlara sevimli oyuncaqları, məşğuliyyəti, keçmiş xatirələri haqqında və s. suallara cavab vermək təklif olunur. Anket metodu vasitəsilə hər bir uşağın qrupda, yaşıdları arasında mövqeyi, onlar arasında qarşılıqlı münasibətlərin xarakteri öyrənilir və qiymətləndirilir. Məktəbdə sinif kollektivlərində uşaqlar arasında sosial münasibətləri öyrənmək üçün onlara «Sən kiminlə dostluq edirsən?», «Sən kiminlə bir partada oturmaq istərdin?», «Ad gününə kimi dəvət edərdin?» və s. kimi suallarla müraciət olunur. Qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaq qruplarında belə suallar münasib deyildir. Çünki, onların münasibətlər sistemi kifayət qədər formalaşmadığı üçün sabit deyil, situativ xarakterli olur. Bağça yaşlı uşaq qruplarında sosiometrik metodun tətbiqi başqa metodika üzrə aparılır. Uşaqlar yaşıdları qrupunda bir-bir soyunma otağına dəvət olunaraq onlara üç əşya (oyuncaq, şəkillər və s.) verir və bu əşyalardan onun daha çox hansı, sonra hansı

xoşuna gəldiyi, hansı isə xoşuna gəlmədiyi soruşulur. Bundan sonra uşağa bu əşyaları müvafiq olaraq yaşıdları qrupundakı uşaqların şkafına qoymaq tapşırılır. Bu qayda ilə uşaqların daxil olduğu qrup yoldaşlarına payladığı hədiyyələr vasitəsilə onların hər birinin **reytinqi** müəyyənləşdirilir. Ən çox qiymətli hədiyyə alanlar, az hədiyyə alanlar və heç bir simpatiyaya malik olmayanlar hədiyyələr sayılmaqla müəyyənləşdirilir. Bu əsasda sosioqramma tərtib olunur, uşaqlar arasındakı qarşılıqlı münasibətlər, onların xarakteri aydınlaşdırılır.

Uşaq psixologiyasında istifadə olunan emprik metodlardan biri də fəaliyyət məhsullarının öyrənilməsidir. Bu metod birbaşa uşağın psixi fəaliyyətinə deyil, onun nəticələrinə yönəldilmişdir. Ona görə də, onu bəzən fikri fəaliyyət məhsulları əsasında psixi xüsusiyyətlərin öyrənilmsi metodu da adlandırırlır. Uşaq fəaliyyətinin məhsulları olan uşaq rəsmləri, onların hazırladıqları oyuncaqlar, fiqurlar tədqiqatçı üçün psixi inkişafının səviyyəsi haqqında məlumat mənbəyidir. Uşaqların **quraşdırma, yanma, applikasiya, təsviri fəaliyyət** kimi fəaliyyət növləri onların həm də əqli inkişaf səviyyəsi haqqında informasiya əldə etməyə imkan yaradır. Müəyyən edilmişdir ki, əqli cəhətdən qüsurlu olan uşaqların çəkdiyi şəkillər özlərinin primitiv məzmunu, anlaşılmazlığı cızma-qara olması ilə seçilir. Bu metod vasitəsilə əldə edilən psixi faktlar o halda daha etibarlı hesab edilə bilər ki, onların yaradılması zamanı uşağın fəaliyyəti müşahidə edilsin. Uşağın fikri fəaliyyət məhsullarının öyrənilməsi metodunun tətbiqi zamanı bir sıra tələbləri nəzərə almaq lazım gəlir:

1. Uşağın fikri fəaliyyət məhsulu onun üçün xarakterik, tipik nəticədir, yoxsa, təsadüfi bir haldır?

2. Uşağın psixi fəaliyyəti hansı şəraitdə baş vermişdir? Ona kömək olmuşdur, yoxsa nəticə tam müstəqil şəkildə əldə edilmişdir?

3. Nəticə uşağın bir fəaliyyəti və yalnız bir fəaliyyət məhsuluna görə deyil, bir neçə analoji fəaliyyətinin nəticəsinə görə çıxarılmalıdır.

**Eksperiment metodu** uşaq psixologiyasının metodları sistemində əhəmiyətli yer tutur. O, özünün diaqnostik əhəmiyyətinə, nəticələrinin bir sıra digər metodlara nəzərən daha etibarlı olmasına görə fərqlənir. Müşahidə metodundan fərqli olaraq, eksperiment metodu uşaq psixologiyasının daha mürəkkəb təzahürlərini öyrənmək baxımından daha aktiv metod hesab edilə bilər. Psixoloji eksperiment tədqiqatçıya uşağın fəaliyyətini daha dərindən tədqiq etməyə, izləməyə tədqiqat şəraitini dəyişdirməyə imkan verir. Eksperimentin tətbiqi ilə uşaqlarda əməliyyatlar, obrazlar və sözlər vasitəsilə düşünmək və s. bacarıqlarının səviyyəsi öyrənmək mümkündür. Kiçik məktəb yaşlı uşaqlarda təfəkkür əməliyyatlarının inkişaf səviyyəsini müəyyən etmək üçün keçirilən, eksperimentlərdən birinə nəzər yetirək:

**Kənar əşyaların tapılması.**

Bu eksperiment vasitəsilə uşaqlarda ümumiləşdirmə bacarıqlarının səviyyəsi öyrənilir. Eksperiment üzrə iş zamanı hər birində dörd əşya çəkilmiş kartoçkalar dəsti tələb olunur. Bunlar ən sadə və ən çətin olmaqla mürəkkəblik dərəcəsinə görə fərqli ola bilər.

Uşağın qarşısına artan çətinlik prinsipi ilə düzülmüş kartoçkalar qoyulur. Təlimat ən sadə kartoçka üzərində verilir: «Bax, burada, hər bir kartoçkada dörd şəkil çəkilib. Onlardan üçü oxşardır və onları bir adla adlandırmaq olar. Dördüncü isə, onlarla uyğun gəlmir. Uyğun gələn üç əşyanın hansı bir sözlə ifadə etmək olar?» Bundan sonra təcrübəçi uşaqla birgə birinci kartoçkanı nəzərdən keçirir. Oradakı üç əşyanı eyni sözlə ifadə etməkdə ona kömək göstərir. Protokolda kartoçkanın nömrəsinin qarşısında, uşağın təcrid etmək istədiyi əşyanın adını, digər sütunda isə qalan üç əşyanın ifadə etdiyi söz yazılır. Əgər uşağın cavabı doğru deyilsə, təcrübəçi yönəldici sual verir, həm sual, həm də uşağın cavabı protokolda qeyd olunur. Uşaq kartoçkada təsvir olunmuş dörd əşyadan üçünü ümumiləşdirərək, sintez edərək onlarla uyğun olmayan əşyanı kənarlaşdırmalıdır.

Fikri dağınıq, əqli cəhətdən qüsurlu olan uşaqlar bu təlimatı anlaya bilmir və tapşırığı icra etməyi bacarmırlar. Normal əqli inkişafa malik olan uşaqlar ilk kortoçkadakı sadə məsələləri həll etsə də, sonrakı mürəkkəb məsələlərin həllində çətinlik çəkirlər.

Bu kartoçkaların birində, məsələn, tərəzi, saat, termometr və güzgü şəkli çəkilib. Uşaq tərəzi, saat və termometri ümumiləşdirərək bir anlayışla- «ölçü cihazları» kimi qeyd etməli, güzgünü isə kənar əşya kimi fərqləndirməyi bacarmalıdır. Belə əşya təsvirləri olan dəsti müxtəlif çətinlik dərəcəsində tərtib etmək olar.

Tədqiqatın məqsədindən asılı olaraq bəzən psixoloji eksperimenlər laboratoriya şəraitində xüsusi aparatların köməyi ilə aparılır. Bu cür eksperiment **laboratoriya** eksperimenti adlanır. Məsələn, uşaqlarda görmə qavrayışının səviyyəsini öyrənərkən gözün hərəkətini qeydə almaq üçün xüsusi cihazdan istifadə olunur. Uşaqlarda emosiyaların xüsusiyyətlərini öyrənərkən ürək döyüntülərini, tənəffüsün miqdarını ölçmək məqsədilə tibbi cihazlardan istifadə edilir. Son illər uşaq psixologiyasında uşağın davranışının ümumi xüsusiyyətlərini öyrənmək üçün **videokameralardan, fotoaparatlardan** da istifadə olunmaqdadır. Bu metod uşağın bu və ya digər psixi proseslərinin fizioloji mexanizmlərini, ayrı-ayrı idrak proseslərini, psixi vəziyyətlərini, xüsusən duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür kimi proseslərin öyrənilməsində tətbiq olunur. Məsələn, uşağın qavrayışının surəti, diqqətinin həcmi, hafizədə assosiasiyaların yaranması öyrənilərkən sadə və ya elektron tipli **taxistoskop** adlı cihazdan istifadə olunur.

Psixoloji eksperiment diaqnostik dəyərə malik tədqiqat metodlarından biridir. Bəzən eksperimentlərin aparılması zamanı uşaqlar texniki cihazlardan qorxduqlarına görə onlarla eksperimentləri maraqlı oyunlar, cəlbedici əyləncələr və fəaliyyət növləri , məsələn təsviri fəaliyyət quraşdırma və s. kimi məşğələlərin gedişində aparmaq lazımdır. Məktəbəqədər yaşlı uşaqlarla aparılan eksperimentlər vasitəsilə ümumiləşdirmə bacarıqlarının səviyyəsi öyrənilmişdir. Uşaqlara üzərində heyvanlar, maşınlar, mebel və oyuncaqlar təsvir olunmuş kartoçkalar verilmişdir. Eksperiment zamanı uşaqların bu əşyaları hansı əlamətlər əsasında qruplaşdırmaları və ümumiləşdirmə zamanı hansı əməliyyatlara istinad etdikləri öyrənilmişdir. Bu cür eksperimentlər təbii şəraitdə aparıldığına görə, ona **təbii eksperiment** deyilir. Həm təbii, həm də laboratoriya eksperimentinin **yoxlayıcı** və **öyrədici** olmaqla iki əsas növü fərqləndirilir. Uşaq psixologiyasında geniş tətbiq olunan eksperimentin xüsusi növü öyrədici eksperiment adlanır. Öyrədici eksperiment bu və ya digər psixi xüsusiyyətlərin tədqiqatçı tərəfindən sınanılan şəxsə fəal təsirlər vasitəsilə

formalaşması vəziyyətini öyrənməyə xidmət edir. Bu eksperiment vasitəsilə əldə edilən nəticələr qiymətli psixoloji faktlar olub, psixi xüsusiyyətlərin müvəffəqiyyətlə inkişaf etməsini şərtləndirən amilləri müəyyən etməyə imkan verir. Uşaq psixologiyasında öyrədici eksperiment uşağın şəxsiyyətinin formalaşdırılmasının səmərəli yollarını müəyyən etmək məqsədilə tətbiq olunur. Öyrədici eksperimentdən fərqli olaraq yoxlayıcı eksperiment tədqiqatın başlanmasından psixi inkişafın bu və ya digər xüsusiyyətinin hansı səviyyədə olduğunu öyrənməyə xidmət edir. Adətən yoxlayıcı eksperiment həm öyrədici eksperimentdən əvvəl, həm də ondan sonra aparılır. Tədqiqatdan əvvəlki və sonrakı vəziyyət əldə edilən nəticələrin müqayisəsi əsasında çıxarılır, öyrədici eksperimentin fərziyyəsinin doğru olub-olmadığı müəyyənləşdirilir.

Məsələn, uşaq bağçasının birində belə bir xüsusi öyrədici eksperiment aparılmışdır.

Biryumurtalı əkiz oğlan cütlərində nitqin inkişaf səviyyəsi yoxlayıcı eksperiment vasitəsilə öyrənilərək onlar ayrı-ayrı qruplarda yerləşdirilmişlər. Əkizlərin nitqi daha zəif olan birinə öyrədici eksperiment tətbiq olunaraq onunla nitq inkişafı üzrə xüsusi məşğələlər keçirilmişdir. Müəyyən müddətdən sonra əkizlərin hər ikisi yoxlayıcı yoxlayıcı eksperimentdən keçirilmiş və müəyyən olmuşdur ki, öyrədici eksperimentlə sistematik nitq inkişafı keçən əkizdə verbal ünsiyyət imkanları daha da genişlənərək yüksək olmuşdur.

Uşaq psixologiyasının tədqiqat metodlarından biri də **testlər** metodudur. Test ingilis sözü (test) olub, «təcrübə», «sınaq» deməkdir. Xüsusi seçilmiş, qısamüddətli tapşırıqlar sistemi olan testlər diaqnostik dəyərlərə malikdir. Test anlayışı ilk dəfə amerikan psixoloqu F.Halton tərəfindən işlədilmiş, sonralar D.Kettelin tədqiqatlarında geniş tətbiq olunmuşdur. Fransız psixoloqu A.Bine XX əsrn əvvəllərində test formalı yeni **sintetik eksperiment metodunu** tətbiq etmişdir. Bu dövrdə rus alimi Q.İ.Rossolimo psixoloji testlər tərtib etməklə, insanın diqqət, hafizə, təfəkkür və s. kimi on bir psixi funksiyasını öyrənməyə imkan verən 10 test nümunəsi hazırlamışdı.

Test tapşırıqlarının yoxlanılmasın və tərtibində yaş normalarının nəzərə alınması olduqca vacibdir. Bu, testin **standartlaşdırılması** adlanır. Müxtəlif

yaşlı uşaq qruplarında bu yaş qrupları üçün müvafiq olan, yaş normalarına uyğunlaşdırılmış testlərdən geniş istifadə olunur. Uşaq psixologiyasında uşaqların ümumi intellektual inkişaf səviyyəsinin müəyyənləşdirilməsində intellektual testlər xüsusilə geniş tətbiq olunur. Belə testlər uşaqlara naməlum olan tapşırıqlardın ibarət olub onlarda müxtəlif əqli əməliyyatların gedişinə, bu prosesdə uşağın icra etdiyi əməliyyatların xarakterinə bələd olmağa imkan verir. Uşaqların **psixodioqnostikasında** adətən yaşlılar üçün olan analoji testlərin sadə və uyğunlaşdırılmış variantlarından geniş istifadə olunur. Bu testlərə nümunə olaraq Kettel və Veksler testlərinin uşaqlar üçün variantlarını sosiometrik testin müxtəlif formalarını göstərmək olar. Uşaqlar arasında testləşdirmənin keçirilməsi yalnız o halda uğurlu nəticələr verə bilər ki, onların test tapşırıqlarının icrasına yönəldilməsi uşaqlar üçün cəlbedici olan üsullarla stimullaşdırılsın.

Məktəb yaşlı uşaqlarla keçirilən testlər vasttəsilə onların intellektual imkanlarını və şəxsi kefiyyətlərini ölçmək kəmiyyət və keyfiyyət baxımından qiymətləndirmək mümkündür.Belə testlərə müvəffəqiyyət və istedad testlərni misal göstərmək olar.Nümunə olaraq belə testlərdən bir nümunəyə diqqət yetirək.

Kiçik yaşlı məktəblilərdə **sözlü- məntiqi təfəkkürün** inkişaf səviyyəsinin diaqnostikası

I subtest (xəbərdar olma)

1. İlin ayları…(sentyabr, oktyabr, fevral, noyabr, mart)
2. Bir ildə var (24 ay, 3 ay, 12 ay, 4 ay, 7 ay)
3. Ata oğlundan böyükdür (adətən, həmişə, nadir hallarda, bəzən, heç vaxt)
4. Ağacın həmişə var…(yarpaqları, çiçəkləri, meyvələri, kökü, kölgəsi)
5. Sərnişin nəqliyyatı…( kombayn, avtobus, ekskovator, teplovoz, raket)

II subtest (təsnifat və anlayışların formalaşması)

Bir söz artıqdır uyğun gəlmir.

1. Zanbaq, nərgiz, lobya, çobanyastığı, bönövşə.
2. Çay, göl, dəniz, körpü, gölməçə
3. Kukla, çaxçax, qum, top, fırfıra

4. Stol, xalça, kreslo, çarpayı, kətil
5. Ağcaqayın, cökə,şam, alma, tozağacı
6. Toyuq, xoruz, qartal, qaz, hinduşka
7. Dairə, üçbucaq, dördbucaq, kub, kvadrat
8. Adil, Gəray, Vüqar, Zeynəb, Samir
9. Ədəd, bölmə, vurma, çıxma, toplama
10. Şən, qəmgin, dadlı, ehtiyatlı, sakit

Bu testin qiymətləndirilməsi zamanı doğru cavablara görə 1 bal, səhv cavablara görə 0 bal hesablanır. Testin yerinə yetirilməsi nəticələrinə görə 12-15 bal yüksək, 6-11 bal orta, 0-6 bal isə aşağı göstərici hesab edilir.

Bir çox elmlərdə olduğu kimi, uşaq psixologiyasının metodları sistemində də əldə edilmiş faktların işlənməsi,təhlili və irəli sürülmüş fərziyyənin doğruluğunun yoxlanılması üçün psixi faktların riyazi təhlili metodundan istifadə olunur.Aydındır ki,əldə edilmiş faktlar öz-özlüyündə hələlik heç bir ümumiləşdirmə üçün əsas vermir.Odur ki,psixoloji tədqiqatların sonunda müxtəlif metodlar vasitəsilə əldə edilmiş faktların kəmiyyət və keyfiyyət baxımından təhlili üçün **riyazi-statistik təhlil** metodundan istifadə etmək lazım gəlir.Məsələn,əgər şagirdlər tərəfindən anlayışların mənimsənilməsi xüsusiyyətlərini öyrənərkən keyfiyyət göstəriciləri əsas götürülərsə, bu göstəricilərin nə dərəcədə obyektiv və tipik olduğunu sübuta yetirmək üçün kəmiyyət göstəricilərindən istifadə etmək lazım gəlir.

Bu baxımdan uşaq psixologiyasında psixi faktların riyazi təhlili üçün **alternativ,korrelyativ** və **variativ** təhlili adlanan riyazi metodlardan istifadə olunur.Riyazi-statistik təhlil metodu vasitəsilə əldə edilmiş nəticələr müxtəlif cədvəllərdə,qrafik və diaqramlarda,faiz göstəricilərində rəqəmlərlə əks olunur.

### Suallar və tapşırıqlar:

1. «Tədqiqat metodu» anlayışı nəyi əks etdirir?
2. Uşaq psixologiyasının başlıca tədqiqat metodları hansılardır?
3. Uşaq psixologiyasında müşahidə metodunun hansı variantlarından istifadə olunur?

4. Eksperiment metodunun üstünlükləri nədən ibarətdir?
5. Uşaq psixologiyasında tədbiq olunan tədqiqat metodları başlıca olaraq neçə qrupa ayrılır? Onların təsnifatını verin.
6. «Kliniki söhbətlər» metodunun mahiyyətini izah edin.
7. «Testlər» metodunun hansı variantları vardır?
8. Riyazi- statistik təhlil metodunun mahiyyəti nədən ibarətdir?
9. Müşahidə metodunun tətbiqinə verilən əsas tələblər hansılardır?

## I.3. Uşaq psixologiyasının inkişafının qısa tarixi xülasəsi.

Uşaq psixologiyasının müstəqil bir elm sahəsinə çevrilməsi uzunmüddətli bir proses olmuşdur. Dünya mədəniyyətinin və fəlsəfi fikrinin mütərəqqi nümayəndələri həmişə uşağın psixikasının təbiətinə, onun təlimi və tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirmişlər. Uşağın doğulması, böyüməsi kimi təbii -bioloji hadisələrlə yanaşı, onun əqlinin, şüurunun, dünyagörüşü və əxlaqının formalaşdırılması çox qədim dövrlərdən etibarən yaşlıları düşündürən bir problem kimi dəqqəti cəlb edir. Qədim Şumer, Çin, Misir,Hind, Yunan yazılı abidələrində, dünya xalqlarının folklorunda uşaqların həyatı, onların təlimi, tərbiyəsi və inkişafı haqqında qiymətli fikirlərə rast gəlmək mümkündür.

Təlim və tərbiyə məsələləri ilə əlaqədar uşaq psixikasının xüsusiyyətlərinə maraq yeni dövrün qabaqcıl elmi- pedaqoji fikrində mühüm yer tutmağa başlamışdı.

XVII əsrdən başlayaraq dünya pedaqoji fikrində mütərəqqi ideyalar genişlənməyə başlayır. Böyük çex pedaqoq humanisti **Y.A.Komenskinin (1592-1670**) didaktik görüşləri sistemində yaş dövrləri, uşağın inkişafının xüsusiyyətləri, dərketmə fəaliyyətinin yaş xüsusiyyətlərindən asılılığı və s. haqqında qiymətli ideyalar diqqəti cəlb edir. Onun «Ana qucağı məktəbi» adlı əsəri məhz uşaq aləminə, onun xüsusiyyətlərinə aid olması baxımından uşaq

psixologiyası haqqında yazılmış çox dəyərli elmi əsər kimi qiymətləndirilə bilər. XVIII əsrdə Rusiyada V.N.Tatişev (1686-1750), N.İ.Novokov (1744-1818) A.N. Radişev (1749-1802) və başqa mütəfəkkirlərin əsərlərində psixikanın inkişaf xüsusiyyətləri, uşaq psixikasının yaşlı adamın psixikasından əsaslı şəkildə fərqli cəhətlərə malik olması haqqında fikirlərə rast gəlmək mümkündür. Rus demokrat- humanisti A.N.Radişev uşaqların psixikasının inkişafını təbii-elmi cəhətdən əsaslandırmağa cəhd göstərmişdir. O, belə hesab edirdi ki, uşağın psixikası bədənin maddi orqanlarının, sinirlərin və beyinin funksiyasıdır, onların inkişafı psixikanı formalaşdırır.

Uşaq psixologiyasının inkişafnda böyük xidmətləri olan və zəngin irs qoyub getmiş dünya şöhrətli rus pedaqoq və psixoloqu **K.D.Uşinskidir. (1824-1871).** Onun tədqiqatlarının böyük bir hissəsi uşağın psixikasının öyrənilməsinə həsr edilmişdir. K.D.Uşinsçki insanın bitkin psixoloji konsepsiyasını yaratmağa cəhd göstərmiş, təlim fəaliyyətində hafizə, diqqət, nitq, təfəkkür, hisslər və digər psixi proseslərin əhəmiyyətini elmi cəhətdən əsaslandırmışdır. Onun əsərlərində ana dilinin şüurlu mənimsənilməsinin zəruriliyi, nitqlə təfəkkürün bir-birilə ayrılmaz surətdə bağlı olan vahid bir proses olması fikri diqqəti xüsusi olaraq gəlb edir. Çoxcəhətli **vərdiş** və **adətlərin** fundamental əsaslarını yarımreflekslərdə görən Uşinski onların təlim və tərbiyə prosesində əhəmiyyətinə geniş yer verirdi. O, adətləri **«mənimsənilmiş refleks»** adlandırılmış və qeyd etmişdir ki, xeyirli adətlər insanın özünün öz sinir sisteminə qoyduğu mənəvi kapitaldır. Dahi pedaqoq olan Uşinski qabaqcıl pedaqogikanın vəzifəsini mexaniki, sxolastik təlimi aradan qaldırmaqda, fiziki, mənəvi və əqli inkişafı təbii- elmi əsaslar üzərində qurmaqda görürdü.

Uşaq psixologiyası sahəsində yazılmış ilk əsər alman fizioloqu **V.Preyerin (1841-1897)** 1881-ci ildə yazdığı **«Uşağın ruhu»** adlı əsəridir. O, bu əsəri ilə uşaqların psixi inkişafının öyrənilməsi sahəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Preyer bu əsəri yazmaq üçün uşağın

inkişafı üzərində çoxillik müşahidələr aparmış, uşaq ruhunun inkişafı haqqında ənənəvi emprik- assosiativ baxışlara son qoymuş və qeyd etmişdir ki, uşağın ruhu heç də şəxsi təcrübə vasitəsilə üzərinə hər şey yazmaq mümkün olan «ağ lövhə» deyildir. O, özünün bu kitabını **«uşaq ruhunun heroqlifləri»** nə açar axtarmaq cəhdi adlandırmışdı. V.Preyerdən sonra uşağın psixikası üzərində sistematik müşahidələr aparmaq təşəbbüsləri genişlənməyə başladı. XIX əsrin 80-cı illərindən etibarən rus nevroloqu **V.M.Bexterev (1857-1927)** özünün Petya adlı yaş yarımlıq oğlu üzərində müşahidələr aparmış və emosional reaksiyaların siyahısını tərtib etmişdi. ABŞ-da təhsil sisteminin yenidən qurulması sahəsində tədqiqatların genişləndiyi XIX əsrin sonu, XX əsrin əvvəllərində alman psixoloqu **V.Vundun (1832-1920)** ilk amerikalı tələbəsi **S.Xoll (1846-1924)** öz ölkəsində uşaq psixologiyası sahəsində tədqiqatlara başladı. Eksperimental metodikalar əsasında çoxlu tədqiqat materialları toplayan C.Xoll 1904-cü ildə özünün **«Gənclik»** adlı əsərini yazır. Uşaqlar haqqında vaxtilə psixologiya, fiziologiya və pedaqogika elmlərini birləşdirən xüsusi elm olan pedologiya elmini yaratmaq ideyası da məhz ona məxsusdur.

Uşaq psixikasının bioloji determinlənməsi haqqında mövqedən çıxış edən S.Xoll belə hesab edirdi ki, hər bir uşaq öz fərdi inkişafı prosesində insan cəmiyyətinin tarixi inkişaf mərhələlərini təkrarlayır. Ona görə də hər bir uşağa **ibtidai instinktləri yaşamaq imkanı** vermək lazımdır. S.Xoll ilkin uşaq oyunlarını **ibtidai insanların ov instinktlərinə bənzədir,** yeniyetmə oyunlarını isə **hindu qəbilələrinin həyat tərzinin törəməsi** hesab edirdi. Onun biogenetik nəzəriyyəsi uzun müddət pedaqoji təcrübə üçün mürtəce təsirə malik olmuşdur. Xaricdə uşaq psixologiyasının inkişafında xüsusi xidmətləri olan psixoloqlardan biri alman psixoloqu **K.Bülerdir. (1879-1963).** O, öz əsərlərində uşaqlarda qavrayışın, fantaziyanın, təfəkkür və nitqin inkişafına xüsusi diqqət yetirmiş, müxtəlif yaş mərhələlərində bu proseslərin xüsusiyyətlərini vermiş, uşaq oyunlarının xarakterini açmışdır. Uşağın

psixikası haqqında ümumi nəzəriyyə yaratmağa çalışan K.Büler biologiya elminin qanunları mövqeyindən çıxış edirdi. O, uşağın ontogenezdə psixi inkişafı mərhələlərini **instinkt, dressura, intellekt** olmaqla üç mərhələyə ayrılmışdı.

Uşaq psixologiyası problemlərinin tədqiqində görkəmli İsveçrə psixoloqu **E.Klapared (1873-1940)** mühüm yer tutur. O, uşağın davranışında **maraq, motiv və tələbatlara** üstün əhəmiyyət verirdi. Uşaqlarda təfəkkürün ilkin ümumiləşdirmələrinin, oxşar və fərqli cəhətlərin dərk edilməsinin **sinkretik** (bitişik) təbiətə malik olması haqqında elmi müddəa uşaq psixologiyası tarixində ilk dəfə E.Klaparedə məxsusdur. O, **«Uşağın psixologiyası və eksperimental pedaqogika»** adlı əsərində «uşağı öyrətmək üçün onu öyrənməli, onun xarakterini, müsbət şəxsiyyət keyfiyyətlərini formalaşdırmaq üçün əməyə məhəbbət tərbiyə etməli!» ideyalasını irəli sürmüşdür.

XIX əsrin sonu XX əsrin, əvvəllərində insanın həyatında sosial hadisələrə maraq genişlənməyə başlayır. Fəhlə hərəkatları, tətillər, müharibə və böhran kimi sosial prosesləri öyrənmək üçün psixologiyada sosioloji istiqamət adlanan nəzəriyyə meydana gəlir. Bu nəzəriyyəyə görə, uşağın inkişafı ona ətraf sosial mühitin birbaşa təsirinin nəticəsidir. **Sosioloji nəzəriyyənin** tərəfdarları sırasında fransız sosioloqları H.Tard,E.Dyurkheym, Ş.Blondelin və İsveçrə psixoloqu J.Piajenin adlarını çəkmək olar. Bu nəzəriyyənin banisi hesab edilən E.Dyurkherm (1858-1917) belə hesab edirdi ki, psixi inkişaf başqa adamların hisslərinə inanmanın, onların insanın canına hopmasının nəticəsidir. Xaricdən mənimsənilmiş fikirlər və emosiyalar uşağın ruhi fəaliyyətinin xarakterini müəyyən edir. Uşaq inkişaf edərək bəşəri təcrübəni adət və ənənələri mənimsəməlidir. **Biologiyada irsiyyət, cəmiyyətdə isə yamsılama** eyni dərəcədə əhəmiyyətə malikdir. Uşaq doğularkən yamsılama qabiliyyətlərinə malik olur. Psixikanın inkişafında bioloji və sosial amillərin qarşılıqlı münasibətləri məsələsi ilə maraqlanan fransız

psixoloqu **P.Jane (1859-1947)** belə hesab edirdi ki, insanın psixikası sosial cəhətdən şərtlənmişdir və bu inkişaf təbiətin və cəmiyyətin çoxcəhətli əlaqələri sistemi ilə tarazlaşır. Çoxcəhətli əlaqələr dedikdə, P.Jane insanın dünyaya münasibət formalarını nəzərdə tuturdu. Onların sırasında əməkdaşlıq münasibətləri şəklində ifadə olunan, sosial baxımdan əhəmiyyətli hərəkətlər xüsusi yer tutur. Hər bir insanın psixikasının inkişafının əsas prinsipi insanlar arasındakı qarşılıqlı münasibətlərdir. Bu müddəaya əsaslanan alim uşağın psixi inkişafının dörd səviyyəsini fərqləndirirdi.

**Birinci səviyyə motor (hərəki) reaksiyaların** (yaxınlaşma və uzaqlaşma) inkişafı ilə xarakterizə olunur. Uşağın gələcək inkişafında bu reaksiyaların özləri deyil, onların sosial cəhətdən şərtlənmiş olması əsas amildir.

**İkinci səviyyə perseptiv əməliyyatların mənimsənilməsidir** ki, burada əşyavi fəaliyyətin mənimsənilməsi əsas amil olub, təxirəsalınmış əməliyyatlar şəklində sonralar hafizənin inkişafını şərtləndirir.

**Üçüncü səviyyə sosial- şəxsi səviyyədir** ki, bu səviyyədə uşaq öz hərəkətlərinin başqa adamların hərəkətləri ilə uyğunluğunu dərk edir. Bu ana xüsusi əhəmiyyət verən R.Jane qeyd edirdi ki, uşağın inkişafının ilkin dövrlərində onun davranışı qarşılıqlı köməyin bəsit formaları ilə məhdudlaşırsa, bu mərhələdə o, sosial məzmun kəsb edir.

**Dördüncü mərhələni elementar intellektual davranış** adlandıran R.Jane göstərirdi ki, bu mərhələdə uşağın nitqi inkişaf edir və o, bunun köməyi ilə ətrafdakıların tələb etdiyi kimi əməliyyatları mükəmməl surətdə icra etməyə nail olur. Nitqə yiyələnmək uşağa təfəkkürün inkişafı üçün əlverişli şərait yaradır. Qeyd olunan mövqelərlə hesablaşmayan alman psixoloqu **V.Ştern (1871-1938)** bu problemə aydınlıq gətirmək üçün müəyyən təşəbbüslər göstərmişdir. O, **«Erkən uşaqlığın psixologiyası»** adlı əsərində psixi inkişafla bağlı əsas nəzəri müddəanın mahiyyətini açmağa çalışmışdır. V.Ştern yazırdı ki, ruhi inkişaf heç də təbii olaraq verilmiş xüsusiyyətlərin

təzahürü və xarici təsirlərin sadəcə olaraq mənimsənilməsi deyildir, əksinə, daxilən verilənlərlə inkişafın xarici şərtlərinin konvergensiyasıdır. V.Ştern konvergensiya dedikdə, psixikanın inkişafında iki alimin- **irsiyyət və mühitin qarşılıqlı təsirini** nəzərdə tuturdu. O, belə hesab edirdi ki, psixikanın irəlicədən, irsən müəyyənləşdirilmiş inkişaf proqramı vardır və o, müəyyənedici rola malikdir. Mühit bu inkişaf prosesində təbii, yəni irsi-genetik imkanların gerçəkləşməsi üçün şərait rolunu oynayır. Uşaq psixologiyası tarixində məşhur simalardan biri də Avstriya psixiatrı **Z.Freyddir (1856-1939).** Onun XX əsrin əvvəllərində yaratdığı **psixoanaliz** adlanan nəzəriyyə indi də öz aktuallığını saxlamaqdadır. Freyd belə bir qənaətə gəlmişdir ki, psixi inkişafda hər cür kənara çıxma hallarının səbəblərini sinir sistemində, üzvi səbəblərdə axtararkən ilk növbədə şüura, insanın şəxsi problemlərinə diqqət yetirmək lazımdır. O, belə hesab edirdi ki, bu problemlərin kökünü **erkən uşaqlıq illərində** axtarmaq lazımdır. Ailədəki **seksual problemlər** uşağa psixi xəsarət gətirir, onda güclü həyəcan yaradır. Uşaq bunun səbəbini anlamır və ona görə də bu təəssüratlar şüuraltı zonaya sıxışdırılır. Dərk edilməmiş həvəslər və sarsıdıcı iztirablar uşaqda müxtəlif nevrozların və xoşagəlməz narahatlıqların əsas mənbəyidir. Belə əzablardan ancaq terapiyanın xüsusi formaları vasitəsilə xilas olmaq mümkündür. Freydə görə, uşaq dünyaya anadangəlmə həvəs instinkti ilə gəlir. **Böyüklərin cəzasından qorxan uşaq öz həvəslərini boğmalı olur.** Uşaqda həvəs və reallıq instinktləri daim toqquşur onlar daim münaqişə vəziyyətindədir. Uşaq üçün ilk erotik həzz mənbəyi anadır. Uşağın anaya münasibəti lap başlanğıcdan seksual çalarlara malikdir. Uşağın doğulması ilə onun anadan ayrılması onun üçün ən ağır sarsıntıdır. Anaya qarşı həvəs, ona fiziki yaxınlığa cəhd qaçılmazdır. Bu həvəsdə uşağın rəqibi atadır, ona görə də , **uşaqda ataya nifrət və ona ölüm istəyi baş qaldırır.** İnsanın bütün həyatı boyu ilk məhəbbət və ilk nifrət ən güclü hisslər kimi yaşayır.

Z.Freydə görə uşağın ana südündən - döşdən kəsilməsi onun həyatında ikinci güclü zərbədir. Z. Freydin qızı və onun davamçısı, neofreydizmin nümayəndəsi **Anna Freydin** baxışlarında bəzi yeni meyllər diqqəti cəlb edir. O, uşaq həyatının müxtəlif sferalarının inkişaf xəttini qurmuşdu. Burada əsas diqqət seksual sferanın inkişafına – infantil asılılıqdan yetkin cinsi həyata qədər davam edən mərhələyə yönəlir.

Ötən əsrin 30-cu illərində Qərb psixoloqları ilə rus psixoloqları arasında problemə yanaşmanın metodoloji istiqamətləri ideologiyaların mübarizəsindən asılı olduğuna görə, bu problem elmi cəhətdən özünün bitkin həllini tapa bilməmişdir. Bu dövrdə problemin həllinə orijinal mövqedən yanaşması ilə fərqlənən alimlərdən biri də rus psixoloqu **L.S.Vıqotski (1896-1934)**dir. Sovet ideoloji sisteminin formalaşdığı həmin dövrdə psixologiya elminin nəzəri əsaslarının formalaşmasına böyük töhfə vermiş L.S.Vıqotski digər rus psixoloqları **A.R.Luriya (1902-1977) və A.N.Leontyevin (1903-1979**) iştirakı ilə birgə **psixikanın mədəni tarixi inkişafı** nəzəriyyəsini yaratmışdılar. Bu nəzəriyyə psixikanın inkişafını bioloji amillərə bağlayan Qərb tədqiqatçılarının mövqelərinin ziddinə olaraq meydana gəlmişdi. Marksist fəlsəfə mövqeyindən çıxış edən L.S.Vıqotski belə hesab eidrdi ki, uşağın doğulması onun bioloji tip kimi mövcudluğunun sonudur və bu keyfiyyətcə yeni tip inkişafa – sosial inkişafa keçiddir. Burada körpənin həyatının şərti ona qulluq və tərbiyəni həyata keçirən başqa adamların fəaliyyətindən ibarətdir. Ona görə də, körpənin istənilən tələbatı inkişaf prosesində başqa adamlara tələbata, onlarla əlaqəyə, ünsiyyət tələbatına çevrilir. Uşağın əşyalarla fəaliyyətini, onun yaşlılarla ünsiyyətini Vıqotski **inkişafın hərəkətverici qüvvələri** adlandırmış, insanın psixi həyatını formalaşdıran amillər kimi səciyyələndirmişdir. O, psixikanın formalaşmasında ətraf xarici aləmin, mühitin təsirini aydınlaşdırmağa cəhd göstərmişdir. Bu problemin həllində o, belə nəticəyə gəlmişdir ki, həyat şəraiti uşağın psixi inkişafını birbaşa təyin etməyə qadir deyildir. Bu və ya digər şəraitdən asılı olaraq psixikanın inkişafı

uşağın mühitlə hansı qarşılıqlı münasibətlərdə olmasından asılıdır. Mühitin təsirini anlamaq üçün yalnız mühitdə baş verən dəyişiklikləri deyil, həm də uşağın özündə baş verən dəyişiklikləri nəzərə almaq lazımdır. Problemə bu cür yanaşma əsasında L.S.Vıqotski psixologiya elminə **«İnkişafın sosial şəraiti»** anlayışını daxil etmişdir: O, psixologiya elmində təlimlə inkişafın qarşılıqlı münasibəti məsələsinə aydınlıq gətirmiş və qeyd etmişdir ki, uşağın psixi həyatının mürəkkəb formaları təlim prosesində formalaşır. O, belə hesab edir ki, təlim ünsiyyətin sistemə salınmış forması olub, uşaqda yeni psixi törəmələr yaradır, **ali psixi funksiyaları** inkişaf etdirir.

Uşaq psixologiyasının metodoloji məsələlərinə aydınlıq gətirməyə cəhd göstərən rus psixoloqu **S.L.Rubinşteyn (1889-1960)** özünün **«Ümumi psixologiyanın əsasları»** adlı əsərində psixikanın formalaşması problemi üzərində ətraflı dayanmışdır. O, qeyd etmişdir ki, psixikanın inkişafının əsas qanunu **«təlim və tərbiyənin uşaqların yetişməsi və inkişafını şərtləndirməsi və təm in etməsi»** kimi formula edilməlidir. S.L.Rubinşteyn psixologiyada **«şüur və davranış», «fəaliyyət»** anlayışlarına aydınlıq gətirmiş və qeyd etmişdir ki, şüur və davranış konkret fəaliyyət formaları (oyun, təlim, sonra isə məhsuldar əmək) daxilində inkişaf edir. Bu fəaliyyət formaları vasitəsilə uşaq ətraf xarici aləmə fəal surətdə qoşulur. Uşağın psixi inkişafında başlaca amil olan əsas fəaliyyət formasını o **«aparıcı fəaliyyət»**[1] anlayışında əks etdirmişdir. S.L.Rubinşteyn hər hansı yaş dövründə uşağın psixi inkişafında məhsuldar rol oynayan, onun psixi inkişafını təmin edən fəaliyyət formasını aparıcı fəaliyyət adlandırırdı.

XX əsrin ortalarından etibarən uşaq psixologiyasında yeni, mütərəqqi tendensiyalar müşahidə olunur. Bu baxımdan psixoloqların Cenevrə məktəbinin yaradıcısı, məşhur isveçrə psixoloqu J.Piajenin (1896-1980) elmi

[1] Bu anlayışın mahiyyəti II fəsil § 2-də geniş açıqlanacaqdır.

psixoloji fəaliyyəti diqqəti cəlb edir. Onun tədqiqatları əsasən uşaqların intellektual inkişafının öyrənilməsinə həsr edilmişdir.

J.Piajenin fikrincə, uşaq doğulduğu andan spesifik daxili struktura malik **avtonom, fəal və təbii məxluqdur.** Onun fəaliyyəti ətraf xarici aləmlə determinləşmişdir. Məşhur psixoloq belə hesab edirdi ki, uşaqlarda təfəkkürün inkitşafı **sosialaqədərki** və **sosial** olmaqla iki mərhələyə ayrılır. Əvvəlcə uşaqda **eqosentrik** təfəkkürün təzahürləri yaranır və bu, uşağın təbii-bioloji xüsusiyyətlərindən asılıdır, yaşlıların **rasional təfəkküründən** fərqlənir. Uşağın təfəkkürü altı-yeddi yaşlarından başlayaraq yaşlıların **nüfuzu, məcburiyyəti** və **əməkdaşlığı** sayəsində sosiallaşmağa başlayır. J.Piaje uşağın psixi inkişafında təlimin rolunu inkar etməsə də, onun həlledici rolunu da qəbul etmirdi. O, qeyd edirdi ki, təlim uşağın intellektual inkişafının məzmununu və formalaşma mərhələlərinin ardıcıllığını dəyişə bilməz, onu bir qədər ləngidə və ya sürətləndirə bilər. Psixoloq **intelektin inkişafının** dörd mərhələsini qeyd etmiş və onların hər birini müfəssəl tədqiq etmişdir:

1. Sensomotor (uşağın doğulduğu andan 2 yaşa qədər)
2. Əməliyyataqədərki (2 yaşdan 7-8 yaşadək)
3. Konkret əməliyyatlar (7-8 yaşdan 11-12 yaşadək)
4. Formal əməliyyatlar (11-12 yaşdan 15 yaşadək)[1].

Qeyd etmək lazımdır ki, uşağın intellektinin inkişafında onun fəaliyyətinə böyük əhəmiyyət verən J.Piaje bu fəaliyyətin nədən ibarət olduğunu, onun mahiyyətini açmamışdır. Faktiki olaraq o, fərdin təcrübəsindən asılı olmayan, avtonom şəkildə inkişaf edən sadə uygünlaşma reaksiyalarını ön plana çəkmiş, perseptiv və intellektual proseslərin həmin reaksiyalar əsasında yarandığı qənaətinə gəlmişdir.

J.Piaje **«Uşağın əxlaqi mühakimələri»** (1924) adlı əsərində eksperimental yolla uşaqların mənəvi mühakimələrinin mahiyyətini öyrənərək geniş ümumiləşdirmələr aparmışdır. O, belə hesab etmişdir ki, uşaqlıq

[1] Пиаже Ж. Психология интеллекта. Изб. Психол. Труды М. 1969, стр.177-270

illərində mənəviyyatın iki forması mövcud olur. **Birinci forma** yaşlıların təhriki, qadağanları və göstərişləri əsasında yaranır, **ikinci forma** isə daha sonralar uşağın öz yaşıdları mühitində, onlarla qarşılıqlı münasibətlər və əməkdaşlıq zəminində təşəkkül tapır.

Uşaq psixologiyası problemlərinin yorulmaz tədqiqatçısı olan J.Piajenin qələmindən onlarla məşhur əsərlər çıxmışdır. Onların sırasında **«Uşağın nitqi və təfəkkürü»** (1923), **«Uşaqda mühakimə və əqli nəticələr»** (1924), **«Uşağın dünya haqqında təsəvvürləri»** (1926), **«Uşaqlarda fiziki səbəbiyyət» (**1927), **«Uşaqlarda ədədin genezisi»** (1941), **«İntelektin psixologiyası»** (1946)[1] kimi fundamental əsərlər xüsusi yer tutur. Məşhur fizik A.Eynşteyn ötən əsrin 50-ci illərində J.Piajenin **«Uşaqlarda idrak qabiliyyətlərinin formalaşması»** adlı əsərinin əlyazmasını oxuduqdan sonra demişdi: **«sən demə psixologiya fizikadan da çətin elm imiş».**

Uşağın psixi inkişafına dialektik yanaşma baxımından diqqəti cəlb edən konsepsiyalardan biri mütərəqqi fransız psixoloqu **A.Vallon (1879-1962)** tərəfindən yaradılmışdır. O, uşağın psixi inkişafını yeddi əsas mərhələyə ayırmış, onlar arasında qarşılıqlı asılılıqları açıb göstərmişdir. A. Vallon qeyd edirdi ki, bu mərhələlərin hər biri uşağın psixikasında baş verən kəmiyyət və keyfiyyət dəyişmələrinin nəticəsidir. Uşağın ontogenezdə inkişafı alimin fikrincə, aşağıdakı mərhələlərdən ibarətdir:

**1. Bətndaxili mərhələ:** Bu mərhələdə ruşeym ananın orqanizmindən tam asılı vəziyyətdədir.

**2. Hərəki impulsivlik mərhələsi.** (doğulduqdan 6 ayadək). Uşağın qidaya və hərəki fəallığa olan tələbatı spazmatik dartınmalarda, çığırtı, hərəkət və jestlərdə təzahür edir. Bu uşağın elementar şərti reflekslərinin formalaşması üçün baza rolunu oynayır.

[1] М.Г.Ярошевский. История психологии М., «Мысль» , 1985, стр.425-427

**3. Emosional mərhələ.** (1 yaşdan 3 yaşadək) Bu zaman uşaq mimika və jestlərdən istifadə etməklə ətrafdakı adamlarla özünün qarşılıqlı münasibətlərini yaradır. Ağrı, qəzəb, simpatiya, məmnunluq hisslərinin xarici ifadəsi aşkar nəzərə çarpır. Uşağın ən sıx əlaqəsi ana ilə bağlı olur və onun inkişafını stimullaşdırır. Bu mərhələnin başlanması uşağın psixikasının formalaşması üçün çox vacib əhəmiyyətə malikdir.

**4. Sensomotor mərhələ** (1 yaşdan 3 yaşadək) Bu mərhələ uşağın diqqətinin ətraf aləmə yönəlməsi, yaxın sosial əhatə ilə qarşılıqlı münasibətlərinin formalaşması, bələdləşmə refleksi, yerimə və nitqin meydana çıxması ilə xarakterizə olunur.

**5. Personalizm mərhələsi** ( 3yaşdan 5 yaşadək). Bu mərhələ üç yaşın böhranı ilə başlanır, uşaqda «mən» hissinin və hərəkətlərdə böyük müstəqillik cəhdinin yaranması ilə müşayət olunur. Sonra uşaqda ətrafdakıların diqqət mərkəzində olmaq, başqa adamları yamsılamaq istəyi təzahür edir.

**6. Fərqlənmə mərhələsi** ( 6 yaşdan 11 yaşadək) Bu mərhələdə uşağın qarşılıqlı münasibətlər dairəsi genişlənir. Kollektivdə o özünü həm azad, həm də asılı vəziyyətdə hiss edir. Bu yaşda uşaq fərqlənməyə çalışır, kollektivdə müəyyən yer tutmaq istəyi təzahür edir. Bu mərhələdə uşağın qarşılıqlı münasibətləri kimi, əqli qabiliyyətləri də inkişaf edir.

**7. Cinsi yetişmə və gənclik.** Bu şəxsiyyətin müvazinətsiz inkişafı ilə xarakterizə olunur. Psixikanın inkişafı aydın ifadəli ziddiyyətlərlə fərqlənir. Məhəbbət və nifrət, özünəinam və inamsızlıq, səmimiyyət və utancaqlıq kimi hisslər, həyat idealları davranışda real gücə malik olur. Özünüdərketmə və özünüqiymətləndirmə inkişaf edir. Psixologiya elmində uşaq psixoloqu kimi tanınan A.Vallon qeyd edirdi ki, bu mərhələlər ciddi surətdə ardıcıldır, müstəqildir və uşağın dialektik inkişafında mühüm rol oynayır.

Xarici ölkə psixologiyasında uşağın psixikasının tədqiqində xüsusi mövqeyi ilə seçilən psixoloqlardan biri amerikan psixoloqu **C.Brunerdir.** Özünün **«İdrak psixologiyası» «Təlim nəzəriyyəsinə dair»** və b.

əsərlərində təlimlə şəxsiyyətin inkişafı arasındakı qarşılıqlı münasibətlər məsələsinə geniş şəkildə toxunmuşdur. O, təlimin inkişafdan asılı olmadığını göstərmiş və qeyd etmişdir ki, uşaq inkişafın hər hansı mərhələsində istənilən materialı mənimsəməyə qadirdir yalnız o halda ki, həmin yaş dövrü üçün təlimin optimal metodik vasitələri tapılmış olsun.

C.Bruner belə hesab edirdi ki, məktəbdən kənar şəraitdə uşaqların intellektual inkişafı 10 yaşdan sonra kəsilir. Müxtəlif mədəni səviyyələrdə yaşayan uşaqların intellektual inkişaf səviyyələrini müqayisə edən alim belə bir nəticəyə gəlmişdir ki, intellektin inkişaf səviyyəsi və spesifikliyi uşağın yaşadığı cəmiyyətin mədəni səviyyəsindən asılıdır.

C.Bruner qeyd edirdi ki, **yeddi yaşlı uşağın beyni inteqral və diferensial tənlikləri həll etmək** və ya **dialektik materializm fəlsəfəsinin əsaslarını öyrənmək üçün** sadəcə olaraq hələ yetişməmişdir. Lakin heç də belə hesab etmək doğru olmazdı ki, beyin strukturlarının üzvi yetişməsi sırf bioloji qanunlar əsasında baş verir. Burada mühit, təlim və tərbiyə amillərinin rolunu danmaq doğru olmazdı. **Mühit, təlim və tərbiyə,** müvafiq təmrinlər beyin strukturlarının üzvi yetişməsi prosesini stimullaşdırır. Ona görə də, biz əqli inkişaf haqqında danışarkən belə hesab edirik ki, bu proses beynin bioloji yetişməsi ilə vəhdətdə, onunla bitişik şəkildə baş verir.

XX əsrin ortalarından başlayaraq Rusiyada uşaq psixologiyası sahəsində eksperimental tədqiqatlar geniş vüsət almağa başladı. Rus psixoloqlarından A.N.Mençinskaya, A.V. Zaparojets, A.A. Lyublinskaya, V.V. Davıdov, V.P. Zinçenko, V.S. Muxina, D.B.Elkonin, L.A.Venqer, L.İ. Bojoviç, A.Q.Xripkova, A.İ.Lipkina və bir çox başqaları uşaq psixikasının müxtəlif cəhətdən öyrənmək sahəsində uğurlu elmi nəticələr əldə edərək, uşaqların fəaliyyətinin səmərəli təşkili, təlim-tərbiyə proseslərinin keyfiyyətinin yüksəldilməsi üçün mövcud pedaqoji təcrübəni qabaqlayan dəyərli təkliflər irəli sürmüşlər.

Azərbaycanda uşaq psixologiyası sahəsində tədqiqatlara ötən əsrin 20-ci illərindən təsadüf olunur*. Bu sahədə ilk əsərlər o vaxtlar Azərbaycanda çalışan rus alimi **A.O. Makovelski (1884-1968)** tərəfindn yazılmış **«Pedaloji»** (1929) **«Körpə uşaqların tərbiyəsi»** (1940), **«Təlim-tərbiyənin psixoloji əsasları»** (1940) və s. ibarətdir. XX əsrin 50-ci illərindən etibarən Azərbaycanda psixoloqların yeni nəsli yetişməyə başlamışdır. Bu sahədə gərgin əmək sərf etmiş Ə.K. Zəküyev (1888-1967) olmuşdur. Onun tədqiqatlarında uşaq psixologiyası məsələləri geniş yer tuturdu. **«Uşağın diqqəti haqqında»** (1935), **«Hafizənin tərbiyə edilməsi»** (1943), **«Şagirdlərdə diqqətsizliyin səbəbləri haqqında»** (1945), **«Məntiqi təfəkkürün tətbiqi və tərbiyəsi haqqında»** (1945) və s. onlarla məqalələrində prof. Ə.K.Zəküyev uşaq psixikasının ayrı-ayrı xüsusiyyətlərinə aydınlıq gətirmiş, həmçinin ilk milli psixoloqların hazırlanmasında gərgin əmək sərf etmişdir. Ötən əsrdə uşaq psixologiyası problemlərinin tədqiqində xüsusi rol oynamış görkəmli Azərbaycan psixoloqlarından biri olan **M.C.Məhərrəmov (1909-1970)** xüsusi yer tutur. Onun **«Məktəblilərin iradəsini tərbiyə etmək haqqında»**,(1953) **«İradə tərbiyəsinin yolları»** (1961) **«Məktəblilərin xarakterini tərbiyə etmək haqqında»** (1967) və s. kimi əsərləri bu cəhətdən diqqətəlayiq tədqiqatlar kimi qiymətləndirilir. 70-ci illərdə uşaq psixologiyası sahəsində öz dəsti-xətti ilə seçilən alimlərdən biri professor **Ş.S.Ağayevdir.** (1926-1975). Onun qələmindən çıxmış **«Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyə edilməsi»** (1961) **«Uşaq psixologiyası məsələlərinə dair»** (1966) və s. kimi əsərlər psixoloqun sanballı tədqiqatlarındandır. Azərbaycan psixoloqlarının layiqli nümayəndəsi **Ə.S.Bayramov** XX əsr Azərbaycan psixologiya elminin inkişafına və milli psixoloqların hazırlanmasına layiqli töhfə vermişdir. Onun **«Uşaqlarda məsuliyyət**

* Bu məsələ ilə əlaqədar araşdırmalarda Ə.T.Baxşəliyevin «XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı», B,, ADPU, 1998 adlı vəsaitdən istifadə olunmuşdur.

**hissinin tərbiyəsi»** (1962), **«Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi»** (1963), **«Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri»** (1967) və s. bir çox əsərləri uşaq psixologiyası elminə qiymətli töhfədir.

Böyük alim, istedadlı psixoloq **prof.Ə.Əlizadə** çağdaş Azərbaycan psixologiya elminin korifeyidir. Onun fundamental tədqiqatlarında uşaq psixologiyasının elmi-nəzəri və praktik problemləri üzvi bir vəhdət təşkil edir. Professor Ə.Ə.Əlizadənin tədqiqatları içərisində **«Uşaqlarda diqqətin tərbiyə edilməsi»** (1962), **«Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi»** (1963), **«Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi»** (1986) və s. onlarla monoqrafiyaları öz elmi dəyəri ilə diqqəti cəlb edir. Görkəmli psixoloqlardan professor **M.Ə.Həmzəyevin «Kiçik yaşlı məktəblilərin psixoloji xüsusiyyətləri»** (1968), **«Yaş və pedaqoji psixologiyanın əsasları»** (2000), professor **Ə.Ə.Qədirovun «Uşaqların psixoloji xüsusiyyətləri»** (1965), **«Uşaqlarda idrak proseslərinin inkişafı»** (1970), **«Yaş psixologiyası»** (İ.N.Məmmədovla birgə) 1986, professor **Z.M.Mehdizadənin** üç hissəli **«Uşaq psixolojiyası»** (1982, 1984, 1988) dos. **E.M.Quliyevin «Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri»** (1995), **«Kiçik məktəblinin psixologiyası**» (2003) və s. kimi əsərləri uşaq psixologiyası sahəsində faydalı tədqiqat əsərləri olub, ali məktəb tələbələrinin peşə hazırlığında faydalı mənbə rolunu oynamaqdadır.

**Suallar və tapşırıqlar.**

1. Uşağın psixikası haqqında K.D.Uşinskinin fikirlərini söyləyin.
2. Uşaq psixologiyası haqqında yazılmış ilk əsər kimə məxsusdur?
3. S.Xoll və K.Bülerin uşaq psixikasının təbiəti haqqında fikirləri nədən ibarətdir?
4. E.Klaparedin «Uşağın psixologiyası və eksperimental pedaqogika» əsərinin əsas ideyası nədən ibarətdir?

5. J.Piaje uşağın psixi inkişafını hansı səviyyələrə ayırırdı?
6. Uşaq psixikası haqqında Z.Freydin baxışlarını göstərin.
7. L.S.Vıqotski və A.N.Leontyevin uşaq psixologiyası elminin təşəkkülündə rolunu göstərin.
8. A.Vallon uşağın ontogenezdə inkişafını hansı mərhələlərə bölürdü? Onların hər birinin təhlilini verin.
9. Uşaq psixologiyasının təşəkkülündə Azərbaycan psixoloqlarının fəaliyyətini qısa təhlil edin.
10. Uşaq psixologiyası elminin müasir vəziyyətini təhlil edin.

# II FƏSİL. Psixi inkişafın ümumi qanunauyğunluqları

## II.1. Psixi inkişafın zəmini və şərtləri

Uşaqların psixi inkişafına təsir göstərən və onu şərtləndirən amillərin müəyyənləşdirilməsi, onların düzgün elmi şərhi uşaq psixologiyasının metodoloji problemi olub, prinsipial məzmuna malikdir. Bu problemin düzgün elmi izahı tarixi keçmişlə bağlı bir problem olub, bir-birinə zidd olan iki konsepsiyanın yaraşmasına gətirib çıxarmışdır. İnsan psixikasının inkişafına münasibətdə diqqəti cəlb edən kopsepsiyalardan biri **biogenetik** konsepsiyadır. Onun tərəfdarları S.Xoll, E.Klanared, C.Selli,Q.Kerşenşteyner, Ş.Büler, C. Meyli, L. Blets və b. inkişaf da təbii, bioloji, anadangəlmə amilləri ön plana çəkərək psixikanın öz təbiəti etibarı ilə bioloji cəhətdən şərtləndiyini, insanın bir varlıq kimi doğularkən bioloji potensial olduğunu ön plana çəkmişlər. Onlar belə hesab edirdi ki, hər bir insanın psixikasının ümumi və fərdi xüsusiyyətləri təbiət tərəfindən irəlicədən onun bioloji strukturlarına qoyulmuşdur, inkişaf bu strukturları yetişdirir, onların reallaşmasını təmin edir. Onlara görə, qabiliyyətlərin inkişaf səviyyəsi insanın təbii fondunda irəlicədən müəyyənləşdirilmişdir. Bir sıra məşhur adamların (rəssamların, musiqiçilərin, alimlərin) həyatından götürülmüş çoxsaylı bioqrafik məlumatlar doğrudan da, qabiliyyətlərin təbii imkanlarının irsən ötürülməsi haqqında irəli sürülmüş fikri təsdiq edir. Bax, Motsart, Paqanini kimi məhşur incəsənət adamlarının həyatı fərdin inkişafında irsi amillərin təsirini təsdiq edir.

Bununla belə, qeyd etmək lazımdır ki, bir çox dahi, yüksək istedadlı adamların isə, ailəsində bu irsi transformasiya qeydə alınmamışdır. Deməli, irsi əlamətlərin daşıyıcıları olan genlər də müəyyən dəyişikliyə məruz qalır, irsi əlamətlər əvvəlkinin dəyişməz nüsxəsi deyildir.

Son dövrlərdə mikrobiologiya elminin uğurları, xüsusən, irsiyyət-gen mexanizminin öyrənilməsinə əsaslanan nəzəriyyənin tərəfdarları

qabiliyyətlərin anadangəlmə səviyyədə genlərdə «tədarük» edildiyi, irəlicədən kodlaşdırıldığı fikrini irəli sürürlər. Bununla razılaşmayan məşhur ingilis genetiki Ş.Ayerbax öz fikrini aydın və obrazlı şəkildə belə ifadə etmişdir: «Bu o deməkdir ki, hər bir insan doğularkən həyata hər bir oyunçu oyuna kartlarla başladığı kimi, «əlində» genlərdə başlayır. Bəzən kartların paylanması elə pis ola bilər ki, hətta qaneedici uğuru əldə etmək belə, çətin olar. Əksinə, elə ola bilər ki, heç bir səy göstərmədən böyük uğur əldə etmək mümkün olar.[1] Fikrini əsaslandırmaqda davam edən Ş.Ayerbax qeyd edirdi ki, «əqli inkişaf səviyyəsi, xüsusi qabiliyyətlər, şəxsi keyfiyyətlər- bütün bunlar genetik amillərlə mühit amillərinin qarşılıqlı nəticəsidir»[2]

İrsi-genetik amillərin rolu tarixən Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında da özünə geniş yer tutmuşdur. Hələ XII əsrdə böyük şairimiz N.Gəncəvi yazırdı:

Axmağa nəsihət eyləyən hər kəs,
Toxumu şor yerə səpir, bir, əbəs

və yaxud

Zatı pis olana üz göstərmə sən,
Qurdu bəsləməkdən ziyan çəkərsən.

və yaxud

Misə qızıl vurmaq nəyə gərəkdir,
Miss yenə özünü göstərəcəkdir.

Psixi xüsusiyyətlərin anadangəlmə təbiətə malik olmasını ön plana çəkən **biogenetik nəzəriyyə** uzun onilliklər boyu bir çox xarici ölkələrdə hakim nəzəriyyə olmuşdur. Onun əsasında uşaqların müxtəlif əqli inkişaf göstəricilərə malik olduğu testlərlə müəyyənləşdirilmiş və onlar «sortlaşdırma» əsasında müxtəlif tip məktəblərdə təhsilə cəlb edilmişlər. Psixi inkişafın zəminini bioloji-genetik amilərə bağlayan məşhur psixoloqlardan biri **E.Topndaykdır.** O, ötən əsrin 20-30-cu illlərində özünün **«Təlimin**

[1] Ш.Айербах. Генетика (пер. с англ.) М., 1966, стр.158
[2] Yenə orada, səh. 157

**psixologiyaya əsaslanan prinsipləri»** (1929) əsərində qabiliyyətləri **«Təbii kapital»** hesab edərək qeyd edirdi ki, «özündə yaxşı qabiliyyət genlərini daşıyan uşaqlar təlimə ehtiyac duymadan belə, yüksək intellektual səviyyəli adamlar ola bilərlər. Özlərində yaxşı genlər daşımayan uşaqlar isə ən yaxşı təlim alsalar belə, bir fayda götürə bilməzlər»[1] **E.Torndayk** uşağın psixikasını **«genlər toplusu»** adlandırırdı. Avstriya psixoloqu **K.Büler** qeyd edirdi ki, uşaqların yalnız əqli deyil, həm də mənəvi inkişafı irsi olaraq irəlicədən müəyyənləşdirilmişdir. **Z.Freyd** və onun davamçıları şəxsiyyətin inkişafının hərəkətverici qüvvələrini insanı idarə edən instinktlərdə görürdü. Onlar qeyd edirdi ki, insanı idarə edən ilkin şüuraltı tələbatlar və həvəslər anadangəlmə təbiətə malikdir və onlar sosial təsirlərdən asılı deyildir. Freyd yazırdı ki, uşağa hələ sıxışdırılmış nüvə kompleksi hakim olmadığı dövrdə onun əqli fəaliyyətinin əhəmiyyətli hissəsi seksual məsələlərə həsr edilmişdir. O, uşaqların haradan alınması ilə maraqlanır və ona mümkün olan vasitlərlə həqiqi faktlar haqqında valideynlərin düşündüyündən daha çox şeylər bilir[2] Digər amerikan psixoloqu **C.Dyui** isə yazırdı ki, insanın təbiəti dəyişikliyə uğramır: tərbiyə prosesi tələbatların və psixi xassələrin inkişafını sürətləndirə və ya ləngidə bilər. C.Dyuinin fikrincə, **irsiyyət tərbiyəni limitləşdirir.**

Ötən əsrin 50-ci illərində Avropa psixoloqlarının böyük əksəriyyəti biogenetik mövqedən çıxış edərək, sosial amil olan tərbiyənin rolunu hecə endirir, onu fərdin gizli inkişafının ardınca gedən passiv proses adlandırırdılar. Ekzistensialist mövqedə duran bəzi psixoloqlar qeyd edirdi ki, uşağın təbiəti pedaqoji təsirlərə davam gətirə biləcək müqavimət qüvvəsinə malikdir. Odur ki, hər hansı pedaqoji təsir və müdaxilə uşağın təbiətini dəyişdirmək cəhdlərində uğursuzluğa məhkumdur. Məşhur Qərb psixoloqu **Q.Reveş** özünün **«istedad və dahilik»** (1952) adlı əsərində yazmışdır ki, uşağın təbiətən malik olduğu anadangəlmə qabiliyyətlər gizli yetişmə prosesindən

[1] bax. В.А.Крутетский. Пихология обучения и воспитание школьников. М., «Просвещение», 1976.стр.32
[2] bax.F.Q.İsmayılov. Klassik psixoanalizin əsasları. «Azərbaycan Milli Ensiklopediyası», B.2003, s.330

keçir. Xarici təsirlər, həyat təcrübəsi, anadangəlmə qabiliyyətlərin mahiyyətinə təsir göstərməkdə acizdir. Alman psixoloqu **F.Baumqarten «Qabiliyyətlər və onun problemləri»** (1963) adlı əsərində yazırdı ki, istedad anadangəlmə və gizli amillərlə şərtlənir və müxtəlif fəaliyyət sahələrində insanın yaradıcı potensialının təzahürlərində əks olunur. Biogenetik konsepsiyanın tərəfdarların-dan olan genetik – alimlər V.Efremson və B.Astaurov öz həmkarlarından bir qədər də irəli gedərək insanda xüsusi «gen kodlarının», genlər qrupunun olduğunu, hətta «alicənablıq», «vicdan», «qocalara hörmət», «qadına cəngavər münasibəti», «borc hissi» kimi əxlaqi keyfiyyətlərin insanın irsi əlamətlər fonduna daxil olduğunu, onların genetik əsaslarının mövcudluğu fikrini irəli sürürdülər. Həmin alimlərin fikrincə, sosial mühitin güclü möhürü belə genlərin yönəldici siqnallarını dəyişdirməyə qadir deyildir. Məşhur ingilis psixoloqu D.Şattlevort öz həmkarlarından bir qədər də irəli gedərək irsiyyət və mühit amillərinin insanın əqli qabiliyyətlərinin formalaşmasında rolunu konkret rəqəmlərlə əks etdirmişdir. Onun fikrincə, insanın inkişafında irsi amillərin rolu 64%, ailə mühitinin təsiri 19%, qarışıq amillərin (irsiyyətlə mühitin qarşılıqlı əlaqəsi) təsiri isə 17%-ə bərabərdir. Məşhur ABŞ psixoloqu **A.Anastasi** uşağın intellektual inkişafında paralel , bir-birindən asılı olmayan anadangəlmə bioloji amillərlə mühitin sosial amillərinin təsirli rolunun olduğunu qəbul edirdi. Uşağın psixi inkişafına birtərəfli yanaşma, bioloji, sosial və digər amilləri qarşı-qarşıya qoymaq, onlardan hər hansı birinin rolunu hədsiz şişirtmək cəhdləri tarixən qədim dövrlərdən başlanır və bu gün də konkret sonluğa gəlib çıxmamışdır. Bioloji faktlar dedikdə, uşağın dünyaya gələrkən özü ilə gətirdiyi irsi, fitri imkanlar başa düşülür. Buraya sinir sisteminin, duyğu orqanlarının və hərəki aparatın quruluşu və s. daxildir. Uşağın doğularkən irsi olaraq valideynlərdən əldə etdiyi bioloji instinktiv tələbatlar (qidaya, istiyə və s. tələbatlar), ali sinir fəaliyyəti tipinin xüsusiyyətləri, duyğu orqanlarının, baş beyinin sinir sisteminin anatomik və psixofizioloji xüsusiyyətləri elə təbii imkanlardır ki, onların əsasında insanın

qabiliyyətləri və xassələri, o cümlədən intellektual qabiliyyətləri formalaşır. İrsi təbii imkanların əhəmiyyətindən danışarkən xüsusi qabiliyyətlərin məsələn, rəssamlıq və musiqi sahəsindəki qabiliyyətlərin erkən təzahürlərinə aid çoxsaylı misallar göstərmək olar. İrsi informasiyanın daşıyıcıları genlərdir. Müasir genetika elmi sübut etmişdir ki, insan xromosomlarında onların sayı 40 mindən 80 minə qədərdir. Sübut edilmişdir ki, genlər davamlı strukturlar olsa da, daxili (intoksasiya, şüalanma və s) və xarici təsirlər nəticəsində mutasiyaya uğrayır, dəyişir. Genlərdə baş verən mutrasiya insanın orqanizmində bir sıra anomaliyalara çoxbarmaqlıq, qısabarmaqlıq, qurdağızlılıq dovşandodaqlılıq və s.xəstəliklərə meylliliyin yaranmasına səbəb olur. Ayrı-ayrı anadangəlmə xüsusiyyətlər və onların fərqli əlamətləri **körpənin bətndaxili dövründə** inkişaf mühitinin qeyri-sağlam olması (ananın sağlamlığı, dərman maddələrinin təsiri, siqaret çəkmə, alkoqol və s. kimi təsirlərdən də asılıdır. Hər bir canlı orqanizm kimi, insan da genetikanın qanunlarına tabedir. Hər bir fərd doğularkən öz valideynlərindən nadir genetik- anadangəlmə təbii imkanlar əldə edir. İrsi amillərin inkişafda həlledici rolu haqqında elmi ideya ilk dəfə XIX əsrdə ingilis alimləri Ç.Darvin və F.İ. Halton tərəfindən irəli sürülmüşdür. Hər bir fərdin inkişafında genlərin rolu artıq çoxdan elmi faktlarla sübuta yetirilmişdir. Lakin **inkişafın amilləri** arasında genlərin ümumiyyətlə həlledici rolunu birmənalı şəkildə söyləmək olmaz. Konkret olaraq götürdükdə, bir fərddə genlər, başqa birində mühit və tərbiyə amilləri üstün rola malik ola bilər. Hər bir adamda inkişafın hansı amillərinin üstün olmasını müəyən etmək məqsədilə ingilis bioloq və riyaziyyətçısı **R.Fişer** xüsusi ölçü üsulları işləyib hazırlamışdır. Müxtəlif tədqiqat metodları vasitəsilə alimlər insanın psixoloji xarakteristikasında da (məsələn, qabiliyyətlər, temperamentin xassələri) genlərlə şərtlənmiş xüsusiyyətlərin mövcudluğunu sübuta yetirmişlər. Genlər insanın psixikası və davranışına necə təsir göstərir? Məlumdur ki, genlər zülal sintezi üçün spertfik matrisə malikdir. Onların vasitəsilə insanın orqanizmi qurulur və fəaliyyət

göstərir. Zülalların insanın ağlına, hisslərinə və qabiliyyətlərinə təsiri nə dərəcədədir? Bu problemlə məşğul olan bioloq alimlər- genetiklər belə nəticəyə gəlmişlər ki, bunun birbaşa yolu beyindən keçir. Bu asılılığı belə göstərmək olar: genotik--- beyin zülləları—beynin quruluşu və işi--- davranış.

İki qız uşağını müqayisə edək:

Onlardan biri öz zahiri gözəlliyi ilə heyranedicidir. Digəri isə birbaşa desək, cəlbedici deyil. Deməli, lap erkən uşaqlıq illərindən onların hər birinə qarşı ətrafdakı adamların fərqli münasibətləri formalaşmışdır. Onların müxtəlif dostları, yaşıdları qrupunda müxtəlif mövqeləri vardır. Bunların təsiri altında həmin qızların hər birində özlərinin psixoloji keyfiyyətləri haqqında təsəvvürlər- **özünüqiymətləndirmə və mənlik şüuru** formalaşmışdır. Deməli, bu halda qeyd etmək olar ki, qızların sifətinin əlamətləri birbaşa genlərlə şərtlənmişdir. Deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki**, irsiyyət amili uşaqlar arasında psixoloji fərqlərin yaranması üçün başlanğıc fon rolunda** çıxış edir. Son illər aparılmış tədqiqatlar sübut edir ki, mühüt və tərbiyə kimi amillər inkişafda nəinki genetik amillərdən az əhəmiyyətli deyil, həm də bir neçə nəsil keçdikdən sonra onlara dəyişdirici təsir göstərməyə qadirdir[1].

Psixi inkişafda **sosial amillərin həlledici rola malik olması** ideyası XVIII əsr fransız filosofu **K.A. Helvetsiyə** məxsusdur. O, göstərirdi ki, bütün insanlar doğularkən mütləq şəkildə əqli və mənəvi inkişaf üçün eyni təbii potensiala malik olurlar. Psixi xüsusiyyətdəki fərqlər mühitin və tərbiyəvi təsirdəki fərqlərdən asılıdır. Həmin dövrdə yaşamış ingilis filosofu C.Lokk sosial faktor kimi tərbiyənin rolunu ifrat şəkildə şişirdir, onun rolunu 9/10 nisbətdə götürürdü.

İnsan sosial mühitin təsirləri altında sosiallaşır, şəxsiyyətə çevrilir. Psixi inkişafın amillərindən biri olan «mühit» anlayışı çoxcəhətli və mürəkkəb anlayışdır. O, həm təbii, həm də **sosial mühitin** təsirlərini nəzərdə tutur.

[1] bax. Б.Кобучей. Почему люди разные? «Семья и школа».М.,1986, № 12, стр.22-24

Psixi inkişafa fəal təsir baxımından **təbii mühit amilləri** kimi hava, su, günəş, zəlzələ, iqlim amilləri, radiasiya və s. böyük təsirlərə malikdir. Bu amillər birbaşa deyil, dolayı yolla psixi inkişafa təsir göstərir.

Uşağın psixi inkişafında sosial mühit amillərinin isə daha fəal və birbaşa təsir imkanları vardır. Cəmiyyət həyatı və insanların ünsiyyət mühiti bu cəhətdən daha fəal təsir göstərir. Çoxsaylı elmi faktlar körpəlik dövründə vəhşi heyvanların mühitinə düşərək insanı dəyərlərə sahib ola bilməmiş uşaqların acı taleyini sübuta yetirmişdir. Onlarda nitq, intellektual qabiliyyətlər, özünüdərketmə, insani hisslər inkişafdan qalmışdır. Cəmiyyət, insan münasibətləri, həm makro, həm də mikrososial mühit, o cümlədən ailə,yaşıdlar və yaşlılar, qohumlar, qonşular, təhsil sistemi, elm, texnika, mədəniyyət və incəsənət, əxlaq qaydaları, kütləvi informasiya vasitələri və s. uşağın psixi inkişafında güclü və fəal sosial amillər hesab edilir.

Xarici ölkə psixologiyasında şəxsiyyət və onun inkişafı problemi ilə bağlı üç əsas istiqamət-**bioloji, sosioloji və biososial** istiqamətlər diqqəti cəlb edir.

Bioloji istiqamətin nümayəndələri şəxsiyyəti bədbəxt təbii varlıq hesab edir, insanın bütün davranışını onun təbii, anadangəlmə həvəslərinə, tələbatlar və instinklərinə bağlayırlar. Bu istiqamətin tərəfdarları içərisində görkəmli Avstriya psixiatrı və həkimi psixoanalizin banisi Z.Freyd xüsusi yer tutur. Biogenetiklər belə hesab edirlər ki, insan cəmiyətin tələblərinə tabe olmağa məcbur olduğuna görə, daim öz təbii tələbatlarını boğmağa, məhdudlaşdırmağa məhkumdur. Ona görə də o, daim öz-özü ilə gizli mübarizədədir, odur ki, vəziyyətdən çıxmaq üçün «maska geyinir» və ya təmin olunmamış tələbatlarını fəaliyyətin bu və ya digər növü ilə əvəz etməli olur. Onların fikrincə, ictimai həyatın bütün hadisələri (qiyamlar, tətillər, inqilablar) sadə adamlar üçün təbii hadisələrdir, çünki doğulduğu andan insanın genlərində hücum, qəddarlıq ixtişaş, qaragüruhçuluq mövcuddur. Lakin real həyat göstərir ki, adətən insanlar vətənpərvər, döyüşçü, sadəcə

olaraq vətəndaş borcunu yerinə yetirmək üçün həyati istək və tələbatlarının ziddinə hərəkət etməli olurlar.

İnkişaf haqqında **sosioloji nəzəriyyənin** tərəfdarları isə belə hesab edirlər ki, insan bioloji varlıq kimi dünyaya gəlsə də, öz həyatı inkişafı prosesində ünsiyyətdə olduğu sosial qrupun və mühitin təsirləri nəticəsində tədricən sosiallaşır, yəni şəxsiyyətə çevrilir. Şəxsiyyətin inkişaf səviyyəsi nə qədər aşağıdırsa, onda bioloji əlamətlər hər şeydən əvvəl sahib olma, dağıdıcı, cinsi və s. kimi instinktlər daha aydın və kəskin şəkildə təzahür edir. Rus psixoloqu A.V.Mudrik sosiallaşmanın əsas amillərini müəyyən edərək onları 3 əsas qrupda cəmləşdirmişdir.

**Makrofaktorlar** (kosmos, planetlər, dünya, ölkə, cəmiyyət,dövlət) bu amillər planetin bütün sakinlərinin, müxtəlif ölkələrdə yaşayan insanların çox böyük qruplarını əhatə edir.

**Mezofaktorlar** (mezo-orta, aralıq)- milli əlamətlərə görə fərqlənən böyük insan qruplarının, onların yaşayış yerinin (region, kənd, şəhər, qəsəbə) bu və ya digər auditoriyaya və ya digər kütləvi kommunikasiya şəbəkəsinə (radio, televiziya, kino və s.) mənsubiyyəti.

**Mikrofaktorlar-** konkret insana birbaşa təsiretmə imkanları olan amillər (ailə, yaşıdlar qrupu, sosial tərbiyənin həyata keçirdiyi təlim, peşə , ictimai və s. təşkilatlar). Bu amilləri bütövlükdə həm də şəxsiyyətin formalaş-masına təsir göstərən mühit faktorları da adlandırmaq olar[1].

**Biososial** istiqamətin tərəfdarları belə hesab edirlər ki, psixi proseslər (duyğular, qavrayış, təfəkkür və s.) bioloji təbiətə malikdir, lakin şəxsiyətin istiqaməti, maraqları, qabiliyyətləri, kimi xüsusiyyətlər sosial hadisələrdir.

Ötən əsrin görkəmli uşaq psixoloqları V.Ştern və J.Piaje konvergensiya nəzəriyyəsini- irsiyyət və sosial mühit faktorlarının inkişafda paralel təsirə malik olması ideyasını qəbul edirdilər. J.Piaje qeyd edirdi ki, inkişafın gedişinə

[1] bax: В.А.Сластенин, И.Ф.Исайев, Е.Н.Шиянов «Педагогика» М., «Academa», 2003, с.121-122

uşağın yaşadığı sosial mühit də təsir göstərir. V.Şteri «sosial mühit» dedikdə uşağın yaxın əhatəsini nəzərdə tuturdu.

Son illər irsiyyətin mexanizmlərinin açılması sahəsində genetika elminin əldə etdiyi nailiyyətlər psixi hadisələr, xüsusilə qabiliyyətlərin təbiəti haqqında ənənəvi biogenetik və sosiogenetik baxışlara yenidən nəzər yetirmək zərurətini ortaya qoymuşdur. Bu məsələ bioloq, filosof, psixoloq, həkim, hüquqşünas və s. kimi mütəxəssislər arasında kəskin diskussiya mövzusuna çevrilmişdir.

Beləliklə, hal-hazırda psixi inkişafın zəmini və şərtləri, onu şərtləndirən amillər haqqında mövcud nəzəriyyələri konkret olaraq aşağıdakı şəkildə qruplaşdırmaq olar:

**1. İnkişafın təkamül nəzəriyyəsi-** orqanizmin inkişafının ontogenezində genetik cəhətdən rüşeymdə olmayan hər hansı bir xüsusiyyətin həyatın sonrakı mərhələlərində mövcud ola biləcəyini inkar edir.

**2. İnkişafın inqilabi nəzəriyyəsi-** bu nəzəriyyəçilər genetik- irsi amilləri inkar edir, inkişafın bütün nəticələrini mühitin təsirləri ilə bağlayırlar. Onların fikrincə, istənilən adamda onun təbii- anatomik fizioloji xüsusiyyətlərindən asılı olmayaraq, təlim və tərbiyə sayəsində istənilən psixoloji və davranış xüsusiyyətləri formalaşdırmaq mümkündür.

**3. İnkişafın ehtimal və ya sxolastik nəzəriyyəsi.** Bu nəzəriyyə nisbətən yeni olub, daha çox tərəfdarlara malikdir. Onun nümayəndələrinin fikrincə, inkişafın hər hansı mərhələsində əldə edilmiş və ümumən son nəticə irəlicədən genlərdə müəyyənləşdirilməmişdir. Lakin bu nəticənin qətiyyən genlərdən asılı olmadığını da söyləmək doğru olmaz. İnkişafın hər bir mərhələsində əldə edilən nəticələr həm genlər, həm də mühitlə şərtlənir. Hər bir mərhələdə əldə edilən nəticədə orqanizmin əvvəlki inkişaf mərhələlərinin nəticəsi hesab edilir.

**4. İnkişafın funksional nəzəriyyəsi-** bu və ya digər psixi funksiyanın yaranması və formalaşması orqanizmin həyatındakı tələbatların

əhəmiyyətindən asılıdır. Burada psixikanın inkişafında həyat tərzinin rolu ön planda durur.

**5. «Bağlılıq» nəzəriyyəsi-** Psixoanalizin təsiri altında meydana gəlmiş və hal-hazırda məşhur olan cərəyanlardın biri olan bu nəzəriyyə amerikan psixoloqdarı Con Boulbi və Mariya Eynsvort tərəfindən irəli sürülmüşdür. Psixoanalizdə olduğu kimi, bu nəzəriyyədə də uşağın inkişafında başlıca amil onun ən yaxın yaşlı ilə münasibəti hesab olunur. Uşağın valideynləri ilə münasibətində, xüsusilə həyatın birinci ilində qazanılmış təcrübə onun sonrakı psixi inkişafında həlledici rol oynayır. Bu nəzəriyyə uşağın anaya bağlılığını psixoanalizin qeyd etdiyi kimi fiziki həzzlə deyil, müdafiə və təhlükəsizlik instinktində görür. Onların fikrincə, bağlılıq anadangəlmə və genetik mexanizmlərlə şərtlənmişdir. C. Boulbiyə görə heyvanlarda olduğu kimi, insanlarda da ana öz balasını ətraf mühitin xoşagəlməz təsirlərindən qoruyur. Təkamül nəticəsində bütün canlılırda xüsusilə təhlükəli şəraitdə anaya bağlılıq instinkt mexanizmi yaranmışdır. Onlar qeyd edir ki, bu instinkt genetik mənşəli olsa da, o, xarici amillərdən, başlıca olaraq ana ilə ilk münasibətin xarakterindən asılıdır. Əgər ana körpənin həyatının ilk aylarında ona qarşı həssaslıq, qayğıkeşlik, onun maraq və tələbatlarına mehribanlıq göstərərsə, körpədə etibarlı bağlılıq və bunun əsasında təhlükəsizlik hissi yaranır. Ananın körpəyə qarşı əks münasibəti isə onda ümidsizlik, soyuqluq hissinin mənbəyinə çevrilir. Bir yaşın sonunda körpənin anaya bağlılığı motivləşmə, davranış sisteminin bazasına çevrilir və onun bazasında uşağın şəxsiyyətinin formalaşması davam edir. Son dövrlərdə amerikan və avropa psixologiyasında uşağın anaya qarşı bağlılığının onun həyatının müxtəlif sahələrində-məktəbdə uğurları, sosial və idrakı problemlərinin həllində yaşıdları ilə münasibətində, sosial mühitə uğurla uyğunlaşmasında həlledici təsiri xüsusi tədqiqatlar vasitəsilə sübut edilmişdir.

**6. Ali psixi funksiyaların mədəni-tarixi inkişafı nəzəriyyəsi.** Bu nəzəriyyə görkəmli rus psixolqu L.S.Vıqotski tərəfindən yaradılmışdır. Həmin nəzəriyyənin başlıca müddəalarını müəllif belə formula etmişdir:

1. Mədəni- tarixi inkişaf prosesində insan çoxcəhətli və çoxsaylı vasitələr, işarə sistemləri yaratmış, bunlardan əmək fəaliyyətində alət kimi, ünsiyyətdə dil kimi və hesablama vasitələri kimi istifadə etməyi öyrənmişdir. Onlardan xüsusilə yazıda istifadə etməklə insan qavrayışdan tutmuş təfəkkürə qədər öz psixi funksiyalarını yenidən qurmuşdur. Tarixi mövcudluq dövründə insanlar tərəfindən iki tip vasitələr yaradılmışdır. Onların birinin köməyi ilə insan təbiətə, (əmək vasitələri), digərinin köməyi ilə (işarə sistemləri) özünə təsir edir.

2. Əmək və işarə sistemi vasitələrinin praktik fəaliyyətdə tətbiqi insanın psixi proseslərinin vasitəsiz formalardan vasitəli formalara keçidində mühüm rol oynayır. Nəticədə, insanın bütün psixi fəaliyyəti yenidən qurulmaqla, heyvanlarla müqayisədə daha yüksək səviyyədə yüksəlir.

3. Təlim öz qarşısına uşağı bu vasitə və işarələrdən istifadə etmək təcrübəsini öyrətmək məqsədini qoyur ki, uşaq onların vasitəsilə öz davranışını və psixi proseslərini idarə etməyi mənimsəyir. Məsələn, yazı hafizəni yaxşılaşdırmaq, onun inkişafını genişləndirmək vasitəsinə, işarə jesti və söz qavrayış və diqqəti idarə etmək üsullarına çevrilir.

4. Müasir mədəni və təhsilli adamın davranışını və psixologiyası bioloji yetişmə və təlim kimi iki prosesin qarşılıqlı təsirinin nəticəsidir. Hər iki proses körpənin dünyaya gəldiyi andan dərhal olaraq başlanır və praktik inkişafın vahid xəttində bitişikdir.

5. Hər hansı psixi funksiya öz genezisində (mənşəyində) iki formaya malikdir: anadangəlmə və yaxud təbii, qazanılmış və ya mədəni. Birinci bioloji cəhətdən determinləşmişdir, ikinci tarixən şərtlənmişdir və vasitəli xarakter daşıyır. Onlar vasitələr və işarələrdən istifadə ilə bağlıdır və onların idarə edilməsi rolunda çıxış edir.

6. Uşağa sistemlərdən və vasitələrdən istifadə etmək üsulları əvvəlcə yaşlıların ünsiyyəti və birgə əşyavi fəaliyyəti ilə göstərilir. Əvvəlcə vasitə və işarələr başqa adamın davranışını idarə etmək vasitələri kimi çıxış edir, sonra isə uşaq üçün öz davranışını idarə etmək vasitələrinə çevrilir. Bu **interiorizasiya,** yəni idarəetmənin şəxsiyyətlərarası funksiyasının şəxsiyyət-daxili funksiyaya çevrilməsi prosesində baş verir. L.S.Vıqotski qeyd etmişdir ki, insanın psixi funksiyaları yalnız ünsiyyət prosesində, müəyyən sosial şərtlər daxilində formalaşa bilər. Bu şərtlər vasitəsilə insan psixikasının spesifik xassələrini- **ixtiyari hafizəni, məntiqi təfəkkürü** və **nitqi** inkişaf etdirmək mümkündür. İnsanın ali psixi funksiyalarının formalaşmasında nitqin inkişafı xüsusi yer tutur. O, göstərmişdir ki, insan psixikası mədəni, sosial işarələrlə xarakterizə olunur. Onların sırasında dil və nitq xüsusi rola malikdir. Nitq işarələrinin təsiri altında və həyatın sosial şərtləri sayəsində psixika «insaniləşir» Rus psixoloqu V.V.Davıdov belə hesab edirdi ki, **«inkişafın sosial şəraiti»** hər şeydən əvvəl uşağın sosial gerçəkliyə münasibətidir. Bü cür münasibət məhz onun fəaliyyəti sayəsində reallaşır. Ona görə də, «inkişafın sosial şəraiti» anlayışını **«aparıcı fəaliyyət»** anlayışına bərabər hüquqlu sinonim hesab etmək olar[1]. Bioloji və sosioloji arqumentləri qarşılaşdıran bir sıra qərb psixoloqlarından fərqli olaraq, rus psixoloqları belə hesab edirdilər ki, **uşağın şəxsi fəallığı** olmadan nə irsiyyət nə də mühit şəxsiyyətin formalaşmasında həlledici rola malik ola bilməz. Yalnız öz fəallığı sayəsində uşaq ətraf mühitin təsirlərini sınaqdan keçirir və bu zaman onun irsi xüsusiyyətlərinin xarakteri üzə çıxır. Uşağın fəallığında onun bioloji və sosial cəhətləri vahid formada təzahür edir. Uşağın şüuru fəaliyyət prosesində formalaşır. Fəallığın təzahür formaları primitiv yamsılama hərəkətlərindən tutumuş təşəbbüskar yaradıcı fəaliyyətə qədər geniş və çoxcəhətlidir. Uşağın fəallığının səmərəliliyi onun yaşlılar tərəfindən idarə edilməsi, yönəldilməsi

[1] bax:Петровский А.Н. Развитие личности и проблема ведущей деятельности. «Вопросы психологии», М., 1987 № 1, стр. 16-17

səviyyəsindən asılıdır. Odur ki, psixi inkişafın bütün mərhələlərində onların fəallığına rəhbərlik etmək vacibdir. Uşağın psixi inkişafına çoxsaylı və müxtəlif amillər təsir göstərir. Elm sadəcə olaraq həmin amilləri, şərtləri tapmağa, onların təsirinin nədən ibarət olduğunu, uşağın bir inkişaf mərhələsindən digərinə necə keçdiyini müəyyənləşdirməyə çalışır. Bu zaman tək-tək, müstəsna hallar deyil, elə ümumi hallar üzə çıxarılır ki, yalnız onların sayəsində uşaq insana, şəxsiyyətə çevrilir. Bu amillər sırasına **uşaq orqanizminin təbii xassələri** (ilk növbədə onun beyninin quruluşu və işi) **uşağı formalaşdıran insan cəmiyyəti,** əhatəsində olduğu, onun **təlim və tərbiyəsi ilə məşğul olan insanlar** aiddir. İctimai təcrübə psixi inkişafın təsirli və mühüm amilidir.

Orqanizmin quruluşu və funksiyaları uşağa irsən valideynlərindən, əcdadalarından ötürülür. Doğularkən o, insana məxsus sinir sisteminə yalnız insana xas olan mürəkkəb psixi fəaliyyət orqanı olmağa qadir beyinə malik olur.Uşağın anadangəlmə təbii xüsusiyyəiləri psixi keyfiyyətləri doğurmur, onların meydana gəlməsi üçün zəruri şərait yaradır. Burada sosioloji irsiləşmə amili əsas rol oynayır.

Psixi keyfiyyətlər kimi zəruri olan davranış əlamətləri uşağın beynində mövcud deyildir. Burada başqa şey- təbii imkanlar kimi verilmiş xüsusiyyətləri həyat şəraiti, təlim və tərbiyə vasitəsilə reallaşdırmaq imkanları mövcuddur. Əgər uşaq canavar kimi gecələr ulamaq imkanları ilə doğulsa, bu imkanın həyatda reallaşması mümkün olardı. Deməli, uşaq insandan doğulduğu üçün öz təbiəti etibarilə insan olmaq imkanlarına «insan genləri»nə malikdir. Uşağın fəallığının təşkilinin əsas formaları **təlim və tərbiyədir.** Təlim və tərbiyə uşağın psixi inkişafını şərtləndirir, onun idrak qabiliyyətlərini, biliklərini, bu bilikləri əldə etmək üsullarını, dünyaya, adamlara və özünə münasibətinin xarakterini müəyyənləşdirir.

Uşağın psixi inkişafı **dialektikanın qanunlarına** tabedir. Təlim və tərbiyə prosesində uşağın psixikasında yeni keyfiyyət dəyişkənlikləri baş

verir.Psixikada yeni yaranan bu keyfiyyətlər əvvəlki, köhnə keyfiyyətlərlə uyğun gəlmir və onlar arasında **uşağın gələcək inkişafının mənbəyində duran ziddiyyətlər** yaranır. Bu ziddiyyətlər sırasına uşağın artan tələbatları ilə tələbatları təmin etmək imkanları arasındakı, uşağın ətrafdakı adamlarla ünsiyyət prosesində yaranan tələbatları ilə bu tələbatları mövcud ünsiyyət səviyyəsi ilə təlim etmək imkanları arasındakı ziddiyyətləri və s. aid etmək olar. Uşağın inkişafının hər bir yaş mərhələsində ziddiyyətlərin çoxcəhətli təzahürləri müşahidə olunur. Konkret bir misala diqqət yetirək. Körpə ona yaxın adamlarla, ilk növbədə ana ilə mimika, testlər və ayrı-ayrı sözlər vasitəsilə ünsiyyət yaradır. Körpə bu sözlərin konkret mənasını bəzən anlamır, lakin o, intonasiya çalarlarını çox dəqiq qavrayır. Körpəlik dövrünün sonunda uşağın yaşlılarla belə emosional ünsiyyəti onun yaş tələbatlarını təmin etmir. Körpə ətraf xarici aləmi daha dərin şəkildə dərk etmək üçün geniş verbal ünsiyyətə ehtiyac duyur. Uşağın potensial imkanları daha geniş və məzmunlu nitqə meydan açır. Deməli, bu halda yeni formalı ünsiyyət tələbatı ilə onların əvvəlki, körpə üsullarla təmin etmək imkanları arasında yaranan ziddiyyətlər **inkişafın hərəkətverici qüvvələri** rolunda çıxış edir. Bu ziddiyyətlərin aradan qaldırılması keyfiyyətcə yeni, fəal və verbal ünsiyyətin-nitqin meydana gəlməsini şərtləndirir. Tələbatlar təmin edildikcə, ziddiyyətlər aradan qalxmış olur. Ziddiyyətlər həyat boyu bir-birini əvəzləyir, inkişaf davam edir.

Dialektik xarakter daşıyan psixi inkişaf bir sıra qanunauyğunluqlara tabedir. **Psixi inkişafın ümumi qanunauyğunluqları** sırasına ilk növbədə psixi inkişafın qeyri- bərabərliyi aid edilir. Bu qanunauyğunluğa görə, şəxsiyyətin psixi xassələri və funksiyaları, müxtəlif psixi təzahürləri hətta ən əlverişli təlim və tərbiyə şəraitində belə, eyni inkişaf səviyyəsində qalmır. Uşağın inkişafının ayrı-ayrı dövrlərində psixikanın inkişafı üçün daha əlverişli şərait yaranır, bəzən isə bu şərait müvəqqəti və keçici xarakter daşıyır. Deməli, psixi fəaliyyətin ayrı-ayrı növlərinin yaranması və artımı üçün konkret , optimal müddətlər mövcuddur. Bu və ya digər psixi funksiya və keyfiyyətlərin

daha optimal surətdə formalaşmasını təmin edən yaş dövrləri **senzitiv dövrlər** adlanır. Bu termin psixologiya elminə məşhur rus psixoloqları L.S.Vıqotski və A.N.Leontyev tərəfindən gətirilmişdir. Belə senzitivliyin səbəbləri beyinin üzvi yetişməsinin qanunauyğunluğu ilə bağlıdır. Psixologiya elmində artıq bir sıra yaş dövrlərinin senzitivliyi haqqında konkret müddətlər müəyyən edilmişdir. Məsələn, 1 yaşdan 5 yaşadək olan dövr **nitqin inkişafı üçün,** kiçik məktəb yaşı dövrü bir sıra hərəki vərdişlərin, 15-20 yaş dövrü isə **riyazi təfəkkürün** formalaşması üçün senzitiv yaş dövrləri hesab edilir.

Digər qanunauyğunluq **psixikanın inteqrasiyası** adlanır. Bu qanuna-uyğunluq müəyyən edir ki, insanın psixikasının inkişafı bütöv, vahid, davamlı və daimi məzmun daşıyır. Psixi inkişaf fraqmentarlıqdan, az sistemli formalardan mürəkkəb, inteqral törəmələrə doğru inkişafdadır.

Psixi inkişafın üçüncü qanunauyğunluğu **plastiklik və kompensasiya imkanları** adlanır. İnsanın sinir sisteminin yüksək plastiklik imkanları böyük rus fizioloqu İ.P. Pavlov tərəfindən müəyyən edilmişdir. O, qeyd etmişdir ki, müvafiq təsirlərə psixakada hər şeyi yaxşıya doğru dəyişdərmək mümkündür. Uşağın, şagirdin psixikasının təlim və tərbiyə şəraitində məqsədyönlü şəkildə inkişaf etdirilməsinin zəngin imkanları məhz psixikanın plastik olmasına konkret sübutdur. Plastiklik kompensasiya üçün imkanlar açır, bir psixi funksiya zəif və ya qüsurlu olduqda, digər funksiyalar daha güclü inkişaf edir. Məsələn, görmə qüsuru olan adamlarda eşitmə analizatoru daha güclü inkişaf edir və onun kompensasiyasını yerinə yetirir. Həddindən artıq **plastiklik və öyrənməyə qabillik** insan beyninə xas olan, onu heyvan beynindən fərqləndirən ən və mühüm xüsusiyyətlərdən biridir. 1929-cu ildə ingilis anatomu **Artur Keyz** insanda 1065 əlaməti ayırd etmişdir ki, bunun da 312-si yalnız insanın özünə aiddir[1]. Xüsusi tədqiqatlar vasitəsilə müəyyən edilmişdir

[1] Фридман Э.П. Занимательная приматология М., «Знание» 1985, стр.135

ki, heyvanlarda beyin quruluşunun təşəkkülü və strukturlaşması əsasən onlar doğulduqları zaman başa çatmış olur. İnsanda isə bu proses doğulduqdan sonra da davam edir və inkişafın baş verdiyi şəraitdən asılı olur. Deməli, bu şərait təkcə beynin «ağ səhifələrini» doldurmur, eyni zamanda onun quruluşuna da təsir edir. Azərbaycan maarifçisi **M.T. Sidqi** uşaqların inkişaf xüsusiyyətlərindən bəhs edərək deyirdi ki, yaş çubuğu əymək asan olduğu kimi, insanı da körpəlikdə tərbiyə etmək çox asandır. Qeyd etmək lazımdır ki, uşağın anadangəlmə , təbii xüsusiyyətləri onun psixi keyfiyyətlərini doğurmur, onların meydana gəlməsi üçün zəruri şərait yaradır. Uşaqlıq dövründə orqanizmin, o cümlədən sinir sistemi və beynin səmərəli yetişməsi prosesi gedir. İlk altı il ərzində beyin kütləsi təxminən üç dəfə yarım artır, onun quruluşu dəyişir, funksiyaları təkmilləşir. Beyinin yetkinləşməsi psixi inkişaf üçün olduqca mühüm əhəmiyyətə malikdir. Bunun nəticəsində müxtəlif hərəkətlərin mənimsənilməsi imkanları genişlənir, uşağın iş qabiliyyəti artır, təlimin daha sistematik və məqsədəyönəlmiş şəkildə həyata keçirilməsinə imkan verən şərait yaranır.

Həyatın ilk altı ili ərzində uşaq ardıcıl olaraq inkişaf edən, onun tələbat və maraqlarını əks etdirən bir neçə fəaliyyət növünə yiyələnir. Bunların içərisində ünsiyyət, əşyavi fəaliyyət və oyun **aparıcı fəaliyyət növləri** kimi diqqəti cəlb edir. Bu fəaliyyət növlərində uşağın başlıca tələbat və maraqları aşkar olur. Burada hər bir yaş dövrü üçün zəruri olan hərəkətlər, psixi keyfiyyətlər yaranır və şəxsiyyətin davamlı xassələrinin təşəkkülü baş verir.

Uşağın fəaliyyəti yalnız müvafiq yaş dövrünə uyğun fəaliyyət növündə nəzərə çarpmır, fəaliyyətin yeni növləri də meydana gəlir və inkişaf edir. Məsələn, məktəbəqədər dövrdə uşaq oyunla yanaşı olaraq, **məhsuldar fəaliyyət növləri** adlandırılan fəaliyyət növlərinə də birləşir. Buraya şəkil çəkmə, yanma, applikasiya, quraşdırma və s. daxildir. Bağça yaşı dövründə uşaqlar müstəqil fəaliyyət növü olmasa da, **əmək tapşırıqlarına, təlim tipli məşğələlərə** də cəlb edilirlər. Biliklərin sistematik və məqsədyönəlmiş

mənimsənilməsi ilə səciyyələnən **təlim** məktəb yaşı dövründə meydana çıxır. Hər bir fəaliyyət növü onun yerinə yetirilməsi və təkmilləşməsi üçün zəruri olan əməliyyatların mənimsənilməsinə, yeni psixi keyfiyyətlərin yaranmasına səbəb olur.

Adi həyati müşahidələr göstərir ki, uşaq nə qədər kiçikdirsə, ona öyrədilənləri daha az mənimsəmək qabiliyyətinə malikdir. Ona görə də, həmin uşaqların mənimsədikləri bilik və bacarıqlar da sadə və elementar xarakter daşıyır. Doğrudan da, iki yaşlı uşağa oxu və yazı öyrətmək, 4 yaşlı uşağa atom nüvəsinin və ya heceyrənin quruluşu barədə danışmaq ağlabatmaz cəfəngiyyatdır. Deməli, öyrətmə məzmun və metod baxımından yaşla uyğunlaşdırılmalıdır.

**Suallar və tapşırıqlar.**

1.Psixi inkişaf haqqında biogenetik konsepsiyanın mahiyyətini izah edin
2. Təbii imkanlar və irsi əlamətlər nəyi əks etdirir,
3. Psixi inkişafda mühit və tərbiyə amillərinin rolunu izah edin.
4. Konvengensiya nəzəriyyəsi nədən bəhs edir?
5. İnkişaf haqqında daha hansı nəzəriyyələr var?
6. «Bağlılıq» nəzəriyyəsinin mahiyyətini izah edin.
7. Ali psixi funksiyaların mədəni- tarixi inkişafı nəzəriyyəsi nədən bəhs edir?
8. Psixi inkişafın hərəkətverici qüvvələri nədən ibarətdir?
9. Psixi inkişafın qanunauyğunluqları hansılardır? Onların mahiyyətini açıb göstərin.

## II. 2 Psixi inkişaf və fəaliyyət

Psixologiya elminin anlayışlar sistemində insanın fəallığını və onun formalarını əks etdirən **fəaliyyət anlayışı** mühüm yer tutur. İnsan öz təbiəti etibarı ilə fəal varlıqdır. O, məşğul olduğu əmək növündən asılı olmayaraq yaradıcı fəallığın subyekti rolunda çıxış edir.

Bu fəallıq sayəsində insan özünü təbiətdən ayırır, bir şəxsiyyət olaraq qarşısına məqsəd qoyur, onun yerinə yetirilməsinə təhrik edən motivləri dərk edir. Bu halda şüurla davranışın vəhdəti təmin olunur. İnsanın fəallığını əks etdirən fəaliyyət tələbatlar sistemi ilə, onun öz mövcudluğunu və inkişafını şərtləndirən təhriklərlə bağlıdır. Tələbatlar həm də insanın idraki və praktik fəaliyyətinin əsas mənbəyidir. Fəaliyyət və onu şərtləndirən tələbatlar insanın yalnız təfəkkürü ilə deyil, həm də iradəsi və hissləri ilə sıx bağlıdır. İradi keyfiyyətlər sayəsində insan qarşısına qoyduğu məqsədə çatmaq yolunda qarşılaşdığı maneələri dəf edir, çətinliklərə sinə gərir. Təmin edilmiş tələbatlar insanda razılıq, məmnunluq, sevinc, rahatlıq və s. kimi müsbət hisslər, təmin olunmamış tələbatlar kədər, qəmginlik, narahatlıq, narazılıq və s. kimi mənfi hisslər yaradır. Sosial kateqoriya olan fəaliyyət insanın dünyaya gəldiyi ilk günlərdən onun bəsit bioloji tələbatlarının ödənilməsinə yönəlmiş fəallığı şəklində üzə çıxır, sonralar tələbatların sosial formalarının meydana gəlməsi ilə əlaqədar olaraq genişlənir və sosial məzmun daşımağa başlayır. İnsanın sosial fəallığı onun bəşəri təcrübəni, insana məxsus fəaliyyət formalarını mənimsəmək vasitəsilə sosiallaşmasında, ictimai və şəxsi fəallığının yüksəlməsində əks olunur. Əməkdə qazanılmış nailiyyətlər daha çox fərdin malik olduğu qabiliyyətlərin məhsulu olduğu kimi, qabiliyyətlər də insanın fəaliyyətinin, fəallığının, fədakarlığı və səylərinin nəticəsidir. Məqsədəyönəlmiş fəaliyyət insanda müəyyən qabiliyyətlərin formalaşmasını şərtləndirir. Qabiliyyətlər isə fəaliyyətin gələcək uğurlarına yol açır. Fəaliyyətə cəlb edilməmiş qabiliyyəti böyük Nizami Gəncəvi belə təsvir edirdi:

Çox iti zehinlər yatan oldular,

Axırda saxsı qab satan oldular.

Psixologiyada fəaliyyət dedikdə, insanın dərk olunmuş məqsədi ilə tənzim olunan daxili və xarici fəallığı nəzərdə tutulur. Bu problemin öyrənilməsi sahəsində XX əsrin əvvəllərindən başlayaraq rus psixoloqları L.S.Vıqotski, A.N.Leontyev, L.İ.Bojoviç, S.L.Rubinşteyn, D.B.Elkonin, A.V. Zaporojets geniş elmi tədqiqatlar aparılmışlar. D.B.Elkonin uşağın anadan olduğu ilk anlardan orta məktəbi qurtaranadək olan dövri əhatə edən psixi inkişaf konsepsiyasını yaratmış, uşağın şəxsiyyət kimi formalaşmasını həm şəxsiyyət, həm də fəaliyyət baxımından araşdırılmışdır. Onun bu nəzəriyyəsinə görə, uşağın idrak sferasının və şəxsiyətinin formalaşması müxtəlif aparıcı fəaliyyət zəminində baş verir. Bu termin ilk dəfə görkəmli rus psixoloqu A.N. Leontyev tərəfindən təklif edilmişdir. Leontyev insanın gerçəkliyə münasibətini əks etdirən elə prosesləri «aparıcı fəaliyyət» adlandırmışdır ki, onlar müvafiq yaş dövründə uyğun tələbatlara cavab vermiş olsun. Onların içərisində bəziləri inkişafda az, digərləri çox rol oynayır. Ona görə də, A.N.Leontyev qeyd edirdi ki, inkişafın ümumiyyətlə fəaliyyətdən deyil, aparıcı fəaliyyətdən asılılığı haqqında danışmaq lazımdır.

Görkəmli psixoloq aparıcı fəaliyyətin üç əsas xarakterik cəhətini müəyyən etmişdir:

1. Aparıcı fəaliyyət elə fəaliyyətdir ki, o, ilk növbədə ayrı-ayrı psixi proseslərin inkişafını şərtləndirir (təfəkkür, hafizə, nitq və s.)

2. O, uşağın şəxsiyyətinin inkişafını və formalaşdırılmasını təmin edir.

3. Məhz aparıcı fəaliyyət çərçivəsində uşağın fəaliyyətinin yeni formaları meydana gəlir[1].

Fəaliyyətin inkişaf mexanizmini araşdıran psixoloq onu **«motivin məqsədə çevrilməsi»** adlandırmış, onun strukturunda iki səviyyəni göstərmişdir:

[1] бах: Смирнова Е.О. Детская психология М., «Владос», 2003, стр.64-65

1) Fəaliyyət- hərəkət- əməliyyat
2) Motiv – məqsəd- vəzifə

Ontogenezdə inkişaf prosesində fəaliyyət növləri dəyişir, biri digərini əvəzləyir. Uşağın şəxsiyyətinin formalaşmasında ilk fəaliyyət forması onun anadan olduğu ilk günlərdən, körpəlik dövründən başlanan ana ilə **vasitəsiz emosional ünsiyyətdir.** Sonralar ünsiyyət formaları uşağın oyun fəaliyyətində, rollu-süjetli oyunlar, yaşıdları ilə birgə təlim və əmək fəaliyyətləri zəminində inkişaf edir, şəxsiyyətinin yeni, törəmə keyfiyyətlərinin formalaşmasında güclü təkan rolunu oynayır. D.B.Elkonin bu cür qrup fəaliyyətini **fəaliyyət və ünsiyyət** adlandırmışdır[1]. D.B.Elkoninə görə, psixi inkişafın mühüm rol oynayan aparıcı fəaliyyətin digər qrupunu uşağın idrak sferasının inkişafı və formalaşmasını təmin edən fəaliyət növləri təşkil edir. Bu, uşağın həyatının ilk üç ilində özünü əks etdirən əşyavi-manipulyativ fəaliyyət, məktəbəqədər yaş dövründə əşyavi oyunlar, məktəb yaş dövründə təlim və istimai faydalı əməkdən ibarətdir.

Deyilənləri nəzərə almaqla uşaqlıq dövründə ünsiyyət və fəaliyyətin aparıcı növlərini belə qruplaşdırmaq olar:

1. Vasitəsiz emosional ünsiyyət( körpəlik dövrü) 1 yaşadək
2. Əşyavi- manipulyativ fəaliyyət (erkən uşaqlıq dövrü) 1-3 yaş.
3. Rollu oyunlar (məktəbəqədər yaş dövrü)- 3-6 yaş
4. Təlim fəaliyyəti (kiçik məktəb yaşı dövrü) 6-10 yaş
5. Şəxsi-intim ünsiyyət (yeniyetməlik dövrü) 11-15 yaş
6. Təlim-peşə fəaliyyəti (ilk gənclik dövrü) 15-18 yaş

Beləliklə, uşağın doğulduğu andan ilk gənclik dövrünə, yəni orta məktəbi qurtaranadək olan yaş dövrlərində aparıcı fəaliyyət növləri növbələşir, biri digərini əvəz edir. Onların bəziləri **əşyavi planda** uşaqların idrak proseslərinin inkişafını təmin etdiyi halda, **ünsiyyət planında** nəzərdən

[1] bax: Эльконин Д.Б. К проблеме периодизации психического развития в детском возрасте (Хрестоматия по возрастной и педагогической психологии) М., «Просвещение», 1981, стр.29

keçirilən fəaliyyət formaları uşaqların şəxsiyyət kimi formalaşmasına təminat yaradır. Uşaqlıq dövründə qeyd olunan fəaliyyət növlərinin dəyişməsi yaş dövrlərinin dəyişməsi ilə şərtləndiyindən bu mərhələlər biri digərindən **inkişafın böhranlı dövrləri** ilə ayrılır. Bu cür kəskin keçid mərhələləri yaş böhranları ilə müşayət olunur.

Məktəbəqədər uşaqlıq dövründə uşağın psixi inkişafında bu yaş dövrü üçün aparıcı fəaliyyət növü olan oyun mühüm yer tutur. Uşaqların həyatının çox hissəsi bu fəaliyyət növü ilə məşğulluğa bağlı olur.

Oyun uşağın psixikasında keyfiyyət dəyişiklikləri yaradır. Məktəbəqədər yaşlı uşaq oyun fəaliyyətində öz üzərinə müxtəlif rollar götürür, bu prosesdə uşaqlar arasında qarşılıqlı münasibətlər formalaşır, onlar rol bölgüsü əsasında öz hüquq və vəzifələrini dərk edirlər.

**Rollu- süjetli oyunlar** uşaqlarda əxlaqi, estetik hisslərin, iradi keyfiyyətlərin formalaşmasında güclü təsirə malikdir. Uşaqların oyun fəaliyyətində öz üzərlərinə götürdükləri sosial rollar çoxcəhətli və genişdir. Ata, ana, həkim, sürücü, müəllim, satıcı və s. kimi rolları öz üzərinə götürən uşaqlar simvolik olaraq bu peşələrə aid olan sosial funksiyaları mənimsəyərək onların ifaçıları rolunda çıxış edirlər.

İctimai-tarixi təcrübəni mənimsəmək uşağın fəallığını şərtləndirir. Bunun əsasında uşaqda müxtəlif fəaliyyət növləri formalaşır. Bunların sırasında idrak, əşyavi oyun, elementar əmək və təlim, həmçinin ünsiyyət kimi fəaliyyət formalarını aid etmək olar. Bu və ya digər fəaliyyəti öz fəallığı sayəsində mənimsəməyən uşaq eyni zamanda müvafiq fəaliyyət növünə aid olan bilik, bacarıq və vərdişləri mənimsəyir. Fəaliyyyətdə uşağın fəal mövqeyi onu tərbiyənin obyekti olmaqla yanaşı, həm də subyektə çevirir. Bu, uşağın tərbiyəsi və inkişafında fəaliyyətin apardığı rol oynadığını göstərir. Uşaqların inkişafının müxtəlif yaş dövrlərində ayrı-ayrı fəaliyyət növləri mövcud olur və bir-birini əvəz edir.İstənilən fəaliyyətin strukturunda **tələbatlar, motivlər, məqsədlər, fəaliyyətin predmeti, vasitələri, əməliyyatları və nəticələri**

kimi müxtəlif komponentlər mövcuddur. Elmi tədqiqatlar vasitəsilə sübut olunmuşdur ki, uşaq fəaliyyət növlərinə birbaşa və sərbəst şəkildə deyil, yaşlıların köməyi və rəhbərliyi altında yiyələnir. Rus psixoloqu A.N.Leontyev qeyd etmişdir ki, uşağın fəaliyyətinin zənginliyi və çoxcəhətliyi, onlara sahib olmaq sahəsində uğurları uşağın və bağçada tərbiyə və təlim edilməsi şəraitindən asılıdır. Həyatın ilk illərin ailədə də elementar fəaliyyət növləri uşağın şəxsi qabiliyyətlərinin, xüsusiyyətlərinin formalaşmasının əsasını təşkil edir. Uşağın yaşlılarla elementar ünsiyyət formaları (emosional və emosional əşyavi) ilk uşaqlıq illərində təsəvvürlərin formalaşmasında, təəssüratların zənginləşməsində mühüm rol oynayır. Get-gedə yeni fəaliyyət üsullarını mənimsəməklə uşağın fəallığı yüksəlir. Həyatın ilk illərində uşaqda ünsiyyətlə birləşmiş tədqiqatçılıq- bələdləşmə fəaliyyəti, əşyavi əməliyyatlar əhəmiyyətli yer tutur. Məktəbəqədər yaş dövründə uşağın həyatında oyun yeni bir fəaliyyət növü olmaqla, ön plana çıxır və uşağın **sosial, idraki** və **hərəki fəallığının** zəruri amilinə çevrilir. Bu yaş dövründə oyunun geniş və çoxcəhətli formaları meydana gəlir. Rollu-süjetli, qaydalı, didaktik, mütəhərrik, stolüstü və s. kimi oyun növləri uşağın **sensor tərbiyəsində,** onların idrak qabiliyyətlərinin, münasibətlər sisteminin formalaşmasında, yaşlılar və yaşıdları ilə ünsiyyətinin genişlənməsində güclü stimula çevrilir. Oyun uşaqların təxəyyülünü inkişaf etdirir, ətraf aləm, insanların əməyi haqqında biliklərinin, kollektivçilik hisslərinin formalaşmasında əhəmiyyətli rol oynayır. Bu fəaliyyət növləri məktəbəqədər uşaqlıq illərində təxəyyülün, qurucu təfəkkürün, bədii və ilkin yaradıcı qabiliyyətlərin inkişafının ilkin mənbələri hesab olunur. Uşağa müntəzəm verilən əmək tapşırıqları onlarda öz fəaliyyətini ictimai maraqlara, ictimai- faydalı işlərə tabe etmək bacarıqlarını formalaşdırır.

Bağçada aparılan təlim tipli məşğələlər uşaqların ətraf xarici aləm-təbiət, ictimai həyat, insanların əməyi və s. haqqında əqli və praktik bacarıqlarının formalaşdırılmasına təkan verir. Uşaqların bu məşğələlərdə əldə etdikləri bilik və bacarıqlar oyun və əmək fəaliyətində tətbiq olunur. Tələbatların, hisslərin,

motivlərin və məqsədlərin inkişafı məktəbəqədər yaş dövründə elə bir inkişaf səviyyəsinə çatır ki, bu uşağa məktəbdə **sistematik təlimə** başlamağa imkan yaradır. Təlim, tərbiyə və inkişafda fəaliyyətin aparıcı rolu haqqında müddəaya istinadla qeyd etmək lazımdır ki, ailədə, təlim və tərbiyə müəssisələrində uşağın həyatını elə təşkil etmək lazımdır ki, bu rəngarəng fəaliyyət formaları ilə növbələşsin və uşağın psixi həyatına zənginlik gətirsin.

**Suallar və tapşırıqlar.**

1. «Fəaliyyət» anlayışı nəyi əks etdirir, onun mənbəyini nə təşkil edir?
2. Bioloji və sosial məzmunlu tələbatların əsas fərqi nədədir?
3. «Fəaliyyət» və «aparıcı fəaliyyət» anlayışlarının psixoloji təhlilini verin.
4. Aparıcı fəaliyyətin əsas xarakterik cəhətləri hansılardır?
5. Uşaqlıq illərində fəaliyyət növləri hansılardır? Onların əvəzlənmə şərtlərini söyləyin.
6. Psixi inkişafın yaş dövrləri bir-birindən nə ilə ayrılır?
7. Fəaliyyətin psixoloji strukturuna nələr daxildir?
8. Məktəbəqədər yaş dövründə uşağın başlıca və yardımçı fəaliyyət növləri hansılardır?
9. Uşağın psixi inkişafında fəaliyyətin əhəmiyyətini əsaslandırın.

## II.3. Psixi inkişaf və ünsiyyət

Şəxsiyyətin formalaşmasına fəal təsir göstərən amillərdən biri də **ünsiyyətdir.** O, psixi inkişafın gedişində üzə çıxsa da, bilavasitə onu şərtləndirir, fəaliyyətin tərkib hissəsi kimi özünü göstərir. Böyüməkdə olan uşağın şəxsiyyətinin formalaşmasında bir çox digər psixoloji törəmələr kimi ünsiyyət tələbatı da aparıcı rola malikdir. Bu tələbatın təzahürləri böyük M.Füzulinin «Leyli və Məcnun» poemasının başlanğıcında təsvir etdiyi bir rəvayətdə aydın görünür. Şair uşağın həmyaşıda, dosta olan tələbatını böyük bir psixoloq kimi poetik dillə təsvir edir və göstərir ki, ailədə zəngin mühitdə böyüyən, yaxşı tərbiyə olunan sağlam uşaq elə bir yaş həddinə gəlib çatır ki, o, şıltaqlaşır, hər cür sakitləşmir. Bu oğlanın xoşuna gələn bir yoldaş tapmasını maraqlı təsvir edən şair göstərir ki, yaxşı ünsiyyət mühiti və tərəfdaş insanın fəallığını artırır, əhvalında gümrahlıq yaradır, hisslərini və zövqünü cilalayır.

Psixoloji tədqiqat materialları, həyat müşahidələri sübut edir ki, ünsiyyət tələbatı insanın bütün həyatı boyu keyfiyyətcə daim dəyişən, dinamik və potensial olaraq zəngin psixi imkandır. Ontogenezin müxtəlif mərhələlərində ünsiyyət tələbatının yeni-yeni modifikasiyaları, fərqləndirici təzahürləri meydana gəlmişdir. Körpənin ünsiyyət tələbatı öz başlanğıcını yaşlıların xoş niyyətli, xeyirxah təbəssüm və baxışlarından götürür, sonralar uşağın özünü təsdiq etməyə, müstəqilliyə, yaxın adamlarla ruhi-mənəvi bağlılığa çevrilir, onlar üçün darıxma həddinə qədər yüksəlmiş olur. Bu əsasda qeyd etmək olar ki, ünsiyyət tələbatı insan psixikasının şəxsiyyətyönümlü inteqral keyfiyyətidir, onun davamlı və bütöv bir sistem kimi özünü dərketməsinin və fərdiyyətinin əsasıdır.

Ünsiyyət mürəkkəb və çoxcəhətli bir proses olub, insanlar arasında əlaqələrin yaranmasında və inkişafında, onların birgə fəaliyyətində, informasiya mübadiləsində, həmçinin bir-biriləri optik qavramasında mühüm

rol oynayır. Bu cəhətdən ünsiyyət strukturunda onun üç başlıca cəhəti: **kommunikativ, interaktiv** və **perseptiv** cəhətləri fərqləndirilir. Ünsiyyət fəaliyyətinin kommunikativ funksiyası bu prosesin subyektləri arasında informasiya mübadiləsinin gedişində üzə çıxır. Onun vasitəsilə insanlar bir-birinin məqsəd, niyyət və ustanovkalarını nəzərə almaqla, fəal subyektlər rolunda çıxış edir, öz biliklərini dəqiqləşdirir, yeni məlumatlar əldə edir və onların zənginləşməsinə nail olurlar. Kommunikativ prosesdə insanlar ünsiyyət vasitəsi kimi başlıca olaraq danışıq işarələri sistemi, **simvollar toplusu olan dildən,** buna müvafiq olaraq nitqdən, həmçinin optik- kinetik işarələr sisitemi kimi jest, mimika və pantomimikadan, para və ekstralinqvistik sistemdən (intonasiya, pauza) və gözün əlaqə sistemindən istifadə edirlər. Dilçilərin fikrincə, hazırda dünyada 5000-dən artıq danışıq dili mövcuddur.

Ünsiyyətin **interaktiv** tərəfi bu prosesə qoşulan insanların ümumi qarşılıqlı fəaliyyət strategiyasının qurulmasına əsaslanır. Psixoloqlar insanlar arasında qarşılıqlı təsirin iki başlıca formasını- **kooperasiya və konquryentliyi** fərqləndirirlər. Bunlardan birincisi adamların razılığına, ikincisi isə anlar arasında konfliktə əsaslanır.

Ünsiyyətin **perseptiv** tərəfi dedikdə, bir adamda başqa adam haqqında obrazın formalaşması, onun fiziki və psixoloji xarakteristikası, psixoloji xüsusiyyətləri və davranışı haqqında təsəvvürlərin yaranması başa düşülür. Bir adamın başqasını qavramasının əsas mexanizmi **identifikasiya** (oxşatma) və **refleksiyadır**. (subyektin özünün başqaları tərəfindən necə qavranıldığını dərk etməsi).

Qeyd etmək lazımdır ki, ünsiyyət vasitəsilə insanlar arasındakı əlaqələr hər bir fərdin mövcudluğunun zəruri şərtidir. Psixoloqlar insanlar arasında ünsiyyətin üç əsas səviyyəsini fərqləndirirlər. **Birinci səviyyədə** (mikrosəviyyə) ünsiyyət şəxsiyyətin həyat tərzinin mühüm cəhəti kimi özünü göstərir. Burada onun hansı adamlarla əlaqə qurması, əsas fəaliyyəti,

formalaşmış ünsiyyət stili və digər parametrlər aşkar şəkildə üzə çıxır. Bütün bunlar ictimai münasibətlərlə, şəxsiyyətin həyatının sosial şərtləri ilə sıx bağlı olur. Bu səviyyədə şəxsiyyət müəyyən etiket və qaydaları, ənənələri, başqa adamlarla ünsiyyət normalarını nəzərə almalı olur.

**İkinci səviyyədə** (mezasəviyyə) şəxsiyyət başqaları ilə müəyyən mövzu ətrafında əlaqələr yaradır. Bu səviyyədə ünsiyyət bir adamın başqa bir adamla və qrupla ünsiyyəti şəklində qurulur, ya bir görüş ərzində başa çatır, ya da saatlarla günlərlə davam edir.

**Üçüncü səviyyədə** (mikrosəviyyə) ünsiyyət elementar vahidlər vasitəsilə («sual-cavab», «əl sıxma», «minemik hərəkət və baxışlar», «cavab» və s.) həyata keçirilir[1].

İnsanın ünsiyyət fəaliyyətinə, xüsusilə, sosial ünsiyyət normalarına yiyələnməsi çoxcəhətli və mürəkkəb, uzunmüddətli bir prosesdir. Yeni doğulan körpə potensial şəxsiyyət imkanlarına malikdir. Həyatın ilk aylarından başlayaraq özünün ən yaxın sosial əhatəsinə bağlılığı onun məhdud səviyyədə də olsa, emosional ünsiyyət imkanları ilə reallaşmağa başlayır. Təbəssüm körpənin təbii tələbatlarının təmin edilməsindən məmnunluğunu ifadə edir. Həyatın birinci ilində uşaq öz valideynlərinə , xüsusilə anaya xüsusi əlaqə- psixoloji əlaqə vasitəsilə sıx bağlı olur. Bu əlaqənin möhkəmləndirilməsi və düzgün reallaşması uşağın inkişafına, onun müstəqillik imkanlarının genişləndirilməsinə münasibətdən asılıdır. Bu dövrdə uşağın həyatında aparıcı tələbat ünsiyyət tələbatıdır. Yaşlı ilə körpə arasında emosional ünsiyyət formasında qurulan əlaqələr informasiya mübadiləsi imkanlarından hələ çox uzaq olur. Psixoloq və həkimlərə yaxşı məlumdur ki, körpəlik dövründə ünsiyyətdən, xüsusilə ana ilə ünsiyyətdən məhrum edilmiş uşaqlar psixi inkişaf səviyyəsinə görə bu imkanlara malik uşaqlardan geri qalırlar. Bu cəhətdən hind şahzadəsi **Böyük Əkbərin** apardığı dəhşətli eksperimenti xatırlamaq kifayətdir. O, yeni doğulmuş hind, çin, benqal və

[1] Общая психология (под ред. В.В.Богословского, А.Г.Ковалева, А.А.Степанова.М.,»Просвещение»,1981, стр. 113-114.

monqol uşaqlarını analarından alıb xüsusi mağaralarda yerləşdirmiş, onların təlimi və tərbiyəsini lal tərbiyəçilərə tapşırmışdı. 10 yaşlarında uşaqlara tamaşa etməyə getmişlər: onların heç biri ana dilində danışa bilməmiş, heyvani səslər çıxarmışlar. Alman psixoloqu **R.Şpits** 3 aylıqdan anadan ayrılaraq uşaq evində tərbiyə olunan uşaqlar üzərində müşahidələr aparmışdır. Burada qulluq, qidalanma və gigiyenik şərait həmin dövrdə mövcud olan bu tipli müəssisələr üçün qaneedici səviyyədə idi. Lakin bütün uşaqlarda nəinki psixi, həm də fiziki inkişafın göstəriciləri kəskin şəkildə geri qalırdı. İki il ərzində uşaqların yarısı ölmüşdü. Sağ qalan uşaqlar 3-4 yaşında belə, müstəqil gəzmək, sərbəst oturmaq, qaşıqla yemək, geyinmək qabiliyyətinə malik deyildi. Onlar ətrafdakı adamlarla əlaqə yarada bilmirdilər.

Psixoloqların qənaətinə görə , əgər uşaq bir yaşınadək anadan ayrılarsa və ya uzun müddət tənha şəraitdə xəstəxanada müalicə olunarsa, belə uşaqları çoxunda **qospitalizm əlamətləri** müşahidə olunur: əvvəlcə onlar ağlağan, qəmgin, qorxaq olur, ünsiyyət təşəbbüsləri zamanı isə, var qüvvələri ilə yaşlıları qucaqlayır, onlara sıxılır, diqqət tələb edirlər. Belə hal uzun müddət davam etdikdə, uşaqda oynamağa maraq olmur. O çarpayıda arxası üstə yatır, saatlarla hərəkətsiz, gözlərini geniş açmış vəziyyətdə qalır, sanki ətraf aləmdən heç nəyi qavramır. Belə hal yarandıqda uşaqla ünsiyyət yaratmaq çox çətin olur, bəzən isə bu təşəbbüslər baş tutmur. Yaranmış vəziyyət uşağın psixi və fiziki inkişafına güclü zərbə vurur, onun inkişaf tempi zəifləyir, çəkisi azalır, yuxu rejimi pozulur, orqanizmin hər cür infeksiyalara qarşı müqavimət qüvvəsi azalır. Belə patoloji halların yaranması üçün körpənin anadan bir-iki ay müddətinə təcrid olunması kifayətdir. Körpəlik dövründə bu cür halların az ifadəli təzahürləri ailədə, valideynlərin, ən yaxın sosial əhatənin dairəsində də baş verə bilər. Əgər valideynlər uşağa lazımi səviyyədə diqqət və qayğı göstərməsələr, onu qucaqlarına götürüb əzizləməsələr, onunla ünsiyyətə qoşulmasalar körpənin psixikasında yuxarıda söylənilən xoşagəlməz təzahürlər yarana bilər.

Normal psixi imkanlarla doğulmuş uşağın xarici aləmi dərk etməsində dil mühüm rol oynayır. Nitqəqədərki mərhələdə körpə dünyanı sadə **sensomotor** (hissi-hərəki) sxemlər vasitəsilə dərk edir. Oyuncaqlarla əylənmək, daha sonra yaşlıları təqlid etmək yolu ilə uşaq əşyaların forması ilə tanış olur, hadisələr arasındakı səbəb-nəticə əlaqələrini anlamağa başlayır. Bu üsulla o, öz bədənini idarə etməyi öyrənir, hərəki vərdişlər qazanır. Psixoloqlar bunu obrazlı şəkildə **«davranış dili»** adlandırmışlar. Rus psixoloqları A.R.Luriya və F.Y.Yudoviç bu fikri biryumurtalı əkiz qardaşlar Leşa və Yura üzərində apardıqları uzunmüddətli müşahidələr nəticəsində təsdiq etmişlər. Bu uşaqlar gec danışmağa başlamışdılar. İki yaş 6 aylığında onlar cəmi iki söz-ata və ana sözlərini bilirdilər. Beş yaş yarımda onların birgə oyun fəaliyyəti zamanı ünsiyyətlərindəki sözlərini dörddə üçü onların adından və «hə», «yox», «orada», «belə», «budur» və s. kimi qısa sözlərdən ibarət idi. Onların oyunları fantaziyadan məhrum idi. Uşaqlar kubikləri sevsələr də, heç vaxt onlardan bir şey qurmamışdılar, sadəcə olaraq onların yerini dəyişdirirdilər. Loto tipli bir qədər mürəkkəb oyunlar onları qətiyyən maraqlandırmırdı. Leşa və Yuranın nitqini stimullaşdırmaq üçün onları uşaq bağçasının müxtəlif qruplarına yerləşdirdilər. Belə fərziyyə irəli sürülürdü ki, daha inkişaf etmiş uşaqlar mühitində ünsiyyət və oyun, yəni dil vərdişləri fəal inkişaf edəcəkdir. Lakin belə olmadı, ilk vaxtlar əkizlər oyunların mənasını anlamır, onun qaydalarını başa düşmürdülər. Cəmi 3 ay keçdikdən sonra əkizlərdə dilin mənimsənilməsi sahəsində hiss olunacaq uğurlar müşahidə olunurdu. Bir neçə ayda onların psixikası da dəyişmişdi. Oyun zamanı fantaziya özünü göstərirdi: onlar kubiklərdən qaranlıq tunel tikir, ağır yük maşınının hərəkətini səsləri və jestləri ilə təqlid edirdilər[1]. Bu misal dil və nitqin uşağın psixi inkişafında əhəmiyyətli rol oynadığı faktını təsdiq edir.

Körpənin özünəməxsus psixi həyatı onun sosial davranışının təzahürlərində əks olunur. Sosial davranış dedikdə, insanın başqa adamlarla

[1] bax.Панов Е.Н. Знаки, символы,языки. М., «Знание», 1980, стр.41-42

qarşılıqlı münasibətləri başa düşülür. Körpəlik dövründə uşaq ətrafında başqa adamların da olduğunu, kimin isə onunla oynamaq istədiyini anlamasa da, adamları ətraf xarici aləmin fiziki obyektlərindən fərqləndirə bilir.

Son illər aparılmış tədqiqatlar körpələrdə sosial fəallığın olmaması haqqında təsəvvürləri aradan qaldırmışdır. Məlum olmuşdur ki, həyatın ilk günlərindən etibarən körpələr yaşlıların nitqinə, onların tələffüz etdikləri sözlərin ritminə taktı duyma hissi ilə uyğunlaşırlar. Belə videoçəkilişlərin kadraltı təhlili çağalıq dövründə əl və barmaqların ritm hissi səviyyəsində sübuta yetirilmişdir. Müəyyən edilmişdir ki, ünsiyyət prosesində körpəyə müraciət edən yaşlı özündən asılı olmadan analoji mikrohərəkətlər edir, körpənin və ona doğma olan yaşlının hərəkət ritmləri uyğun gəlir. Bu halda uşaqla ünsiyyətin hansı dildə qurulmasının fərqi yoxdur. Psixoloqlar bunu **«sipxron qarşılıqlı təsir»** adlandırılmışlar. Bu cür təsir forması spesifik olaraq insanlara məxsus olan bir qabiliyyətdir. İndiyədək heyvanların davranışında belə ünsiyyət forması aşkar edilməmişdir. Uşağın yamsılama hərəkətləri və sinixron qarşılıqlı təsir effektləri təcrübəsiz müşahidəçinin gözündən yayınan fenomenlərdir. Xüsusi videoçəkilişlər vasitəsilə müəyyən edilmişdir ki, artıq altı günlük körpədə ilk yamsılama hərəkətləri müşahidə olunur. Belə kadrlarda körpəyə baxıb danışan ananın hərəkətlərinə o, dili çıxarmaq, ağzı və gözü açma kimi uyğun hərəkətlərinə cavab reaksiyası göstərir. İnsana məxsus spesifik emosional reaksiya olan təbəssüm ikiaylıq körpələrin həyatında müşahidə olunur. Bu baxımdan çex tədqiqatçısı Panausekin 6-9 aylıq körpələr üzərində apardığı təcrübələr maraqlıdır. O, bu yaşda olan körpələrə başı çevirməklə rəngli lampaları yandırmağı öyrətməyə nail olmuşdu. Bu təcrübə körpələrdə müsbət emosiya yaratdığından onların davranışının stimuluna çevrilmişdi. ABŞ psixoloqu **C.Bruner** beş-altı həftəlik körpələrlə maraqlı eksperimentlər keçirmişdir. O, körpələri xüsusi cihazlar vasitəsilə eksperimentə cəlb etmiş, süd dolu şüşəni əmmə intensivliyi ilə ekrandakı

təsvirlərin görünməsi arasında məqsədəuyğun rabitə yaratmağa nail olmuşdur.

Bir yaşın sonunadək körpənin fərdi psixi həyatında ünsiyyət formalarının mənimsənilməsi, xüsusilə ünsiyətdə qeyri-verbal vasitlərdən istifadə əsas yer tutur. Psixoloqlar uşağın nitqə yiyələnməsini, onun ilk sözləri tələffüz etməsini nitqin inkişafının başlanğıcı deyil, onun yekunu, bu sahədə inkişafın bütöv bir dövrünün nəticəsi kimi qiymətləndirirlər. Onların nitqəqədərki inkişaf dövrü adlandırdıqları bü mərhələ körpənin sosial nitqə yiyələnmə mərhələsinin başlanğıcı hesab olunur. Bu mərhələdə sözsüz həyata keçirilən ünsiyyət (qeyri-verbal kommunikasiya) uşaqlarda situasiyanı anlama qabiliyyətini və həmçinin bütöv qrammatik konstruksiyaların (söz birləşməsi və cümlələr) formalaşmasını şərtləndirir.

Yeni doğulan körpənin emosional həyatında **ağlama reaksiyası** əsas yer tutur. Onun ağlama səsləri adətən bir not üzərində monoton ritm üzrə baş verir. Körpənin rahatlığı( komfort) və narahatlığından (diskomfort) asılı olaraq onun nitqində bəzi xüsusi səslər müşahidə olunur. Körpənin qırıq-qırıq ağlaması və əmmə hərəkətlərinin təqlidi zamanı artikulyar aparatın təsadüfi hərəkətləri onun səs repertuarını zənginləşdirir. **Vokolizasiya** adlanan bu proses öz forma və xarakterinə görə dəyişir, körpənin daxili vəziyyətindən, xarici mühitin təsirlərindən asılı olaraq müxtəlif fizioloji reaksiyaların yaranması baş verir. Dörd aylığında körpə ona yönəlmiş nitqə qarşı təbəssümlə cavab verir. Bu dövrdə uşağın səs fəallığında sıçrayış müşahidə olunur. Əvvəlcə körpə **«a»** və **«o»** səslərini, sonra isə **m,b,p,d** kimi samitləri tələffüz edir. Tədricən uşaq müəyyən səs birləşmələrini özünəməxsus şəkildə təkrarlamağa başlayır. Bu səs birləşmələri sırasında **day-day-day, ta-ta-ta, ma-ma-ma** tipli səs birləşmələri əsas yer tutur. Yaşlıların uşaqla verbal ünsiyyəti məhdud olduqda, bu uşağın nitqinin inkişafının ləngiməsinə gətirib çıxarır. Bu ləngiməyə səbəb olan amillərdən biri də, psixoloqların fikrincə, **yaşlılırın hədsiz çox danışmasıdır**. Yaşlıların çoxsözlü və mürəkkəb nitqi

uşaqlarda nitqin inkişafına ləngidici təsir göstərən amillərdən biridir. Məşhur İsveçrə psixoloqu J.Piaje belə hesab edirdi ki, uşaqlarda dilin mənimsənilməsi imkanları onlarda idrak qabiliyyətlərinin inkişaf səviyyəsindən asılıdır.

Uşağın tələffüz etdiyi ilk söz onun ana dilini və onun vasitəsilə bəşər mədəniyyətini mənimsənilməsi kimi uzun və çətin bir yolda ilk inamsız addımının başlanğıcıdır. Psixoloqlar belə hesab edirlər ki, uşağın dil açarkən tələffüz etdiyi ilk sözlər sadəcə olaraq səs təqlidindən ibarətdir[1].

Əlverişsiz ünsiyyət mühitində böyüyən 2 yaşlı uşaqların lüğətində 26, 3 yaşlı uşaqların lüğətində 195 söz olduğu halda, yaşlılarla daimi ünsiyyət şəraitində böyüyən uşaqlarda bu göstərici müvafiq olaraq 285 və 2050-yə bərabər olur.

Uşaqlarda ünsiyyət fəaliyyyətinin formalaşması onların psixi inkişafının mühüm tərkib hissəsidir. Danışıq işarələri sistemi və ünsiyyət vasitəsi kimi dilin mənimsənilməsi aşağıdakı əsas xüsusiyyətlərlə xarakterizə olunur.

1. Uşaqların nitqin mənimsəməsi üçün əvəzedilməz amillərdən biri onların yaşlılarla sistematik nitqli ünsiyyətidir.

2. Kənar adamın nitqinin anlaşılması uşaqlarda müstəqil şifahi nitqin formalaşmasından əvvəl başlayır.

3. Nitqin sonrakı inkişafı dilin qrammatik və sintaktik formalarının düzgün mənimsənilməsindən asılıdır.

4. Nitqin inkişafında məktəbdə tədris edilən dil və ədəbiyyat fənlərinin böyük əhəmiyyəti vardır[1]

## Suallar və tapşırıqlar.

1. Fəaliyyət anlayışı ilə «ünsiyyət» anlayışının qarşılıqlı münasibətini izah edin.
2. Ünsiyyətin psixoloji strukturuna nələr daxildir?

[1] Панов Е.Г. Знаки, языки, символы. М., «Знание» 1980, стр. 6
[1] Рудик П.А.Психология М.,»Физкультура и спорт», 1976 стр.154-155

3.Ünsiyyətin kommunikativ, perseptiv və interaktiv funksiyalarının psixoloji mahiyyətini göstərin.

4.İnsanlar arasında ünsiyyətin hansı səviyyələri vardır?

5.«Qospitalizm»in səbəbləri nədən ibarətdir?

6.»Sinxron qarşılıqlı təsir» nə deməkdir?

7.Körpənin ünsiyyət fəaliyyətində verbal və qeyri-verbal vasitələr hansıdır?

8.Uşaqların nitqə yiyələnməsinin əsas mərhələləri hansıdır?

9.Uşaqların dili mənimsəmə prosesinin əsas xüsusiyyətlərini söyləyin.

## II.4 Psixi inkişaf və təlim

Təlim və inkişafın qarşılıqlı münasibəti problemi yalnız metodoloji deyil, həm də praktik psixoloji, pedaqoji və sosial problemdir. Onun düzgün müəyyənləşdirilməsindən təlim və tərbiyə işinin məzmunu, metod və formaları əhəmiyyətli şəkildə asılıdır.

Məlumdur ki, «təlim» anlayışı hazır biliklərin müəllimdən şagirdə ötürülməsi, geniş mənada, öyrədilənlərlə öyrədən arasında qarşılıqlı münasibətlər, pedaqoji proses vasitəsilə öyrədilənlərə elmi bilik, bacarıq və vərdişlərin, fəaliyyət üsullarının mənimsədilməsinin məşkilini nəzərdə tutur. Bu proses şagirdlərin daxili və xarici fəallığının stimullaşdırılması və idarə olunmasına, nəticədə bəşəri təcrübənin mənimsədilməsinə yönəldilmişdir. Təlimin inkişafa təsiri dedikdə, bir-biri ilə sıx bağlı olan iki müxtəlif hadisələr kateqoriyası başa düşülür: xüsusi bioloji, yəni, beynin üzvi yetişməsi, onun anatomik- bioloji sitrukturlarının formalaşmasının müəyyən inkişaf dinamikası və müəyyən səviyyədə əqli yetişmə. Əlbəttə, əqli inkişaf beyin strukturlarının bioloji yetkinliyi ilə birbaşa olaraq əlaqədardır. Pedaqoji prosesdə, uşaqların təlimi, tərbiyəsi və inkişafında bu cəhətin nəzərə alınması olduqca vacibdir. Ötən əsrin əvvəllərində bu məsələyə diqqət yetirməyin zəruriliyini ön plana çəkən N.Nərimanov yazırdı: «Uşaqların bir parası zehinli, fəhmsiz, zəkavətli, bir parası zehinsiz, fəhmsiz, bir parasının qüvveyi hafizəsi qüvvətli, bir

parasınınki paqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur[1] Bununla belə, beyin strukturlarının üzvi yetişməsinin mühitdən, təlim və tərbiyə şəraitindən asılılığı artıq müasir elmi faktlar əsasında sübuta yetirilmişdir. Deməli, əqli inkişafdan söhbət gedərkən onun beynin bioloji yetişməsi prosesi ilə vəhdətdə baş verdiyini nəzərə almaq lazımdır. Müasir pedaqogika və psixologiya elmlərində təlimlə inkişafın qarşılıqlı münasibətinin aydınlaşdırılması istiqamətində üç nöqteyi- nəzər diqqəti cəlb edir. Birinci daha geniş yayılmış nöqteyi-nəzər ondan ibarətdir ki, təlim və inkişaf bir-birindən asılı olmayan iki müstəqil prosesdir. Lakin təlim sanki beynin yetişməsi üzərində qurulur. Beləliklə, təlim inkişaf prosesində təzahür edən imkanların sırf şəkildə zahiri görüntüsüdür. Alman alimi **V.Ştern** yazırdı ki, inkişaf təlimin arxasınca gedir və ona uyğunlaşır. Bu belə olduğu halda, əqli yetişmə prosesinə müdaxilə etmək, ona mane olmaq lazım deyil, beynin təlim üçün yetişməsinədək səbrlə, passiv şəkildə gözləmək lazımdır. Məhşur İsveçrə psixoloqu **J.Piaje** bu məsələyə öz münasibətini bildirərkən qeyd etmişdir ki, **əqli inkişaf** öz daxili qanunları üzrə gedir. Ona görə də, təlim bu prosesi əhəmiyyətsiz dərəcədə sürətləndirə və ya ləngidə bilər. Nə qədər ki, uşaqda məntiqi təfəkkür formalaşmamışdır, ona məntiqi düşünməyi öyrətmək ağlasığmazdır.

Təlim və inkişafın qarşılıqlı münasibətləri haqqında ikinci nöqteyi-nəzərin tərəfdarları, bihevioristlər (Ceyms, Torndayk) təlimlə inkişafı qarışdırır, bu prosesləri bir-biri ilə eyniləşdirdilər. Bu problemə aydınlıq gətirməyə çalışan **üçüncü** istiqamətin tərəfdarları (Koffka və b.) isə birinci iki nöqteyi-nəzəri birləşdirərək ona öz əlavələrini də daxil etməklə, belə hesab edirlər ki, təlim inkişafın ardınca addımbaaddım gedə bilməz, o inkişafın önündə də gedərək ona yeniliklər gətirə bilər. XX əsrin əvvəllərində bu problemə tamamilə yeni baxış rus psixoloqu L.S.Vıqotski tərəfindən gətirilmişdir. O, şəxsiyyətin inkişafında təlimin aparıcı rolu haqqında tezisi elmi-psixoloji baxımdan

[1] bax. Ə.G.Seyidov Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. B., «Maarif», 1987, səh.280

əsaslandırmağa nail olmuşdur. Bununla əlaqədar olaraq L.S.Vıqotski uşağın əqli inkişafında iki səviyyəni fərqləndirmişdir.

Birinci səviyyə **aktual inkişaf zonası** olub, uşağın hazırlığının faktiki vəziyyətini əks etdirir. Bu səviyyə uşağın tam sərbəst olaraq yerinə yetirdiyi tapşırıqlarla səviyyələnir. İkinci, daha yüksək səviyyəni isə o, **yaxın inkişaf zonası** adlandırmışdır. Bu səviyyə birincidən fərqli olaraq, uşağın müstəqil deyil, yaşlıların müəyyən qədər köməyi ilə verilən tapqırığı yerinə yetirməsi imkanlarını xarakterizə edir. L.S.Vıqotski qeyd edirdi ki, uşaq bu cün yaşlıların köməyi ilə yerinə yetirdiklərini, sabah müstəqil olaraq yerinə yetirəcək. Yaxın inkişaf zonasına daxil olan, təlim prosesində aktual inkişaf zonasına keçir. Beləliklə, şəxsiyyətin inkişafı bütün istiqamətlərdə gedir. Müasir psixologiya elmində şəxsiyyətin təlimi və inkişafının **dialektik qarşılıqlı əlaqələri** haqqında L.S.Vıqotski tərəfindən irəli sürülən konsepsiya daha geniş yayılmaqla, bir çox dünya psixoloqları tərəfindən qəbul edilir və burada aparıcı rol təlimə verilir.

Məlumdur ki, təlim və inkişaf bir-biri ilə sıx bağlıdır: təlim və inkişaf paralel şəkildə cərəyan edən iki proses deyil, onlar vəhdət təşkil edir. Təlimdən kənarda şəxsiyyətin hərtərəfli inkişafı mümkün deyil. Təlim inkişafı stimullaşdırır, onu öz arxasınca aparır və bu prosesdə inkişafa istinad edir. Təlimdə inkişaf, xüsusilə əqli inkişaf, təlim prosesinin təşkili, bu prosesdə əldə edilən biliklərin xarakteri ilə müəyyən edilir. Biliklər sistematik və ardıcıl olması, özünün kifayət qədər ümumiləşmə səviyyəsi ilə fərqlənməlidir. Təlim öz təşkili mahiyyəti etibarilə problemli və dialoq əsasında qurulmalı, şagirdə öz subyektiv mövqeyini bildirmək imkanı verilməlidir. Son nəticədə qeyd etmək olar ki, təlimdə şəxsiyyətin inkişafı **üç əsas faktorla** müəyyən edilir:

1. Şagirdlərin öz təcrübələrini ümmiləşdirməsi;
2. Ünsiyyət prosesində anlama (refleksiya)
3. Şəxsiyyətin inkişafı prosesi mərhələlərinin özünün gözlənilməsi.

Təlim prosesində şagirdlərin mənimsəmə fəaliyyəti başlıca məqsəddir. Burada şagirdlərin təlimə münasibəti onların fəaliyyətini stimullaşdıran motivlərdən biri kimi, özünü göstərir. Bundan asılı olaraq şagirdlər təlim zamanı qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün iradi səy göstərir, diqqətlərini təlim fəaliyyətinə yönəltməyə nail olurlar. Psixoloqların qeyd etdikləri kimi dərsdə şagirdlərin diqqəti təlim işlərində uğurlu nəticələrin əldə edilməsi üçün vacib şərtlərdən biridir. Hər bir adam yaxşı bilir ki, oynayan uşaq, oxuyan məktəbli, yaradıcı bəstəkar və ya alim, işləyən fəhlə və s. üçün uğurlu fəaliyyətin əsasında yaxşı təşkil olunmuş diqqət dayanır. Bütün fəaliyyət sahələrində olduğu kimi, təlimdə də diqqət etibarlı qarantdır. Vaxtı ilə görkəmli rus pedaqoqu K.D. Uşinski yazırdı ki, diqqət şüurumuzun elə bir qapısıdır ki, beynimizə daxil olan bütün məlumatlar məhz bu qapıdan keçir.

Təlim fəaliyyəti şagirdlərin **diqqətinə** yeni tələblər verir: onun ixtiyariliyi təmin olunur, təkminləşir və o, idarə olunan və tənzimlənən bir prosesə çevrilir. Dərsdə şagirdlərin diqqətsizliyinin səbəbləri fənnə qarşı marağın olmaması müəllimin aydın olmayan quru və cansıxıcı şərhi, onların yorğunluğu ilə bağlı olur. Odur ki, dərs prosesində şagirdlərin diqqətini «oyaq» saxlamaq, onun məhsuldarlığını təmin etmək üçün müxtəlif üsullardan istifadə etməklə dərsləri dinamik təşkil etmək, kənar qıcıqlaşdırmaları aradan qaldırmaq fəaliyyət növlərini bir-biri ilə əvəz etmək lazım gəlir. Bu cəhətdən məktəb təcrübəsində son illər genişlənməkdə olan **fəal və interaktiv təlim metodlarından** istifadə etmək faydalıdır. Dərsdə şagirdin fəaliyyəti əhəmiyyətli şəkildə təlim işinin tempindən asılıdır. Yavaş tempdə qurulan təlim şagirdlərdə diqqətin yayınmasına gətirib çıxarır, onların fəallığını zəiflədirsə, sürətli tempdə qurulan təlim şagirdlərin təlim materiallarını dərk etməsinə, müəllimin şərh zamanı irəli sürdüyü fikirləri izləməyə mane olur, nəticədə dolğınlığa gətirib çıxarır. Müəllim dərs dediyi sinfin səviyyəsinə şagirdlərin real mənimsəmə imkanlarına əsaslanaraq hər bir sinif üçün **optimal iş tempi** seçməlidir. Təcrübə və müşahidələrə əsaslanaraq qeyd etmək olar ki,

müəllimlərin çoxu dərsdə sakit oturan uşaqlara xüsusi diqqət bəsləyir onları daha çox tərifləyirlər. Çox vaxt belə sakit oturuş heç də diqqətliliyi əks etdirmir. Belə şagirdlər cismən sinifdə olsalar da , ruhən, öz diqqətlərinin yönəlişliyi baxımından sinifdən kənarda «olurlar».

Şagirdin təlimə müsbət münasibətində onun **maraqları** böyük rol oynayır. Təlim maraqları şagirdin dərin və həqiqi hisslərində emosional baxımdan əks olunur. Təlim maraqları təlim motivasiyasında əhəmiyyətli yer tutur.

XX əsrin ortalarından başlayaraq pedaqoji psixologiya elmində yeni bir ideya-**inkişafetdirici** təlim ideyası meydana gəldi. Həmin ideyanın mərkəzi amili şagird, onun inkişafı problemi idi. Psixoloqlar qeyd edirdilər ki, təlim inkişafa xidmət etməlidir. İnkişafetdirici təlim şəxsiyyətin formalaşması və inkişafı problemini təlimin başlıca problemi kimi ortaya atırdı. Bu problemə münasibət bildirən görkəmli psixoloq professor **Ə.Ə.Əlizadə** qeyd edir: «Təlim və inkişaf problemini bu müstəvidə araşdıranda, o, mahiyyətcə təlim və əqli inkişaf problemi kimi meydana çıxır[1].

İnkişafetdirici təlim istiqamətində davamlı tədqiqatların gedişində iki didaktik-psixoloji sistem meydana gəldi. Onlardan birinə görkəmli rus didaktı L.V.Zankov, digərinə isə D.B.Elkonin və V.V.Davıdov rəhbərlik edirdilər.

L.V.Zankovun inkişafetdirici təlim konsepsiyasında şagirdlərin əqli inkişafında başlıca yer **optimal təlim metodlarına, yeni pedaqoji texnologiyalara** verilir. Bu istiqamətin tərəfdarlarından N.A.Mençinskaya Y.F.Çekmayev və b. problemə başqa cür yanaşır və belə hesab edirdilər ki, şagirdlərin əqli inkişafında konkret biliklərə istinad etməklə, mücərrəd biliklərin mənimsənilməsini təmin etmək olar. Öyrənmədə **«təlimə qabilliyin»** əsas rol oynadığını ön plana çəkən və bu anlayışı bir termin kimi pedaqoji psixologiyada ilk dəfə işlədən N.A.Mençinskaya şagirdlərin əqli inkişafında təlim metodlarının mühüm rolunu ön plana çəkirdi. L.V.Zankovun, D.B.Elkonin

[1] Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri., B., «Pedaqogika», 2004, s.37

və V.V.Davıdovun konsepsiyası isə uşaqlara **təlimin ilkin mərhələlərindən başlayaraq mücərrəd anlayışların verilməsinin mümkünlüyün** ideyasına əsaslanırdı. Ötən əsrin 60-cı illərindən başlayaraq rus didak və psixoloqları kiçik yaşlı məktəblilərin ümumi inkişafına yönəldilmiş yeni didaktik sistem işləyib hazırladılar. Kiçik yaşlı məktəblilərin imkanlarının öyrənilməsi istiqamətində aparılan bu tədqiqatlar nəticəsində diqqətəlayiq nəticələr əldə olundu. Müəyyən edildi ki, kiçik yaşlı məktəblilərin idrak imkanları **ənənəvi pedaqogikada göstəriləndən** xeyli yüksəkdir. Artıq təlimin birinci ilindən başlayaraq şagirdlər bir sıra riyazi təsəvvürləri qanunauyğunluq və münasibətləri mənimsəməyi bacarırlar. Nəticədə ötən əsrin 60-cı illərinin sonunda dördillik ibtidai təlim üçillik sistemə keçirildi, hesab fənni tədris planlarından çıxarıldı. Birinci sinifdən başlayaraq onun əvəzinə riyaziyyat fənni tədris olunmağa başlanıldı. Bütün tədris proqramları və dərsliklər məzmunca köklü şəkildə yeniləşdirildi. İnkişafetdirici təlim konsepsiyası əsasında tədqiqatların miqyası get-gedə genişlənirdi. XX əsrin 80-cı illərinin əvvəllərində kompleks fizioloji, psixoloji və pedaqoji tədqiqatlar nəticəsində uşaqların məktəb təliminə bir il tez, 6 yaşından başlanılması problemi meydana çıxdı və 80-cı illərin ortalarında bu problem öz praktik həllini tapmış oldu. Keçmiş SSRİ-də uşaqların 6 yaşından kütləvi təliminə başlanıldı, ibtidai təhsil isə dördillik sistemə keçirildi. Hal-hazırda respublikamızda təlim 6 yaşdan başlanır və artıq 20 ildir ki, davam etdirilir.

### Suallar və tapşırıqlar.

1. Təlimlə inkişafın qarşılıqlı münasibətini izah edin.
2. İnkişafın aktual və yaxın inkişaf zonası nəyi əks etdirir?
3. «İnkişafetdirici təlim» konsepsiyasının mahiyyətini izah edin.
4. Təlim prosesində şəxsiyətin inkişafı hansı amillərlə müəyyən edilir?
5. Münimsəməyə təsir göstərən daxili psixoloji amillər hansılardır?
6. Erkən yaşdan təlimi şərtləndirən başlıca amillər hansılardır?

## II. 5 Psixi inkişafın yaş dövrləri

Şəxsiyyətin inkişafı və formalaşması uzunmüddətli, mürəkkəb prosesdir. Yeni doğulma anından tutmuş qocalıq dövrünədək davam edən ontogenetik inkişaf dövründə insanın həyatı bir sıra şərti kəsiklərdən yaş dövrlərindən keçir. İnsanın bir obyekt olaraq öyrənilməsi və onun bir çox elmlərin predmeti olması **yaş anlayışının** müxtəlif təsnifatlarının meydana gəlməsinə səbəb olmuşdur. Bunların sırasında başlıca olaraq **bioloji yaş, xronoloji yaş** və **sosial yaş** anlayışları xüsusi fərqləndirilir. Bioloji yaş anlayışı fərdin inkişafının göstəricisidir. O, boy inkişaf, yetişmə və orqanizmin formalaşmasını əks etdirir. Ona görə də bioloji yaşın tərkibində daha konkret yaş mərhələləri – **fizioloji, morfoloji, sümük, diş yaşı** və s. kimi dövrlər fərqləndirilir. Bu yaş mərhələləri orqanizmin bütövlükdə bioloji inkişaf səviyyələrini əks etdirir. Ontogenetik inkişafı nisbətən geniş və əhatəli əks etdirən bioloji yaş dövrləri orqanizmin dəyişmə, struktur, funksional, tənzimləmə və uyğunlaşma imkanlarını aşkara çıxarır. Bioloji yaş dövründə orqanizmin boy, yetkinləşmə,konstruktiv quruluşunun tamamlanması, struktur və funksional sistemlərin təkmilləşməsi prosesləri baş verir. Bioloji yaş zaman amili ilə bağlıdır. Bu dövrdə orqanizmdə tədrici inkişafla yanaşı, yaş böhranlarına gətirib çıxaran sıçrayışlar da müşahidə olunur.

Orqanizmin inkişafını səciyyələndirən xronoloji yaş anlayışını bəzən **təqvim yaşı və ya pasport yaşı** da adlandırırlar. Xronoloji yaş dövrünün tərkibində nisbətən bitkin və tamamlanmış mərhələlər – uşaqlıq, gənclik, **həddi- büluğa çatma** və s. fərqləndirilir.

Sosioloji yaş anlayışı insanın cəmiyyətdə tutduğu mövqeyi əks etdirir. Məsələn, əmək fəaliyyəti dövrü, pensiya dövrü və s. Uşağın psixi inkişafının dövrlərə bölünməsi, yaş xüsusiyyətlərinin müəyyənləşdirilməsi yalnız nəzəri deyil, həm də təcrübi əhəmiyyətə malik pedaqoji, psixoloji və sosial

problemdir. Yaşın dövrlərə ayrılması metodoloji əhəmiyyətə malik bir problemdir və o, iki əsas nöqteyi nəzəri əks etdirir. Bu konsepsiyalardan birinə görə, uşağın inkişafı fasiləsiz, digərinə görə isə, diskret, (kəsilən fasiləli) xarakterlidir. Uşağın inkişafına fasiləsiz proses kimi baxan **birinci nəzəriyyənin** tərəfdarları belə hesab edirlər ki, inkişaf dayanmadan, fasiləsiz olaraq, ya sürətlənmədən, ya da yavaşımadan davam edir. Ona görə də, uşağın inkişafında bir mərhələni digərindən ayırmağa əsas verən hər hansı aydın sərhədlər mövcud deyildir. **İkinci nəzəriyyəyə** görə uşağın inkişafı gah sürətli, gah da ləng tempdə getdiyindən onun keyfiyyətcə bir-birindən fərqlənən dövrləri, mərhələləri mövcuddur. Bu nöqteyi nəzərdən çıxış edən psixoloqlar belə hesab edirlər ki, uşağın inkişafının hər bir mərhələsində bu mərhələ də inkişafı müəyyən edən başlıca, aparıcı amillər mövcuddur. Qeyd etmək lazımdır ki, müasir psixoloji fikirdə diskret nəzəriyyənin tərəfdarları daha çoxdur. Ona görə də, biz bu nəzəriyyənin doğruluğuna inanaraq, uşağın inkişafının dövrlərə bölünməsinin təlim və tərbiyə baxımından pedaqoji əhəmiyyətini ön plana çəkərək, psixi inkişafın dövrləşdirilməsinə üstün əhəmiyyət veririk.

Uşaqları yaş dövrlərinə ayırmaq təşəbbüslərinin kökü çox qədim dövrlərə gedib çıxır. **Qədim çinlilər** uşağın inkişafını 5 yaş intervalı ilə bir-neçə dövrə ayırırdılar. Çin məsəllərinin birində deyilir: «5 yaşınadək uşağa şah kimi, 5-dən 10-dək nökər kimi, 10-15-dək dost kimi baxın». Başqa bir çin məsəlində isə insanın həyatının 10 il intervalı ilə bir-neçə dövrə ayırdığı diqqəti cəlb edir: «20 yaşında gözəl, 30 yaşında güclü, 40 yaşında ağıllı və 50 yaşında varlı olmayandan heç nə gözləmə». Bizim eradan əvvəl IV əsrdə yaşamış yunan filosofu **Aristotel** inkişafı yeddi yeddi olmaqla 3 əsas dövrə bölmüş, uyğun olaraq onu **bitki dövrü** (1-7 yaş), heyvani dövr (7-14 yaş) və **insani dövr** (14-21 yaş) adlandırmışdı. İnkişafın 7 yaş olmaqla dövrlərə bölünməsi böyük Azərbaycan şairi və mütəfəkkiri **N.Gəncəvi** (1141-1209)nin yaradıcılığında da əks olunmuşdur. Bunu, şairin oğlu Məhəmmədə yazdığı 3

nəsihətində aydın görmək olar. XVII əsrdə böyük çex pedaqoqu **Y.A.Komenski** (1522-1670), XVIII əsrdə fransız maarifçisi **J.J.Russo** (1712-1778) uşaqların inkişafını müxtəlif yaş dövrlərinə ayırmışlar.

Qədim şer nümunələrindən biri olan **«Vücudnamə»** («Valehin nəğməsi»)* adlı əsərdə insanın ana bətninə düşdüyü andan doğulanadək olan inkişafı bütövlükdə 9 ay 9 gün 9 dəqiqə kimi götürülmüşdür. Uşağın dünyaya gəldiyi ilk günlərdən başlayaraq onun inkişafı 20 yaşadək ilbəil olmaqla təsvir olunmuşdur. 20 yaşdan 100-dək olan sonrakı həyat yolu isə hər biri 10 il olan dövrlərə ayrılır.

Müxtəlif dövrlərin təsvirini əks etdirən bəndlərdən seçmələrə nəzər yetirək:

…Doqquzdan qırxacan cismin oldu qan
İki qırxda ruhum oldu aşiyan
Üç qırxda dirilib tərpəndim hər yan
Lərzə verdi cismim hər tərəf hər ca (yer, məkan)

və yaxud

…Doqquz ay bədəndə mən tutdum qərar,
Doqquz gün, doqquz saat çəkdim intizar,
Doqquz dəqiqədə gəldim aşikar,
Bildim ki, qadirdir vahidi-yekta (bir olan allah)

və yaxud

… Bir yaşında oldum beşikdə suvar
Ana südün əmmək eylədim şüar.
İki yaşda süddən kəsildi mədar (dolanışıq)
Üç yaşında əkl qıldım ibtida (yeməyə başladım)

və yaxud

… 30 yaşda oldum bir seyli –bahar
Başda eşq əsəri həm leylü-nəhan

* Şerdən nümunələr Ə.Ş.Həşimovun «Pedaqojika kursunun tədrisində xalq hikmətindən istifadə» B., «Maarif», 1991-ci il kitabından götürülmüşdür.səh.234-237

40 yaşında oldum talibi – didar

Dağıldı başımdan o eşqi sevda

Göründüyü kimi, qeyd olunan təsnifat və bölgülərdə həyati, güzəran müşahidələri əsas götürülmüşdür və konkret elmi kriteriyalar diqqəti cəlb etmir.

Müasir dövrdə uşaqların inkişafının anatomik-fizik, pedaqoji, tibbi, psixoloji və s. kimi elm sahələrinin spesfik təsnifatları mövcuddur.

Fizioloqların fikrincə, orqanizmin fərdi inkişaf dövrü iki əsas mərhələdən ibarətdir.

Perenatal (doğulana qədər) və postnatal (doğulduqdan sonra).

Perenatal dövr öz növbəsində üç zaman kəsiyinə bölünür. **Başlanğıc** (1-8 gün); **embrional** (8 gün- 8 həftə); **döllənmə** (9-38 həftə)[1].

Qeyd etmək lazımdır ki, 1965-ci ildə SSRİ PEA-nın yaş morfolojiyası, fiziolojiyası və biokimyası problemlərinə həsr olunmun VII ümumittifaq konfransında insanın fərdi inkişafının, yəni postnatal dövrün aşağıdakı mərhələlərə bölünməsi qəbul edilmişdir[2].

| | |
|---|---|
| 1. Çağalıq dövrü- | 1-10 gün |
| 2. Südəmər dövr | 10 gün 1 il |
| 3. İlk (erkən) uşaqlıq - | 1-3 il |
| 4. Birinci uşaqlıq | 4-7 il. |
| 5. İkinci uşaqlıq | 8-12 yaş (oğlanlar) |
| | 8-11 yaş (qızlar) |
| 6. Yeniyetməlik yaşı | 13-16 yaş (oğlanlar) |
| | 12-15 yaş (qızlar) |
| 7. Gənclik yaşı | 17-21 yaş (oğlanlar) |
| | 16-20 yaş (qızlar) |
| 8. Yetkinlik yaşı I dövr | 22-35 yaş (kişilər) |
| | 21-35 yaş (qadınlar) |

[1] bax: Максимов В.Г. Педагогическая диагностика в школе. М., «Академа», 2002 стр.130

[2] Н.С.Смирнова, В.С.Солевьева Биологический возрост человека . М., «Знание», 1986.

| | |
|---|---|
| II dövr | 36-60 yaş (kişilər) |
| | 36-55 yaş (qadınlar) |
| 9. Yaşlılıq dövrü | 61-74 yaş (kişilər) |
| | 56-74 yaş (qadınlar) |
| 10. Qocalıq dövrü | 75-90 yaş (kişilər və qadınlar) |
| 11. Uzunömürlülük | 90 yaş və yuxarı. |

Müasir dövrdə uşaq psixologiyasında inkişafın yaş dövrlərinə ayrılması baxımından bir-neçə təsnifat diqqəti cəlb edir. Bu təsnifatlardan biri vaxtilə görkəmli rus psixoloqu **L.S.Vıqotskinin** irəli sürdüyü prinsipial konsepsiyaya əsaslanır. O, qeyd edirdi ki, yaş dövrləri inkişafın qanınauyğunluqlarına əsaslanmalıdır. Pedaqoq üçün bu biliklər çox mühümdür və o, böyüməkdə olan şəxsiyyətin təlimi və tərbiyəsində bu biliklərə istinad etməlidir. Sonralar uşağın inkişafının dövrlərə ayrılmasında rus psixoloqları P.P.Blonski, A.N.Leontyev, D.B.Elkonin, A.A.Lyubinskaya, V.V.Davıdov, L.İ.Bojoviç, V.S.Muxina və b. iki əsas **prinsipə-tarixilik prinsipinə** və **fəaliyyətdə inkişaf prinsipinə** istinad etmişlər. Tarixilik prinsipi uşaqlığın konkret tarixi təbiətini dövrlərinin və onun mahiyyətini müəyyən edir. Bu prinsipə görə, uşaqlığın dövrləşdirilməsi və hər bir dövrün mahiyyəti konkret- tarixi həyat şəraitindən, sosial vəziyyətdən, təlim və tərbiyədən, cəmiyyətdə texniki və mədəni tərəqqidən və s. asılıdır. Fransız demoqraf və tarixçisi **F.Aries** təsviri incəsənət materialları əsasında uşaqlıq dövrünün tarixini yaratmağa çalışmışdır. Onun tədqiqatları göstərmişdir ki, XIII əsrə qədər rəssamlar uşaq obrazlarına ümumiyyətlə müraciət etməmişlər. XIII əsrdən başlayaraq uşaq rəsmlərinə yalnız dini rəsmlərdən (mələklər, körpə İusus və s.) rast gəlinir ki, bunlar da real uşaq obrazlarından fərqlənir. Görünür, həmin dövrlərdə **uşaqlıq** az əhəmiyyətli və ötəri bir dövr hesab olunmuşdur, uşaqlara qeyri-ciddi münasibət vardı. Alimin fikrincə, XIV əsrdən başlayaraq incəsənət tarixində ölmüş uşaq rəsmlərinə tez-tez təsadüf olunur. Görünür bu, uşağın

ölməsinin adi hadisə kimi deyil, böyük itki kimi qavranılması ilə bağlıdır. Real uşaq rəsmlərinə yalnız XVII əsrdən sonra təsadüf olunur. Aries belə nəticəyə gəlir ki, uşaqlıq bir yaş dövrü kimi XIII əsrdə kəşf edilsə də, onun əhəmiyyəti yalnız məhz XVII əsrdən sonra üzə çıxmışdır. Uşaqlara qarşı münasibətin dəyişməsi uşaq paltarlarında yeni elementlərin meydana çıxması ilə bağlıdır. Orta əsrlər dövründə uşaq müstəqil olduqdan sonra, ona yaşlılara məxsus paltarlar geyindirirdilər. Yalnız XVI-XVII əsrdən başlayaraq uşaqlar üçün spesifik paltarlar meydana gəlmişdir. 2-4 yaşlı uşaqların paltarları cinsi fərqlər nəzərə alınmadan eyni formalı idi. Aries qeyd edir ki, müasir tipli uşaq geyimləri XX əsrin əvvəllərindən hazırlanmağa başlanmışdır. Cəmiyyətin həyatında baş verən dəyişikliklər uşaqların inkişafına təsir edir, onu sürətləndirir və ya ləngidir, beləliklə də, yaş dövrlərinin sərhədlərini dəyişdirir.

Qədim xalqlarda uşaqların tərbiyəsi təcrübəsi primitiv həyat tərzi keçirən qəbilələrin məişəti ilə bağlı tarixi faktlarda öz əksini tapmışdır. Belə qeydlərdən biri Duqlas Lokvuda məxsusdur. 1957-ci ildə o, Hibson səhrasına (Qərbi Avstraliya ) səyahətə çıxmış, burada səhranın aborgen (yerli) qəbiləsi pintubilərlə görünmüşdür. Həmin vaxtadək bu qəbilənin adamları heç vaxt ağ dərili adamlar görməmişdilər. Pintubilərin qonşu qibilələrlə əlaqələri olduqca məhduddur. Odur ki, onların mədəniyyəti və həyat tərzində daş dövrü adamlarının bir çox xüsusiyyətləri qalmaqda idi. Bu adamların bütün həyatı səhrada su və qida axtarmaqda keçir. Qəbilənin güclü və dözümlü qadınları bu işdə kişilərlə birlikdə fəaliyyət göstərirlər. Onlar başlarına qoyduqları ağır yüklə səhrada saatlarla yol gedirlər. Uşaq doğarkən qumun üstündə uzanır, bir-birlərinə kömək edirlər. Pintubilər gigiyena haqqında heç bir təsəvvürə malik deyillər, uşağın doğulma səbəblərini bilmirlər. Onların bardaqdan başqa heç bir qab-qacaqları yoxdur. Lokvud onlara güzgü və daraq verdikdə, onlar bunun nəyə lazım olduğunu bilməmiş, güzgüyə baxarkən təəccüb və qorxu hissi keçirmişlər. Səyyah öz qeydlərində yazır ki, 2-3 qız yemək vaxtı ağzına çox iri kökə loxmalarını doldurur,özləri qaynar qumda bişirdikləri kiçik kərtənkələləri ət kimi yeyirdilər.Hələ gəzməyi bacarmayan başqa bir qız özü üçün ocaq yandırır, sönməsin deyə ocağa tərəf əyilərək onu alovlandırmağa çalışırdı. O, çılpaq idi, yəqin ki, soyuqlamışdı, lakin ağlamırdı. Səyyah qeyd edir ki, düşərgədə 3 körpə uşaq vardı, lakin o, bir dəfə də olsun ağlayan uşaq səsi eşitməmişdir. Bu və bir çox digər əbədi-elmi mənbələr uşaqların erkən olaraq «yaşlılaşması» haqqında məlumatlar əldə etməyə imkan verir.

Fəaliyyətdə inkişaf prinsipinə görə uşağın hər bir yaş dövründə müəyyən fəaliyyət növü inkişafı şərtləndirir. Psixi proses və xassələrin, idrak imkanlarının reallaşmasına təsir edir. Bu və ya digər konkret fəaliyyət növünün vasitəsilə sonrakı yaş dövründə uşağın inkişafında həll edici olan yeni fəaliyyət növləri meydana gəlir. A.N.Leontyev belə hesab edirdi ki, inkişafın hər bir mərhələsində həmin yaş dövrü üçün səviyəli olan aparıcı fəaliyyət növü mövsuddur. Qeyd olunan kriteriyalar əsasında uzun müddət pedaqogika elmində və uşaqların tərbiyəsi sistemində aşağıdakı təsnifat ümumən qəbul edilirdi.

1. Körpəlik dövrü – 0-1 yaş.
2. Erkən yaş dövrü 1-2 yaş
3. Məktəbəqədər yaş dövrü – 3-6 yaş
4. Kiçik məktəb yaşı dövrü 7-10 yaş
5. Orta məktəb yaşı və yeniyetməlik dövrü 11-14 yaş
6. Böyük məktəb yaşı və ya ilk gənclik dövrü 15-18 yaş[1]

Uşaqlıq dövründə psixi inkişafın nisbətən geniş və əhatəli təsnifatlarından biri rus psixoloqu D.B. Elkoninə məxsusdur. O, uşaqlığı yalnız dövrlərə bölməmiş, həm də hər bir yaş dövründə aparıcı fəaliyət formalarını və onun vasitəsilə təşəkkül tapan başlıca psixi xassə və keyfiyyətləri də müəyyən etmişdir.

D.B.Elkoninə görə uşaqlığın dövrləşdirilməsi

1. **Körpəlik dövrü – 0-1 il.** Bu yaş dövründə aparıcı fəaliyyət növü **vasitəsiz emosional ünsiyyətdir.** Həmin fəaliyyət formasının fonunda və daxilində uşaqda bələdləşmə və sensomotor – manipulyativ hərəkətlər meydana gəlir. Görmə, eşitmə, əzələ –hərəki və başqa duyğular və qavrayış müəyyən səviyyədə uşağın hərəkətlərində tənzimləyici funksiyanı yerinə yetirir. Bu dövrdə uşağın psixikasında mühüm yenilik başqa

[1] Возрастная и педагогическая психология (Матюхина, М.В. Михальчик Т.С., Прокина Н.Ф. и др. М., «Просвешение», 1984, стр.57.

adamlarla ünsiyyət tələbatının formalaşması və onlarla müəyyən emosional münasibətin yaranmasıdır.

2. **Erkən uşaqlıq-1-3-yaş**. Bu yaş dövründə aparıcı fəaliyyət **əşyavi oyun fəaliyyətidir.** Bu mərhələdə uşaq yaşlılarla əməkdaşlıq şəraitində əşyalarla tarixən təşəkkül tapmış fəaliyyət üsullarını mənimsəyir. Bu mərhələdə uşağın inkişafında başlıca yenilik **əyani- əməli təfəkkürün** və nitqin təzahürüdür.

3. **Məktəbəqədər yaş dövrü-3-7 yaş**. Bu yaş dövründə aparıcı fəaliyyət rollu oyunlardır. Onların vasitəsilə uşaq insan fəaliyyətinin fundamental əsaslarını mənimsəyir. Bu yaş dövründə müşahidə olunan başlıca yenilik ictimai qiymətləndirmə və ictimai əhəmiyyətli cəhdlərin,tələbətların yaranmasıdır ki, bu da uşaqların ibtidai məktəbdə təlimə başlamasına hazırlığını səciyyələndirir.

4. **Kiçik məktəb yaşı dövrü-7-11- yaş.** Bu yaş dövründə aparıcı fəaliyyət təlimdir. Təlim vasitəsilə uşaqların hafizəsi formalaşır, xarici aləmin əşya və hadisələri, insan münasibətlərinin xarakteri haqqında biliklər mənimsənilir. Bu yaş mərhələsində pisixi inkişafda diqqəti cəlb edən başlıca yenilik pisixi hadislərin daxili fəaliyyət planının ixtiyariliyinin və refleksiyanın meydana gəlməsidir.

**5.Yeniyetməlik dövrü-11-15 yaş.** Bu yaş dövründə aparıcı fəaliyyət ictimai faydalı fəaliyyət sistemində (təlim,ictimai təşkilati, əmək və s.) **ünsiyyətdir.** Bu prosesdə yeniyetmə müxtəlif situasiyalarda ünsiyyət vərdişlərini mənimsəyir. Yeniyetməlik dövründə bir sıra yeni keyfiyyətlər özünü qiymətləndirmə, ətraf adamlara tənqidi münasibət, «yaşlılıq» hissi və meyli, müstəqillik, kollektiv həyat normalarına tabe olmaq bacarıqları təşəkkül tapır.

**6. Böyük məktəb yaşı dövrü-15-17 yaş.** Bu yaş dövründə aparıcı fəaliyyət **təlim-peşə fəaliyyətidir.** Onun vasitəsilə ilk gənclik dövrünü

yaşayan böyük məktəblilərdə dünyagörüşü, peşə maraqları, özünüdərketmə, arzu və ideallar kimi yeni keyfiyyətlər yaranır[1].

Doğulma anından yetkinliyə qədər insan bədəninin proporsiyasının dəyişməsi[2].

Şəkil 1

Psixi inkişafın yaş dövrlərinə ayrılması haqqında D.B.Elkonun tərəfindən irəli sürülmüş konsepsiya D.İ.Feldşteynin əsərlərində özünün daha geniş əksini tapmışdır. O uşağın inkişafını daha konkret mərhələlərə bölmüş və onun daha müfəssəl təsnifatını irəli sürmüşdür. D.İ.Feldşteyn belə hesab eidr ki, uşağın ontogenezi 4 müxtəlif pillədən- **dövr, mərhələ, müddət** və **fazadan** keçir. Bütün uşaqlıq dövründə inkişafın 2 əsas fazasını fərqləndirmək olar: **uşağın doğulduğu andan 10 yaşadək** və **10 yaşdan 17 yaşadək**. Onlar müvafiq olaraq 3 əsas dövrə ayrılır: doğulma anından 3 yaşadək, 3 yaşdan 10 yaşadək və 10 yaşdan 17 yaşadək. Öz növbəsində birinci faza dörd dövrə ayrıla bilər. 0-1 yaş; 1-3 yaş; 3-6 yaş; 6-10 yaş. İkinici fazanı isə 10-15 yaş və 15-17 yaş olmaqla 2 dövrə ayırmaq olar . D.İ.Feldşteyn belə hesab edirdi ki, qeyd olunan 6 dövrün tərkibində aparıcı fəaliyyəti növbələşdirən, uşağın daxili

[1] Возрастная и педагогическая писихология (Матюхина М.В.,Михальчик Т.С. ,Прокина И.Ф. и др.) М., «Просвещение» , 1984. стр.59-61
[2] bax: Г.Грим. Основы конституциональной биологии и антропометрии М., «Медицина» 1967 сир.31

dəyişmələrinə gətirib çıxaran 3 əsas pillə mövcuddur. Uşağın şəxsiyyət kimi sosial inkişafı prosesində müəyyən qanunauyğunluqlar özünü göstərir. Onlardan biri **şəxsiyyətin sosial mövqeyinin dəyişməsidir.** İnkişafın bir səviyyəsindən digərinə keçidlər rəvan və sürətli olmaqla, şəxsiyyətin keyfiyyətcə dəyişməsində əhəmiyyətli rol oynayır. Rəvan keçid prosesi hiss olunacaq aydın təzahür doğurmadığı halda, sürətli keçid prosesi uşağın başqa adamlar arasında sosial mövqeyini kəskin şəkildə dəyişdirir. Bu isə ilk növbədə uşağın özünü dərketmə mövqeyində əks olunur.

**L.S.Vıqotskiyə görə uşağın inkişafının dövrləşdirməsi[1].**

| Yaşın sərhədləri | Yaşın xarakteri | Yaşın adı |
|---|---|---|
| 0-2 ay | Böhranlı | Çağanın böhranı |
| 2 ay- 1 il | Stabil | Körpəlik yaşı |
| 1 yaş | Böhranlı | 1 yaşın böhranı |
| 1-3 yaş | Stabil | Erkən uşaqlıq |
| 3 yaş | Böhranlı | 3 yaşın böhranı |
| 3-7 yaş | Stabil | Məktəbəqədər yaş |
| 7 yaş | Böhranlı | 7 yaşın böhranı |
| 8-12 yaş | Stabil | Məktəb yaşı |
| 13 yaş | Böhranlı | 13 yaşın böhranı |
| 14-17 yaş | Stabil | Pubertat yaş |
| 17 yaş | Böhranlı | 17 yaşın böhranı |

Qeyd etmək lazımdır ki, verilən çoxsaylı təsnifatlara baxmayaraq, bütövlükdə uşağın inkişafında iki əsas ifadəli, diqqəti çəkən kəskin keçid mərhələsi mövcuddur. Onlardan biri erkən uşaqlıqdan məktəbəqədər uşaqlığa keçid olub, **«3 yaşın böhranı»** kimi səciyyələndirilir. İkinci mərhələ kiçik

[1] бах:57. Л.М.Фридман К.Н.Волков. Психологическая наука -учителю М., «Просвещение», 1985 стр.57

məktəb yaşı dövründən yeniyetməlik dövrünə keçid olub, **«yeniyetməlik yaşı böhranı»** və ya «**cinsi yetişkənlik böhranı»** kimi nəzərdən keçirilir. Onların hər biri uşağın inkişafında bir pillədən digərinə keçid səviyyəsini, bu zaman yaranan böhranın hansı dərəcədə uğurla aradan qaldırıldığını əks etdirir. ABŞ və Qərbi Avropa alimlərindən **E.Erikson, L.Kolberq, J.Piaje** və b. şəxsiyyətin inkişafı və onun mərhələlərə bölünməsi sahəsində müəyyən təşəbbüslər göstərmişlər. Belə məşhur təsnifatlardan biri **E.Eriksona** məxsusdur. O, belə hesab edirdi ki, həyatın gedişində insanın inkişafı qanunauyğun olaraq bir mərhələnin digəri ilə əvəzlənməsi yolu ilə gedir. Hər bir mərhələdə insanın daxili aləmində, davranışı və münasibətləri sistemində keyfiyyətcə dəyişikliklər baş verir ki, bunun da nəticəsində şəxsiyyət həmin mərhələ üçün xarakterik olan nə isə yeni bir xüsusiyyət qazanır. Şəxsiyyətin inkişafını 8 əsas mərhələyə ayıran E.Erikson yalnız normal deyil, həm də anomal inkişafın təzahürlərini də göstərmişdir[1].

[1] bax: Р.С.Немов. Психология М., «Просвещение», 1990, стр.74-75

## E.Eriksona görə şəxsiyyətin inkişaf mərhələləri

## (ilkin mərhələlər)

| S N | İnkişaf mərhələləri | Normal inkişaf xətti | Anomal inkişaf xətti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | Erkən körpəlik (doğulan gündən 1 yaşadək) | İnsanlara inam. Qarşılıqlı məhəbbət, valideynlərin və uşağın qarşılıqlı bağlılığı, ünsiyyət və digər həyati tələbatların təmin edilməsinə görə məmnunluq | İnsanlara inamsızlıq. Ananın uşaqla pis rəftarı, məhəbbətin itirilməsi, uşağın ana südündən tez və ya kəskin şəkildə kəsilməsi, onun emosional cəhətdən təcrid olunması. |
| 2 | Sonrakı körpəlik (1 yaşdan 3 yaşadək) | Müstəqillik, özünə inam, uşaq özünə müstəqil, sərbəst, lakin hələ valideynlərdən asılı adam kimi baxır. | Özünə qarşı şübhə və hədsiz yüksək utancaqlıq hissi, uşaq özünün nəyəsə qadir olduğuna inanmır, öz qabiliyyət və bacarığına şübhə edir. Elementar hərəki vərdişlərində (məsələn yerimək) qüsurlar müşahidə olunur. Nitq zəif inkişaf etmişdir. Öz uğursuzluqlarını başqa adamlardan gizlətmək istəyir. |
| 3 | Erkən uşaqlıq (3-5 yaşlarda) | Fəallıq Canlı təxəyyül, ətraf aləmi öyrənməyə fəal həvəs, böyükləri təqlid etmə, cins- rol davranışı | Passivlik. Süstlük, təşəbbüsün olmaması, infantil hisslər, başqa uşaqlara və adamlara qarşı paxıllıq, qeyri müəyyənlik, məyusluq, rol-cins davranışı əlamətlərinin olmaması |
| 4 | Orta uşaqlıq (5-11 yaş) | Əməksevərlik. İfadəli borc hissi, uğurlara cəhd etmə, idrak və kommunikativ bacarıq və vərdişlərin inkişafı, qarşıya məqsəd qoyma və real məsələləri həll etmə, fantaziya və oyunların daha yaxşı perspektivlərə yönəlməsi, musiqi alətlərini və əşyavi fəaliyyəti mənimsəmə, məsələyə bələdləmə | Şəxsi keyfiyyətlərə malik olmaq hissi. Zəif inkişaf etmiş əmək vərdişləri, mürəkkəb tanışlıqlardan, yarışlardan qaçmaq. Kölə davranışı, buyruqları qeyri-tənqidi olaraq qəbul etmə. Konformluq. Müxtəlif məsələlərin həllinə əbəs yerə girişmə cəhdi. |
| 5 | Cinsi yetişkənlik, yeniyetmə-lik və gənclik (11-20 yaş) | Həyati özünütəyinetmə. Zaman perspektivinin inkişafı, gələcəyə yönəlmiş planlar «Necə olmalıyam?», «Kim olmalıyam?» suallarına cavab axtarışı, müxtəlif rollarda özünütapma istiqamətində eksperimentlər. | Rolların qarışdırılması. Qarışıq və dolaşıq zaman perspektivləri. Mənəvi qüvvələrin özünüdərk-etməyə yönəldilmiş ifadəli cəhdləri Əmək fəallığının zəifləməsi. |

Uşağın inkişafında bir yaş mərhələsindən digərinə keçid bir qayda olaraq çox coşqun və intensiv şəkildə baş verir. Bu, müəyyən çətinliklərlə, xüsusən uşaqların yaşlılarla münasibətlərinə problemlərin yaranması, öz hüquqlarını tələb etməsi ilə müşayət olunur. Belə keçid dövrləri adətən inkişafda yaş böhranlarına sıçrayışlı keçidlərə gətirib çıxarır. Uşaq psixologiyasında dörd əsas böhranlı dövr fərqləndirilir.

- bir yaşın böhranı (körpəlikdən erkən uşaqlığa keçid);
- üç yaşın böhranı (erkən uşaqlıqdan məktəbəqədər yaş dövrünə keçid)
- altı yaşın böhranı (məktəbəqədər yaşdan kiçik məktəb yaşı dövrünə keçid)
- yeniyetmələk yaşının böhranı (uşaqlıqdan yaşlılığa doğru meyl)

Eyni yaş dövründə olmasına baxmayaraq, uşaqların psixi inkişafında əhəmiyyətli fərdi fərqlər müşahidə olunur. Bu, **psixi inkişaf tempində** özünü biruzə verir. Eyni coğrafi sosial və mədəni mühitdə eyni həyat şəraitində, böyüməsinə baxmayaraq, bəzi uşaqlar əqli və psixi inkişafın göstəriciləri baxışdan öz yaşıdlarını xeyli qabaqlayır, bəzi uşaqlar isə özlərinin inkişaf göstəricilərinə görə yaşlarından geri qalırlar. Uşaqlar arasında daha böyük fərqlər ayrı-ayrı fəaliyyət növlərinin mənimsəməsi surətində, ali psixi funksiyaların, əqli qabiliyyətlərin inkişafının kəmiyyət və keyfiyət göstəricilərində əks olunur. Psixi inkişafın göstəricilərinə görə öz yaşıdlarını qabaqlayan uşaqlar **akselerant uşaqlar** yaşıdlarından geri qalanlar isə **ratardant uşaqlar** adlandırılır.

Bununla belə, özünün psixi inkişaf tempi baxımından çox sürətli inkişaf edən uşaqlara az da olsa təsadüf olunur. Onlar 3-4 yaşlarında təlimə maraq göstərir, oxuyub-yazmağı, saymağı, hesablamağı bacarır, hər hansı fəaliyyət sahəsində üstün qabiliyyətləri ilə seçilirlər. Belə uşaqlar özlərinin əqli inkişaf surətinə görə yaşıdlarını çox-çox arxada qoyur bir dərs ilində 2-3 sinfin proqramını mənimsəyərək bəzən 12-13 yaşıdlarında orta təhsili başa vuraraq ali məktəblərə daxil olurlar. Psixoloqlar belə uşaqları **«vunderkind»** (almanca

«qəribə uşaq») adlandırırlar. Onlar müəllimləri və valideynləri xeyli qayğılandırır bəzən isə onların psixi sağlamlığı şübhə doğurur.

Uşaqlıq dövrü obrazlı təəssüratların zənginliyi, hafizənin itiliyi, təxəyyülün mütəhərrikliyi, hər şeyə qarşı üstün maraqların olması ilə diqqəti cəlb edir.

Təsadüfi deyildir ki, yaş psixologiyasında **yaş həssaslığı,** yəni hər bir uşaqlıq yaşı dövründə ətraf aləmə qarşı həssaslığın müxtəlifliyi haqqında elmi fikir meydana gəlmişdir. Uşaqlarda qabiliyyətlərin təşəkkülündə yaş həssaslğı ilə bağlı olan **senzitiv dövrlərin** də xüsusi rolu qeyd edilməlidir. Rsixi inkişafın əlverişli zəmini kimi xarakterizə olunan «senzitiv dövrlər» uşaqlarda həm ümumi, həm də onun bazasında xüsusi qabiliyyətlərin təşəkkülündə müstəsna rola malikdir. Bu, gələcəkdə xüsusi qabiliyyətlərin yüksək inkişaf səviyyəsi üçün əsaslı zəmin ola bilər.

### Suallar və tapşırıqlar.

1. «Yaş» anlayışının hansı təsnifatları mövcuddur? Onların təhlilini verin.
2. Postnatal yaş dövrü hansı mərhələlərə ayrılır?
3. D.B.Elkonin uşağın inkişafını hansı mərhələlərə ayırmışdır?
4. Bir yaş mərhələsindən digərinə keçid hansı qanunauyğunluq əsasında baş verir?
5. E.Eriksonun təsnifatının əsas cəhətlərini göstərin.
6. Uşaqlıq dövrü hansı yaş böhranlarından keçir?
7. Uşaqlıq dövrünün ayrı-ayrı mərhələlərində aparıcı fəaliyyət növünü göstərin.

# III FƏSİL. Çağalıq və körpəlik dövründə uşağın inkişafının psixoloji xüsusiyyətləri

## III.1. Yeni doğulmuş uşağın anatomik- fizioloji və psixi imkanları

Ailədə uşağın doğulması ata-ana və yaxın qohum-əqrəba üçün fərəhli bir hadisədir. Günlər, aylar keçdikcə uşaq yaşlıların əhatəsində, onların qayğı və nəvazişi sayəsində böyüyür və dəyişir: bu gün o dünənkinə bənzəmir, sabah isə artan imkanları sayəsində dünənkindən fərqlənəcək. Budur, o altı aylığında oturur, altı- yeddi aylığında iməkləməyə başlayır, təxminən bir yaşın sonunda dil açır və ilk titrək addımları ilə yeriməyə başlayır. Zaman keçdikcə uşağın artan fiziki imkanları öz təsirini psixi sferaya da göstərir. Uşaq orqanizminin təbii- fizioloji imkanları genişləndikcə o, müstəqil fəaliyyət subyektinə çevrilir, fərd, bioloji varlıq səviyyəsindən yeni, daha yüksək sosial keyfiyyətlərə doğru inkişaf edir, sosiallaşır və şəxsiyyətə çevrilir.

Bətndaxili inkişaf dövrünü başa çatdıran körpə doğularaq real fərd olur. Doğulduğu ilk anlarda o, tamamilə iqtidarsız bir məxduq olmaqla heç nəyə qadir deyildir. Tədqiqatçıların fikrincə, körpəni dünyaya gətirən qadında doğuşdan sonna keçən ilk 24 saat ərzində «analıq instinkti» meydana gəlir və o, körpəni ilk dəfə olaraq özü də bilmədən sol qolu üstə götürür. Ona görə də, bu instinktin yaranması üçün doğuşdan sonra ötən ilk sutka xüsusi əhəmiyyətə malikdir.

Yeni doğulmuş uşağın dərisi doğulma anında piy yaxması ilə örtülü, rəngi açıq göyümtül, azacıq tüklə örtülü, bədəni bir qədər şişkin olur. Uşağın bədən əzələləri, xüsusilə ətraf əzələləri zəif inkişaf etmiş olduğundan doğulduğu ilk günlərdə uşaq ana bətnindəki vəziyyətini saxlayır. Yəni onun qolları dirsəklərindən bükülü və ayaqları qarnına sıxılmış olur. Yeni doğulmuş uşağın bədəninin bütün toxumaları zərif olur, hüceyrə elementlərinin və damarların zənginliyi nəzərə çarpır.

Antropometrik ölçülərə görə, müəyyən edilmişdir ki, yeni doğulmuş çağanın bədəninin uzunluğu 50 sm, döş qəfəsinin və başın çevrəsi 30 sm, oturaq vəziyyətdə boyu 32 sm,çiyinlərinin eni 10 sm, bir dəqiqədə ürək döyüntülərinin sayı 134-ə bərabər olur. Qeyd olunan bu ölçülərin qızlara nəzərən oğlanlarda bir qədər böyük olduğu diqqəti cəlb edir. Doğulma anında oğlanların çəkisi orta hesabla 3250 qram, qızlarda 3000 qram olur. Bununla belə, tibb elminin qənaətinə görə, vaxtında doğulmuş uşaqların yarıdan çoxunun çəkisi 2800-3500 qram həddində olur ki, bu da normal hal hesab edilir. Bəzən uşaqların çəkisində orta ölçülərdən fərqli göstəricilər 2500-4000 qram həddində çəki göstəricilərinə də təsadüf edilir ki, bu da mütəxəssislər tərəfindən normal hal kimi qiymətləndirilir. Müəyyən edilmişdir ki, ata və ana nəsli xətti ilə keçən irsi xüsusiyyətlər, onların yaşı, həyat şəraiti, peşəsi, uşağın doğulması vaxtı və s. kimi amillər uşaqların çəki və boy göstəricilərinə təsir edir.

Uşaq doğulduqdan 2-4 gün sonra onun çəkisində fizioloji azalma halı baş verir. Bu dövrdə uşağın bədən çəkisində 150-350 qram həddində çəki itkisi baş verir. Müəyyən edilmişdir ki, ilk dəfə ana olan qadınların uşaqlarında çəkinin azalması halı daha çox müşahidə olunur. Lakin çox çəkmədən, təxminən 15 gün sonra uşaqların çəkicə azalması həddi aradan qalxır və onların doğulma anındakı çəkiləri bərpa olunur. Bir qədər sonra, yəni uşağın həyatının birinci ayı ərzində onların çəkiləri orta hesabla 800 qram, sonrakı hər bir ay ərzində isə, orta hesabla 50 qram az olmaqla artır. Beləliklə, 5 aylıqda uşağın çəkisi orta hesabla 6250-6500 qram, bir yaşın sonunda 9500-9800 qram həddinə çatır. Qeyd etmək lazımdır ki, körpələrin inkişaf tempində bir sıra fərdi fərqlər müşahidə olunduğu kimi, bu fərqlər eynilə onların çəki artımında da nəzərə çarpır. Bu fərqlər əsasən azalma istiqamətində müşahidə olunur və bu da bəzi körpələrin təbii ana südü ilə qidalanmaması ilə bağlıdır. Müəyyən edilmişdir ki, süni surətdə yedizdirilən uşaqlarda çəki artımı tempi zəif olur. Burada vitamin çatışmazlığının, uşaqların

bəsləmə şəraitinin, gigiyenik amillərin də təsiri vardır. İnkişaf etmiş müasir tibb elmi ananın körpəsini əmizdirməsini həm öz sağlığı, həm də uşağın sağlamlığı baxımından fövqəladə dərəcədə əhəmiyyətli olduğunu sübut etmişdir.

Ana südü ilahi qüdrət dolu bir mükəmməlliyi ifadə edir. Onun tərkibində, körpənin həyati ehtiyac duyduğu vitaminlər, hormonlar, qoruyucu maddələr, mikroblarla mübarizə aparan pereparatlar və mənəvi cəhətdən ananın xarakterini körpədə təşəkkül etdirəcək ünsürlər mövcuddur.

Ana südünün tərkibindəki, insanın bəslənməsi üçün əsas ünsür olan protein, şəkər, yağ, fosfor və vitaminlər hamısı birlikdə, körpənin orqanizminə uyğun şəkildə çox ahəngdar nisbət və ölçüdə daxil olur.

Yeni doğulmuş uşaqlarda təbii çəki artımı ilə yanaşı, böyümə, boy artımı da müşahidə olunur. Əgər yeni doğulma anında onların boyu orta hesabla 50 sm olursa, birinci üç ayda onların boyu 9 sm, ikinci üç ay ərzində 8 sm, sonrakı altı ay ərzində cəmi 3,5 sm artır. Beləliklə, südəmər dövrdə uşaqların boyu orta hesabla 23-25 sm artır və bir yaşın sonunda bu orta hesabla 73-75 sm-ə çatmış olur. Boy artımı göstəriciləri 5 yaşında 100 sm-ə, 14-15 yaşda 150 sm-ə çatır. Oğlanlarla qızların boy artımında müxtəlif yaşlarda bir-birini üstələmə halları baş verir.Qızların boy artımı, təxminən 18 yaşında başa çatdığı halda, oğlanlarda bu proses 20-25 yaşlarınadək uzanır. Müəyyən edilmişdir ki, qızlar 7 yaşadək olan dövrdə və 12-13 yaşlarında böyümə tempinə görə oğlanları geridə qoyurlar. Oğlanlar 7 yaşdan və 15 yaşdan sonra qızlardan daha sürətli bir tempdə boy atırlar. Uşaqlarda ən çox böyümə halları yay aylarına təsadüf edir. Avqust-dekabr aylarında boy atma tempi zəif baş verir. Böyümə surəti endogen (mərkəzi sinir sistemi, endokrin vəziləri) və ekzogen (mühit, şərait, qida və s.) amillərdən çox asılıdır. Həyatın ilk aylarında böyümə sinir sistemi, habelə timus vəzisi ilə, 3-4 aydan başlayaraq qalxanabənzər vəzi ilə tənzim olunur. Bir qədər sonra, uşağın həyatının 5-7-ci

ilində hipofiz vəzisinin ön payının fəaliyyəti xeyli güclənir, cinsi yetişkənlik dövründə öz fəaliyyətinin yüksək həddinə çatmış olur.

Yeni doğulmuş uşağın başı böyük, bədəni uzun, aşağı və yuxarı ətrafları gödək olur. Doğulma anında uşağın başı onun boyunun dörddə birinə bərabər olur. İnkişaf prosesində bu nisbət tədricən dəyişir. Belə ki, bu nisbət 2 yaşda beşdə birə, 6 yaşda altıda birə, yaşlı adamlarda isə səkkizdə birə bərabərdir. Bütün uşaq yaşı dövründə qıçların uzunluğu 5 dəfə, qollarınkı 4 dəfə,gövdəninki isə 3 dəfə artır. Tibbi tədqiqatlar sayəsində müəyyən edilmişdir ki, bədən uzununa və eninə böyüdükcə, onun ayrı-ayrı hissələrinin, xüsusilə, kəllənin və döşün konfiqurasiyası da dəyişir. Kəllənin ayrı-ayrı sümüklərinin böyüməsi ilə ədaqədar olaraq, alın və təpə qabarları itir, alın-burun yastığı və qaşüstü qövslər yaranır, kəllədə böyük relyeflik baş verir, gicgah və peysər xətləri, peysər qabarı əmələ gəlir. Uşaqlıq dövründə kəllənin daha intensiv böyüməsi həyatın ilk 3-4-cü ilində, xüsusilə bir yaşında müşahidə olunur. Uşağın onurğa sütunu bir yaşadək olan dövrdə daha sürətlə böyüyür. 2-7 və 11-15 yaşlarında isə o, bədən uzunluğunun illik artımından geri qalır. Südəmər uşaqlıq dövründə (ilk 12-14 ay) onurğa sütunu elastikdir və onun «S» şəkilli əyriliyi yoxdur. 6-7 yaşlardan sonra elastiklik yox olduğuna, 14 yaşınadək olan dövrdə onurğaarası sahə qığırdaqla dolu olduğu üçün bədənin düzgün duruş vəziyyətində saxlanılması olduqca vacibdir. Məktəb yaşlı uşaqlarda parta arxasında düzgün olmayan oturuş formaları onurğanın «skolioz» və «kifoz»lar adlanan əyilmələrinin meydana gəlməsinə səbəb ola bilir.

Uşaqlarda dişlərin çıxma tempi düzgün inkişafın yaxşı göstəricisidir. Onların çoxunda dişlər 6-7 aydan çıxmağa başlayır. Əvvəlcə alt çənədə 2 kəsici diş, sonra üst çənədə 2 kəsici diş, bir qədər sonra yenə üst yan kəsicilər, ilin sonunda isə alt çənədə yan kəsici dişlər çıxmış olur. Beləliklə, bir yaşın sonunda uşağın 8 dişi olur. Həyatın iknici ilində uşağın süd dişlərinin

çıxması sürəti bir qədər də artır. 2 yaşın sonunda onların sayı 20-yə bərabər olur. Tibbi ədəbiyyatlarda daimi dişlərin çıxması əsasən dörd dövrə ayrılır:

1) İlk daimi dişlərin çıxması (5-7 yaşlar)
2) Süd dişlərinin daimi dişlərlə əvəz olunması (6-8 yaşlardan 13-14 yaşlaradək)
3) Üçüncü daimi dişlərin çıxması (12-14 yaşlar)
4) Ağıl dişlərinin çıxması (18-22 yaşlar)[1]

Uşaqlarda dayaq hərəkət sisteminin inkişafı onların ümumi fiziki və somatik inkişafının başlıca göstəricilərindən biri hesab edilir. Dayaq- hərəkət aparatına somatik əzələ və skelet aiddir. Skelet bədənin ən möhkəm hissəsi olub, əzələlər, qarın boşluğunda və çanaqda yerləşən daxili orqanlar üçün dayaq, döş və baş beyin boşluqlarında yerləşən orqanlar üçün müdafiə və eləcə də orqanizmin yerdəyişməsini- hərəkətini həyata keçirir[2].

Yeni doğulmuş uşaqlar qaydasız, nizamsız və aralarında heç bir koordinasiya olmayan xaotik hərəkətlər edirlər. Bu hərəkətlər qeyri-ixtiyari olub, impulsiv xarakter daşıyır, periferik qıcıqlanma olmadan baş verir. Körpədə istər müəyyən vəziyyət almaq, istərsə də, bədənin vəziyyətini dəyişmək üzrə heç bir müəyyən edilmiş hərəkətlər olmur.

Aktiv hərəkətlərin və statistik reaksiyaların inkişaf dinamikası bir tərəfdən mərkəzi sinir sisteminin ontogenetik inkişaf prosesi ilə, beyin qabığının hərəkətləri idarə işinə tədricən cəlb olunması ilə, digər tərəfdən xarici təsirlər və tərbiyə şəraiti ilə əlaqədardır. Körpədə əzələlərin funksional inkişafı yuxarıdan aşağıya doğru bir qədər qeyri-müntəzəm gedir. Əvvəlcə başın hərəkəti, sonra əşyaları tutmaq şəklində əllərin hərəkəti əmələ gəlir. Bundan sonra körpədə bədənin vəziyyətini saxlamaq, onun yerini dəyişmək, çevrilmək, iməkləmək, ayağa qalxmaq, gəzmək şəklində ümumi hərəkətlər inkişaf edir. Üçüncü ayda uşaq əşyaları əlləri ilə izləməyə, onları tutmağa başlayır və qarnı üstə uzanaraq başını qaldırmaqla yanaşı, əllərindən dayaq

[1] M.S.Maslov. Uşaq xəstəliklri. B., 1961, s.50
[2] C.Ə.Nəcəfov və b. Uşaq anatomiyası və fiziologiyası. Bakı, 2001, s.121

kimi istifadə etməklə bədənini bir qədər qaldırmağa nail olur. Dördüncü aydan başlayaraq körpə arxası üstə duruş vəziyyətindən qarnı üstə çevrilir, ilk dəfə olaraq ixtiyari tutma hərəkətləri müşahidə olunur. Altı aya çatdıqda uşaq əvvəlcə köməklə, sonra isə köməksiz, müstəqil olaraq oturmağa nail olur. Bu dövrdən başlayaraq uşaq uzanma vəziyyətindən oturma vəziyyətinə keçməyi bacarır. O, 7-8 aylığında hər hansı bir dayaqdan tutmaqla ayaq üstə qalxır, 11 aylıqda müstəqil olaraq ayaq üstə durmağa nail olur, həyatının 10-13-cü aylarında müstəqil gəzməyə başlayır, psixomotorika meydana gəlir.

Uşaqlarda sinir sisteminin inkişaf xüsusiyyətlərinin öyrənilməsi uşaq psixologiyası elmi üçün əhəmiyyətli bir mövzudur. Beyin psixikanın maddi əsası olduğuna görə, uşaqlarda sinir-psixi fəaliyyətin inkişaf dinamikasını izləmək, onun xüsusiyyətlərini bilmək olduqca vacibdir.

Yeni doğulmuş uşaqların beyninin çəkisi təxminən 350-390 qram, altı ayda 632 qram, bir yaşında 925 qrama bərabər olur. Göründüyü kimi, bir yaşın sonunda uşaqların beyin çəkisi doğulma anı ilə müqayisədə 2,5 dəfə, üç yaşın sonunda 3 dəfə artır. Beş yaşında uşaqların orta beyin çəkisi 1138 qram, on yaşında 1362 qram, on beş yaşında isə 1460 qrama bərabər olur. Qeyd etmək lazımdır ki, yeni doğulmuş uşağın beyin çəkisi onun ümumi çəkisinin təxminən 1/8 bərabər olduğu halda, yaşlı adamlarda bu nisbət 1/45 bərabərdir. Bu rəqəmlərdən göründüyü kimi, uşaq yaşının bütün dövrlərində beynin çəki artımı dinamik şəkildə gedir və ilk gənclik dövrünün sonunda demək olar ki, əsasən başa çatmış olur.

Yeni doğulmuş uşaqların beyin yarımkürələrinin qabığı yaşlı adamlarınkına nisbətən nazikdir. Qabıq təbəqələri kifayət qədər diferensiasiya olunmadığından qabıq mərkəzləri tam inkişaf etməmiş olur. Uşağın həyatının 7-8-ci aylarından başlayaraq sinir hüceyrələri diferensiasiyaya uğrayır, 5-6 yaşlarından sonra bu hüseyrələrin diferensiasiya tempi sürətlənir. Uşaqlarda baş beyinlə yanaşı onurğa beyin də müəyyən tempdə inkişaf etsə də, onun böyümə sürəti baş beyindən bir qədər geri qalır. Belə ki, onurğa beyin uşağın

doğulduğu anla müqayisədə 5 yaşında öz çəkisini 3 dəfə artırmış olur. Cinsi yetişkənlik dövründə bu çəki 4-5 dəfə artır.

Körpənin həyatının ilk 10-14-cü günləri ərzində anadangəlmə qida reflekslərı əsasında ilk şərti reflekslər formalaşır. Bu prosesdə şərti qıcıqlandarıcılar rolunda mürəkkəb taktil-proprioseptiv qacıqlandırıcılar çıxış edir: uşaqda əmmə hərəkətləri zamanı bu refleks müşahidə olunur. Belə ki, körpəni əmmə vəziyyətdə qucaqda saxladıqda o, ağzı ilə ananın döşünü axtarır. Uşaq inkişaf etdikcə, böyüdükcə, hər cür qıcıqlandırıcılara qarşı beyin qabığının davamlığı yüksəlir, nəticədə o, uzun müddət oyaq vəziyyətində qalır ki, bu da şərti reflektor rabitələrin yaranmasına geniş imkan yaradır. Həyatın 3-cü ayından etibarən uşaqda görmə qıcıqlandırıcılarının təsiri altında **müsbət şərti reflekslər əmələ** gəlir.

5-ci aydan etibarən körpə bir çox səs qıcıqlandırıcılarının içərisindən yaxın adamların səsini fərqləndirməyə nail olur. Adamları belə tanımanın fizioloji mexanizmləri bir neçə dəfə təkrar nəticəsində şərti reflekslərin yaranması və möhkəmlənməsi ilə bağlıdır. Həyatın 5-ci ayından etibarən uşağın davranış və fəaliyyətində demək olar ki, bütün analizatorlar iştirak edir. Şərti reflektor rabitələrin və onların möhkəmlənmiş sistemi olan **dinamik stereotipin** yaranması ilə bağlı olaraq uşağın beyninin funksional imkanları get-gedə genişlənir, beyin qabığının təhlil-tərkib fəaliyyəti artır. Həyatın 6-9-cu ayları ərzində uşaq sağ əlindən və şəhadət barmağından istifadə etməyə başlayır. Rəngləri ayırd etməyə, yad adamların danışığı və mimikasını başa düşməyə, qısamüddətli ayrılıqdan sonra tanış adamları tapmağa nail olur. 9-12-ci aylar ərzində uşaq müəyyən əşyaların adlarını öyrənir, bədən hissələrini tanıyır, mürəkkəb davranış formalarının ilk əlamətləri əmələ gəlir. 6 aylıqdan sonra uşaqda **birinci siqnal sisteminin** qıcıqlandırıcılarına reaksiya ilə yanaşı ikinci siqnal sisteminin qıcıqlandırıcıları olan **söz siqnallarına** qarşı da böyük miqdarda hərəkət reaksiyaları əmələ gəlir. 9-10 aylıqda uşaq «atan

hardadır?» sözünə qarşı ataya tərəf dönməklə, «əl çal!» sözünə qarşı isə əl çalmaq reaksiyası göstərməyə cavab verir.

Fizioloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, uşaqlarda şərti danışıq refleksi səs aparatı əzələlərindən törəyən **kinestezik qıcıqlanmalar** əsasında inkişaf edir.

Bu qıcıqlanmalarda digər analizator sistemləri **görmə** (danışan adamın görünüşü), səs analizatorunu oyadan **səs kompleksi** və s. də iştirak edir. Bu sürətlə inkişaf edən böyük miqdarda şərti rabitələr (görmə hərəkəti, səs hərəkəti və s. onların bir-biri ilə və hərəki zona ilə rabitəsi) müəyyən bir sözlə əlaqədar olaraq söz siqnalının **«siqnallar siqnalı»**na-(İ.P.Pavlov)-ümumiləşdirici siqnala çevrilməsi üçün fizioloji şərtdir. Beləliklə, sözlər uşaq üçün zaman keçdikcə ətraf xarici aləmin cism və hadisələrinin xassələrini ümumiləşdirən faktlara çevrilir.

Uşağın **ali sinir fəaliyyətinin** inkişafı prosesində fizioloji amillərlə yanaşı ictimai amillər də mühüm rol oynayır. Ünsiyyət dairəsi kasıb olduqda, yaşıdları və yaşlılarla məhdud əlaqələrdə olduqda onun ali sinir fəaliyyəti, nitqinin inkişafı da normal göstəricilərdən geridə qalır. Müəyyən edilmişdir ki, bir yaşın sonunda normal uşaqlar 10-15 sözü tələffüz edə bilirlər.

Həyatın birinci ilində uşaqlarda ali sinir fəaliyyətinin əsas xarakterik xüsusiyyəti sinir sistemi üzrə oyanma və ləngimə (tormozlanma) proseslərinin geniş surətdə yayılması meylidir: 4-6 yaşlarından etibarən uşaqların beyin qabığında **analitik sintetik** (təhlil-tərkib) fəaliyyətin əlamətləri xeyli güclənir. Bu dövrdə ətraf xarici aləm hadisələrinin təhlili və tərkibi prosesində tormozlanmanın rolu artır. Nəticədə bu proses uşağın beyin qabığının reaktiv hüceyrələrini hədsiz oyanma və yorulmaqdan qoruyur. Beyin fəaliyyətinin reflektor xüsusiyyətlərini bilmək, təlim və tərbiyə işində onları nəzərə almaq olduqca vacibdir. Bu uşağın həyatını düzgün təşkil etməyə, gigiyenik qaydalara əməl etməyə, qıcıqlandırıcıların təsirini nizama salmağa, ən

başlıcası isə **uşaq nevrozlarının** yaranmasına səbəb ola biləcək əlverişsiz təsirlərdən qorunmağa kömək edir.

Uşaqların fiziki və psixi sağlamlığında mühit, həyat şəraiti, normal qidalanma kimi amillərlə yanaşı, valideynlərin spirtli içkiyə münasibəti də təsirli rol oynayır. Tibb elminin qənaətinə görə, spirtli içki qəbul edən qadınlarda uşağın əmələ gəlməsində əsas vasitə olan **qadın cinsi hüceyrələri** zərər çəkir, nəticədə uşaqların şikəst doğulma halları artır. Eyni halda uşaqlarda ümumi inkişaf zəifliyi, sümük birləşmələrində pozulmalar müşahidə edilir; onların vaxtından əvvəl doğulması, cılız olması, hətta ölü doğulması halları və s. özünü göstərir. Müəyyən edilmişdir ki, içki düşkünü olan anaların uşaqlarında doğumdan sonrakı ölüm halları normal analarla müqayisədə xeyli çoxdur. Tibbi statistikaya görə, içki düşkünü olan qadınların uşaqlarında ölüm halları normal analarla müqayisədə 15% çoxdur[1].

Siqaret və narkotik maddələr də ana bətnində körpənin normal fiziki və zehni inkişafına pozucu təsir göstərir. Bu zərərli vasitələrin davamlı qəbulu doğulan uşaqların normal inkişafına mane olur: onlar ağlağan və əsəbi olurlar.

## Suallar və tapşırıqlar.

1. Yeni doğulmuş çağanın anatomik- fizioloji xüsusiyyətləri haqqında nə bilirsiniz?
2. Bir yaşlı uşağın anatomik fiziki göstəricilərini söyləyin.
3. Körpələrdə süd dişlərinin çıxma ardıcıllığı necədir?
4. Körpəlik dövründə psixomatorikanın inkişaf dinamikası haqqında nə bilirsiniz?
5. Körpəlik dövründə sinir sisteminin inkişaf xüsusiyyətləri haqqında danışın.
6. Uşağın sinir sisteminin formalaşmasına hansı amillər təsir göstərir?

[1] Alpaslan Özyazıçı. Alkoqollu içkilər, siqaret və digərləri. (türk dilindən çevirən M.Musaoğlu) Ankara, 1997, s.56

## III. 2 Körpəlik dövründə uşağın inkişafının ümumi səciyyəsi

Uşağın doğulması onun orqanizmi üçün böyük sarsıntı yaradan bir andır. O, vegetativ, bitki həyatına bənzər uyğunlaşdığı daimi mühitdən (ana bətnindən) doğulma nəticəsində tamamilə yeni bir mühitə- hava mühitinə düşür. Bu yolla dünyaya gəlmiş körpəyə ətraf xarici mühitdən saysız-hesabsız qıcıqlandırıcılar təsir göstərir. Bu mühit onun üçün uzunmüddətli həyatın başlanğıcı olub, körpənin bir subyekt kimi sosial münasibətlərə qoşulmasının əsasını qoyur, onun şəxsiyyətə çevrilməsini şərtləndirir.

Uşağın doğulma anını ilk böhran hesab edən Bolqar psixoloqu **L.Pernu** yazmışdır: «Çağanın böhranı doğulduğu çətin dəqiqələrdən başlanır. 20 kq-a bərabər itələyici təzyiqlə $37^0$C temperaturu olan isti su mühitindən o, hava mühitinə atılır. Bu çəkisizlik vəziyyətində və havanın temperaturunun $20^0$C olduğu kosmonavtın vəziyyətinə bənzəyir ki, o, belə şəraitdə tənəffüs etməlidir»[1].

Yeni şəraitdə uşağın həyatı təbii, anadangəlmə reflekslər vasitəsilə tənzim olunur. O, müəyyən dərəcədə hazır sinir sistemi ilə doğulur ki, bu da onun xarici şəraitə uyğunlaşmasını təmin edir. Körpəni əhatə edən adamlar doğulduğu ilk anlardan etibarən onun qayğısını çəkirlər. Onlar uşağın orqanizminə fiziki qulluğu təmin edir, öyrədir, tərbiyə edir, insana məxsus psixoloji və sosial keyfiyyətlərə yiyələnməsinin subyekti rolunda çıxış edirlər. Uşağın yaşlılar tərəfindən ilk günlərdən başlanan himayəsi həyatın sonrakı mərhələlərində də davam edir, onun fiziki və sosial yetkinliyi dövründə, müstəqil həyat tərzinə başlamasınadək uzanır. Lakin həyatın sonrakı dövrlərində də valideynlər və digər yaşlılar tərəfindən yeniyetmə və gənclərə göstərilən maddi və mənəvi dəstək bu və ya digər formada davam edir. Həyatn qarşıya çıxardığı çətinliklərə davam gətirmək, bəzən sərt sınaqlara

[1] Bax: «Возрастная и педагогическая психология (под ред. М.В. Гамезо и др.)М.,»Просвещение»1984, с.57-58

sinə gərmək məqamlarında, ailə uğursuzluqları, maddi və mənəvi böhranlar, ünsiyyətsizlik şəraiti hətta yaşlı adamların özlərində belə, güclü psixoloji sarsıntılar yaradır.

Kimsəsizlik və təcrid olunma kimi hallar isə heç şübhəsiz, çox zaman şəxsiyyətin disharmoniyası və deqradasiyasına, bəzən isə tənəzzülünə, sosial dəyərləri itirməsinə, üzvi tələbatlardan asılılığına gətirib çıxara bilir. Dünyaya yeni gələn körpə müstəqil subyekt kimi fəaliyyət qabiliyyətinə malik olmasa da o, praktik olaraq bir sıra mürəkkəb sensor və hərəki qabiliyyətlərə-instinktlərə malik olur. Bu instinktlər onun dünyaya sürətlə uyğunlaşmasına, öz inkişafında günbəgün tərəqqiyə nail olmasına təkan verir. Çağa doğulduğu anda bir sıra mürəkkəb hərəkətlərə, sonralar orqanizmin yetkinləşməsi prosesində reallaşan, mürəkkəb davranış formalarına malik olur. Uşağın həyatının ilk günlərindən etibarən müşahidə olunan hərəkətlər ona genetik olaraq verilmiş təbii imkanlardır. Yeni doğulan çağada potensial olaraq bütün duyğu orqanları və onların funksional imkanları olsa da, onun bir subyekt kimi fəaliyyəti olduqca məhduddur. Qavrayış, hafizə kimi hissi idrak formalarının elementar təzahürləri onun gələcək idraki və intellektual imkanlarının əsasını təşkil edir.

Uşağın sinir sisteminin **genetik strukturları** və ya **sensor sisteminin blokları** həyat prosesində modifikasiyaya uğrayaraq idrak proseslərinin daha mürəkkəb strukturlarını yaradır, məsələn, qavrayışın belə mürəkkəb baza strukturlarına görmə, eşitmə və əzələ mexanizmlərinin cəmlənməsini, obyektləri izləməni, onları müqayisə etməni, xarici təsirlərin izlərinin beyində yenidən işlənilməsi və hafizədə saxlanmasını misal göstərmək olar. Müəyyən edilmişdir ki, artıq 3-cü aydan etibarən uşaq səsin istiqamətini təyin etməyə qadir olur. Yeni doğulmuş uşaqda çəpgözlüyü xatırladan baxış diqqəti cəlb edir ki, bu da müvəqqəti xarakterli olub, gözün hələlik koordinasiya edilməmiş hərəkətləri ilə bağlıdır. Güclü işıq selinin təsiri altında körpədə göz yarıqlarının örtülmsi – **işığa qarşı reaksiya** həyatın ilk həftəsində müşahidə olunsa da,

əşyaların yaxınlaşmasına qarşı reaksiya həyatın ilk iki ayı ərzində yaranır. Körpənin həyatının 2-3 aylığında göz bəbəklərinin ağrıya qarşı reaksiyası müşahidə olunur. Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, uşağın dünyaya gəlməsindən təxminən sutka yarım sonra, onun beynində işıq selinə reaksiya kimi müxtəlif elektrik potensialını qeydə almaq mümkündür.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, körpə doğulduğundan 1-2 gün sonra kimyəvi keyfiyyətləri qidanın dadına görə fərqləndirə bilir. İybilmə duyğuları körpədə doğulduğu ilk gündən etibarən fəaliyyət göstərməyə başlayır. Uşaqlarda iybilmə duyğuları potensial olaraq mövcud olsa da, onlar yalnız 7-8 aylığına çatdıqdan sonra qoxunu nisbətən daha yaxşı fərqləndirirlər.**Görmə, eşitmə və hərəkət duyğularının** elementar formaları da ilk günlərdən fəaliyyətə başlayır. Fizioloqlar yeni doğulmuş körpənin ilk şərtsiz reflekslərı sırasında onun orqanizminin əsas sistemlərinin (tənəffüs, qan dövranı) işini təmin edən bir sıra reflekslərin adlarını çəkirlər. Məsələn, iynə vurarkən körpədə dərinin sərtləşməsi, güclü işıq selinin təsiri ilə gözlərin yumulması kimi müdafiə reflekslərı müşahidə olunur. Bunlarla belə, iki aya qədər uşaqlarda müşahidə olunan müdafiə reflekslərı sırasında **qucaqlama refleksinin** adını çəkmək olar. Bu qorxu zamanı ananı qucaqlama formasında təzahür edir. Həyatın ilk günlərində uşaqlarda Robinzon refleksi adlanan ovuciçi refleks də müşahidə olunur. Belə ki, uşağın ovucunun içinə hər hansı bir əşya toxunduqda uşaqda əşyanı tutmaq və möhkəm surətdə saxlamaq hissi əmələ gəlir. Bəzi psixoloqlar bunu yapışma və ya «meymun refleksi» də adlandırırlar. Uşaqlarda müşahidə olunan ilk şərtsiz reflekslərdən biri də **Babin refleksi** adlandırılan ayaqaltı refleksdir ki, bu, iki yaşadək bir müddət ərzində müşahidə olunur. Uşağın ayağının altını küt bir çöplə qıcıqlandırdıqda onun ayaq barmaqları aralanır.

Uşağın orqanizmi ilə ətraf xarici mühit arasındakı ən sadə qarşılıqlı təsir forması məhz anadangəlmə və ya ilk şərtsiz reflekslərdir. Bunlar mərkəzi sinir sisteminin (onurğa beyin və böyük yarımkürələrin qabıqaltı hissələri) ibtidai

hissələrinin funksiyalarından ibarətdir. Məhz bu hissələr arasında daimi sinir rabitələri mövcud olur. Bu və ya digər qıcıqların müvafiq reseptorlara təsiri ilə körpədə əmmə, sıxma, itələmə və s. kimi reaksiyalar özünü biruzə verir. Körpəlik dövründə uşaqlarda müşahidə olunan ilk şərtsiz reflekslərdən biri kimi **bələdləşmə refleksinin** xüsusi əhəmiyyəti vardır. Bu refleks uşağın bütün psixi inkişafı prosesində özünün idraki məzmunu ilə fərqlənir. Onun ilkin və elementar forması uşağın nəzərlərinin əlvan, parlaq əşyalara doğru yönəlməsində ifadə olunur. Artıq bir yaşın sonunda bələdləşmə refleksi əllərin yoxlayıcı, sınaq xarakterli hərəkətləri ilə birləşir və tədqiqatçılıq xarakteri alır. Körpədə mənfi təsirlər yaradan daxili və xarici qıcıqlar ağlama reaksiyası ilə tamamlanmış olur. Körpəlik dövründə uşaqlarda fizioloqların **atavistik reflekslər** adlandırdıqları reflekslər də müşahidə olunur. Bu, əşyaları ağıza aparma formasında özünü göstərir.Bu, insana genetik olaraq öz canlı əcdadlarından keçən manipulyativ hərəkətləri xatırladır və keçici xarakter daşıyır. Bu refleks körpədə 6 aylıqda müşahidə olunur və 12 aylıqda demək olar ki, yoxa çıxır.

İnsan övladı olan körpə bir çox canlıların balasından fərqli olaraq, daha az fəal, passiv və iqtidarsız olur. Bir çox heyvanların balaları doğulduqdan bir neçə saat sonra müstəqil yeriməyə başladığı halda, insan övladı ən yaxşı halda bu imkana bir yaşın sonunda sahib olur.

Uşaqda hərəki fəallığın (motorika) inkişafı körpəlik dövrünün sonunda **ayaq üstə yerimə,** məkanda addımlamaqla müstəqil yerdəyişmə formasında özünü göstərir. Körpəlik dövründə 5-6 aylıqdan başlayaraq uşaqlarda hərəki vərdişlər sürətli tempdə inkişaf edir. Əllərin və ayaqların sensor cəhətdən əlaqələnmiş hərəkətləri sonralar uşağın idrak və intellektual qabiliyyətlərinin formalaşmasında önəmli rol oynayır. Hərəki fəallıq zamanı əllərin və ayaqların hərəkətləri uşağa xarici aləm haqqında yeni informasiyalar əldə etmək, yerini sərbəst olaraq dəyişməklə yeni-yeni əşya və hadisələrlə tanış olmaq imkanı verir. Körpəlik dövründə əlin mürəkkəb hərəkətləri uşağın təfəkküründün ilkin

forması – **əyani-əməli təfəkkür** forması olaraq özünü göstərir. Körpənin əlinin böyük impulsiv aktivliyi onun həyatının ilk aylarından müşahidə olunur. Tutma, sıxma, əlləşdirmə kimi manipulyativ hərəkətlər artıq 3-4 aylıqda əli əşyalara tərəf uzatma, yapışma, dartma kimi hərəkətlərlə möhkəmlənmiş olur. 6 aylıqda o, yaşlıların köməyi ilə, 8 aylıqda isə sərbəst oturmaq imkanına sahib olur. 11 aylıqda uşaq sərbəst ayaq üstə durmağa, 12 aylıqda yaşlıların əlindən tutmaqla yeriməyə, 13 aylıqda isə sərbəst yeriməyə yiyələnmiş olur.

10 aylıqda uşaqlarda əllərin və gözün uzlaşdırılmış hərəkətlərini müşahidə etmək olar ki, buna da psixoloqlar **sensomotor koordinasiya** deyirlər. Uşaqların psixoloji müayinəsi (diaqnostikası) metodları vasitəsilə onların psixi sağlamlığının normativ göstəricilərini müəyyən etmək mümkündür.

Körpəlik dövründə hərəki sfera üzrə aparılan psixodioqnostika vasitəsilə müəyyən edilmişdir ki, körpə 12 həftəlikdə başın vəziyyətinə, 20 həftəlikdə əllərin, 40-cı həftəlikdə isə bədənin hərəkətlərinə nəzarət funksiyasına yiyələnmiş olur. 3 aylıqdan müşahidə olunan **diffsuz hərəki fəallıq** aylar keçdikcə lokalizasiya olunur, qeyd olunduğu kimi, 13 aylıqda müstəqil yerimə forması ilə başa çatır. Körpənin sensor fəaliyyəti 1 aylıqda ilk dəfə olaraq anaya zillənmiş baxışda təzahür edir. Ana körpənin üzünə baxıb danışdıqca o, ağzını açıb-yumur. 1,5 aylıqda körpə hərəkət edən adamı izləyir. 3 aylıqda başını səs gələn tərəfə çevirir, öz əllərini müşahidə edir, hərəkət edən obyekti izləməyə başlayır. Bu ixtiyari hərəkətlərin ilkin təzahürü kimi qiymətləndirilir. 5 aylıqda körpə güzgüdəki əksinə baxıb gülümsəyir. 6 aylıqda yeni parlaq oyuncaqlara maraq göstərir, eşitdiyi səsləri təqlid etmək cəhdi göstərir. 8 aylıqda yad adamları doğmalarından fərqləndirir. Yarısı gizlədilmiş əşyaları tapır, ona göstərilən əşyanın yoxa çıxmasından təəccüblənməyə başlayır. 10 aylıqda uşağın sensor reaksiyaları xeyli mürəkkəbləşmiş olur. Belə ki, o, gözü qarşısında gizlədilmiş əşyanı tapmağa

çalışır, 12 aylıqda isə şəxsi adı ilə çağırıldıqda dönüb baxır, səs tonunu fərqləndirir, kitablardakı şəkillərə maraq göstərir.

Körpəlik dövründə uşağın **diqqətinin** inkişafı anadangəlmə şərtsiz elementar reflekslərdən başlayır. Artıq 2 həftəliyində uşaq uca səslərə, parlaq əşyalara, bir qədər sonra isə, yəni 1,5 aylıqda hərəkət edən obyektlərə reaksiya göstərir. Lakin bu reaksiyalar olduqca davamsız olur: uşağın psixikasının məhdud imkanları onun diqqəti obyektində duran əşyalara psixi fəaliyyəti uzun müddət yönəltməyə imkan vermir. Bu dövrdə uşağın diqqəti qısa müddətli bələdləşmə refleksi səviyyəsində məhdudlaşıb qalır. Təxminən 6 aylığında uşağın psixi fəaliyyətində **diqqətin cəmləşməsi təşəbbüsləri** təzahür edir: o, əşyalara maraq göstərir, onları əlinə alır, sonra isə döşəməyə atır. Davamsız olan bu fəaliyyət uşağın digər obyektlərə maraq göstərməsi ilə nəticələnir. Həyatın ikinci ilində diqqətin mərkəzləşmə müddəti bir qədər artır ki, bu da oyun fəaliyyəti fonunda baş verir. Lakin kənar qıcıqlandırıcıların təsiri nəticəsində bu dövrdə də diqqət davamlı olur. Körpəlik dövrünün ikinci yarısında uşaqlarda yaşlıların hərəkətlərini təqlid etmə, psixoloqların **vikar öyrənmə** adlandırdıqları hərəkətləri diqqəti cəlb edir. Dünyaya yeni gəlmiş körpə öz həyatını ilk günlər şərtsiz reflektor xarakter daşıyan çığırtı ilə başlayır. Fizioloqlar uşağın ilk çığırtısının səs axınının spazması (sıxılması) kimi qiymətləndirirlər. Bu spazma **tənəffüs refleksləri** ilə müşayət olunur. Bir sıra alimlər belə hesab edirlər ki, çığırtı **mənfi emosiyanın** ilk təzahürüdür. Körpədə müşahidə olunan ilk **müsbət emosiya** təbəssümdür. Təbəssüm ifadəli bir emosiya kimi çığırtıdan xeyli sonra, ikinci ayda müşahidə olunur. Bu uşağa qarşı yaşlının nəvazişi, gülümsər baxışları fonunda baş verir. Psixoloqlar bu zəmində bir qədər sonra uşağın emosional sferasında yaranan sintetik hərəkətləri **«canlanma kompleksi»** adlandırırlar. Bu fenomen ilk dəfə rus psixoloqu N.M.Şelivanov tərəfindən ötən əsrin 20-ci illərində kəşf olunmuşdur. O, «canlanma kompleksi»ndə 4 əsas komponenti qeydə almışdır:

1. Görmənin mərkəzləşməsi;
2. Təbəssüm;
3. Hərəki canlanma;
4. Vokalizasiya (qırıq-qırıq uca səslər)[1]

«Canlanma kompleksi»nın mahiyyəti ondan ibarətdir ki, uşaq əyilərək ona tərəf baxan adama gülümsəyir, əlləri və ayaqları ilə canlı hərəkətlər edir, sakit səslər çıxarır. Bu, uşağın emosional ünsiyyəti, yaşlı ilə ünsiyyətə ilk sosial tələbatı kimi üzə çıxır. «Canlanma kompleksi»çağalıq dövrü ilə körpəlik dövrünün sərhəddində, yəni körpəlik dövrünün başlanması ərəfəsində yaranır[1].

Körpəlik dövrünün sonunda uşağın hərəki fəallığının artması zəminində elementar manipulyasiyadan əşyaların funksional, həqiqi xüsusiyyətlərinin müəyyən edilməsinə yönəlmiş əşyavi fəaliyyətə keçid prosesi baş verir. Uşaqlarda əşyavi fəaliyyətə keçid onların əqli inkişafının, **əyani-əməli təfəkkürünün** formalaşmasına geniş imkanlar açır. Uşaqların əşyalarla birbaşa qarşılıqlı münasibəti əşyavi qavrayışın inkişafına təkan verir, onların şəxsi təcrübəsini zənginləşdirir. Nəticədə, uşaq yandırıcı, soyuq, təhlükəli əşyalardan qorxur, onlara yaxınlaşmaqdan çəkinir.

## Suallar və tapşırıqlar.

1. Çağanın doğulma anında keçirdiyi ilk böhranın mahiyyəti nədən ibarətdir?
2. Yeni doğulmuş körpənin ilk psixi imkanları nədə ifadə olunur?
3. Körpənin ilk şərtsiz reflekslərı hansılardır? Onların mahiyyətini izah edin.
4. Körpədə müşahidə olunan ilk duyğular hansılardır?
5. Körpənin manipulyativ hərəkətlərinə nələr daxildir?

[1] Смирнова Е.О. Детская психология М., «Владос» 2003, стр.105
[1] Мухина В.С. Детская психология. М., «Прсвещение», 1985 стр 58

6. Sensomotor koordinasiyanın mahiyyətini izah edin.
7. «Vikar öyrənmə» nəyə deyilir?
8. Körpəlik dövrünün üstünlüklərini söyləyin.

### III.3 Körpəlik dövründə idrak proseslərinin inkişafı.

Körpəlik dövründə uşağın duyğuları fonunda **qavrayışın** sadə formaları müşahidə olunur. Görmə, eşitmə, dad, lamisə və iybilmə duyğularının inkişafı körpənin qavrayışının, ilk dərk etmə fəaliyyətinin əsasını qoyur. Artıq ikinci aydan başlayaraq uşaq müstəqil olaraq öz baxışlarını bir əşyadan digərinə keçirməyə nail olur. İki aylıq körpələr yaxşı qidalandıqda, sakit vəziyyətdə olduqda onların vaxtlarının çox hissəsi ətraf obyektləri izləməyə yönəlir. Bununla belə, qeyd etmək lazım gəlir ki, iki-dörd aylıq körpələrdə görmə qabiliyyəti nisbətən zəif olur. Təxminən üçüncü ayın sonralarında uşaqlarda gözün hərəkətlərinin nisbətən yaxşı inkişaf etdiyini müşahidə etmək olar. Bu hərəkətlərin inkişafı və formalaşması prosesi tamamilə genetik mənşəli deyildir. Onun sürəti və keyfiyyəti xarici stimullardan da əhəmiyyətli dərəcədə asılıdır.

Təxminən ikinci aydan başlayaraq uşaqda sadə rəngləri, üç-dördüncü aydardan etibarən əşyaların formasını fərqləndirmə qabiliyyəti nəzərə çarpır. Körpə doğulduqdan sonra keçən ilk iki həftə ərzində o, ananın sifətini və səsini qavramaq qabiliyyətinə malikdir. Bu faktı aşkara çıxarmaq məqsədilə alimlər belə bir təcrübə aparmışlar: Ana körpənin yanında dayanıb yad səslə daşındıqda o, özünü narahat hiss etmişdir. Bu hal yad adamın ananın səsilə danışdığı zaman da təkrarlanmışdır.

İkinci aylıqdan etibarən körpə adamlara uyğunlaşır, onları ətraf aləmin əşyalarından ayırmağa nail olur. 2-3 aylığında körpə ananın təbəssümünə adekvat olaraq **ümumi fəal hərəkətlərlə** cavab verir. Üç-dördüncü aylıqda uşaqlar öz davranışları ilə yalnız tanış adamlarla, əsasən ailə üzvləri ilə, yəni

ən yaxın sosial əhatə ilə ünsiyyətə qoşulurlar. Səkkiz aylığında uşaq hətta ana yanında olmasına baxmayaraq, yad mühitdə özünü narahat hiss edir. Bu hal bir yaşın sonunadək davam edir. Bununla birlikdə, uşaqlarda doğma adamlara bağlılıq, ana ilə birlikdə olmağa cəhdetmə təşəbbüsləri də bu yaş dövründə güclü olur. Naməlum şəraitdən və yad adamlardan qorxu hissi uşaqlarda 14-18 aylığında daha mövcud olan **özünüqoruma instinkti** ilə bağlı olub, qeyd olunan dövrdə uşaqlarda özünümüdafiə reaksiyalarının zəif olması ilə əlaqədardır. Bir yaşın sonuna doğru uşaqlarda qavrayışın əşyavilik xüsusiyyəti, yəni duyğuların və obrazların ətraf gerçəkliyin əşyalarına aidliyi meydana gəlir. Uşaq dünyaya gəldikdən sonra birinci ay ərzində səslərin tembrini və ucalığını fərqləndirmək qabiliyyətinə malik olur. Həyatın birinci ilinin sonuna doğru körpə əşya və hadisələrin ilkin obrazlarını **hafizədə** saxlamağa qadir olur. Əgər 3-4 aylıqdan sonra körpə qavrayış obrazlarını hafizədə cəmi bir saniyə ərzində saxlaya bilirsə, sonrakı aylar dövründə obrazları yaddasaxlamanın müddəti xeyli artır. Psixoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, uşaq ananın səsini və sifətini günün istənilən vaxtında tanımaq qabiliyyətinə malik olur. 8-12 aylıqda körpə görmə məsafəsində olan əşyaları fərqləndirə bilir, onları tam qavramaqla yanaşı, ayrı-ayrı hissələrini də qavrayır. Bu dövrdə uşaqlarda **fəal axtarış refleksi** müşahidə olunur. Belə ki, uşaq gözü qarşısındakı əşyanın qəflətən yoxa çıxmasını duyur və onu axtarmaq cəhdləri göstərir.

Uşaq psixologiyası sahəsində tanınmış rus psixoloqu A.B.Zaporojets körpəlik dövründə uşaqlarda idrak proseslərinin inkişaf xüsusiyyətlərini öyrənmək sahəsində əhəmiyyətli nəticələr əldə etmişdir. Onun fikrincə, uşaqda tutma hərəkətləri təxminən üç aylıqda müşahidə olunur. Bu, körpədə əşyaların **forma və ölçülərini qavrama** prosesinin əsasını təşkil edir, bu yaş dövründə uşaqlar əşyaların bir-biri ilə birləşməsi, sintez edilməsinin mümkünlüyünü bəsit şəkildə qavraya bilirlər. Bu onların kubiklərdən qüllə tikmək, komplekslər yaratmaq təşəbbüslərində aydın əks olunur. Bununla

yanaşı, bu yaş dövründə uşaqlar əşyaların bir-birindən ayrılmamasının mümkünlüyünü kifayət qədər qavraya bilmirlər. Müəyyən edilmişdir ki, körpə ananın xalatı üstünə tikilmiş qırmızı gülü qoparmaq üçün çoxsaylı təşəbbüslər göstərmiş, gülün bu paltarın üstünə tikildiyini, onun ayrılmaz hissəsi olduğunu dərk edə bilməmişdir. Uşaqlarda forma və ölçünün qavranılması körpəlik dövrünün sonunda müşahidə olunduğu halda, **rəng qavrayışı** yalnız ikinci yaşın sonunda baş verir. Bir yaşlı körpələrdə ətraf aləmə qarşı aydın ifadəli maraq idraki fəallıq xarakterli bir xüsusiyyət kimi diqqəti cəlb edir. Onlar rənglərə, al-əlvan, yeni və qeyri-adi obyektlərə maraq göstərirlər. J.Piajenin fərziyyəsinə görə, körpəlik dövrünün sonunda bir çox uşaqlar ümumi əlamətlər əsasında birləşmiş əşyalar qrupunu (mebel, heyvanlar, qida və s.)təsvirə görə də fərqləndirə bilirlər. Həyatın birinci yarısında körpələr üçün əşyaları tanıma qabiliyyəti xarakterik olduğu halda, həyatın ikinci yarısında əşyaların obrazlarını hafizədə bərpa etmək imkanları diqqəti cəlb edir. Uşaqdan ona tanış əşyaların adlarını soruşduqda o, gözlərini, başı və bədənini çevirməklə fəal şəkildə onları axtarmağa başlayır. J. Piaje bir yaşlı uşaqların sensor inkişafını iki əsas mərhələyə ayırmışdır:

1. Uşağın cansız əşyalarla qarşılıqlı təsir strukturlarının inkişafı mərhələsi;

2. Uşağın ətraf adamlarla qarşılıqlı təsir strukturlarının inkişafı mərhələsi. O, körpəlik dövründə uşaqlarda qavrayışın inkişafında mənimsənilmiş koqnitiv sxemlərin mühüm rolunu qeyd etmiş, onları **qavrayışın əsas vahidləri** adlandırmışdır. Onun fikrincə, uşaq obyekti və ya onun obrazlarını qavrayarkən bu sxemlər hafizədə dərin izlər qoyur ki, bu da obyekt haqqında informativ əlamət kimi özünü göstərir. Bir yaşın sonunda uşaqlarda dərketmə fəaliyyətinin məcmuyu kimi **sensomotor intellekt** formasında təfəkkürün ilkin əlamətləri nəzərə çarpır. Bu yaşda uşaqlar əşyaların elementar xüsusiyyətlərini mənimsəyir və praktik fəaliyyətlərində bundan istifadə edirlər. Onlarda təfəkkürün sonrakı inkişafı **nitqin inkişafı** ilə sıx əlaqədə baş verir.

Körpəlik dövründə nitqin inkişafı uşağın ünsiyyət dairəsi fonunda doğularkən təbii olaraq ona verilən **empatiya qabiliyyəti** başqa adamın emosional vəziyyətini onun mimikası, jestləri və pantomimkasını anlamaq qabiliyyəti bazasında yaranır. Bu dövrdə əyani-əməli təfəkkürün ilkin əlamətləri əlin manipulyativ hərəkətlərində, hiss orqanlarının fəaliyyətinin təkmilləşməsi, bütün əməliyyat strukturlarının və onlar arasında koordinasiyanın formalaşması fonunda baş verir. Həyatın ilk aylarından etibarən körpədə insan nitqinə, danışıq səslərinə üstün maraq təzahür edir. Uşaq bu səsləri maddi aləmin hər cür digər səslərindən fərqləndirir. 1-2 aylığında körpə **a-a, u-u, ə-ə,** tipli sadə səsləri tələffüz etməyə başlayır. İki-dörd aylığında körpədə ilk **vokalizasiya** yaranır. Dörd-altı aylıqda inildəmə, sızıldama, «zingildəmə» və səsli ağlama reaksiyaları meydana gəlir. Uşaq nitqin bu məhdud imkanlarından yaşlılarla ünsiyyətdə istifadə edir. Artıq 3-4 aylığında körpədə təsadüfən tələffüz edilən səslərin repertuarı genişlənir.

**«a-o-u», «yu-a-a»** tipli səs birləşmələrinin təzahürləri müşahidə olunur. Körpədə ilkin nitq reaksiyaları yaşlılarla qarşılıqlı münasibətlər zəminində yaranır və uşaq bu ünsiyyət formasına yaşlılarla zəruri ünsiyyət situasiyalarında istinad edir.Bu zaman o, ifadəli hərəkətlərin spesifik komplekslərindən istifadə edir,ayrı-ayrı sözləri və frazaları yaşlıların emosional vəziyyətinə uyğunlaşdırır.Altı-yeddi aylığından başlayaraq uşaq qavranılan əşyanı onun adı ilə əlaqələndirməyə nail olur. Üçüncü aydan başlayaraq körpənin həyatında emosional ünsiyyətin ilkin formalarından biri kimi **gülüş**-sevinc hissinin təzahürü meydana çıxır və bu altıncı ayın sonunda davamlı xarakter almış olur. Bu dövrdə körpədə yaşlıların diqqət mərkəzində olmaq təşəbbüsləri genişlənir, nitqdə **day-day-day, ta-ta-ta** tipli səs birləşmələri meydana gəlir. Doqquzuncu aylıqda körpədə baş verən hadisələrə qarşı emosional münasibəti əks etdirən yalançı, uydurma sözlərin tələffüzü, arzunu səslər vasitəsilə ifadə etmək cəhdləri müşahidə olunur. On-on birinci aylıqda uşaqlar mənası sosial mahiyyət kəsb etməyən, yəni hamı tərəfindən

işlədilməyən «**fu», «təhmi», «arşı», «onna»** və s. tipli yalançı jarqon sözlərdən istifadə etməyə başlayırlar. Bununla belə, uşaqların nitqində **«nənə», «baba», «dədə»** tipli eynihecalı sözlərin repertuarı get-gedə artır.

Psixoloqların fikrincə, həyatın birinci ilinin sonunda uşaqlar müəyyən ümumiləşmiş məna kəsb edən fiziki səslərin kompleksi kimi semantikanı anlayırlar. Müəyyən edilmişdir ki, bu yaşın sonunda uşaqlar orta hesabla 10-20 sözü dəqiq başa düşür və müəyyən tərzdə onlara uyğunlaşır. Uşaqlar yaşlının sözlü göstərişi ilə özlərinin bəzi bədən orqanlarını, və ya tanış əşyaları göstərməyə nail olurlar. Amerikan psixoloqu C.Brunerin fikrincə, körpə uşaq adət etdiyi əməliyyatlarla praktik olaraq qarşılıqlı təsirdə olduğu ətraf aləmi dərk edir.

**Suallar və tapşırıqlar.**

1. Uşaqlarda rəng və forma qavrayışının ilk əlamətləri ilk dəfə nə vaxt meydana çıxır?
2. Körpədə emosional ünsiyyətin təzahürləri ilk dəfə nə vaxt müşahidə olunur?
3. Özünüqoruma instinkti uşaqda hansı reaksiya doğurur?
4. Körpələrdə ilk idrak maraqlarının təzahürləri nə vaxt meydana gəlir və bu nədə əks olunur?
5. Uşaqlarda tanıma aktının ilk əlamətləri nədə əks olunur?
6. J.Piaje körpəlik dövründə sensor inkişafı hansı mərhələlərə ayırmışdır?
7. Körpəlik dövründə uşaqlarda təfəkkürün hansı əlamətləri meydana gəlir?
8. Körpəlik dövründə verbal ünsiyyətin formalaşması dinamikasını söyləyin.

## III.4. İlk uşaqlıq dövründə idrak proseslərinin inkişafı

Psixi inkişafın dövrləşdirilməsinə görə, uşağın həyatının 1 yaşdan 3 yaşadək olan dövrü **ilk uşaqlıq** və ya **erkən uşaqlıq dövrü** adlanır. Müasir elmi nəticələrə görə, bu dövr uşağın həyatında, onun gələcək psixi inkişafında çox mühüm mərhələdir. Körpəlik dövründən sonra başlanan bu inkişaf mərhələsi uşağın əldə etdiyi üç başlıca üstünlüklə **ayaq üstə yerimə, nitqin ünsiyyət və əşyavi fəaliyyətlə** xarakterizə olunur. Ayaq üstə yerimə uşağın məkana daha geniş şəkildə bələdləşməsini təmin edir, onun yeni-yeni məlumatlar qazanmasına imkan yaradır. Nitqli ünsiyyətə sahib olan uşaq yaşlılar və tərbiyəçilər vasitəsilə həyat hadisələri, ətraf aləm haqqında yeni biliklər, bacarıq və vərdişlər əldə edir, mədəni dəyərlərə, əxlaq normalarına sürətlə yiyələnmək imkanları qazanır. Əşyavi fəaliyyət uşağın əqli qabiliyyətlərinin, əl hərəkətlərinin daha da təkmilləşməsinə, inkişaf etməsinə təkan verir. Həyatın üçüncü ilinin sonunda uşağın psixikasında əhəmiyyətli keyfiyyət dəyişikliklərini müşahidə etmək mümkündür. Körpəlik dövrü üçün xarakterik olan əşyavi-manipulyativ fəaliyyət üç yaşın sonunda **bələdləşmə-tədqiqatçılıq, quraşdırma** kimi fəaliyyət növləri və yaradıcı xarakterli işlərlə əvəz olunur. Təxminən üç yaşın sonunda uşaqlarda psixi-idrak proseslərinin dinamik göstəriciləri dərketmə və praktik fəaliyyətdə özünü aşkar biruzə verir. Uşaqda **qavrayış, hafizə, təxəyyül, diqqət** kimi proseslər heyvanların psixikasından köklü şəkildə fərqlənir və insani xassələr qazanır. Bu yaş dövründə ən üstün cəhətlər ondan ibarətdir ki, uşaq onun həyatının sonrakı **intellektual və şəxsiyyət keyfiyyətlərinin baza əlamətlərinə** sahib olur. Burada söhbət ilk növbədə insanlarla ünsiyyətdə dildən istifadə etmək və onu anlamaq qabiliyyətinin formalaşmasından gedir. Müasir psixoloji təsəvvürlərə görə, üç yaşın sonunda uşaqda artıq elə psixoloji və sosial keyfiyyətlər yaranır ki, bu onu müəyyən mənada **şəxsiyyət yönümlü keyfiyyətlər sahibi** kimi xarakterizə etməyə imkan verir. Nitqin və idrak proseslərinin inkişafı uşağa

sürətli şəkildə bilik, bacarıq və vərdişləri, insan davranışının formalarını mənimsəməkdə kömək edir. O, insanların yaratdığı maddi və mənəvi mədəniyyətin nailiyyətləri ilə tanış olmaq imkanına malik olur. Burada nitqin rolu olduqca böyükdür. Onun sayəsində uşaq yaşlılarla özünün işgüzar münasibətlərini yaradır, şüurlü və məqsədəyönəlmiş xarakter daşıyan təlim və tərbiyə proseslrinə qoşulmaq imkanına malik olur. Körpəlik dövründə uşağın əldə etdiyi uğurlardan biri də **semiotik funksiyadır.** Bu, uşağın simvolları,işarələri, obrazları qavramaq qabiliyyətini əks etdirir. Onun vasitəsilə uşaqlar simvolik oyunları, əqli obrazları və şəkilləri, təqlidetmə və modelləşdirmə kimi fəaliyyət formalarını mənimsəyirlər. İlk uşaqlıq dövründə uşağın sosial keyfiyyətlərə yiyələnməsi imkanları genişlənir. Bunların sırasında uşağın nitqə yiyələnməsi başlıca yer tutur. Bir yaşın sonunda əşyaları öz sözləri ilə adlandıran, tək-tək sözləri çətinliklə tələffüz edən uşaq, artıq dörd yaşında 1500-2000-ə qədər söz bilir və demək olar ki, yaşlılar kimi yaxşı danışmağa nail olur. 1,5-2,5 yaşlarında uşaqlar sözləri birləşdirməklə iki-üç sözlü cümlələr qurur, fəal müstəqil nitqə doğru inkişaf edirlər. Artıq üç yaşın sonunda uşaq 6-7 sözdən ibarət cümləni təkrar etməyi, cəm şəkilçisini, ismin hallarını düzgün işlətməyi, sözləri **qrammatik cəhətdən uzlaşdırmağı** bacarır. Həyatın ikinci ilindən etibarən uşaqlarda əhatə olunduqları ətraf aləmə qarşı maraq kəskin şəkildə artır. Onlar hər şeyi eşitmək, hər şeyə baxmaq, bilmək və toxunmaq istəyirlər. Bu maraq onların oyuncaqları söküb-dağıtmalarında sındırmalarında əks olunur. Əşyaların adı və baş verən hadisələr onları maraqlandırdığından yaşlılara «Bu nədir?» tipli suallarla tez-tez müraciət edirlər. Belə hesab olunur ki, bu dövrdə uşağın **passiv nitqindəki** sözlərin sayı müəyyn qədər azalır, yəni onların çoxu **aktiv nitqə** keçir. Üç yaşında aktiv nitqlə passiv nitqin nisbəti azalaraq 1:1,3-ə enir. Yaş yarımlıqda uşaq onu əhatə edən əşyaların adını öyrənmək üçün mimika, jest və pantomimikadan istifadə edir. Bu məqsədlə o, barmağını onu maraqlandıran əşyaya doğru uzadır və yaşlılardan cavab gözləyir. Sonralar

isə bu jestlərə suallar da qoşulur. Maraqlı cəhətlərdən biri ondan ibarətdir ki, uşaqlar əvvəllər adını eşitdiyi əşyanı göstərərək təkrarən onun nə olduğunu soruşurlar. Uşağın tanıdığı bu əşyanın adını yaşlılar düzgün demədikdə, o qane olmur, doğru cavab alanadək sualı dönə-dönə təkrarlayır. Belə suallarla uşaq öz biliklərini yoxlayır, onları sınaqdan keçirir. Üç yaşından etibarən uşaqlar yaşlıların özləri üçün maraqlı olan söhbətlərini, xüsusilə, hekayələri, nağıl və şerləri dinləməyi xoşlayırlar. 2-3 yaşlarından etibarən uşaqlarda cümlənin qrammatik quruluşu-nun formalaşması prosesi intensiv xarakter alır. Tədricən uşağın nitqində az miqdarda da olsa, **çoxmənalı sözlər** nəzərə çarpır. Psixoloqların fikrincə, bu sözlər o qədər də çox olmayıb, uşağın lüğət ehtiyatının 3-7% bərabər olur. 2,5-3 yaşlardan etibarən uşaq yaşlıların sözlü təlimatlarını dinləməyi, tələblərə uyğun hərəkət etməyi bacarır. Üç yaşlı uşağın nitqi əsasən sadə cümlələrdən qurulur.

İlk uşaqlıq dövründə uşağın **nitqi situativliyi ilə fərqlənir.** Uşağın yaşlı ilə münasibəti sabit olmayıb, hal-hazırki anda ona münasibətdən asılı olur. Uşağın nitqi yaşlının nitqindən, qarşılıqlı olaraq verilən suallardan asılı olmaqla dialoq şəklində qurulur. Uşağın təqlidetmə qabiliyyəti onun nitqinin bütün aspektlərinin, xüsusilə fonetika və qrammatikanın formalaşmasına təsir göstərir. Yaşlılar tərəfindən rəğbətləndirilmə uşağın nitqinin sürətli inkişafına güclü təsir göstərir. Qapalı mühitdə, uşaq evlərində böyüyən uşaqların nitqi xeyli kasıb olur. Belə mühitdə uşağın **sözyaratma imkanları** xeyli məhdudlaşır.

Uşağın əqli inkişafında fəaliyyət əsas amilidir. Əşyavi oyunlar 2-3 yaşlı uşaqların fəaliyyətinin əsas formalarıdır. Oyunlar uşaqların həyatının təşkili vasitəsi kimi onlara çoxlu sevinc bəxş edir; müsbət emosiyalar yaradır; onları fərəhləndirir və təəccübləndirir, yaşlılar və yaşıdlarla qarşılıqlı münasibətləri-nin əsasını qoyur.

Şəkil 2. Erkən yaşlı uşaqların əşyavi oyunu.

Həyatın ikinci ilindən etibarən uşağın sadə əşyavi əməliyyatları mənimsəməsi sayəsində onun qavrayışının imkanları genişlənir. Artıq üç yaşlı uşaq dairə, kvadrat, üçbucaq və s. kimi bəzi həndəsi formaları, həmçinin rəng spektrinin əsaslarını fərqləndirə bilir, onda **forma, məkan, zaman və hərəkət qavrayışının** bəsit formaları meydana gəlir. Onlar əşyaları sadə müqayisə yolu ilə tutuşdurur, sadə ümumiləşdirmələr aparır və bundan məsələ həllində istifadə edirlər. Qavrayış vasitəsilə uşağın hissi dərketmə fəaliyyətinin məhsuldarlığı artır. Uşağın hafizəsi, nitqi təfəkkürü və hərəkətlərinin təkmilləşməsində qavrayışın çox böyük rolu vardır. Bu yaş dövründə uşaqlar əşyaları seçərkən ən sadə və aydın fərqlənən əlamətləri, ilk növbədə formanı əsas götürürlər. İlk uşaqlıq dövründə qavrayışın inkişafında üç əsas **parametr-perseptiv əməliyyatlar, sensor etalonlar və tutuşdurma əməliyyatları** əsas yer tutur. İlk uşaqlıq dövründə tədricən əyani-hərəki təfəkkürdən **əyani-obrazlı təfəkkürə** keçid baş verir. Onlar maddi əşyalar üzərində əməliyyatları tədricən onların obrazları üzərində əməliyyatlarla əvəz edirlər.

Bu dövrdə **təfəkkürün inkişafı** uşağın əşyavi fəaliyyəti prosesində baş verir. Onların əşyavi fəaliyyəti praktik fəaliyyətdən tədricən əqli fəaliyyətə keçid üçün çox mühüm bir mərhələdir. Əşyalarla əməliyyatların yerinə yetirilməsi və onların sözlərlə ifadəsi uşağın fikri proseslərini formalaşdırır. Onların sırasında daha böyük əhəmiyyət kəsb edən fikri əməliyyatlardan biri **ümumiləşdirmədir.** Lakin uşağın təcrübəsi az olduğuna görə, o, əşyalar

qrupunda mühüm, başlıca əlamətləri düzgün ayıra bilmir, çox vaxt səhvlərə yol verir. Məsələn, şar sözü uşaq üçün bütün yumru formalı əşyaların ümumiləşmiş simvolu kimi qavranılır. Onlar bütün növ baş örtüklərini papaq adlandırırlar. İlk uşaqlıq dövründə psixi inkişafda **sensor təsəvvürlərin** əhəmiyyəti olduqca böyükdür. Bir sıra alimlər (K.Büler, L.V.Zaporojets, A.A.Venqer) belə hesab edir ki, həyatın ilk illərində qavrayışın inkişafı təfəkkürün inkişafına əhəmiyyətli təsir göstərir. Bu onunda əlaqədardır ki, bu dövrdə qavrayış əməliyyatları təfəkkürün **ümumiləşdirmə, təsnifat, anlayışa daxil etmə** və s. kimi əməliyyatları ilə bağlıdır[1]. Uşaqlarda təfəkkürün daxili planda inkişafı başlıca olaraq intellektual əməliyyatların inkişafı və anlayışların formalaşması olmaqla iki əsas istiqamətdə gedir. Bu yaş dövründə uşaqlar onlara verilən sadə məsələləri əqli planda deyil, praktik-əməli planda yerinə yetirirlər. Uşaqlar forma və rəngi qavrayır, əşyaları bu əlamətlər əsasında fərqləndirməyi bacarırlar. Əşyaların əlamətlər əsasında qruplaşdırılmasına aid məsələləri həll edərkən onlar ilk növbədə ölçü və rəng əlamətlərinə üstünlük verirlər. Qeyd etmək lazımdır ki, bu yaş dövründə uşağın təfəkkürü onun nitqi ilə hələ bağlı olmur. Uşaqlarda əyani-obrazlı təfəkkürün inkişafı ilk uşaqlıq dövrünün sonundan başlayır. Bu özünü iki əsas hadisə- **elementar özünüdərketmənin yaranması və ixtiyari özünütənzimetmə** fonunda baş verir. Görkəmli psixoloq J.Piaje qeyd edirdi ki, bu yaş dövründə uşaqların təfəkkürünün, fikri əməliyyatlarının strukturunda **eqosentrizm** (başqa nöqteyi-nəzərdə dura bilməmək) əsas yer tutur. Psixoloq 3-4 yaşlı uşaqlarla keçirdiyi eksperimentlər zamanı bu qanaətə gəlmişdir ki, onlar mühakimə yürütməkdə acizdirlər. Məsələn, «Ailədə 3 oğlan var. Onlardan 4 yaşı olandan soruşulur: «Sənin neçə qardaşım var?» O, iki qardaşı olduğunu söyləyir. Həmin uşaqdan «Sənin böyük qardaşının neçə qardaşı var?» sualına o, doğru cavab verə bilməmiş, bir qardaşı olduğunu söyləyərək özünü unutmuşdur.

[1] bax: Детская практическая психология. (Под ред. Т.Д.Марцинковской) М.,»Гардарики», 2003

Erkən yaşlı uşaqlarda qavrayışla təfəkkür arasında əlaqənin inkişafını tədqiq edən psixoloq L.A.Venqerin qənaətinə görə, bu yaş dövründə uşaqlarda obrazlı təfəkkürlə məntiqi təfəkkürün «sərhəddində» **təfəkkürün modal forması** mövcuddur. O, məktəbəqədər yaşlı uşaqlar üçün inkişafetdirici proqramlar işləyib hazırlamışdır ki, onlar da uşaqlarda ümumiləşdirmənin məntiqi əməliyyatlarının formalaşmasına əlverişli təsir göstərir. Belə tapşırıqlar içərisində «Kənar əşyanı ayırmaq», «Əşyanı uyğun yerə yerləşdirmək», «Naxışı tamamlamaq», «Uyğun olanı seçmə» və s. əsas yer tutur. Məsələn, şəkildə dovşan,it, kələm, alma və sümük təsvir olunub. Uşaq uyğun gələn qidanı düzgün seçməlidir. Bütün bunların sonunda uşağın müəyyən səviyyədə inkişaf etmiş **təxəyyülü** nəzərə çarpır.

**Suallar və tapşırıqlar.**

1. Erkən uşaqlıq dövrü hansı yaş mərhələsini əhatə edir?
2. Uşağın nitqi mənimsəməsinin onun psixi inkişafında rolunu əsaslandırın.
3. Üç yaşlı uşağın lüğət ehtiyatı haqqında nə bilirsiniz?
4. Uşağın nitqinin köməkçi vasitələri hansılardır?
5. Situativ nitq nəyi əks etdirir?
6. Erkən uşaqlıq dövründə qavrayışın hansı xüsusiyyətləri nəzərə çarpır?
7. Uşağın fikri ümumiləşdirmələrində hansı qüsurlar diqqəti cəlb edir?
8. Eqoseptrizm nə deməkdir?

## III.5. İlk uşaqlıq dövründə şəxsiyyətin inkişafı

Uşağın şəxsiyyətinin hansı dövrdən başlayaraq formalaşması məsələsi psixologiyada ziddiyyətli və mübahisəli bir problemdir. Vaxtilə bu prosesin yeniyetməlik dövründən başlandığı fikri irəli sürülürdü. Lakin son dövrlər aparılan tədqiqatlar nəticəsində sübut edilmişdir ki, artıq üç yaşında uşaqlarda şəxsiyyətin bir sıra **davamlı və sabit xarici davranış əlamətləri** formalaşmış

olur. Bəzi psixoloqlar isə bu prosesin daha erkən, bir yaşında başladığını söyləyir və qeyd edirlər ki, uşağın şəxsiyyətinin formalaşmasının bu mərhələsində xarici müşahidə zamanı aydın nəzərə çarpan əlamətlər olmasa da, bu dövrdə inkişaf uzun müddətli, gizli dövrdən keçir. Ətraf adamların davranışını təqlid etmək ilk uşaqlıq dövründə uşağın şəxsiyyət kimi inkişafının əsas mənbələrindən biri kimi özünü göstərir. Məlum olduğu kimi həyatın birinci ilində uşaqda anaya bağlılıq hissi yaranır. Valideynlər tərəfindən uşağın hərəkətlərinin və şəxsiyyət keyfiyyətlərinin müsbət emosional çalarlı qiymətləndirilməsi onda özünə, öz qabiliyyətlərinə, imkanlarına inam hissi yaradır. Öz valideynlərinə güclü şəkildə bağlı olan uşaqlar daha intizamlı və sözeşidən olurlar.

**Valideynlərə bağlılıq hissi** körpəlik dövründə bütün uşaqlarda təzahür edən sosial- psixoloji hisslərdən biridir. Bu hiss genetik köklərə bağlı olmaqla bir çox canlıların balalarında da müşahidə olunur. Bu, bir tərəfdən ananın körpə üçün başlıca bioloji və sosial tələbatların mənbəyi olması ilə bağlıdırsa, digər tərəfdən onların təhlükəsizliyinin təmin edilməsi kimi anlaşılır.

Müəyyən edilmişdir ki, həyatın ilkin dövrlərində müsbət emosional ünsiyyət mühiti olmayan, tərif, sevgi, və nəvazişdən məhrum olan uşaqlar böyüdükdən sonra insanlarla normal və etibarlı qarşılıqlı emosional münasibətlər qurmaqda çətinlik çəkirlər. İlk uşaqlıq dövründə şəxsiyyətin formalaşması uşaqlarda özünüdərketmənin yaranması ilə sıx bağlıdır. Bu dövrdə uşaq güzgüdəki əksinə baxıb özünü tanıyır adı ilə çağrıldıqda dönüb baxır, nitqində «Mən» şəxs əvəzliyini daha fəal şəkildə işlətməyə başlayır, onda **«mən obrazı»** yaranır. Uşaqda bir subyekt kimi özü haqqında ilkin təsəvvürlər yarandıqdan sonra o, ətrafdakı adamlarla fəal ünsiyyətə qoşulur. Bu, uşağın psixikasında şəxsiyyətə məxsus digər yeni əlamətlər də yaradır. Üç yaşlı uşaqlar özlərini başqa adamlarla müqayisə edir, tədricən onlarda müəyyən səviyyədə **özünüqiymətləndirmə,** yaşlıların tələblərinə uyğunlaşmanın ifadəli təzahürləri nəzərə çarpır. Bir qədər sonra uşaqlarda

fərəh, utancaqlıq hissi və **iddia səviyyəsi** formalaşır. İlk uşaqlıq dövrünün sonunda müstəqillik meyli güclənir, onlarda **«üç yaşın böhranı»** adlanan yaş böhranı müşahidə olunur. Onlar oyun, geyim və ya yemək zamanı yaşlıların hər hansı köməyindən imtina edir, **«mən özüm»-** deyə müstəqil fəaliyyət təşəbbüslərini göstərirlər. Yaş yarımlıqdan etibarən sərbəst gəzən uşaqlar axtarışlar aparır, özləri üçün süni maneələr yaradır, nərdivana dırmaşır, bağlı qapını açmağa çalışırlar. Bütün bunlar uşaqlarda məmnunluq hissi yaradır, onlarda güc, qüvvə, dözümlülük və məqsədəyönəlmişlik kimi şəxsiyyətə məxsus xarakterik keyfiyyətlər formalaşır. İkinci yaşdan başlayaraq uşaqların davranışında **neqativizm meylləri,** qadağanlara məhəl qoymamaq, şıltaqlıq kimi mənfi davranış halları yaranır. Bu cür halları psixoloqlar üç yaşın böhranı ilə əlaqələndirirlər. Onun əsas səbəbləri bu yaşdan etibarən uşaqlarda tədricən ətraf aləmin dərk edilməsinə qarşı yaranan tələbatlarla, onların müstəqil subyekt kimi əldə etdikləri bilik və bacarıqlardan həzz almaq effekti ilə bağlıdır. Bu dövrdə onlar öz səyləri nəticəsində əldə etdikləri uğurdan fərəhlənir və bunu yaşlılara nümayiş etdirmək üçün dəfələrlə təkrarlayırlar. Onlar yaşlıların qadağanlarına məhəl qoymur, müqavimət göstərməyə çalışırlar. Uşağın bu cür etirazı yaşlıların ona qarşı münasibətdə **qeyri-adekvat** olmalarına cavab reaksiyasıdır. Yaşlılar uşağa qarşı qəti müqavimət göstərdikdə isə o, özünü olduqca şıltaq aparır, ağlayır, döşəməyə yıxılır, əşyaları hara gəldi atır. Bu, uşağın öz mühiti ilə ziddiyyətdə olduğunu əks etdirir və onun ontogenezində ilk güclü həyatı yaş böhranının əlaməti olub, yeni bir inkişaf mərhələsinə keçidinin əsasıdır. Artıq iki yaşlı uşaqların şəxsiyyət keyfiyyətlərinin inkişafında iradənin ilkin təzahürləri meydana çıxır. Onlar yaşlıların davranışını öz təkidləri ilə istəklərinə tabe etməyə çalışır özünü ətrafdakı adamlardan fərqləndirmək üçün bəzi şəxs əvəzliklərindən istifadə edirlər.

İkinci yaşın sonlarında uşaqda tədricən özünüdərketmənin təzahürləri müşahidə olunur və bu, onlarda empatiyanın-başqa adamların emosional

vəziyyətini anlamaq qabiliyyətinin yarandığını əks etdirir. Bu dövrdə uşaqlar başqa adamın psixoloji vəziyyətini dərk edir, ağlayan uşaq və ya yaşlılara yaxınlaşır, onlara təsəlli verməyə, öpməyə, oyuncaq və ya dadlı bir şey verməyə çalışırlar. Həyatın üçüncü ilindən başlayaraq uşaqlarda şəxsiyyətin işgüzar keyfiyyətlərindən biri olan **uğur əldə etməyə tələbatın** formalaşması üçün əlverişli imkanlar yaranır. Bu isə uşaqlıq dövründə artıq motivləşmə sferasının ilkin təzahürlərinin yaranmasına sübutdur. Bu əsasda uşaqlar onlara verilən tapşırıqların çətinlik dərəcəsini frqləndirir, onların yerinə yetirilməsi üçün öz şəxsi imkanlarını, qabiliyyətlərini götür-qoy edirlər. Uşaqlarda **ilkin iradi keyfiyyətlərin** təzahürləri diqqəti cəlb etsə də, bu keyfiyyətlər onlarda kifayət qədər davamlı olmur. Odur ki, onlar bəzən tapşırılan işi yarımçıq qoyur, yoldaşlarının buna necə qiymət verəcəyinə əhəmiyyət vermədən oyunu tərk edirlər.

İlk uşaqlıq dövrü nitqə yiyələnmənin intensiv göstəriciləri və lüğət artımının sürətli tempi diqqəti cəlb edir. Bu proses

Şəkil 3. Erkən yaşlı uşağın uğur əldə etmə cəhdinin xarici ifadəsi

uşağın özünüdərketmə səviyyəsinin inkişafı prosesinin sürətlənməsində, bütövlükdə onun şəxsiyyətinin formalaşmasında çox güclü amil kimi qiymətləndirilir. Fəal nitqli ünsiyyət vasitəsilə uşaq əhatə olunduğu adamlardan şəxsiyyətinin inkişafı üçün zəruri olan informasiyaları əldə edir. Nitq uşağın söz vasitəsilə rəğbətləndirilmə və cəzalandırılma, davranış üzərində nəzarət və özünənəzarət vasitəsinə çevrilir. O, uşağın tabe olduğu **əxlaq qaydaları və normalarının** daşıyıcısı rolunda çıxış edir. Yaşlı ilə ünsiyyət, birgə əşyavi fəaliyyət uşaqların idrak proseslərinin inkişafına

səmərəli təsir göstərir. Psixoloq M.İ.Lısina qeyd edir ki, bu dövrdə **aparıcı ünsiyyət növü situativ- işgüzar ünsiyyətdir.** Nitqin mənimsənilməsi uşağın şəxsiyyətinin formalaşması prosesinin sürətləndirilməsi, keyfiyyətcə yenidən qurulması vasitəsi kimi özünü göstərir. Buna görədir ki, uşağın psixikasında hiss edilən dəyişikliklər məhz ilk uşaqlıq dövründə nəzərə çarpır. **Nitqi anlama və danışma** ilk uşaqlıq dövründə bütöv sistem olaraq diqqəti cəlb edir. Nitqi anlama uşağa öz hərəkətlərini və davranışını yaşlılar tərəfindən qiymətləndirilməsini dərk etməyə imkan yaratdığı halda, danışma ona yaşlılarla dialoqa qoşulmağa, onların davranışını qiymətləndirməyə və təsir göstərməyə, öz istək və tələbatlarını verbal şəkildə ifadə etməyə imkan yaradır.

Bütün bu amillərin təsiri altında üç yaşın sonunda uşaqlarda özünüdərketmə, ilkin əxlaqi normaların, insan davranışı qaydalarının mənimsənilməsi, davranışın iradi özünütənzimetmə forması meydana çıxır. Erkən uşaqlıq dövründə şəxsiyyətin inkişafında nəzərə çarpan mühüm xüsusiyyətlərdən biri də **emosional sferanın labilliyidir.** Həmin dövrədək uşağın əşyalara və başqa adamlara qarşı münasibətini davamlı xarakter daşımır və şəraitin dəyişməsindən asılı olaraq dəyişə bilər.

**Suallar və tapşırıqlar.**

1. Uşağın şəxsiyyətinin təşəkkülündə təqlidetmənin rolu nədən ibarətdir?
2. Uşaqlarda özünüdərketmə və «mən obrazı» nə vaxt təşəkkül tapır?
3. Bir və üç yaşların böhranları uşağın rəftar və davranışında hansı təzahürlər yaradır?
4. Erkən uşaqlıq dövründə iradənin müşahidə olunan ilk əlamətləri hansılardır?
5. Erkən uşaqlıq dövründə uşaqlarda hisslərin hansı növləri müşahidə olunur?

# IV.FƏSİL. Məktəbəqədər dövrdə uşağın inkişafının psixoloji xüsusiyyətləri.

## IV. 1. Məktəbəqədər dövrdə uşağın inkişafının ümumi səciyyəsi

Məktəbəqədər yaş adlanan, 3-6 yaş intervalını əhatə edən dövrü psixoloqlar şəxsiyyətin formalaşması və təşəkkülündə məhsuldar bir dövr hesab edirlər. Bu yaş dövrü gələcək yaşlı adamın ruhi və əməli fəaliyyətinin, mənəvi simasının, yaradıcı potensialının tükənməz xəzinəsidir. Uşaq psixologiyasında insanın həyatının məktəbəqədər yaş dövrü öz əhəmiyyəti baxımından müxtəlif nöqteyi- nəzərdən təhlil olunmuş, yüksək qiymətləndirilmişdir. Məşhur psixoloqlardan K.Q.Yunq bu dövrü **«fəallığın kapital yığımı»** A.N.Leontyev **«faktiki olaraq şəxsiyyətin ilkin təşəkkülü»,** Q.S.Sallivan «**simvolik imkanların təşəkkülü»,** L.S.Vıqotski **«Mən»in sosializasiyası»,** J.Piaje isə «**sensomotor qabiliyyətlirin və intellektin inkişafı»** dövrü kimi səciyyələndirmişlər. V.Bulyuma görə, 4 yaşında uşağın fərdi xüsusiyyətləri o səviyyəyə çatır ki, artıq bu yaşda şəxsiyyət və əqli xüsusiyyətlərin **bir sıra daimi əlamətlərindən** danışmaq olar.

Bu dövrdə uşağın sensor və emosional sferasında yaşlılarla qarşılıqlı fəaliyyət üsullarında olduqca əhəmiyyətli dəyişikliklər baş verir. Məktəbəqədər yaş dövrü uşağın idraki fəallığının çiçəklənmə dövrüdür. 3-4 yaşlı uşaq situasiyanı qavramaq təzyiqindən azad olur, gözü önündə baş verən hadisə və dəyişikliklər haqqında düşünməyə başlayır. O, ətrafında baş verənlərə qarşı passiv seyrçi deyil, **fəal müşahidəçi mövqeyindən** yanaşır, hadisələr arasında səbəbiyyət əlaqələrini anlamağa çalışır. Beş yaşlı uşaqlar çoxsaylı suallarla yaşlıları «bezdirir», bilmədikləri hər şey haqqında onlara çoxsaylı suallar verirlər. Həyat hadisələri, təbiətdə baş verənlərə qarşı onların ilk

mühakimələri meydana çıxır. Psixoloqlar uşağın bu dövrünü **«kiçik filosofluq dövrü»** adlandırırlar. Onlar Ayın və Günəşin mənşəyi, bitki və heyvanların fərqi və oxşarlığı, onların xüsusiyyətləri barədə müxtəlif mühakimələr irəli sürürlər. Tədricən uşağın **dünyagörüşünün ilk konturları** yaranır. Məktəbəqədər yaş dövründə uşaqların qavrayışı səthi xarakter daşımaqla böyüklərin qavrama imkanlarından xeyli geri qalır. Məsələn, onlara elə gəlir ki, Günəş və Ay, köldə gəzinti zamanı onları izləyir: onlar dayandıqda dayanır, qaçdıqda qaçır. Uşaqların belə ani qavrayışı onlara qəti həqiqət kimi görünür. Məktəbəqədər yaşlı uşaqların idrak fəaliyyətini dərindən araşdırmış məşhur İsveçrə psixoloqu Jan Piaje bu hadisəni **«realizm»** adlandırmışdır.

Məktəbəqədər uşaqlıq dövründə psixi funksiyalar içərisində **hafizə** mərkəzi yer tutmağa başlayır. **Təfəkkür** ümumi təsəvvürlər planında fəaliyyət göstərmək imkanı qazanır. Uşaqlarda **ilk idrak maraqları** meydana gəlir, **təxəyyül** fəaliyyətə qoşularaq uşaq yaradıcılığının vasitəsinə çevrilir. Məktəbəqədər yaşlının həyatında və psixi inkişafında **rollu-süjetli oyunlar** aparıcı fəaliyyət forması kimi özünü biruzə verir. Onun vasitəsilə uşağın psixikasının əsas dayaqları yaranır, təbii və sosial gerçəkliyin mənimsənilməsinin spesifik üsulları meydana çıxır. Uşaqların yaşı dəyişdikcə rollu-süjetli oyunların da məzmunu dəyişir. Kiçik məktəbəqədər yaşlı uşaqların həyatında əşyavi oyunlar əsas yer tutduğu halda, orta məktəbəqədər yaşda insanlar arasındakı münasibətlər, böyük məktəbəqədər yaşda isə, onlar arasındakı münasibətləri tənzimləyən qaydalara aid oyunlar ön planda olur.

Məktəbəqədər yaş dövründə yeni fəaliyyət formaları- **rəsmetmə, yanma, applikasiya, quraşdırma** ilə yanaşı, **təlim fəaliyyəti elementləri** meydana gəlir. Bağça yaşı dövründə uşaqların ünsiyyəti **situativlikdən** azad olub, idraki məzmun kəsb etməyə başlayır. 4-5 yaşlı uşaqların ünsiyyət fəaliyyətində idrak motivləri, yaşlıların tərifinə tələbat hissi güclənir,şəxsi

ünsiyyət motivləri yaranır. Uşaqların ünsiyyətində **verbal imkanlar** genişlənir, onun əsas vasitəsi olan nitqin inkişafı, lüğət fondunun artımı sürətlə davam edir. Bu, uşağa yaşlılar və yaşıdları ilə fəal nitqli ünsiyyətə qoşulmaq imkanı verir. 2-4 yaşlı uşaqların ünsiyyəti praktik- emosional qarşılıqlı münasibətlər müstəvisində qurulduğu halda, 4-6 yaşlı uşaqlarda **yaşıdları ilə situativ-işgüzar əməkdaşlığa tələbat güclənir**. Ünsiyyətin məzmunu uşaqların birgə oyun fəaliyyətinin xarakterindən asılı olur, **yaşıda tələbat hissi və onu tanıma motivləri** güclənir.

Məktəbəqədər dövrdə uşaq kollektivində diferensiasiya prosesi güclənir: bəzi uşaqlar məhşurlaşır; başqaları isə təcrid olunur, və ya rədd edilir. Uşağın həmyaşıdları qrupunda mövqeyinə bir çox amillər, başlıca olaraq **yaşıdlarının dərdinə şərik olmaq hissi**, onlara kömək etmək istəyi əsas yer tutur.

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət yönümdə inkişafında diqqəti cəlb edən xüsusiyyətlər sırasında **rol-cins** və **iradi** davranış formaları əhəmiyyətli yer tutur. Uşaqlarda iradənin inkişafı onlarda motivləşmə sahəsinin, uşağın formalaşma yolunda olan şəxsiyyətinin istiqaməti ilə sıx bağlıdır. İradənin ilkin keyfiyyətlərinin formalaşması zəminində onlarda tədricən **davranışın ixtiyari formaları, motivlərin ilk qarşılıqlı tabeliliyi yaranır.** Psixoloqların fikrincə, məhz məktəbəqədər yaş dövründə ilk dəfə olaraq uşaqlarda **«etik instansiyalar»** (L.S.Vıqotski) əxlaqi təsəvvürlərin, qiymətləndirmə və davranışın ilk əlamətləri təzahür etməyə başlayır, sosial və əxlaqi hisslər intensiv inkişaf yoluna qədəm qoyur, özünüdərketmə və özünüqiymətləndirmənin əsasları yaranır.Uşağın məktəbəqədər yaş dövrünın sonunda, 6 yaşın tamamında **yeni yaş böhranı** müşahidə olunmağa başlayır. Onun xarici təzahürləri uşağın **spesifik ədalarında, özünü naza qoymasında, davranışın nümayişkəranə formalarında** əks olunur. Uşaq ipə-sapa yatmaz olur, adət edilmiş davranış etalonlarının çərçivəsini pozur, onun sanki yaşlılardan asılılığı azalır. Uşağın psixi həyatında yaranan bu

simptomlar onun intellektual imkanlarının genişlənməsi ilə paralel surətdə baş verir. Onun zaman perspektivləri genişlənir, ictimai həyata qoşulmaq, müəyyən sosial mövqe tutmaq cəhdləri diqqəti cəlb edir. Bütün bunlar uşağın məktəbdə təlimə başlaması ərəfəsində baş verir və onun məktəbdə qəbul edilməsi ilə reallaşmış olur.

**Suallar və tapşırıqlar**

1. Məktəbəqədər yaş dövrü hansı üstün cəhətləri ilə fərqlənir?
2. Məktəbəqədər yaşlının idrak fəallığının genişlənməsi onun hansı yeni imkanlarında əks olunur?
3. J.Piajenin «realizm» adlandırdığı hadisənin mahiyyətini izah edin.
4. Məktəbəqədər yaşlının aparıcı fəaliyyət forması olan oyunun inkişaf dinamikasını göstərin.
5. Uşağın ünsiyyət imkanlarının genişlənməsi başlıca olaraq nədə əks olunur?
6. Məktəbəqədər yaşın sonunda müşahidə olunan yaş böhranının əsas simptomları nədən ibarətdir?

## IV.2 Məktəbəqədər dövrdə uşaq fəaliyyətinin psixoloji məzmunu

Məktəbəqədər uşaqlıq illəri uşağın psixi inkişafında ilkin mərhələ, cəmiyyət həyatında iştiraka hazırlığın əsasıdır. Bu mərhələ ümumi psixi və əqli inkişafda məhsuldar dövr kimi xarakterizə olunur. Məktəbəqədər yaşın sonunda uşağın inkişafında nəzərə çarpan üstünlüklər, onun anatomik- fiziki, psixi və sosial imkanları **məktəb təliminə funksional hazırlığı** şərtləndirir. Məktəbəqədər yaş dövründə, yəni həyatın ilk altı ilində uşağın əldə etdiyi təsəvvürlər, məlumatlar fondu, ümumi əqli inkişaf uşağın məktəb yetkinliyinin göstəricisinə çevrilir. Bu cəhətdən məktəbəqədər yaş dövrünü həm də psixi inkişafda yeni bir mərhələnin-kiçik məktəb yaşı dövrünün başlanğıcı da adlandırmaq olar. Məktəbəqədər yaşda uşaqların fəaliyyəti geniş və çox-

cəhətlidir. Bunların sırasında **oyun, əmək, uşaq bədii yaradıcılığı, ünsiyyət** və s.əsas yer tutur. Bu yaş dövründə uşağın həyatında psixi inkişafda hansı fəaliyyət növünün başlıca rol oynadığı, aparıcı fəaliyyət olması məsələsində psixoloqlar arasında vaxtilə fikir ayrılıqları mövcud idi. A.N.Leontyev, D.B.Elkonin və V.V.Davıdov bu yaş dövründə **oyunu**, M.İ.Lısina **ünsiyyəti,** M.S.Kaqan isə **uşaq bədii yaradıcılığını** aparıcı fəaliyyət hesab etmişlər[1]. Müasir psixologiya elmi məktəbəqədər yaşda **oyunun aparıcı fəaliyyət növü olması faktını** qəbul edir. Fəaliyyətin uşaq növlərinin özünəməxsus psixoloji təbiəti vardır.

Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski oyunun uşaqların həyatında güclü amil olduğunu təsdiq edirdi. «Oyunsuz dolğun, məzmunlu tam əqli inkişaf yoxdur və ola da bilməz. Oyun çox böyük işıqlı pəncərədir: həmin pəncərədən uşağın mənəvi aləminə ətraf aləmdən təsəvvürlərin, anlayışların həyatverici axını daxil olur. Oyun hər şeylə maraqlanmaq, biliyə səy göstərmək odunu yandıran qığılcımdır»[2].

Məktəbəqədər yaşlı uşaqlarla məktəbliləri fərqləndirən amil yalnız yaş fərqi deyil, psixoloji planda onların həyatında yer tutan aparıcı fəaliyyət formalarıdır. Qeyd olunduğu kimi, miəktəbəqədər yaşda aparıcı, başlıca fəaliyyət forması oyun olduğu halda, məktəb yaşlı uşaqlar üçün bu fəaliyyət forması **təlimdən** ibarətdir. Adları çəkilən fəaliyyət formalarından hər birinin spesifik psixoloji məzmunu və tələblər sistemi vardır. Həmin tələblər sistemi müvafiq yaş dövründə uşağın psixi inkişafında, şəxsiyyət kimi təşəkkülündə, psixi proses, funksiya və xassələrə yiyələnməsində həlledici rol oynayır.

Məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət forması olan oyunun uşağın psixi inkişafına təsirinin əsaslandırması ciddi elmi- psixoloji problemdir. Oyun **mədəniyyət tarixi, etnoqrafiya, pedaqogika və psixolojiya** elmlərinin tədqiqat predmetinə daxildir. Alman psixoloqu V.Ştern oyunu **«ciddi**

[1] Bax. Петровский А.Н.Развитие личности и проблема ведушей деятельности. «Вопросы психологии». М.,1987, №1, стр.19

[2] В.А. Сухомлински. Ürəyimi uşaqlara verirəm. B., «Maarif», 1979, səh. 107

**instinktin başlanğıcı»,** Avstriya psixoloqu K.Büler **«funksional məmnunluq mənbəyi»** hesab edirdi. Rus psixoloqu L.S.Vıqotski oyunu **«sosial təbiətə malik bir fəaliyyət»** adlandırırdı.

Oyun uşaqların yalnız sevimli məşğuliyyəti deyil, həm də onların həyatının təşkili formasıdır. Oyun fəaliyyəti uşağın inkişafında motivləşmənin əsasıdır. Rus psixoloqu D.B.Elkonin qeyd edirdi: ən başlıcası ondan ibarətdir ki, oyun prosesində motivlərin yeni psixoloji formaları meydana gəlir. Oyunda motivlərin bir-birini əvəz etməsi prosesi baş verir, **şüuraqədərki affektiv istəklər** şüur sərhəddində dayanan ümumiləşmiş formalı istəklərlə keçir. Oyunun uşağın psixikasına inkişafetdirici təsiri böyükdür. Bu fəaliyyət forması vasitəsilə uşaq ətraf aləmi dərk edir, onun təfəkkürü, iradi- emosional sferası inkişaf edir, yaşıdları ilə münasibətləri təşəkkül tapır, özünüdərketmə və özünüqiymətləndirmə sistemi formalaşır. Oyunun uşağın əqli inkişafına, əqli qabiliyyətlərinin formalaşmasına təsiri olduqca böyükdür və müzmunca təhlil tələb edir. Uşaqlar bu fəaliyyət forması vasitəsilə yaşlıların həyatına daxil olur, onlar arasındakı qarşılıqlı münasibətləri öz həyatlarına köçürürlər. Burada ən ciddi təsir subyekti **oyunun süjeti,** onun **məzmunudur.** Bu məzmun nə qədər dərin və əhatəli olsa, o, uşaqların həyatında keyfiyyətcə daha böyük təəssürat yaradır. Belə oyunlar yaşlılar üçün səciyyəvi olan tipik situasiyaların modelləşdirilməsini təmin edir. Rus psixoloqu A.V. Zaporojets qeyd etmişdir ki, oyun məktəbəqədər yaşlını aktiv fəaliyyət üsulları ilə silahlandırır. Oyun prosesində uşaqlar yaşlıların həyatına aid sosial rolları öz üzərlərinə götürür, situasiyalara uyğun rəftar və davranış formaları seçirlər. Psixoloqların fikrincə, oyunda uşaqlarda **təfəkkürün simvolik funksiyası** təşəkkül tapır. Onlar real əşyaların əvəzedicilərini əldə edir, oyunun məzmununa uyğun əyani modellərdən istifadə edir, plan, sxem və çertyojlar qururlar. Beləliklə, oyun prosesində uşaqlar **gerçəkliyin oyun modelini** yaratmaqla öz aralarında sərbəst qarşılıqlı münasibətlər və birgəfəaliyyət əsasında birləşmiş olurlar.

Məktəbəqədər yaş dövründə uşaq oyunlarının çoxsaylı formaları arasında uşağın psixikasının inkişafına fəal təsir baxımdan **rollu- süjetli oyunların** rolunu xüsusi qeyd etmək lazımdır.

Bu xarakterli oyun zamanı uşaqlar bir-birləri ilə xüsusi təşəbbüskarlıq əsasında birləşirlər. Onlar oyunun süjetini özləri müəyyən edir, rolları bölüşdürür, oyun materiallarını paylayır və rolları ifa edirlər. Belə oyunlar zamanı ən ciddi məsələlərdən biri oyunun süjetinin ətraf mühitdən götürülməsi, maraqlı olması, xüsusi təəssürat yaratmasıdır.

Rollu- süjetli oyunlar uşaqların fantaziyasını genişləndirir, təxəyyülünü zənginləşdirir, yaradıcı qabiliyyətlərinin ilk forma-larını aşkara çıxarır. Bunlar isə şəxsiyyətin inkişafının ən qiymətli faktları kimi psi-xikanın «qızıl fondunu» təşkil edir.

Şəkil 4. Mağaza oyunu.

Məktəbəqədər uşaqlıq illərində uşaq oyunları öz inkişafında əhəmiyyətli dəyişikliklərə məruz qalır və uzun inkişaf yolu keçir. Ən sadə oyun forması olan əşyavi- manipulyativ və simvolik oyunlardan qaydalı, rollu- süjetli oyunlaradək davam edən bu inkişaf uşaqların psixikasında yeni törəmə keyfiyyətlərin yaranmasına, onların şəxsiyyətinin baza əlamətlərinin təşəkkülünə əhəmiyyətli təsir göstərir. Oyun formalarının ardıcıl və davamlı şəkildə təkmilləşməsi nəticəsində uşağın inkişafı üçün zəruri olan yeni fəaliyyət növlərinin- **əmək və təlim fəaliyyətlərinin** elementar formaları meydana gəlir. Oyun, əmək və təlim olmaqla əsas fəaliyyət növlərinin qarşılıqlı olaraq növbələşməsi əsasında məktəbəqədər uşaqlıq illərini 3 əsas

şərti mərhələlərə ayırmaq olar: **kiçik məktəbəqədər yaş** (3-4 yaş), **orta məktəbəqədər yaş** (4-5 yaş), **böyük məktəbəqədər yaş** (5-6 yaş). Məktəbəqədər uşaqlığın belə konkret dövrlərə ayrılmasında məqsəd inkişafın daha kiçik mərhələlərində uşaqların psixikası və davranışında qabarıq nəzərə çarpan keyfiyyət dəyişikliklərini hesaba almaqdan ibarətdir.

Kiçik məktəbəqədər yaşlı uşaqlar adətən təklikdə oynamağı sevirlər. Əşyavi və quraşdırma xarakterli oyunlar bu yaş mərhələsində diqqəti daha çox cəlb edir. Onlar uşaqların qavrayışının, hafizəsinin, təxəyyülünün, təfəkkürü və hərəki qabiliyyətlərinin təkmilləşdirilməsi vasitəsinə çevrilir. Tədricən orta məktəbəqədər yaş dövründə uşaq oyunlarında birgəfəaliyyət formaları meydana gəlir. Nəticədə, oyun zamanı uşaqların eyni bir oyunda əməkdaşlığının sadə formaları yaranır. Rollu-süjetli oyunlar uşaq oyunlarının əsas formasına çevrilir. Uşaqlar özləri üçün oyunlar seçir, rollar bölüşdürür, oyun qaydalarını müəyyənləşdirirlər. Rollu-süjetli uşaq oyunlarının mövzularını uşaqlar sərbəst şəkildə öz təşəbbüsləri əsasında seçir və bu zaman özlərinin gündəlik həyat təcrubəsinə və müşahidələrə əsaslanırlar. Rollu-sjjetli oyunlar içərisində daha çox ailə həyatına aid rollar (ata,ana,bacı,qardaş və s.), tərbiyəedici məzmunlu rollar (dayə, uşaq bağçasında tərbiyəçi, müəllim), müxtəlif peşələrə aid rollar (həkim, təyyarəçi, komandir və s.) və yaxud nağıl personajlarına aid rollar ( keçi, dovşan, ayı, canavar və s.) əsas yer tutur. Uşaqlar belə oyunlar zamanı öz yaşıdları ilə yanaşı, yaşlıları da oyuna cəlb edir və ya rolların ifaçıları sırasına personajların əvəzedicilərini, məsələn, kuklaları daxil edirlər. Orta və böyük məktəbəqədər yaşda rollu-süjetli oyunların mövzu dairəsi genişlənir, rollar və oyun əməliyyatları xeyli mürəkkəbləşir. Kiçik məktəbə-

qədər uşaqlardan fərqli olaraq,

Şəkil 5. «Ana və uşaq» oyunu.

böyük və orta məktəbəqədər yaşlı uşaqlar təbii oyun materiallarından deyil, əsasən simvolik elementlərdən daha çox istifadə edirlər. Məsələn, bu yaş dövründə uşaqlar adi, sadə kubdan oyun zamanı mebel, maşın, adam və heyvanların əvəzedici simvolları kimi istifadə edirlər. Oyun prosesində qaydaların ciddi surətdə nəzarətdə saxlanılması cəhdləri onlarda **liderliyə can atma** meylinin təzahürü kimi diqqəti cəlb edir, bu da ilk təşkilatçılıq bacarıq və vərdişlərinə yiyələnmədə əsas şərtlərdən biri kimi əhəmiyyətlidir.

Məktəbəqədər yaşlı uşaqların psixi inkişafında mühüm yer tutan ən başlıca vasitələrdən biri **oyuncaqlardır.** Oyuncaq uşağın əyləncəsinə xidmət edən əşyavi vasitə, eyni zamanda onun psixi inkişafının təsirli amilidir. Oyuncaq uşaqların yaş dövrlərindən, onların aparıcı fəaliyyət növlərindən asılı olaraq diqqətlə seçilməli, onların psixi inkişafının stimullaşdırıcı vasitəsi olmalıdır. Körpəlik dövründə oyuncaqlar uşaqların ətraf xarici aləmə bələdləşməsi vasitəsi rolunda çıxış edir. 2-3 aylığında uşaqlar yaşlıların, oynatdıqları oyuncaqlara maraq göstərir, onları izləyirlər. Uşaqlar əlvan, parlaq oyuncaqları seyr edir, onların çıxardığı səslərdən həzz alır, müsbət emosialar əldə edirlər. Körpəlik dövründə uşağın psixi inkişafında yaşlıların xüsusilə, ananın **istiqamətləndirici və təhrikedici fəaliyyəti** üstün əhəmiyyətə malikdir. Arıq 2-3 aylıq uşaqlarda yaşlıların köməyi ilə ilk manipulyativ hərəkətlər müşahidə olunmağa başlayır. Ana və ya ailənin digər üzvlərinin köməyi ilə körpə oyuncaqlar vasitəsilə oyuna və ünsiyyətə qoşulur, onun görmə məsafəsində olan
oyuncağa tərəf baxışlarını
zilləyir, başını sola və ya
sağa tərəf çevirir. 3 aylıq

uşaq başı üzərində
asılmış oyuncaqlara bax-
maqla yanaşı, onlara toxu-



Şəkil 6.Mən şagirdlərimə saymağı öyrədirəm.

nur, sıxır, əlləşdirir. Bu hərəkətlər uşaqda xaotik hərəkətlərdən fərqli olaraq məqsədyönlü hərəkətlərin koordinasiyasını yaradır, onu əyləndirir. Aylar keçdikcə uşağın oyuncaqlarla manipulyativ hərəkətləri daha da mürəkkəbləşir. 7-8 aylığında körpə müxtəlif oyuncaqlarla müvafiq manipulyativ hərəkətlər etməyi öyrənmiş olur. Uşağın məqsədyönlü hərəkətlərinin və uğurlu cəhdlərinin yaşlılar tərəfindən rəğbətləndirilməsi müsbət emosional vəziyyət yaradır, onu fərəhləndirir.

9 aylığında uşaqlarda tədricən ünsiyyətin yeni forması- işarə ünsiyyəti yaranır. Ana uşağın qarşısına qoyduğu şəkilli kitabdakı müxtəlif heyvanları göstərməyi təklif etdlikdə o, fərəhlə ona tanış olan şəkili göstərir, verilən suallara uyğun olaraq həmin heyvanın bədən orqanlarına barmağını uzatmaqla cavab verir. Bu, uşaqlarda şəklin qavranılmasının əsasını qoymuş olur. Artıq bu dövrdə uşaqlara kağız və qələm vermək olar. Onlar bu əşyalarla oynamaqla tədricən kağız üzərində iz qoymağı, müxtəlif ştrixlər çəkməyi öyrənmiş olurlar. Qeyd olunan vasitələr uşağın sensor və əqli inkişafında böyük əhəmiyyətə malikdir.

İlk uşaqlıq dövründə əşyavi fəaliyyət uşağın həyatında aparıcı fəaliyyət formasına çevrildiyinə görə, onun həyatında yeni oyuncaqlar görünməyə başlayır. Bu dövrdə uşağın psixi inkişafında əlaqələnmiş əşyavi fəaliyyət formaları üstün rola malik olur. Uşaq 2 və ya daha çox oyuncaq və əşya ilə eyni vaxtda fəaliyyətə qoşulur, onlardan müxtəlif fiqurlar (qüllə, körpü,ev və s) düzəldir. Bü zaman uşaq fiqurları və ya onların hissələrini məqsədyönlü şəkildə seçir, onları növbə ilə müvafiq yerdə yerləşdirir. Bu prosesdə o əşyaların həqiqi xassələrini, ölçü və kəmiyyət münasibətlərini nəzərə almalı

olur. Erkən uşaqlıq illərində uşaq oyuncaqları içərisində gəlincik, müxtəlif heyvanların oyuncaq obrazları əsas yer tutur.

Məktəbəqədər yaş dövründə uşaqların oyuncaqlara qarşı marağı genişlənir, onların sırasına müxtəlif yumşaq oyuncaqlar və təbii materiallar daxil olur. Onlar uşağın estetik və əxlaq təcbikbəsində təsirli vasitələrə çevrilir. Gəlincik və ya yumşaq oyuncaqlar uşağın həyatında ideal dostun əvəzedicisi kimi çıxış edir, oyunda və ünsiyyətdə onun sədaqətli tərəfdaşı olur. Normal inkişaf edən hər bir uşağın öz oyuncaqları ilə xüsusi münasibətlər sistemi yaranır və inkişaf edir.

Oyuncaqların seçilməsində uşaqların cinsi xüsusiyyətlərinin nəzərə alınması da ciddi amillərdən biridir. Uşağın seçdiyi oyuncaqlar onun hansı fəaliyyət növünə marağının olması və **cinsi identifikasiyası** haqqında proqnozlar verməyə imkan yaradır.

Məktəbəqədər yaşlı uşaqların həyatının təşkilində oyunlarla yanaşı fəaliyyətin məhsuldar növləri olan rəsm, yapma, applikasiya və quraşdırma üzrə məşğələlərin, təlim tipli məşğələlərin, habelə elementar əmək fəaliyyətinin üstün əhəmiyyəti vardır. Həmin məşğələlər uşaqların sensor,əqli, əxlaq, əmək və estetik tərbiyəsinə, dünyagörüşünün formalaşmasına səmərəli təsir göstərir. Psixoloji-pedaqoji tədqiqatlar (T.S. Komarova, E.A.Frelna, T.Q.Kazakova, N.Y.Şibanova və b.)nəticəsində müəyyən edilmişdir ki, artıq 3 yaşlı uşaqlar fiziki və psixi imkanları nəticəsində sadə rəsmetmə vərdişlərini mənimsəməyə nail olurlar. Xüsusi təşkil edilmiş məşğələlər vasitəsilə onlar qələmi və fırçanı

Şəkil 7. Əmək məşğələsində.

düzgün tutmağa, rəsmetmə üçün zəruri olan əl hərəkətlərinin koordinasiyasına uyğunlaşırlar. 4 yaşlı uşaqlar düzgün rəsmetmə bacarıqlarına malik olmasalar da, rəsmetmənin mahiyyətini anlayırlar. Onlar düzxətli və dairəvi formalı sadə əşyaları rəsmetməyə, onlara rəng və forma əlamətləri verməyə alışırlar. Böyük məktəbəqədər yaş dövründə uşaqlar rəsm məşğələləri vasitəsilə əsas rənglərin adlarını öyrənməklə yanaşı, onları fərqləndirməyi bacarır, rəng düyümüna sahib olurlar. Rəsm məşğələləri vasitəsilə böyük məktəbəqədər yaşlı uşaqlar **süjetli rəsmetmə bacarıqlarını** mənimsəyir, sadə hərəkətləri rəsmdə verməyi öyrənir, ilkin kompozisiya bacarıqları qazanırlar. Bağça yaşlı uşaqların həyat və fəaliyyətinin təşkilində **yanma üzrə məşğələlərin** xüsusi yeri vardır. Onların vasitəsilə uşaqlar gül və plastilindən istifadə etməklə müxtəlif fiqurlar düzəldirlər. Bu məşğələlər uşaqların **fantaziya və təxəyyülünü** inkişaf etdirir, texniki əməliyyat və bacarıqları formalaşdırır, əl və qol əzələlərini inkişaf etdirir. Böyük məktəbəqədər yaşlı uşaqlar yanma üzrə məşğələlərin gedişində süjetli və dekorativ yanma sahəsində praktik bacarıqları mənimsəyirlər. Bağça yaşlı uşaqların fəaliyyətində kəsmə və yapışdırma əməliyyatları ilə icra olunan applikasiya məşğələləri əsas yerlərdən birini tutur. Onun vasitəsilə uşaqlar müxtəlif əşyaların tərtibatını verməyi öyrənir, müxtəlif materiallardan istifadə etməklə, dekorativ və bədii formalar yaradırlar.

Məktəbəqədər yaşlı uşaqların fəaliyyətinin məzmununda və psixi inkişafında **quraşdırma üzrə məşğələlər də** xüsusi yer tutur. Onun məzmununda bədii və texniki quraşdırma üzrə əməliyyatlar diqqəti cəlb edir. Uşağın quraşdırma fəaliyyətinin məhsulları həm də oyun üçün faydalı vasitələrdir. Tikinti və təbii materiallardan, həmçinin kağız və kartondan istifadə etməklə, bu məşğələlərdə fəaliyyətə cəlb edilən uşaqlar sadə texniki bacarıqlara yiyələnirlər. Bu məşğələlər uşaqların yaradıcı təxəyyülünü inkişaf etdirir, onlarda təşəbbüskarlıq, iradi səy kimi keyfiyyətləri formalaşdırır.

Məktəbəqədər yaşlı uşaqların həyat və fəaliyyətində özünəməxsus yer tutan əmək elementləri onların ümumi psixiinkişafının təsirli vasitəsidir. O, yaşlıların əməyindən əhəmiyyətli şəkildə fərqlənsə də, uşaqlarda ilkin əmək vərdişlərinin, iradi və əxlaqi keyfiyyətlərin formalaşmasında faydalı rol oynayır. Əmək uşaqlarda əqli keyfiyyətlərin tərbiyə edilməsində əvəzsiz vasitə kimi çıxış edir. Onun vasitəsilə uşaqlar birgə fəaliyyətə qoşulurlar. Bu uşaqların ünsiyyət dairəsini genişləndirir, nitqi inkişaf etdirir. Əmək fəaliyyətində uşaqların bilikləri bacarıqlara

Şəkil 8. Quraşdırma üzrə məşğələ

və vərdişlərə çevrilir. Bu fəaliyyət uşaqları əməyin müxtəlif növləri ilə tanış edir, əməyə məhəbbət, əməksevərlik hissləri tərbiyə edir.

**Suallar və tapşırıqlar.**

1. Məktəbəqədər yaşlı uşaqların həyatına fəaliyyətin hansı növləri daxildir?
2. Oyun məktəbəqədər yaş dövründə nə üçün aparıcı fəaliyyət növü hesab edilir?
3. Oyun uşaqların psixi inkişafında nə kimi rol oynayır?
4. Məktəbəqədər yaşda uşaq fəaliyyətinin məzmununu təhlil edin.
5. Rollu-süjetli oyunların strukturuna başlıca olaraq hansı tipli oyunlar daxildir?
6. Uşağın psixi inkişafında oyuncaqların əhəmiyyətini əsaslandırın.
7. Məktəbəqədər yaşda oyun növlərinin inkişaf dinamikasını söyləyir.
8. Fəaliyyətin məhsuldar növləri, təlim və əmək elementləri uşağın psixi inkişafına necə təsir edir?

## IV.3 Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin inkişafı

Uşağın fiziki inkişaf şkalasında 3 yaşdan 6 yaşadək davam edən məktəbəqədər yaş dövrü inkişafda məhsuldar bir mərhələ kimi nəzərdən keçirilir. Bu illər ərzində əldə edilən psixi xassə və keyfiyyətlər uşağın şəxsiyyət kimi təşəkkülündə və intellektual inkişafında olduqca əhəmiyyətlidir. Psixoloqlar məktəbəqədər dövrü uşağın şəxsiyyət kimi formalaşması baxımından üç mərhələyə ayırırlar. **Birinci mərhələ** 3-4 yaşları əhatə etməklə uşaqlarda **emosional özünütənzimetmənin möhkəmlənməsi** ilə xarakterizə olunur. 4-5 yaşları əhatə edən ikinci mərhələ **əxlaqi özünütənzimetmə,** sonuncu, 5-6 yaşları əhatə edən mərhələ isə uşaqda psixoloji baxımdan **işgüzar şəxsiyyət keyfiyyətlərinin formalaşması** adlanır.

Məktəbəqədər yaşda uşaqlar öz davranışlarına nəzarət etməyə nail olur, başqalarının onun davranışına verdiyi qiyməti anlayır. Müəyyən əxlaq normaları haqqında təsəvvürlərə malik olurlar.

V.S. Muxinaya görə, bu dövrdə uşağın şəxsiyyətinin mənəvi cəhətdən inkişafı davranış qaydaları və normaları haqqındakı bilikləri, əxlaqi vərdişləri onun özünün daxili mövqeyi, müsbət emosional münasibəti ilə müəyyən olunur. Bu münasibətlərin mənbəyində uşağın təlimi və tərbiyəsi ilə məşğul olan yaşlılar və yaşıdlar durur. Onların əxlaqi təcrübəsi yaşlılardan uşaqlara ötürülür, ünsiyyət prosesində bu normaların mənimsənilməsi baş verir. Uşağın müşahidəçilik və təqlidçilik qabiliyyəti, rəğbətləndirmə və cəzalandırma sistemi bu prosesdə təsirli vasitələr kimi xüsusilə əhəmiyyətlidir.

Uşağın şəxsiyyətinin inkişafında ünsiyyətin müstəsna rolu vardır. Məktəbəqədər dövrdə uşağın şəxsiyyətlərarası əlaqələrinin tarixini və məzmununu bilməklə biz onun şəxsiyyət kimi formalaşmasının xüsusiyyətləri haqqında çox şey öyrənə bilərik. Ünsiyyət uşağın həyatında tələbat növlərindən biri kimi çox erkən dövrlərdən özünü biruzə verir. Onun ilk

təzahürləri uşağın özünü və başqalarını tanımasında və qiymətləndirmədə aşkara çıxır. Məktəbəqədər dövrdə, o cümlədən körpəlik və ilk uşaqlıq dövründə uşağın şəxsiyyət yönümdə inkişafında və formalaşmasında baş rolun ifaçısı anadır. Onun uşaqla ünsiyyətinin xarakteri bu və ya digər şəxsiyyət keyfiyyətlərinin, davranış formalarının meydana gəlməsini şərtləndirir. Bu dövrdə uşağın ana tərəfindən tərifləmməsi və bəyənilməsi onun davranışının əsas stimullarından biri olur. Uşağın yaxın sosial əhatəsindəki doğma adamların qiymətləndirici mühakimələri də faydalı amil hesab olunur. Uşağın ailədə ilk dövrlər mənimsədiyi davranış normaları içərisində **məişət- gigiyenik** normalar, habelə **gün rejimi ilə bağlı tələblər,** əşyalar və heyvanlara qarşı münasibətlə bağlı davranış formaları üstün yer tutur. Adamlarla davranışda, onlara müraciətdə əxlaq normaları artıq məktəbəqədər yaşın sonunda müşahidə olunmağa başlayır. Onların uşaqlar tərəfindən anlaşılması xeyli çətin olsa da, böyük məktəbəqədər yaşlı uşaqlar rollu-süjetli oyunlar zamanı oyun qaydalarını mənimsəməklə onlara yiyələnmiş olurlar. Müşahidələr vasitəsilə uşaqlarda əxlaq qaydaları haqqında ilk təsəvvürlər yaranır və onlar tədricən davranış normalarına çevrilir.

Məktəbəqədər dövrdə uşaqların davranışı **intellektual özünütənzimetmə** çərçivəsindən çıxaraq sosial davranış və hərəkətlərin idarəsi müstəvisinə keçir. İntellektual özünütənzimetmə şəxsiyyət və mənəvi özünütənzimetmə forması alır. Davranışın mənəvi normaları tədricən uşaqlarda adət şəkli almış hərəkətlərə çevrilir, davamlı xarakter alır və öz situativliyini itirir. Məktəbəqədər uşaqlığın sonunda uşaqların əksəriyyətində müəyyən **əxlaqi mövqe** formalaşır, bu və ya digər dərəcədə özünün ardıcıl xarakteri ilə seçilir. Bu dövrdə uşaqların gələcək şəxsi taleyində əhəmiyyətli rol oynayan bir sıra davamlı və faydalı keyfiyyətlər kompleksi meydana gəlir. Bu uşağın ətrafdakı adamlar tərəfindən tanınmağa və bəyənilməyə cəhd etməsindən ibarətdir. Bu zəmində, normal tərbiyə şəraitində uşaqlarda uğur

qazanmağa tələbat, məqsədəyönəmlilik, özünə inam hissi, müstəqillik və s. kimi bir çox keyfiyyətlər yaranmış olur.

Böyük məktəbəqədər yaşda uşaqlarda ətraf adamlarla əlaqələrə yönəlmiş ünsiyyət motivləri dərinləşir. Uşağın hər şeyi bilmək istəyi kimi özünü göstərən təbii xüsusiyyətləri vasitəsilə onlarda ünsiyyətin yeni motivləri- işgüzarlıq və şəxsi fəallıq kimi keyfiyyətləri müşahidə olunur. Onların vasitəsilə uşaq hər hansı məsələnin həllində çətinlik çəkərkən yaşlılara müraciət edir, öz hərəkətlərinin yaşlılar tərəfindən qiymətləndirilməsini istəyir.

Böyük məktəbəqədər yaşın sonlarına doğru uşaqların əksəriyyətində **təlimə daxili, şəxsi-iradi hazırlığın** ilkin əlamətləri müşahidə olunur ki, bu da uşağın məktəb təliminə ümumi psixoloji hazırlığının zəruri tərkib hissəsi kimi nəzərdən keçirilə bilər.

Məktəbəqədər yaşlı uşaqların çoxu fəaliyyət prosesində öz uğuru və ya uğursuzluğuna emosional reaksiya göstərir, nəticədən asılı olaraq müsbət və ya mənfi hisslər keçirilər. Uşaq fəaliyyətinin nəticəsi olan uğuruna sadəcə olaraq sevinmir, həm də özünəməxsus tərzdə iftixar hissi keçirir, öz şəxsi ləyaqətini nümayiş etdirməyə çalışır. Lakin elementar özünüqiymətləndirmə reaksiyaları çox nadir hallarda müşahidə olunur. Psixoloqların fikrincə, 3,5 yaşlı uşaqlarda emosional reaksiyalar kütləvi xarakterli olduğu halda, 4 yaşlı uşaqlar öz imkanlarını daha real qiymətləndirmək bacarıqlarına malik olurlar. Məktəbəqədər yaşın sonlarına doğru uşaqlarda öz bacarıq və qabiliyyətləri haqqında təsəvvürlər meydana gəlir. Onlar şəxsi uğur və uğursuzluğun qabiliyyətlərdən asılılığını müəyyən səviyyədə dərk edir, bu qənaəti eyni bir işi başqaları ilə müqayisədə hansı səviyyədə yerinə yetirdiklərini müşahidə etməklə əldə edirlər. Müəyyən edilmişdir ki, 4,5 yaşlı uşaqlarda özünəinam hissi çox güclü olur və onlarda **adekvat iddia səviyyəsi** hələ formalaşmamışdır. Onlar çox vaxt gücləri çatmayan işlərə əl atır, bu işin öhdəsindən gələ biləcəklərinə inamlı olurlar.

5-6 yaşlarında uşaqların psixoloji simasında , davranışın emosional-motivləşmə baxımından tənzimində diqqəti cəlb edən xüsusiyyətlərdən biri də **motivlərin qarşılıqlı tabeliyidir.** Uşaqlar təsadüfi istək və meyllərini ləngitməklə, onları əxlaqi cəhətdən daha yüksək əhəmiyyətli motivlərə tabe etməyə çalışırlar. Onlar keçmişdə daha kiçik olanda nələr baş verdiyini, gələcəkdə nələrin olacağını yaşlılardan xəbər alır, güclü, cəsur, xeyirxah və ağıllı adamların hərəkətlərinə rəğbət bəsləyirlər.

Məktəbəqədər uşaqlıq illərində insanın **şəxsiyyət keyiyyətlərinin baza əlamətləri** təşəkkül tapmağa, formalaşmağa başlayır, get-gedə möhkəmlənir, şəxsiyyətin davamlı fərdiyyətinin əsas əlamətlərinə- xarakterə çevrilir. Uşağın psixikasında şəxsiyyətyönümlü keyfiyyətlər kimi nəzərdən keçirilən emosionallıq və ünsiyyətlilik, dözümlülük və səbr, işgüzarlıq və qətiyyətlilik və s. keyfiyyətlər bir çox amillərin – genotin və mühitin, şüur və şüuraltının, operant və şərti reflektor öyrənmənin, təqlidin və s. təsiri altında yaranır və möhkəmlənir.

3-4 yaşlarından başlayaraq uşaq ona verilən tələb vasitəsilə, özünü başqaları ilə müqayisə etmək yolu ilə özünüqiymətləndirmə sisteminə yiyələnir, davranışın iradi tənzimi formalarına sahib olur. Bu, uşağın «daxili mövqeyinin»- ətraf aləmə, başqa adamlara və özünə qarşı münasibətinin kifayət qədər davamlı sisteminin formalaşdığının göstəricisi olub, olduqca dəyərli keyfiyyət kimi nəzərdən keçirilə bilər. Onun ilkin əlamətləri uşağın sonrakı ontogenetik inkişaf mərhələlərində davamlı və sabit psixoloji törəmələrin, şəxsiyyətə məxsus bir çox keyfiyyətlərin, ilk növbədə isə, müstəqillik, dözümlülük, məqsədəyönəlmişlik, təkidlilik, qətiyyətlilik və s. kimi iradi keyfiyyətlərin formalaşması və inkişafının çıxış nöqtəsi olur.

Marina bu yaxınlarda yeni bağçaya köçmüşdü. O, ünsiyyətli və təşəbbüskar idi. Ona görə də yeni şəraitdə uşaqlarla təəccüb ediləcək dərəcədə tez dil tapmışdı. Uşaqlar «Müəllim-şagird» oyunu oynayırlar. Marina müəllim rolunu seçir. O, sinfi təşkil edir, uşaqları partalarda oturdur. İqor adlı oğlan «olar, mən də sizinlə oynayım»- deyə soruşur.

Uşaqlar razılaşsa da, Marina «Sən oynamayacaqsan. Məndən soruşmalı idin»- deyə amiranə səslə dillənir.

Bir dəfə uşaqlar bağçanın həyətini təmizləyirdilər. Onlar 5 nəfərlik qruplara bölünmüşdülər. «Biz qurtardıq» -deyə Marina hamıdan tez səsləndi. Tərbiyəçi «İndi isə yoldaşlarınıza kömək edin» dedikdə Marina bir kənara çəkilib sakitcə dayandı. Uşaqlar onu köməyə çağırdıqda Marina buna əhəmiyyət vermədi. O, rəfiqəsinə deyirdi: «Nə üçün biz yenə işləməliyik. Onsuz da bizi tərifləməyəcəklər. Biz birinci olmayacağıq». (A.F.Tixonovanın müşahidələrindən).

Psixoloqların fikrincə, 7 yaşında uşaqlar özlərini əsasən xarici əlamətlər baxımından səciyyələndirir və daxili aləmlərini davranışlarından fərqləndirə bilmirlər. Formalaşmış özünüdərketmə sayəsində uşaqlarda özünü təhliletmə meyli yaranır. Bunun vasitəsilə uşaqlar onları əhatə edən mühitdə nələrin baş verdiyini, bu hadisələrin onlara nə dərəcədə aid olmasını anlamağa başlıyırlar. Bu dövrdə uşağın şəxsiyyətinin inkişafında diqqəti cəlb edən xüsusiyyətlərdən biri də ətrafdakı adamların, xüsusilə **yaşlıların və yaşıdların təqlid edilməsidir.** Müəyyən edlmişdir ki, məktəbəqədər yaş dövrü **təqlidçilik yolu ilə şəxsiyyətin inkişafı üçün senzitiv yaş dövrü** kimi nəzərdən keçirilə bilər. Məktəbəqədər dövrdə uşaqların təqlidçiliyi mənəvi- etik selektivliyə (seçiciliyə) malik olmadığı üçün, onlar yalnız müsbət deyil, həm də **mənfi davranış nümunələrini** asanlıqla mənimsəyirlər. Bu da uşaqlıq illərində pis vərdişlərin mənfi adət şəkli almış hərəkətlərin meydana çıxmasına səbəb olur.

3-4 yaşlarından başlayaraq uşaqlarda yaşlıların davranışını müşahidə etmək, onların nümunəsi və təsiri nəticəsində xarakterin ilkin və davamlı əlamətləri formalaşmağa başlayır. Bu prosesdə uşağın ilk tərbiyəçiləri olan valideynlərin rolu xüsusilə böyükdür. Uşaqlar üçün müsbət təqlid obyekti olan valideynlər, onların uşağa müsbət münasibəti onun psixikası və davranışına daha güclü təsir göstərir. Psixoloji tədqiqatlar vasitəsilə sübut olunmuşdur ki, 3-8 yaşlar dövründə uşaqlar valideynlərin təsirinə qarşı daha həssas və itaətkardır. Göstərilən yaş həddində oğlanlar və qızların yaşlıların təsirinə həssaslığında fərqlərin mövcudluğu da müəyyən edilmişdir. Belə ki, qızlarda

valideynlərin təsirinə qarşı həssas münasibət daha tez başlayır və daha uzun müddət davam edir. Qızlar daha itaətkar və sözəbaxan olurlar. Oğlanlarda bu proses qızlardan fərqli olaraq iki il gec, yəni 5 yaşında başlanır və 7 yaşınadək davam edir.

Məktəbəqədər uşaqlıq dövründə uşaq öz psixi inkişafında çox uzun bir inkişaf mərhələsi keçir. Bu illər ərzində uşaqlarda intellektual planda daxili əqli əməliyyatlar təşəkkül tapır və təkmilləşməyə doğru istiqamət götürür: İdraki, şəxsi həyati, daha sonra isə emosional- motivləşmə sferasında yeni törəmələrin əsası qoyulur. Psixi idrak proseslərinin və əxlaqi cəhətdən qiymətləndirilən davranış normalarının ixtiyariliyinin intensivliyində artım tempi müşahidə olunur. Bu illər ərzində uşağın mənimsədiyi davranış normaları və qaydaları onun davranışını idarə etməyə başlayır. İxtiyari hərəkətlərə çevrilmiş, əxlaqi cəhətdən tənzimlənən hərəkətlər vasitəsilə uşaqla onun mühiti arasında əlaqələr genişlənir, şəxsi və işgüzar fəallığı şərtləndirən müxtəlif motivlər yaranır. Bunların vasitəsilə uşağın fərdiyyətçi- subyekt kimi müstəqil davranışı genişlənir. O, uşağın şəxsiyyət yönümlü fəallığına, yeni sosial keyfiyyətlər daşıyıcısı kimi həm intellektual, həm də əxlaqi-motivləşmə cəhətdən başqalarından aydın fərqlənən xüsusiyyətləri kompleksinin bitkin əlamətlərinin meydana gəlməsində zəmin yaradır. Məktəbəqədər uşaqlıq illərində uşağın şəxsiyytində davamlı xassələr kimi özünü göstərən xarakterin əsas konturları görünməyə başlayır. Bu əlamətlər uşağın gündəlik praktik fəaliyyətində və adamlarda ünsiyyətində aşkar olaraq görünür. Nümunəvi,xarakterin müsbət əlamətləri kimi məqsədəyönəlmişlik, işgüzarlıq, dözümlülük, məsuliyyətlilik, xeyirxahlıq kimi iradi- əxlaqi əlamətlər uşağın xarakterində əşyavi- praktik fəaliyyət prosesində özünü göstərir. Şəxsiyyətlərarası ünsiyyət prosesində onlarda istiqanlılıq, xeyirxahlıq, sədaqətlilik, üzüyolalıq və s. kimi xüsusiyyətlər diqqəti cəlb edir. Psixoloqlar valideyn və tərbiyəçilərə xitabən uşaqların tərbiyəsində aşağıdakı cəhətləri nəzərə almağı tövsiyyə edirlər.

Uşağınızı:

- dözümlü böyütsəniz, səbrli olmağı öyrənər;
- müdafiə edərək ruhlandırsanız, özünə arxayınçılıq duymağı öyrənər;
- haqqına hörmətlə yanaşsanız, ədalətli olmağı öyrənər;
- etibarlı bir mühitdə böyütsəniz, etibarlı olmağı öyrənər;
- qəbul və təsdiq etsəniz özünü və başqalarını sevməyi öyrənər;
- ailə mühitində dostluq və qardaşlıq münasibəti göstərsəniz, dünyada xoşbəxt olmağı öyrənər;
- sevgi içində böyütsəniz güvənməyi öyrənər;
- həmişə tənqid etsəniz, qınamağı və pərt etməyi öyrənər;
- kinli bir mühitdə böyütsəniz, dava-dalaş etməyi öyrənər;
- istehza edib lağa qoysanız, sıxılıb utanmağı öyrənər;
- həmişə xəcalət duyğusu ilə tərbiyələndirsəniz, özünü günahlandırmağı öyrənər;
- həmişə gülünc bir vəziyyətə salsanız, utancaq olmağı öyrənər;
- ona inanmasanız, fırıldaqçılığı öyrənər;
- çox üz versəniz xudbin öyrənər;
- həmişə tənqid etsəniz özünü qəbahətli görməyi öyrənər;

Məktəbəqədər yaşlı uşaqların xarakterinin formalaşmasına oyun, şəxsiyyətlərarası ünsiyyət formaları mühüm təsir göstərir. Məktəbdə təlim həyatının başlanması bu prosesdə daha güclü amil olur.

Məktəbəqədər uşaqlığın sonunda tərbiyənin təsiri altında uşaqlarda əxlaqi normalara yönəlmiş davranış formalaşır, öz hərəkətlərini, əxlaqi etalonlarla tutuşdurmaq qabiliyyətləri işkişaf edir.

Bu illərdə uşağın əhatə olunduğu ətraf mikromühit: ata, ana, baba, nənə, qohumlar, qonşular və b. onun özü haqqında ilk təsəvvürlərinin əsas mənbəyidir. Onlar lap kiçik yaşlılarından uşağın davranışını psixoloji baxımdan qiymətləndirir və xarakterizə edirlər. Uşaq yaşlıların bu cür qiymətləndirici mühakimələrinə inanır və onun təsiri altında onda özünüqiymətləndirmə meyli

güclənir. Burada tənqidi situasiyaların, haqlı, əsaslandırılmış məzəmmət, irad və cəza ilə yanaşı, rəğbətləndirmə, tərif mükafat da emosional baxımdan əhəmiyyətli vasitələrdir.

**Suallar və tapşırıqlar**

1. Məktəbəqədər yaşlı uşaqlarda xarakterin ilk əlamətləri nə vaxt müşahidə olunur.
2. Uşağın şəxsiyyətinin formalaşmasına hansı amillər təsir edir?
3. Uşağın mənimsədiyi davranış normalarının məzmununu söyləyin.
4. Əldə edilmiş uğura uşağın emosional münasibəti nədə əks olunur?
5. «Motivlərin qarşılıqlı tabeliyi» uşağın davranışında necə ifadə olunur?
6. Uşağın şəxsiyyətinin fərdiyyəti nəyi əks etdirir?
7. Uşağın şəxsiyyətinin formalaşmasında təqlidin rolu nədən ibarətdir?
8. Uşaq şəxsiyyətinin iradi və əxlaqi keyfiyyətləri hansılardır?

## IV.4 Məktəbəqədər yaşlı uşaqlarda hisslərin inkişafı

Məlum olduğu kimi, hisslər və emosiyalar insan tərəfindən gerçəkliyin inikasının özünəməxsus formasıdır. Varlığın inikası olan hisslər insanın ətraf xarici aləmin cism və hadisələrinə, başqa adamlara və özünə münasibətini əks etdirən emosional vəziyyətdir. İnsanların çoxcəhətli daxili yaşantıları və münasibətləri hisslərdə ifadə olunur. İnsanın şüründa yaranan xatirələr, obrazlar, fikirlər də insanda müxtəlif psixi oyanıqlıq halları və müxtəlif hisslər doğurur. Həyacan, qəm-qüssə, sevinc, heyrət, şübhə, utancaqlıq və s. kimi emosional vəziyyətlər buna misal ola bilər.

Hisslərin psixoloji təbiətini öyrənməyə çalışan Ç.Darvin, Mak- Dauqell kimi alimlər bu emosional vəziyyəti sırf bioloji planda tədqiq etmiş və onları **«instinktlərin astar üzü»** adlandırmışlar. Onların fikrincə, **özünüqoruma instinkti qorxu hissində**, **çoxalma instinkti isə məhəbbət hissində** ifadə olunur. Bütün emosiyalar orqanizmin bioloji tələbatlarının təmin edilib-

edilməməsindən asılı olaraq razılıq və ya narazılıq olmaqla iki başlıca reaksiyadan ibarətdir.

XX əsrdə hisslərin psixoloji mahiyyətini öyrənən Qərb alimlərindən D.Blets, C.Meyli, L.Cons, T.İmre və b. belə hesab edirdilər ki, bütün primitiv insanlar, o cümlədən uşaqlar yalnız sadə, üzvi tələbatların doğurduğu hissləri yaşamağa qadirdirlər. Tərbiyənin təsiri altında uşağın hissləri və tələbatları sosiallaşır, lakin uşağın təbii, anadangəlmə hissləri heç də yox olub getmir.

Uşaqlarda hisslərin inkişaf xüsusiyyətlərini, onların təbiətini elmi cəhətdən öyrənmək təşəbbüsləri XIX əsrdən başlayır. Bu sahədə tədqiqatlar aparmış Qərb alimlərindən K.Büllerə, E. Boduin, V.Ştern, C.Syolli və b. təbii hadisələrə faciəvi məzmun verməyə cəhd göstərərək, elə hesab edirdilər ki, uşağın ilk çığırtısı onun dünyaya gəlişi faktına qarşı ilk mənfi münasibətinin təzahürüdür. Onlar belə hesab edirdilər ki, körpə isti və sakit ana bətni mühitindən səs-küylü, gurultulu dəhşətli dünyaya gəlməsinə qarşı öz etirazını və narazılığını çığırtı reaksiyası ilə bildirir. Həyatın birinci ilində uşağın əsas hissləri qəzəb, qorxu, müdafiəsizlik və s. kimi emosional reaksiyaların təzahüründən ibarətdir.

Rus psixoloqlarından A.Pavlova, E.Stançinskaya, N. Mençinskaya, N.Fiqurin, M.Denisova, N.Aksarina və b. körpəlik və ilk uşaqlıq dövründə uşaqlarda emosional vəziyyətlərin öyrənilməsi məqsədilə xüsusi tədqiqatlar aparmış və bir sıra konkret nəticələrə gəlmişlər.

Sadə üzvi hissləri uşaq öz həyatının ilk günlərindən başlayaraq keçirir. Bunlar əsasən mənfi hisslərdən ibarətdir. Onlar körpədə xarici və daxili mühitin xoşagəlməz təsirlərinə qarşı ağlamaq, çığırtı şəklində təzahür edir. Bu reaksiyaların yaranması otaqda havanın və ya vannada suyun temperaturunun aşağı düşməsi, boş mədənin sıxılması, bağırsaqların dolması və s. kimi səbəblərlə bağlıdır. Rejimin azacıq pozulması, yeməyin gecikməsi valideynlər və ya tərbiyəçinin uşağa qarşı qeyri-adi kəskin səsli müraciəti uşaqda coşğun emosional reaksiyanın yaranmasına səbəb olur. Hətta orta və

böyük məktəbəqədər yaşlı uşaqlar üçün adət edilmiş davranışın məhdudlaşdırılması onlarda emosional təsirlər doğurur. Məsələn, hər hansı şənlikdən sonra və ya onu gözləmə ərəfəsində uşaqlar şıltaqlaşır, yeməkdən imtina edir, ağlayırlar. Lakin uşaqların sinir sisteminin ümumi labilliyi nəticəsində onların hissləri davamlı olmur, tez keçib gedir.

Artıq iki aylıq uşaqda bəzi hisslər şərti reflektor xarakter daşıyır. Ananın ağlayan uşağa doğru yaxınlaşması, süd ilə dolu tanış butulkanın uşağın gözü önünə gətirilməsi üç-dörd aylıq uşaqda aydın ifadəli məsbət emosional reaksiya doğurur. Dörd-beş aylıq uşaq ümumi canlanma kompleksinə qoşulur, ona qulluq edən yaşlının səsinə və təbəssümünə adekvat reaksiya göstərir. Həyatın birinci yarısında bu reaksiya o qədər də diferensiallaşmış olmur. Ona görə də, uşaq doğmalarla yad adamları o qədər də fərqləndirə bilmir və hamısına eyni dərəcədə müsbət emosional münasibət göstərir. Bir yaşın sonunda uşağın ətraf xarici aləmlə münasibətləri dəyişir və seçici xarakter daşımağa başlayır. Doqquz-on aylıq körpə fərəhlə anaya tərəf iməkləyir, ananın yanında olmasından ifadəli məmnunluq hissi keçirir. Yanında yad adamın görünməsini o, təəccüb hissi ilə qarşılayır, kənar adamın ona yaxınlaşmasına və qucağına götürməsinə qarşı başın və əllərin müdafiə hərəkətləri və ucadan ağlamaqla cavab verir. Rus psixoloqu E.Q.Babinovanın tədqiqatları müəyyən etmişdir ki, həyatın birinci ilində uşaqlarda qeydə alınmış emosional təzahürlərin 72%-i yaşlılarla ünsiyyət fəaliyyəti ilə bağlıdır. Onların böyük əksəriyyəti, yəni 80%-i müsbət emosiyalardan ibarətdir. Bir yaşın sonunda uşaqların hissləri məzmunca çoxcəhətli olur. Məsələn, ana uşağın yanında olmadıqda o ağlayır, sızıldayır. Ana onun çarpayısı yanında oturub öz işi ilə məşğul olduqda və körpəyə baxmadıqda o, narazılıq ifadə edən səslər çıxarır, ananın diqqətini özünə yönəltmək istəyir, alnını ovuşdurur, qaş-qabağını tökür, əli ilə çarpayını döyəcləyir. An a ona tərəf döndükdə gülümsəməyə başlayır, qəzəb reaksiyası yox olur. Müəyyən edilmişdir ki, bir yaşın sonuna doğru uşaqlarda manipulyativ hərəkətlərin meydana çıxması ilə

əlaqədar onların oyuncaqlara marağı artır. Al-əlvan, parlaq oyuncaqlar uşaqlarda fərəh hissi doğurur. Lakin bu hisslər davamsız və qısamüddətli olur.

Uşaqlarda ən güclü müsbət emosional reaksiyalar **oyun və yaşlılarla zarafatlar zamanı** müşahidə olunur. Məsələn, yaşlı adam çarpayının arxasında gizləndikdə, oyuncağı gizlətdikdə və nəhayət uşaq onları taparkən yaşlı əl çaldıqda və ya uşaqla top oynadıqda hər bir uşaqda aydın ifadəli müsbət emosiyaları müşahidə etmək mümkündür. Bir-iki yaşlı uşaqlarda it-pişikdən qorxma halları olmur. Belə ki, onlar əllərini lap yaxınlıqda olan itə tərəf uzadır və ya pişiyin quyruğundan tuturlar. Onlar bu heyvanların xüsusiyyətlərini bilmədiklərinə görə qorxu hissindən də uzaq olurlar. Uşağın belə hərəkətlərinə qarşı heyvan əks reaksiya göstərdikdə- mırıldadıqda və ya uşağı cırmaqladıqda o, qorxur və bir daha həmin heyvana yaxınlaşmır. Uşaqlarda **qorxu hissi** şəxsi təcrübə nəticəsində meydana çıxır. Psixoloqların fikrincə, məktəbəqədər yaşlı uşaqlar daha çox **qaranlıqdan, həkimdən və iynədən haray-qışqırıqdan, təklikdən, şimşək çaxmasından, tanış adamın sifətinin kəskin dəyişməsindən** və s. daha çox qorxurlar. Düzgün olmayan tərbiyə, böyüklərin uşaqları tez-tez qorxutması onlarda qorxu hissi doğurur. Böyüklərin qorxulu söhbətləri, qorxulu hekayə və nağıllar, dəhşətli filmlər də uşaqlarda qorxu hissinin əsas mənbəyidir. Bəzən nadinc, sözə baxmayan uşaqları böyüklər intizama dəvət etmək üçün onları qorxutmaq üsulundan istifadə edirlər. Uşaq psixolojiyasını bilməyən bir çox yaşlılar uşağa «tez bura gəl, yoxsa, dayı səni torbaya salar», «Bura gəl, yoxsa səni oğurlayarlar» və s. tipli sözlərlə müraciət edir və ya uşağın qorxmasından həzz alaraq tez-tez onları qorxudurlar.

İlk uşaqlıq və məktəbəqədər yaş dövründə uşağın həyatının bütün sahələrində özünün rəngarəngliyi və zənginliyi baxımından hisslərin aydın təzahürləri müşahidə olunur. Kiçik yaşlı uşaqlar öz daxili yaşantılarını idarə edə bilmədiklərinə görə, həmişə hisslərin hakim təsiri altında olurlar. Məsələn,

dörd yaşlı uşaq hər hansı bir işi görərkən məqsədinə nail ola bilmədikdə ağlamağa başlayır. Rus psixoloqu N.N.Lodigina- Kots öz oğlu Rudolf üzərində apardığı müşahidələr əsasında qeyd etmişdir ki, Rudi çəkiclə mıxı döşəməyə vurarkən iş alınmadıqda öz-özünə deyinir və ağlayırdı.

Uşağın hisslərinin xarici təzahürləri yaşlı adamlara nəzərən daha coşğun, ardıcıl və qeyri-ixtiyari olur. Bu dövrdə uşaqlarda hisslər tez yaranır və tez də sönür. Məsələn, ağlayan 4 yaşlı uşağa maraqlı bir oyuncaq hədiyyə verdikdə, o gülməyə, sevinməyə başlayır və ağlamasını kəsir. Məktəbəqədər yaşlı uşaqların hisslər aləmində diqqəti cəlb edən cəhət tərif və məhəbbətə tələbatın olmasıdır. Böyüklərin xoş rəftarı və tərifi uşaqlarda emosional **məmnunluq, inam və himayə hissləri** doğurur və onlar özlərini arxalı hiss edirlər. Bu isə uşağa gümrah və həyatsevər əhvali- ruhiyyə bəxş edir. Qeyd olunan amillər uşağın normal psixi inkişafının, onlarda müsbət xarakter əlamətlərinin, əxlaqi keyfiyyətlərin, başqa adamlara qarşı xeyirxah münasibətlərin formalaşmasının əsasını təşkil edir.

Uşaq tərif, nəvaziş, səmimiyyət kimi münasibətlərə müsbət, danlaq, məzəmmət kimi təsirlərə qarşı mənfi emosional reaksiya göstərir. Məktəbəqədər yaş dövründə uşaqlarda özünüqiymətləndirmənin ayrı-ayrı təzahürləri meydana gəlir ki, bu da fəaliyyətin nəticəsindən asılı olur. Uşaq əldə etdiyi uğurdan sadəcə olaraq sevinmir, həm də özünəməxsus formada iftixar hissi keçirir. Psixoloji tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, artıq 3 yaşlı uşaq öz şəxsi imkanları haqqında müəyyən təsəvvürlərə malikdir. Lakin bu dövrdə uşaqlar faktlar və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini, hər bir hadisənin baş verməsinin müəyyən qarşılıqlı münasibətlərdən asılılığını dərk edə bilmirlər.

Məktəbəqədər yaş dövründə uşaqlar öz hərəkətlərinə görə yaşlılar tərəfindən verilən qiymətdən asılı olurlar. Ona görə də, uşaqlar daim böyüklərin tərif və rəğbətini qazanmağa çalışırlar. Məktəbəqədər uşaqlıq illəri hisslərin və təəssüratralın zənginliyi ilə fərqlənir. Bu dövrdə hisslərin

məzmununda nəzərə çarpacaq dəyişikliklər baş verdiyi kimi onların cərəyanetməsində də yeniliklər müşahidə olunur. Uşaqlığın ilk dövrlərində meydana gələn hisslər (yaşlılarla ünsiyyətdən fərəhlənmək, başqa uşaqların halına acımaq və s.) məktəbəqədər yaş dövründə daha da möhkəmlənir, daha da davamlı, aydın ifadəli olur. Məktəbəqədər **yaşda uşaqlarda meydana gələn rəğbət hissi get-gedə möhkəmlənir, yoldaşlıq və dostluq hisslərinin** ilkin formalarına çevrilir. Bu yaş dövründə uşaqlarda ali hisslərin formalarından biri olan **intellektual hisslər** inkişaf etməyə başlayır. Onlar nağıl və hekayələri dinləməyi xoşlayır, nağıl qəhrəmanlarının düşdüyü çətin vəziyyətə görə onların halına acıyır, baş verən hadisələrə maraq göstərirlər. Məsələn, 5 yaşlı uşaqlar «Şəngül, Şüngül və Məngül,» nağılını həyəcanla dinləyir, keçinin balalarını yediyinə görə canavara nifrət bəsləyir, çəpişlərin halına acıyırlar. «Pişik və qaraquş» hekayəsini dinləyən 5 yaşlı qız pişiyin körpə balalarını müdafiə etmək üçün onların şəkli təsvir olunmuş vərəqdə pişik balalarının üstünü əlləri ilə örtürdü. Uşaqlarda idraki hisslərin yeni obyektləri sırasında heyvanlar və quşlar özünəməxsus yer tutur. Bu hisslərin təzahürlərini oyun zamanı uşaqların müxtəlif heyvan və quş oyuncaqlarına münasibətindən də görmək mümkündür.

Məktəbəqədər yaşlı uşaqlar balaca, zəif quş və heyvan balalarına qarşı xüsusi qayğı və məhəbbət göstərirlər. Uşaqların zəngin intellektual hisslərini onların maraq və heyranlıq dolu baxışları ilə yaşlılara verdikləri suallardan da görmək olar. Uşaqların sosial əhatəsinin genişlənməsi, xüsusi uşaq bağçalarında onların yeni münasibətlər mühitinin yaranması zəminində çoxlu yeni hisslər meydana gəlir. Burada uşaqlar arasında kollektivçilik münasitbətlərinin ilkin formaları təşəkkül tapmağa başlayır. Bağça yaşlı uşaq qruplarında yaranan birgə fəaliyyətə, **dosta və yoldaşa tələbat hissləri** yüksək insani hisslərin formalaşmasının əsasını qoyur. Bağça yaşlı uşaqlar dostu üçün darıxır, öz oyuncaqlarını ona oynamağa verir, şirniyyata qonaq edir, incidilmiş dostuna tərəfdar çıxır və onu müdafiə edirlər.

Uşaqlarda bu cür qarşılıqlı münasibətlər fonunda ali hisslərin formalarından biri kimi **əxlaqi hisslər** sırasında **borc, həya, özünə qarşı tələbkarlıq,** ümumi müvəffəqiyyətə görə **sevinc, düzlük** və **doğruculuq** və s. kimi hisslərin adını qeyd etmək olar. Əlbəttə, məktəbəqədər yaş dövründə uşaqların əxlaqi hisslərinin mükəmməl və davamlı xarakterdə olmasında danışmaq doğru olmazdı. Belə sosial məzmunlu hisslər uşaqların bilik səviyyəsi ilə bağlı olduğundan onlar yalnız məktəb yaşı dövründə tam formalaşır və davamlı şəkil alır.

Məktəbəqədər yaşlı uşaqların həyatında ali hisslərin formalarından biri olan **estetik hisslərin** təzahürlərini müşahidə etmək mümkündür. Bu hisslərin ilkin bazasında ətraf xarici aləmdən, təbiətdən və bədii ədəbiyyatlardan, incəsənət əsərlərindən götürülmüş estetik materiallar, musiqi, rəqs, kölgə teatrı faydalı vasitələrdir. Bu, uşaqlarda **gözəllik, estetik həyacan, heyrət** və s. kimi estetik hisslər doğurur, onlarda bədii qavrayışın inkişafını təmin etmiş olur. Məktəbəqədər yaşlı uşaqlarda müsbət əxlaqi hisslərlə yanaşı tez-tez müşahidə olunan affektiv vəziyyətlərdən doğan, bəzən isə səbəbsiz törəyən mənfi hisslərin də olduğunu qeyd etmək lazımdır. Məsələn, ana uşağa onun istədiyi paltarı geydirmədikdə o, acı göz yaşları axıdır, qışqırır, ayaqlarını yerə döyür. Belə kəskin reaksiyalar eynilə uşağa onun arzu etdiyi paltar və ya oyuncaq qəflətən göstərildikdə də, o eyni dərəcədə güclü affekt halı keçirir. Məktəbəqədər yaşlı uşaqlarda **xudbinlik, şıltaqlıq, xəbərçilik, küsəyənlik və inciklik** və s. kimi neqativ hallar da tez-tez müşahidə olunur. Onlar tez-tez heç nəyin üçtündə küsür, «nə üçün mənimlə danışmırsan?»- deyə soruşduqda «mən səndən küsmüşəm» deyə səmimi etiraf edirlər. Məktəbəqədər yaşlı uşaqlar tez-tez yoldaşlarının adi hərəkətlərilə çox yüksək qiymət verir, qaçıb valideynlərə və ya tərbiyəçiyə xəbərçilik edirlər. Məsələn, «Arif adlı 5,6 yaşlı oğlan tərbiyəçiyə həyəcanla deyirdi ki, Vüqar əlini həyətdəki güllərə vurdun. Ərköyün tərbiyə olunmuş uşaqlarda **uşaq neqativizmi** adlanan tərslik və höcətlik kimi mənfi davranış halları da tez-tez

müşahidə olunur. Sanki onlar yaşlıları incitməkdən, qadağan edilmiş hərəkəti etməkdən həzz alırlar. Bu yaş dövründə uşaqlarda müşahidə olunan mənfi əxlaqi hisslərdən biri də **paxıllıq hissidir.** Daim qayğıya möhtac olan uşaq ailədə həmişə birinci yerdə olmağa can atır. Hər şeyin təzəsi və böyüyünün, ən yaxşısının, qırmızı rənglisinin onun olmasını istəyir. Kiçik və ya xəstə bacı və qardaşa qarşı valideynlərin xüsusi qayğı və nəvazişi adətən məktəbəqədər yaşlı uşaqlarda aydın təzahürlü inciklik və paxıllıq hissləri doğurur. Rus psixoloqu V.S.Muxinanın gündəliyindən götürdüyümüz aşağıdakı nümunədə bunu aşkar görmək mümkündür.

«Kirill 4 yaş 2 ay, 15 günlükdür. Kitab oxuyuram. Şəkilləri əvvəlcə Kirilə, sonra isə Andreyə göstərirəm (o, xəstədir,çarpayıda yatıb). Bir qədər sonra Kirill ehmalca mənim qolumu dümsükləyir.- Kirill, eləmə!- deyə mən dillənirəm. - Nə üçün o çox baxır?- deyə o soruşur.- O ki, xəstədir. Mən onun üçün oxuyuram. Sən qulaq asmaq istəmirsənsə, get oyna- deyib onu sakitləşdirmək istəyirəm. O, «mən sizin kitabınızı əlinizdən alacağam» deyə söylənir.

Uşaqların valideynlərinə qarşı məhəbbət hissi qarşılıqlı olaraq valideynlərin də onlara yönəlmiş sevgisi və məhəbbəti ilə, müsbət emosional münasibətləri ilə müşayət olunur. Uşağın hədsiz əzizlənməsi bəzən hətta **aqressiv fantaziyalar** yaradır. Bunu uşaqların «Mən səni daha istəmirəm». «Sən pis anasan». «Mən səni öldürürəm» tipli mülahizələrində öz əksini tapır.

Uşaqlarda müşahidə olunan hisslərin biri də **utancaqlıq hissidir.** Artıq 3-4 yaşlı uşaq öz **cinsi mənsubiyyətini anlayır,** oğlan və ya qız olduğunu bilir. Uşaqların fəallığı onların cinsi rollarını düzgün anlamasından çox asılıdır. Uşağın cinsi rolunun fərqləndirilməsi ailədən başlanır. Məsələn, oğlan uşağı ağladıqda ona «Ağlama, sən qız deyilsən» və ya «Qız kimi küsəyən olma!»- deyə iradlar tuturlar. Eyni iradlar qızlara da yönəlir: «Sən qızsan, oğlan kimi hara gəldi dırmaşma! və s. «Oğlansan», «qızsan» və s. Kimi iradlar uşaqlarda qadın və kişinin nə isə keçilməz sərhədlərdə ayrılan fərdi adamlar olması,

hansısa birinin digərinə nəzərən üstünlükləri, bir cinsin digəri üzərində hökmranlıq hüququ haqqında təsəvvürlərinin formalaşmasını sürətləndirir. Oğlanlar qızların, qızlar isə oğlanların mühitində, həmçinin qərib yerlərdə utancaqlıq hissi keçirirlər. Uşaqlarda utancaqlıq hissinin əsas səbəblərindən biri uşağın qapalı mühitdə və ya oğlanın əsasən qız mühitində böyüməsidir. Uşağın fiziki zəifliyi, keçirdiyi mənəvi sarsıntı da utancaqlıq hissi kimi görünə bilər. Lap erkən yaşlardan etibarən uşağın yaşlılar və yaşıdları ilə ünsiyyətdə olması kollektiv münasibətlər mühitində yaşaması onlarda utancaqlıq hissinin aradan qalxmasına əlverişli zəmin yaradır. Ailədə uşağın fəallığının artırılması, təşəbbüskarlığının inkişafı üçün şəraitin yaradılması onların fəal və zirək olmasına, öz qüvvəsinə inamın yaranmasına gətirib çıxaran əsas şərtlərdir. Belə olduqda, uşaqda utancaqlıq yaradan, onu həyəcanlandıran səbəblər aradan qalxır, hər şey ona adət etdiyi kimi görünür.

Psixoloqlar belə hesab edir ki, xəbərdarlıq və izahat uşaqlarda **«psixoloji immunitet»** yaradır. Uşaq qabaqcadan onu nə gözlədiyini biləndə, məktəbdə dərslərin başlanması, ailədə baş verən dəyişikliklər təzə mənzildə, xəstəxanada olma, və s. onu daha az qorxudur. Bununla o, həm də gələcək üçün planların qurulması prosesinə cəlb edilmiş olur. Ailədə **yaxın adamın ölümü, təbii fəlakət** uşaqlarda həyəcanlı qorxu yaradır.

Stress uşaq həyatının qadağan olunmayan, bəzən isə zəruri hissəsidir. O, etibarlı süzgəc hesab olunur. Əyyaş valideynlər, alkoqol düşkünləri olan ata-ana uşağa ağır sarsıntı gətirir. Belələrinin dostları az olur, tez-tez dərs buraxır, risqdən qorxur və məyus görünür, xəcalət hissi ilə yaşayırlar.

Uşağın doğulub boya-başa çatdığı sosial gerçəklik onun emosional sferasının zənginliyinə, nəcib hisslərin, cilalanmış zərif duyğuların «kök atmasına» səbəb olur. Yaşlıların uşağa emosional qayğısı, ünsiyyət tərzi nəcib hisslərin baş qaldırması və inkişafının güclü mənbəyidir.

Erkən uşaqlıq dövründə valideyn- övlad münasibətləri, valideyn qayğısı beynin emosiyalara nəzarət edən hisslərinə güclü təsir göstərir. Bu bağlılıq

zəminində uşaqlarda emosiyaların zəngin spektri: məyuslüq, inciklik, məmnunluq, sevinc, peşmançılıq, günah kimi hisslər təşəkkül tapır.

Ailə ənənələri və gün rejimi uşağın emosional həyatının güclü amilidir. Uşaqlar yaşlıların onlara verdiyi mənfi və müsbət qiymətləri çox ciddi qəbul edirlər. N.Tusi hələ XII əsrdə yazırdı: «Uşaqlarda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafının ilk anlarında çoxlu səhvlərə yol verər, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar, füzulluq eləyər, dediyindən əl çəkməz, başqalarını da zərərli və xoşagəlməz iş tutmağa vadar edər, sonra isə tənbeh və tərbiyə yaşı keçər[1]. Yaşlıların tərbiyəsi uşaqların əxlaqi düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır. Psixoloqların fikrincə, **«olmazlar»** mühitində böyüyən, hər addımda davranışı məhdudlaşdırılan uşaqlarda böyüklərə hörmət qorxu hissinin təsiri altında yaranır. Məktəbəqədər yaş dövrü uşağın həyatında **emosional yüksəliş və enişlərlə dolu dönüş dövrüdür**. Ailədə hədsiz əzizlənən qayğı və təhlükəsizlik hiss edən uşaqlar çöldə, küçədə yeni emosiya və sərgüzəştlərlə rastlaşdıqda onları «həzm edə» bilmir, çaşıb qalırlar. Sağlam rəqabət mühiti uşaqlarda mübarizlik, ciddi və sərt münasibət dözümlülük, çətinliklər isə səbrlilik kimi əxlaqi- iradi keyfiyyətlərin formalaşmasına təminat yaradır.

## Suallar və tapşırıqlar.

1. Hisslərin psixoloji mahiyyətini izah edin.
2. Uşaqların ilk emosiyaları nə ilə şərtlənir?
3. Emosiya və hisslər sahəsində ilk tədqiqatlar kimlər tərəfindən aparılmışdır?
4. Məktəbəqədər yaşlı uşaqlarda qorxu hissi nə ilə bağlı olur?
5. Uşaqlarda hisslərin xarici təzahürləri necə əks olunur?

[1] N.Tusi. Əxlaqi-Nasiri. B., «Elm» 1989, səh.158

6. Məktəbəqədər yaşlı uşaqlarda ali hisslərin hansı formalarına təsadüf olunur?
7. Uşağın emosional həyatının formalaşmasında hansı amillər təsirli rol oynayır?

## IV. 5 Məktəbəqədər yaşlı uşaqlarda iradənin inkişafı.

İnsanın həyatında fəaliyyətin məqsədyönlü təşkili forması kimi iradi hərəkətlərin müstəsna əhəmiyyəti vardır. İradə insanın şüurunun fəal tərəfidir. Ağıl və hisslərlə birlikdə o, çətin şəraitdə insanın fəaliyyəti və davranışını tənzim edir. Bir çox psixoloqlar (K.Levin, J.Piaje, V.Bendt, S.L.Rubinşteyn, A.N. Leontyev, L.İ. Bojoviç və b.) şəxsiyyətin motivləşmə-tələbat sferasını tədqiq edərək iradəni insanın fəallığının əsas şərti kimi göstərmişlər. İradə insanın dərk olunmuş məqsədinə tabe olan məqsədəyönəlmiş fəaliyyətin, məqsədin həyata kesirilməsi zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılması zamanı təzahür edir. O, yaranmış situasiyanın qiymətləndirilməsi, qərar qəbulu kimi hallarda insanın ruhi və fiziki qüvvələrini səfərbər edir. İradənin tənzimləyici funksiyası xüsusi, şüurlu özünütənzimetmə priyomları vasitəsilə həyata keçirilir. İradənin istənilən təzahüründə onun üç əsas struktur komponenti əks olunur:

1. **İradi komponent.** məlumatvermə funksiyanı yerinə yetirir. İradi fəaliyyətdə ixtiyari hərəkətlərin nəticələrinin qiymətləndirilməsi, düzgün həll yolunun seçilməsi və nəzarət funksiyaları idraki komponentə tabedir.

2. **Emosional komponent** idraki və icra komponentlərini gücləndirir. O, fəaliyyətin əxlaqi motivlər əsasında həyata keçirilməsində ifadə olunur. Özünübəyənmə, özünüinandırma, özünüsakitləşdirmə, özünürəğbətləndirmə və özünücəzalandırma kimi düşünülmüş iradi aktlar vasitəsilə insan vacib əməliyyatlara və davranışa sahib olur. Belə müsbət istiqamətləndirici təhriklər sayəsində insan borc, şərəf, inam və s. kimi hissləri yaşayır, qarşıya qoyduğu

məqsədə çatmaq, həllin icrasını təmin etmək üçün enerjisini səfərbər edir, fəallığını artırır.

3. **İcra komponenti** qarşıya qoyulmuş şüurlu özünüməcburetmə formasında əks olunur. Bu funksiya xüsusilə konfliktli situasiyalarda daha bariz şəkildə təzahür edir. Yaranmış vəziyyətdən asılı olaraq insan şüurun birbaşa göstərişi əsasında ya fəallığını daha artıq səfərbər edir, ya da hərəkətlərini dayandırır.

İnsanın iradəsi yalnız ətraf xarici aləmdə baş verən hadisələrlə şərtlənmir, həm də bilavasitə onların təsiri ilə formalaşır. Artıq erkən uşaqlıq dövründə uşağın hərəki aktlarını ana öz nitqinin köməyi ilə təşkil edir. Məsələn, « tası götür», «kuklanı gətir», «qapını ört» və s. kimi təhrikedici və yönəldici göstərişlər əsasında uşaq öz hərəkətlərini ananın təlimatına tabe edir. Məktəbəqədər yaş dövründə yaşlıların tələbləri uşaqların davranışını idarə etmək vasitəsi rolunda çıxış edir. Məlumdur ki, məktəbəqədər yaş dövrü uşağın öz davranışını, xarici və daxili fəaliyyətini şüurlu tənzimetmə imkanlarının artımı baxımından olduqca məhsuldardır. Bu keyfiyyətlərdən biri də **iradədir.** Təlim və tərbiyə proseslərinin həyata keçirilməsi gedişində məktəbəqədər yaşlı uşaqlarda böyüklərin və yaşıdlarının təsiri altında öz hərəkətlərini məqsədə tabe etdirmək imkanları genişlənir və məqsədə çatmaq yolunda qarşıya çıxan maneələri aradan qaldırmaq səyi formalaşmağa başlayır. Uşaq tədricən öz hərəkətlərinə nəzarət etmək imkanlarına yiyələnir, öz pozasına nəzarət etmək bacarığını mənimsəyir, davranışını yaşlıların tələblərinə uuğunlaşdırır. Lakin məktəbəqədər yaş dövründə uşaqlarda davranışın ixtiyariliyinin formalaşması heç də asanlıqla yaranmır və bu keyfiyyətlər ona hazır şəkildə verilmir.

İlk uşaqlıq dövründə uşaqlarda formalaşan müxtəlif əşyalarla praktik fəaliyyət təcrübəsi onlarda öz qüvvəsinə inam, müstəqillik kimi hisslərin meydana gəlməsinə zəmin yaratmış olur. Özünün artan imkanlarını dərk edən uşaq öz qarşısına daha cəsarətli və rəngarəng məqsədlər qoyur. Əldə edilən

hər bir uğur uşaqda qürur və iftixar hissi doğurur,öz qüvvəsinə inamı möhkəmləndirir. Bu inam onların «mən özüm», «mən edərəm», «mən istəyirəm» kimi sözlü mülahizələrində əks olunur. Yaşlıların hər hansı tapşırıqlarını yerinə yetirmək üçün (güllərin suvarılması, nənəyə kömək etmək və s.) uşaq öz istəklərindən onu həmin anda maraqlandıran işlərdən əl çəkməli olur. Belə halda uşaqda **motivlərin qarşılıqlı tabeliyi və mübarizəsi** meydana çıxır. Daha güclü motiv davranış və fəaliyyəti şərtləndirən amil rolunda çıxış edir.

Məktəbəqədər yaşlı uşaqlarda iradi hərəkətlərin möhkəmlənməsi və vərdişlərə çevrilməsi uşağın həyatının düzgün təşkilindən asılıdır. Tərbiyə şəraitindən asılı olaraq uşağın həyatında müxtəlif motivlər (ictimai əhəmiyyətli, eqoistik və s.) ön planda ola bilər. Bu yaş dövründə uşağın şəxsiyyətinin baza əlamətləri, onun fəaliyyəti, təşəkkül tapır, şəxsiyyətinin istiqamətinin əsas meylləri nəzərə çarpmağa başlayır. Formalaşmış motivlər uşağın niyyətli, ixtiyari davranışının əsasını təşkil edir. Bu yaş dövründə uşağın şəxsiyyətində təşəkkül tapmaqda olan özünüdərketmə ona öz hərəkətlərini qiymətləndirmək, bəzi istəkləri ləngitmək, daha mühüm, əsas vəzifənin, tapşırılan işin icrasını təmin etmək üçün imkanlarını səfərbərliyə almağa yönəldir. Belə situasiyalarda uşaq daha az əhəmiyyətli motivləri daha çox əhəmiyyətli motivlərə tabe etməli olur. Uşaqların həyatında oyun yalnız əsas, aparıcı fəaliyyət forması deyil, həm də onların gündəlik həyatının ayrılmaz bir hissəsidir. Oyun zamanı uşaq öz üzərinə götürdüyü rolları mümkün qədər layiqincə oynamağa, qüvvələrini maksimum səfərbərliyə almağa çalışır. Oyun fəaliyyəti vasitəsilə uşaqlar yaşlıların həyatına daxil olur, onların qarşılıqlı münasibətlərinə aid olan həyatı təqlid edirlər. Onlar oyunda yaşlılar üçün xarakterik olan situasiyaları modelləşdirir. Rus psixoloqu A.V.Zaporojets qeyd edirdi ki, oyun məktəbəqədər yaşlını aktiv fəaliyyət üsulları ilə silahlandırır. Psixoloqlar belə hesab edirlər ki, oyunda uşaqlarda təfəkkürün simvolik funksiyası təşəkkül tapır. Oyun zamanı uşaqlar real əşyaların əvəzedicilərini

tapır, onun məzmununa uyğun əyani modellərdən istifadə etməklə plan, sxem və çertyojlar tərtib edirlər.

Qeyd etmək lazımdır ki, **davranışın şüurlu tənzimi** ancaq məktəbəqədər yaş dövründən başlanır. Məktəbəqədər yaşın sonunda uşaqlarda iradi səy amilinin təzahürləri müşahidə olunur. Bu dövrdə uşağın davranış motivlərini dəyişmək ən çox kənar motivlərin sıxışdırılması, əsas motivə tabe edilməsi şəklində üzə çıxır. Məktəbəqədər yaş dövründə uşaqlarda iradənin inkişafında nəzərə çarpan üstün dəyişikliklərdən biri **məqsədə can atma meylidir.** Bu dövrdə uşaqlarda məqsədlə fəaliyyət arasında əlaqə təşəkkül tapır və fəaliyyətin məqsədəyönəlmiş təzahürləri müşahidə olunur.

Uşaqlarda məqsədəyönəlmiş fəaliyyət xaricdən daxilə doğru deyil, daxildən, istək və məqsəddən obyektə doğru yönəlir. Bu, xüsusi psixoloji tədqiqat nəticəsində sübut edilmişdir. 2-6 yaşlı uşaqlarda aparılan tədqiqat zamanı onların hərəsinə adi bir top verilmiş və topu 30 metr məsafəyə aparıb orada sıra ilə düzülmüş yoldaşına vermək, həm də bu işi sürətlə etmək tapşırılmışdır. Uşaqlar yolun yarısında olarkən onlara tərəf çoxlu əlvan bəzəyi olan böyük bir top atılmışdır. 2-4 yaşlı uşaqlar əllərindəki topu ataraq həmin topu tutmağa çalışdıqları halda, 5-6 yaşlı uşaqlar verilən tapşırığı yerinə yetirmişlər. Bu eksperimentdən aydın olmuşdur ki, kiçik və orta məktəbəqədər yaşlı uşaqlarda məqsədəyönəlmiş iradi fəaliyyət o qədər də yüksək olmur. Məktəbəqədər yaşın sonunda isə uşaqların fəaliyyətində qarşıya məqsədin qoyulması, az əhəmiyyətli motivlərin sıxışdırılması nəzərə çarpır. Bu yaş dövründə uşaqların iradi fəaliyyətində məqsədlə motivin, hisslər və arzuların uyğunluğu özünü biruzə verir. Məktəbəqədər yaşda davranış motivlərində yalnız bu deyil, başqa tip yeni fəaliyyət motivləri də meydana çıxır. Bu halda əksinə, **fəaliyyətlə onun nəticəsi arasındakı əlaqə**, böyüklərin tərifinə layiq olmaq istəyi durur. Rəsm çəkən uşaq öz səylərini artırır və nəticədə tərbiyəçinin tərifinə layiq olmaq istəyir. Lakin bu birbaşa, əsas motiv deyil,

dolayı motiv kimi özünü göstərir. Çünki uşaq ilk növbədə ona tapşırılan işi- rəsm çəkmək işini yerinə yetirir. Deməli, bu halda əlavə motivlər fəaliyyəti daha da gücləndirir.

Məktəbəqədər uşaqlıq illərində uşaqlar böyük miqdarda iradi vərdişlər mənimsəyirlər. Bu, artıq böyük məktəbəqədər yaşlı uşağın məktəbə psixoloji hazırlığının komponentlərindən biri kimi **iradi hazırlığın** səviyyəsini əks etdirir. Uşaqlarda iradi vərdişlərin formalaşdırılması həyatın 1-2-ci ilində başlanır. Bu dövrdə onlar hələ yaxşı danışa bilməsə də, artıq böyüklərin sözlü müraciətlərini anlaya bilirlər. Yaşlıların «qapını ört», «oyuncaqları yerinə qoy», «Topu mənə gətir» və s. kimi göstərişləri uşaqları kiçik tapşırıqların icrasına yönəldir, onları fəaliyyətə sövq edir. Psixoloqlar məktəbəqədər yaş dövründə uşaqlarda formalaşdırılan iradi vərdişləri 4 əsas qrupa ayırırlar:

1. **Gigiyenik vərdişlər-** bədənə səhər və axşam qulluq etmək, stol arxasında davranış və s.

2. **Məişət vərdişləri** – oyuncaqları, yatağı yığışdırmaq, süfrə açmaq, qab-qacağı yumaq və s.

3. **İradi- mədəni davranış vərdişləri-** süfrə arxasında özünü aparmaq, yaşlılar və ya yaşıdlarla etik qarşılıqlı münasibət – onlarla salamlaşmaq, xudahafizləşmək, xahişlə müraciət etmək, təşəkkür etmək və s.

4. **İntellektual məzmunlu vərdişlər-** musiqi, rəsm, quraşdırma və s. məzmunlu vərdişlər.

Uşaqlarda iradi vərdiş və keyfiyyətlərin formalaşdırılmasını ilk uşaqlıq illərindən başlamaq lazımdır. Çünki bunlar uşağın gələcək həyatında, təlim və əmək fəaliyyətində fundament təşkil edir.

Qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqlar olduqca üzüyola olurlar, onlar üçün bütün böyüklər və valideynlər inkaredilməz nüfuz sahibidir. Bundan başqa, məktəbəqədər yaşlı uşaqlarda V.A.Suxomlinskinin qeyd etdiyi kimi, «yaxşı olmaq tələbatı» xüsusilə güclü bir tələbat kimi özünü göstərir. Bu yaş dövründə uşaqlar böyüklərin tərif və rəğbətini qazanmağa çalışırlar. Məhz

bu tələbat uşaqların iradə tərbiyəsində əsas amil rolunda çıxış edir. Əgər uşaq nahardan əvvəl əllərini yumamışdırsa, ona hədə- qorxu gəlmək lazım deyildir. Bu onda kədər hissi, küskünlük yarada bilər. Belə halda uşağı inandırma üsulu ilə tələqin etmək və əllərindəki mikrobların onun xəstələnməsinə səbəb ola biləcəyini söyləmək lazımdır. Bəzən valideyndər uşağa qorxu tələqin edir, onu işə sövq etmək üçün qorxunc heyvanların, hətta fantastik obrazların adını çəkirlər. Məsələn, ana üç yaşlı qızına deyirdi: «Tez ol, gəlinciyi və dovşanı öz yerinə qoy, yoxsa canavar gəlib onları yeyər». Bəzi valideynlər uşaqları küpəgirən qarı, yorğandodaq və süpürgəsaqqal kimi fantastik obrazlarla qorxudurlar ki, bu da yolverilməzdir.

Uşaq psixoloqları belə hesab edirlər ki, **ipoxoidriya** adlanan bəzi xəstəliklərin çoxu öz erkən başlanğıcını belə tərbiyə metodlarından götürür. Valideynlərin uşaqlara yönəlmiş «Gəl əllərini yu. Təmiz əllə yemək ləzzət verir», «Şadam ki, mənim oğlum təmizdir, yalnız pis uşaqlar süfrə arxasında çirkli əllərlə oturur» tipli müraciətləri uşaqda ətrafdakıların sevimlisi olmaq tələbatı yaradır və daha yaxşı səmərə verir.

Bağça tərbiyəçiləri çox vaxt valideynlərə irad tutaraq onların uşaqlarının ipə-sapa yatmaz, çox nadinc, söz eşitməyən olduğundan gileylənirlər. Doğrudan da, uşaqların həyatının üçüncü ilindən başlayaraq onların çoxunda «yox», «istəmirəm», «etməyəcəyəm» tipli inkari mülahizələri tez-tez eşitmək olur. Psixoloqlar uşağın bu cür davranışını neqativizm adlandırır və qeyd edirlər ki, hər bir uşaq inkişafında bu mərhələdən keçir. Bu, uşaqlarda 3 yaşın böhranı **«mən konsepsiyası»** nın yaranmasını əks etdirir. Uşaqlarda belə xüsusiyyətlərin olmamasını psixoloqlar şəxsiyyətin **«əlverişsiz tərbiyəsi sindromu»** hesab edilir. Neqativizm tərslik və inadkarlığın yüksək səviyyəsidir. O, uşağın yaşlıların bütün tələblərinə qarşı qəti etirazında əks olunur. Məsələn, ananın «Get yat» tələbinə qarşı uşaq «Yatmayacağam», «Televizoru söndür» tələbinə qarşı onun səsini daha da qaldırmaqla əks

cavab reaksiyası göstərir. Yaşlılar ciddiliyi və tələbkarlığı artırdıqca uşaq buna qarşı özünümüdafiə və müqaviməti artırmaqla cavab verir.

Belə mənfi iradi xüsusiyyətlər həyatın ilk illərindən başlayaraq uşağın tərbiyəsində yaşlıların düzgün olmayan mövqeyi ilə, həm də onların uşaqla ünsiyyətinin normal qurulmadığı ilə əlaqədardır. Bu cür qarşıdurmalar uşaqda kəskin mənfi emosional reaksiya doğurur, ağlamaq, çığırmaq, ayaqları yerə döymək, bəzən isə kəskin aqressiv hərəkətlərə gətirib çıxarır.

Məktəbəqədər yaşlı uşaqların mənfi iradi vərdişləri içərisində **inadkarlıq** xüsusilə seçilir. İnadkarlıq düşüncəsiz iradənin təzahürüdür. İnadkar uşaqlar yaşlıların tələblərinə məhəl qoymur, onun ziddinə hərəkət edir, hər şeyi öz bildikləri kimi etməyə çalışırlar. Belə davranışın əsasında uşaqların öz iradəsini ətrafdakı adamların iradəsinə qarşı qoymaq motivi durur.

Rus psixoloqu A.P.Larin belə hesab edir ki, inadkarlıq **uşağın azadlığı və müstəqilliyinin kəskin surətdə məhdudlaşdırılması** nəticəsində yaranır və onun tam nəzarətsizliyə, özünümüdafiəyə meylinin təzahürü olaraq meydana çıxır. Yalnız öz istəyi ilə hərəkət etmək vərdişi uşaqlarda inadkarlığın inkişafına səbəb olur.

Uşağa qarşı tərbiyədə düzgün və optimal metod və vasitələrin seçilməsi, tələblərdə həssaslıq, münasibətlərdə və cəzada ölçü hissinin gözlənilməsi, hörmət və tələbkarlığın məharətlə uzlaşdırılması və s. kimi amillərin nəzərə alınması onlarda şıltaqlıq, tərslik, xudbinlik və neqativizm kimi mənfi iradi xüsusiyyətlərin məharətlə aradan qaldırılmasını təmin edə bilər. Oğlan böyük məktəbəqədər yaşlıdır. Onun davranışında aşağıdakı faktlar müşahidə olunur. Məsələn, o, yemək istəyir, yemək verildikdə isə imtina edir, supu döşəməyə tökür. Başqa uşaqlar yemək yeyərkən o da yemək istəyir. Ana evdən çıxıb hara isə gedəndə o da getmək istəyir. «Hə, geyin gedək» - deyə ana onu səslədikdə isə «Getmirəm» - deyə imtina edir. Ana uşağa əhəmiyyət verməyərək qapıya tərəf yönəldikdə isə o, qışqıraraq «Gedirəm» deyir. Ana geri qayıtdıqda isə yenə imtina edir. Bu hal bir neçə dəfə təkrar olunduqdan sonra uşaq ağlamağa başlayır. (A.F.Tixonovanın müşahidələrindən)

**Suallar və tapşırıqlar.**

1. Şəxsiyyətin psixoloji strukturunda iradənin və fəaliyyətin iradi tənziminin rolunu göstərin.
2. İradənin strukturunda hansı komponentlər əsas yer tutur? Onların məzmununu söyləyin.
3. Məktəbəqədər yaş dövründə iradi fəaliyyətin hansı əlamətləri diqqəti cəlb edir.
4. «Motivlərin qarşılıqlı tabeliliyi və mübarizəsi» uşağın fəaliyyətində hansı təzahürlər doğurur?
5. Uşaqların fəaliyyətində «məqsədə san atma» meyli nə ilə xarakterizə olunur?
6. Məktəbəqədər yaşlı uşaqların iradi fəaliyyətinin stimullaşdırıcı amilləri hansılardır?
7. İradi vərdişlər neçə qrupa ayrılır?
8. Uşaqlarda neqativizmin səbəblərini göstərin.

## IV. 6. Məktəbəqədər yaşda nitqin inkişafı

Məktəbəqədər uşaqlıq illərində nitqin inkişafı ana dilinin mənimsənilməsi prosesi intensiv şəkildə davam edir, daha fəal bir forma alır və uşaqların həyat tərzinin ayrılmaz bir hissəsinə çevrilir. Məşhur Amerikan psixoloqu C.Bruner uşağın nitqə yiyələnməsini onun vasitəsiz informasiya çərçivəsindən çıxması və ətraf aləm haqqında təsəvvürlərin yeni formasının qurulması vasitəsi hesab edirdi. Uşaqların artan müstəqillik imkanları onların hissi və praktik təcrübəsinin zənginləşməsinə, ünsiyyət dairəsinin genişlənməsinə gətirib çıxarır. Məktəbəqədər yaşlı uşaqlar erkən uşaqlıq dövründəki imkanları arxada qoyaraq daha fəal surətdə sosial imkanlara malik olurlar. Məhdud ailə münasibətləri çərçivəsindən kənara çıxmaq əsasında uşaqlar daha çox adamlarla, yaşlılar və yaşıdları ilə fəal ünsiyyətə qoşulurlar. Oyun, təlim

xarakterli müxtəlif məşğələlər uşaqların nitqində ünsiyyətin müxtəlif formalarından istifadəyə geniş imkanlar açır. Nitqin inkişafı məktəbəqədər yaşlı uşaqlarda digər psixi proseslərin, xüsusilə təfəkkürün inkişafına əlverişli zəmin yaradır. Nitq daha artıq dərəcədə uşaq üçün **təfəkkür alətinə,** onun savada yiyələnməsi vasitəsinə çevrilir. Uşaqlarda nitqi anlama qabiliyyəti sürətlə artdığına görə, onlar yaşlılardan hər gün yeni-yeni sözlər öyrənir, onların göstəriş və təlimatlarını yerinə yetirməyə qadir olurlar. Məşğələlər zamanı tərbiyəçinin verdiyi tapşırıqları dəqiq yerinə yetirmək üçün uşaqlar diqqətlə onun nitqini dinləyir və onu anlamağa səfərbər edilirlər. Nitq bu dövrdə uşağın fəaliyyətinin tərkib hissəsinə, müşahidə və rəsmetmənin, say və musiqi məşğələlərinin, savad təliminin və s. ayrılmaz amilinə çevrilir.

Erkən uşaqlıq dövrünün sonunda, üç yaşın tamamında uşaqlar müəyyən səviyyədə lüğət ehtiyatına malik olurlar. Bu dövrdə uşağın lüğət fondundakı sözlərin sayı **1200-1500** həddinə çatmış olur. Əgər iki yaşlı uşaqlar iki-üç sözlü cümlələr vasitəsilə danışırsa, dörd yaşında onlarda kifayət qədər sərbəst daqnışmaq, öz istəklərini, hisslərini, fikirlərini və mövqelərini bildirməyi sözlə ifadə etməyə imkan verən nitq vərdişləri inkişaf etməyə başlayır.Son illər alimlər arasında insanın nitq qabiliyyətinin anadangəlmə olub-olmadığı haqqında diskusiyalar kəskin şəkil almışdır.Bir qrup alimlər nitq qabiliyyətinin genetik baxımdan şərtləndiyi fikrini irəli sürsə də, insanın nitqinin anadangəlmə olmadığı haqqında bir çox inandırıcı dəlillərin olduğu artıq aydındır.Yeni doğulmuş, heç vaxt insan səsi eşitməmiş və cəmiyyətdən təcrid edilmiş uşaqların nitq imkanlarından məhrum olduğu artıq danılmaz həqiqətdir. Belə uşaqları obrazlı olaraq R.Keplinqin eyni adlı romanındakı qəhrəmanın adı ilə **«Mauqli uşaqlar»** adlandırırlar. XX əsrin əvvəllərində Hindistanda canavar sürüsündən tapılmış, sonralar Amalə və Kəmalə adlandırılmış iki qızın acı taleyi buna misal ola bilər. İnsan mühitinə gətirilmiş Amalə adlı kiçik qız bir ildən sonra öldü. Kəmalə adlanan böyük qıza səkkiz il

ərzində çətinliklə cəmi 40 söz öyrətmək mümkün olmuşdu. Bu vaxt onun on yeddi yaşı vardı.

Vaxtilə Afrika meşələrində təxminən 10-12 yaşlı ağ dərili oğlan tutmuşdular. O, meymunlar arasında yaşayırdı, onların bütün hərəkətlərini mənimsəmişdi. Ona təlim vermək təşəbbüsləri baş tutmamışdı: o insan nitqini anlamır, hətta gülməyi də bacarmırdı.

Rus zoopsixoloqu N.N.Lodıgina Kots zooparkdan götürdüyü yeni doğulmuş şimpanze balası üzərində dörd il ardıcıl təcrübə və müşahidələr aparmış, lakin onun təşəbbüsləri uğursuzluqla başa çatmışdı. İonii adlanan şimpanze balası digər insani keyfiyyətlərə yiyələnə bilmədiyi kimi, sözlü ünsiyyəti də mənimsəyə bilməmişdi. Amerikan alimləri ər-arvad Kolleqlərin analoji təşəbbüsləri də uğursuz olmuşdur.

Digər amerikan alimləri B.T.Qardner və R.A. Qardner bir yaşlı şimpanze balasına üç il qulluq etmiş, yalnız mimika və jestlərlə onda ünsiyyət bacarıqları formalaşdırmağa çalışmışlar. Uoşi adlandırılan həmin şimpanze balası yalnız 130 müxtəlif jestlə «danışır», daha çox jesti isə anlaya bilirdi.

ABŞ alimi F.Q.Patterson bir yaşlı qorilla balası üzərində altı il təcrübə apariışdı. Koko adlandırılan həmin meymun balası yeddi yaşında insanlarla ünsiyyət üçün 375 müxtəlif işarədən istifadə edə bilsə də, verbal nitqə sahib ola bilməmişdi. Bu tədqiqatların nəticəsi sübut edir ki, ali heyvanlar olan meymunlar ünsiyyət vərdişlərini mənimsəməyə qadir olsa da, verbal ünsiyyət qabiliyyətinə malik deyillər, onlar insan nitqinin kommunikativ funksiyasını xüsusi təlimlər vasitəsilə belə, öyrənə bilmirlər. Nitq ünsiyyəti işarə ünsiyyətinin xüsusi formasıdır. Bu zaman insan sözlü işarələr sistemi olan dildən ünsiyyət vasitəsi kimi istifadə edir. Deməli, dil ünsiyyət vasitəsi və aləti kimi nitq prosesində iştirak edir, nitq fəaliyyəti isə, ünsiyyət prosesinin özü kimi nəzərdən keçirilir. Hər bir xalqın dili onun canlı danışıq alətidir. Hər bir dil yalnız o halda yaşayır ki, həmin dildə danışan olsun. Əks halda həmin dil latın dili kimi «ölü dilə» çevrilir.

Məktəbəqədər yaş dövrü uşağın sosiallaşmasının ən intensiv dövrüdür. Həyatın beşinci ilində uşağın lüğət fondu sürətlə artaraq dilin qrammatik quruluşunun formalaşmasını təmin etmiş olur. Hal-hazırda altı yaşlı uşaqların lüğət fondunun həcmi haqqında ənənəvi təsəvvürlər xeyli dəyişmişdir. Son illərin tədqiqatları sübut etmişdir ki, bu yaş dövründə uşaqların **ümumi lüğət fondundakı** sözlərin sayı heç də 3000-3500 deyil, 14000-ə[1] yaxındır. Uşaqların lüğət fondunun artımında həyat tərzinin, ünsiyyət mühitinin və tərbiyə şəraitinin xüsusi rolu vardır. Psixoloqların fikrincə, ötən əsrin 20-ci illərində 6 yaşlı uşaqların aktiv lüğət fondundakı sözlərin sayı 400-600-ə bərabər idisə, hal-hazırda təxminən 3 dəfə artaraq 1200-ə çatmışdı[2]. məktəbəqədər yaşlının lüğəti yalnız ad bildirən sözlərin- isimlərin hesabına deyil həm də fellərin, əvəzliklərin, sifətlərin say və birləşdirici sözlərin hesabına zənginləşir. Rus psixoloqu L.A.Kalmıkovanın fikrincə, altı yaşlı uşaqların lüğətində nitq hissələri eyni cür təmsil olunmamışdır. Psixoloq belə hesab edir ki, bu yaşda uşaqların lüğətindəki sözlərin 38%-i isimdən, 32%-i feldən, 10%-i əvəzlikdən, 7%-i zərfdən, yalnız 2%-i sifətdən ibarət olur[3]. Lüğət artımı qrammatika qanunları əsasında uşaqların cümlə qurmaq bacarıqlarının formalaşması ilə paralel surətdə inkişaf edir. Bu illər ərzində uşaqlar anna dilinin morfoloji sistemini mənimsəyir, bağlayıcılardan istifadə etməklə mürəkkəb cümlələr qurmaq bacarıqlarına yiyələnirlər. Məşhur rus psixoloqu A.N.Leontyevin fikrincə, böyük məktəbəqədər və məktəb yaşı dövründə uşağın nitqi nisbətən mürəkkəb qrammatik konstruksiyaların meydana gəlməsi, cümlələrin mürəkkəbləşməsi və genişlənməsi, sinonimlərin seçilməsinə geniş yer verilməsi, **üslub «hissinin»** inkişafı və s. ilə xarakterizə olunur[4].

[1] Немов Р.С. Психология. Книга 2 М., «Владос» 1999 стр.115
[2] Немов Р.С. Психология. Книга 2 М., «Владос» 1999 стр.115
[3] Я.Л.Коломинский, Е.А.Панько. Учителю о психологии детей шестилетного возраста. М., «Просвещение», 1988, стр.153
[4] Ümumi psixologiya. (A.V.Petrovskii redaktorluğu ilə) B., «Maarif», 1982, s.236

Məlumdur ki, məktəbəqədər yaş dövründə oyun aparıcı fəaliyyət formasıdır. Uşağın rollu-süjetli oyunlar zamanı üzərinə götürdüyü rolun icrası nitqin forma və funksiyalarının vacib amili kimi özünü göstərir. İntonasiya və vurğu nitqdə semantik funksiya daşımağa başlayır. Ünsiyyət dairəsinin genişlənməsi, müxtəlif fəaliyyət növləri uşağın verğal ünsiyyət imkanlarını genişləndirir, onun sərbəst nitqinin formalaşmasına zəmin yaradır. Məktəbə daxil olmaq ərəfəsində altı yaşlı uşaqlar praktik olaraq ana dilinin bütün cəhətlərinə- **lüğət fonduna, səs tərkibinə və qrammatik quruluşa** yiyələnmiş olurlar.

Rus psixoloqu S.N.Karpovanın tədqiqatları göstərmişdir ki, artıq üç yaşında uşaqlar ismin bütün hallırını cümlədə düzgün işlətməyi bacarır, öz nitqlərinə və başqalarının nitqinin düzgünlüyünə nəzarət etmək bacarıqlarına malik olurlar.

Böyük məktəbəqədər yaş dövründə uşaqların nitqi daha rabitəli olmaqla dioloji xarakter daşımağa başlayır. Uşaqların sözlü mülahizələri və nitqdən istifadə konkret şəraitdən asılı olur. Təfəkkür fəaliyyətində monoloq və dioloq nitqin əsas formaları kimi özünü göstərir. Bu mərhələdə uşaqlarda nitqin bütün formalarının inkişafı, o cümlədən **daxili nitq** müşahidə olunur. Beləliklə, məktəbə daxil olmaq ərəfəsində nitq inkişafı sahəsində uşaqların malik olduqları imkanlar onların məktəb təliminə intellektual hazırlıq səviyyəsinin göstəricilərindən birinə çevrilir.

Uşağın həyatının ilk iki ili nitqin mənimsənilməsinə hazırlıq dövrü kimi nəzərdən keçirilə bilər. Çünki iki yaşadək uşaqlar fəal verbal ünsiyyətə malik olmurlar, onlar bu dövrdə əsasən ünsiyyətin **qeyri-verbal** vasitəlirndən istifadə edirlər. Buraya **emosional ifadələr, mimika, jestlər, poza,** vokalizasiya aiddir. Həyatın üçüncü ilindən başlayaraq uşaq insan nitqini fəal surətdə mənimsəyir və ünsiyyət zamanı əsasən verbal ünsiyyət vasitəsi olan nitqdən istifadə edir. Psixoloqların fikrincə, uşağın qeyri-verbal nitq fəaliyyəti arasında təəccüblü görünən bir mərhələ də vardır ki, uşaq bu dövrdə yaşlıların

dili ilə deyil, nə isə «öz dilində» danışır. Bu mərhələ uşaq psixologiyasında **avtonom uşaq nitqi mərhələsi** adlanır[1]. Uşaqlara məxsus olan bu nitq növünü ilk dəfə Çarlz Darvin müəyyən etmiş və onun böyük əhəmiyyətini qeyd etmişdir. Bu dövrdə uşaqlar maşina **«məhmi», «dığın-dığın»,** kəpənəyə **«üjjə»,** yeməyə **«apşı»,** çaya **«fu»,** konfetə **«qaqa»,** gəzməyə getməyə **«oppa»** və s. deyirlər[2]

Məhşur psixoloq J.Piaje ötən əsrin 30-cu illərində uşaq psixologiyasının inkişafı haqqında fikirlərdə əsaslı dönüş yaratdı. Uşaqlarda **intellektual aktların strukturunu** qeydə almaq üçün xüsusi məntiqi- riyazi sistem yaradan psixoloq uşaqlarda **eqosentrik nitqdən** sosiallaşmış nitqə keçidin strukturunu qeydə aldı və bu prosesin mühakimələrdə üzə çıxan məntiqi strukturunu müəyyən etdi. O, belə qənaətə gəldi ki, 12 yaşında uşaqlar da müəyyən məntiqi-struktur - sxemlər yaranır. Bundan sonra, 11-15 yaşlarda uşaqların təfəkkürü yeni bir mərhələyə- **formal əməliyyatlar mərhələsinə** daxil olur. J.Piaje bu sahədəki tədqiqatlarını 1946-cı ildə çap etdirdiyi «İntellektin psixologiyası» adlı əsərində ümumiləşdirmişdir. Uşağın nitqinin zənginləşməsində, onun lüğət fondunun genişlənməsində **idrak maraqlarının, hər şeyi bilmək istəmə meylinin** xüsusi rolu vardır. Bu məqsədlə uşaqlar hər gün yaşlılara çoxsaylı suallarla müraciət edir, sanki hər şeyi bilmək istəyirlər. Rus psixoloqu V.A.Krutetski qeyd edir ki, beş yaşlı uşaq gün ərzində yaşlılara 427 sual verir və bunların 3/4-ü «niyə?» sözü ilə başlayır. Psixoloqlar uşağın bu dövrünü obrazlı olaraq «niyəciklər» dövrü də adlandırırlar.

Uşaqlar öz sualları vasitəsilə gecənin hara yox olmasını, Günəşin gecə hara getdiyini, ulduzların nədən düzəldiyini, itin nə üçün hürdüyünü və s. bilmək istəyirlər. Uşaqların yaşlılarla bu cür əməkdaşlığı **idraki ünsiyyət** adlanır. Məktəbəqədər yaşda ünsiyyətin başqa bir forması – **şəxsi ünsiyyət**

[1] Bax.Смирнова Е.О. Детская психология М., «Владос» 2003, стр.175
[2] Bax: H.3.Çalabiyev Psixodioqnostika məsələləri, Б., ADPU, 2003 səh.52

adlanan formasıda meydana çıxır. Bu ünsiyyət forması vasitəsilə uşaqlar başqa adamların hərəkətlərini, onların rəftar və davranışını əxlaqi tələblər baxımından təhlil edib qiymətləndirirlər.

Yaşlılar və yaşıdları ilə ünsiyyətə olan tələbat uşağın şəxsiyyətini formalaşdıran amillərdən biridir. Uşağın müstəqil fəaliyyət qabiliyyətinə sahib olmasında, onun ətraf aləmlə tanışlığında yaşlılarla ünsiyyətin böyük rolu vardır. Məlum olduğu kimi, bu yaş dövründə aparıcı fəaliyyət forması nitqdir.

Altı yaşlı Qloriya bağçadan evə həyəcanlı qayıtmışdı. O, anasına deyirdi ki, oğlanlar onun rəfiqəsi Dorini səkidən itələyərkən qız palçığa yıxılıb, üst-başı batmışdı. Ana çox gözləmədən soruşdu:

«Yəqin ki, sən çox qorxdun»- hə?

«Yəqin həm də acıqlandın»- hə?

Ananın bu suallarına qız «bəli»- deyə cavab verdi. Əgər onlar səni səkidən palçıca yıxsaydılar nə edərdin- deyə ana soruşduqda Qloriya «eləsinlər, mən çəkib onların özlərini yıxaram» dedi. Bu mənzərəni təsəvvüründə canlandıran Qloriya bərkdən gülməyə başladı[1]. Ana ilə qız arasındakı şəxsi ünsiyyət uğurla başa çatdı.(V.S.Muxinanın müşahidələrindən)

Məktəbəqədər yaşda uşaqlarda canlı ünsiyyət vasitəsilə təşəkkül tapan keyfiyyətlərdən biri də **fonematik eşitmədir.** Artıq üçüncü yaşın sonunda uşaqlar sözləri fərqləndirməyə, **dilin səs tərkibini** anlamağa nail olur, lakin sözləri təhlil etməyi hələ bacarmırlar. Beş-altı yaşlarda bağçada savad təlimi üzrə məşğələlərdə uşaqlar dilin səs tərkibini təhlil etməyə alışdırılır ki, bu da onların məktəbdə savad təliminə- oxu və yazı vərdişlərinə yiyələnməsi üçün başlıca şərtlərdən biridir. Uşaqlar nitqin səs tərkibini mənimsəməkdə xeyli çətinlik çəkirlər. Cümlədə birinci, ikinci və s. sözün hansı olduğunu söyləyə bilmir, yalnız savad təliminə yiyələndikdən sonra nitqin söz tərkibini dərk edirlər.

Məktəbəqədər yaşda nitqə yiyələnmə prosesinin ayrılmaz şərtlərindən biri də, onun funksiyalarının mənimsənilməsidir. Bu dövrdə nitqin inkişaf

[1] Джайнотт Дж. Х.Родители и дети. (перевод с английского) М., «Знание», 1986, стр. 14-15

etməkdə olan funksiyalarından biri **kommunikativ və ya ünsiyyət funksiyadır.**

Məlumdur ki, erkən uşaqlıq illərində əldə edilmiş lüğət ehtiyatı və nitq vərdişləri uşağa məhdud səviyyədə də olsa tanış və yaxın adamlarla müəyyən səviyyədə ünsiyyət yaratmaq imkanı verir. Belə halda uşağın nitqi konkret bir situasiya və mövzu ilə bağlı olduğundan, situativ xarakter daşıyır. Psixoloqlar uşağın belə nitqini **situativ nitq** adlandırırlar. Bu nitq vasitəsilə uşaq yeni əşya və hadisələr barədə suallar verir, onlarla tanış olur, yaşlılar qarşısında müəyyən tələblər qoyur. Situativ nitq uşağın ən yaxın sosial əhatəsindəki adamlara tanış olsa da, kənar, yad adamlar onu anlamaqda çətinlik çəkirlər. A.M.Leuşina belə hesab edir ki, uşağın situativ nitqi ekspressiv, parçalanmış formalıdır və aqrammatikdir[1]. Uşağın ünsiyyət dairəsi genişləndikcə, onun ətraf aləm haqqında maraqları artdıqca, nitqin yeni forması- **kontekst nitq** meydana gəlir. Nitqin bu forması uşaq tərəfindən konkret situasiyanın qavranılmasına əsaslanır və bu situasiyanı nitqdə kifayət qədər aydın əks etdirmiş olur. Kontekst nitq zamanı uşaq öz danışığını müəyyən qədər tənzimləməyə çalışır və o, situativ nitqə nəzərən daha müfəssəldir. Bununla belə, situativ nitq uşağın ünsiyyət sahəsində hələ də özünün üstün mövqeyini saxlayır. Uşağın kontekst nitqi mənimsəməsində sistematik təlimin böyük rolu vardır. Uşaq bağçasında keçirilən təlim xarakterli məşğələlər və məktəbdə təlim prosesi kontekst nitqin inkişafının əsas vasitəsi rolunu oynayır.

Məktəbəqədər yaşda uşaqlarda **nitqin planlaşdırma funksiyası** da inkişaf etməyə başlayır. Uşağın nitqi bu dövrdə onun praktik fəaliyyətinin və davranışının planlaşdırıcı və tənzimedici vasitəsi kimi özünü göstərir. Bu halda nitq daha artıq dərəcədə təfəkkürlə bağlanır, onun alətinə çevrilmiş olur. Hər hansı bir işi yerinə yetirən uşaq əmək alətindən istifadə edərkən və ya yaradıcı fəaliyyətin hər hansı formasını yerinə yetirərkən (quraşdırma,

[1] Люблинская А.А. Детская психология М. «Прсвещение» 1971, стр.292.

applikasiya, yanma və s.) icra etdiyi işi öz – özünə danışmaqla icra edir. Uşağın fəaliyyət zamanı meydana çıxan və özünə yönəlmiş bu cür nitqi **eqoseptrik nitq** adlanır. Məktəbəqədər yaşlı uşaqların belə obrazlı nitqi ünsiyyətə xidmət etmir və çox çəkmədən, böyük məktəbəqədər yaşın sonunda yox olub gedir. Psixologiya tarixində «eqoseptrik nitq» fenomeni məşhur psixoloq J.Piaje tərəfindən kəşf edilmişdir.

Məktəbəqədər yaşda uşaqların nitqinin işarə funksiyası da meydana gəlir. Müxtəlif fəaliyyət növlərində uşaqlar əşyaları onların əvəzediciləri ilə fəaliyyətə cəlb edir, simvolik sxemlər qurur, bununla da, real əşyanın işarə funksiyasını «kəşf» etmiş olurlar.

**Suallar və tapşırıqlar**

1. Uşaqlarda nitqi anlama qabiliyyəti nə vaxt meydana çıxır?
2. Üç yaşlı uşaqların lüğət fondunda nə qədər söz olur?
3. Uşağın ünsiyyətə yiyələnməsində hansı amillər təsirli rol oynayır?
4. Nitqin hansı funksiyaları vardır?
5. Ünsiyyətin qeyri -verbal vasitələri hansılardır?
6. Avtonom uşaq nitqinin mahiyyətini açıqlayın.
7. Məktəbəqədər yaşda ünsiyyətin hansı formaları müşahidə olunur?
8. Situativ və konteks nitq anlayışlarının mahiyyətini izah edin.
9. «Eqosentik nitq» anlayışının mahiyyətini izah edin.

## IV.7. Məktəbəqədər yaşda sensor inkişafın xüsusiyyətləri

Uşağın sensor inkişafı onun hissi dərketməsinin, duyğu və qavrayışının inkişafı perseptiv əməliyyatları mənimsənilməsi, əşyaların xarici əlamətləri-forması, rəngi, ölçüləri, fəzada vəziyyəti, həmçinin iyi, dadı və s. haqqında təsəvvürlərin formalaşması prosesidir. İlk uşaqlıq və məktəbəqədər yaş dövründə sensor inkişafın əhəmiyyəti olduqca böyükdür. Bu yaş dövründə

uşağın ətraf xarici aləm haqqında ilkin təsəvvürlərin mənbəyini təşkil edən duyğu orqanlarının təkmilləşməsi prosesi daha da dərinləşir.

Məktəbəqədər tərbiyə sahəsində tanınmış xarici ölkə alimlərindən F.Frebel, M.Montossori, O.Dekroli, E.İ.Tixeyeva, A.V.Zaporojets, A.P.Usova, İ.P.Sakulina və b. haqlı olaraq belə hesab edirdilər ki, uşağın hərtərəfli inkişafına yönəlmiş sensor tərbiyə məktəbəqədər yaşlı uşaqların tərbiyəsində əsas amillərdən biridir. O, uşağın ümumi əqli inkişafının fundamenti olmaqla yanaşı bağçada və məktəbdə onun uğurlu təliminin zəruri şərtidir. Ətraf xarici aləmin cism və hadisələrinin dərk olunması prosesi qavrayışdan başlanır. Dərketmənin digər bütün formaları – hafizə təfəkkür və təxəyyül qavrayış surətləri əsasında yaranır, onların yenidən işlənməsinin nəticəsidir. Ona görə də, normal əqli inkişaf mükəmməl qavrayışa istinad etmədən mümkün deyildir.

Uşaq bağcalarında uşaqlar rəsm, yapma, quraşdırma üzrə məşğələlər vasitəsilə təlim alır, təbiət hadisələri ilə tanış olur, riyaziyyat və oxu təliminin elementlərini mənimsəyir. Uşağın məktəb təliminə hazırlığı əhəmiyyətli dərəcədə onun sensor inkişafından asılıdır. Psixoloji tədqiqatlar vasitəsilə müəyyən edilmişdir ki, birinci sinif şagirdlərinin təlimdə qarşılaşdıqları çətinliklərin böyük bir qismi qavrayışın dəqiq və dərinliyinin olmaması ilə bağlıdır. Səthi və dəqiq olmayan qavrayış nəticəsində uşaqlar əlifba təlimində, riyaziyyat dərslərində səhvlərə yol verir, rəqəmləri və hərfləri təhrif olunmuş formada yazır, şəkil çəkərkən, əmək təlimi dərslərində çoxlu qüsurlara yol vermiş olurlar. Sensor inkişafın zəif və aşağı səviyyədə olması nəticəsində şagirdlərin müvəffəq təlim göstəriciləri aşağı olur.

Məlum həqiqətdir ki, musiqiçi, rəssam, memar, konstrektor, yazıçı və s. kimi yaradıcı insanların peşə qabiliyyətləri ilə bir sırada sensor qabiliyyətlərin də xüsusi yeri vardır. Rəng və səs çalarlarını düzgün fərqləndirmək, forma qavrayışı, əşya və hadisələrin xarici əlamətlərinin aydın və dəqiq

fərqləndirilməsi sensor imkanlara əsaslanır. Sensor qabiliyyətlərin belə ilkin mənbələri isə uşaqlıq dövrünün ilkin mərhələlərində formalaşır.

Uşaq psixologiyası və məktəbəqədər pedaqogikada işlədilən «sensor mədəniyyət» anlayışını ilk dəfə M.Montessori, «Sensor etalonlar» anlayışını isə rus psixoloqu A.V.Zaporojets elmə gətirmişlər. M.Montessori sensor mədəniyyət dedikdə, uşağın hiss orqanlarının sistematik məşq etdirilməsini, A.V.Zaporojest isə sensor etalonlar dedikdə, uşaqlarda əşyaların xarici əlamətlərinin hamı tərəfindən qəbul edilmiş obrazları haqqında təsəvvürlərin formalaşdırılmasını nəzərdə tuturdu. Rənglərin sensor etalonlarına yeddi əsas rəng spekti və onların çalarları, forma etalonları dedikdə həndəsi fiqurlar, kəmiyyət etalonları dedikdə isə metrik ölçü sistemi nəzərdə tutulur.

Sensor etalonların mənimsənilməsi uzunmüddətli və mürəkkəb prosesdir, onun hüdudları məktəbəqədər uşaqlığın sərhədlərindən kənara çıxır, kiçik məktəb yaşı dövründə də bu proses davam edir. Məktəbəqədər tərbiyə sahəsində tanınmış rus alimi A.P.Usova qeyd edir ki, məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların qazandığı əqli məlumatların onda doqquz hissəsi hissi qavranılan təəsüratlar əsasında əldə edilir[1].

Məktəbəqər yaşın hər bir dövründə sensor tərbiyə qarşısında konkret vəzifələr durur. Həyatın birinci ilində sensor tərbiyə uşağa çoxcəhətli və zəngin təəsüratlar verməli, onların diqqətini əşyalara, onların xassələrinə yönəltməlidir. Körpədə tutma hərəkətləri meydana çıxdığı andan etibarən yaşlılar ona kömək göstərməli, müvafiq əşya və oyuncaqlara doğru onu istiqamətləndirməlidir. Belə uyğunlaşdırıcı və yardımçı hərəkətlər uşaqda kiçik və böyük əşyalar, həmçinin müxtəlif həndəsi formalı əşyalar haqqında ilk təsəvvürlər yaradır. Körpə hansı əşyaları bir əllə, hansıları iki əllə götürməyin mümkünlüyü qənaətinə gəlir.

Həyatın ikinci və üçüncü ilində sensor tərbiyənin vəzifələri xeyli dərəcədə mürəkkəbləşir. Üç yaşlı uşaqlar elementar məhsuldar fəaliyyəti

[1] Дошкольная педагогика. (Под.ред. В.И.Логиновой и П.Г.Саморуковой. В двух частях. Часть I,М., «Просвешение», 1988, стр 108

yerinə yetirməyi – mozaikaları yarışdırmağı, inşaat materiallarından sadə əşyaları düzəltməyi bacarırlar. Lakin onlar iş prosesində əşyaların daimi əlamətləri olan rəng, forma və ölçüləri dəqiq qavraya bilmir, onları müvafiq qaydada seçməkdə çətinlik çəkirlər. Bu dövrdə uşaqlarda sensor tərbiyənin hazırlıq mərhələsi başa çatmış olur, onların sensor mədəniyyətinin formalaşdırılması istiqamətində iş aparılır.

Rəng qavrayışı sahəsində sensor etalonlara xromatik rəng spektri (qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi) və axromatik rənglər – ağ,boz və qara rənglər aid edilir. Xromatik rənglər rəng spektrində qırmızıdan bənövşəyiyədək işıq şüalarının uzunluğundan asılı olaraq ciddi ardıcıllıqla düzülmüşdür. Uşaqların rəng spektri ilə tanış edilməsi ilk uşaqlıq dövründən, rəng çalarları ilə tanış edilməsi isə məktəbəqədər dövrdən başlanır. Müşahidələr göstərir ki, məktəbəqədər yaşlı uşaqların bəziləri yeddi əsas rəngin adlarını dəqiq bilmir, çox vaxt isə yaşıl rəngi göy rəng adlandırırlar. Bu, onlarda rəng üzrə sensor etalonların formalaşmadığını göstərir.

Uşaqlarda forma etalonlarının formalaşdırılmasında həndəsi fiqurların xüsusi əhəmiyyəti vardır. Uşaqlar bu fiqurlarla ilk dəfə elementar həndəsi təsəvvürlərin formalaşdırılması gedişində tanış olurlar. Kvadrat, düzbucaqlı, dairə, oval, üçbucaq kimi sadə həndəsi fiqurlarla tanışlıq zamanı uşaqlar həmin fiqurların adlarını öyrənir, ayrı-ayrı hissələrdən həmin fiqurları düzəltmək qaydalarını mənimsəyirlər. Kəmiyyət etalonları, xüsusilə, şərti ölçü vahidləri ilə tanışlıq uşaqlara onların insanlar tərəfindən tətbiqi sahələri haqqında təsəvvürlər formalaşdırır. Burada «böyük», «kiçik», «çox», «az», «ən böyük», «ən kiçik» kimi ümumiləşmiş miqdar münasibətləri uşaqların tədricən sadə müqayisə priyomlarını qavramalarına imkan yaradır. Məktəbəqədər yaşda sensor tərbiyə təfəkkürünün inkişafı ilə sıx əlaqədə həyata keçirilir. Uşaqlar müxtəlif fiqurları müqayisə edərkən, onları tərkib hissələrə ayırarkən (analiz), hissələrdən tamı yaradarkən (sintez), əşyaları müxtəlif əlamətlərə görə qruplara ayırarkən təfəkkür əməliyyatlarına istinad

edirlər.Bu yaş dövründə təfəkkürün inkişaf yolu analitik qavrayışdan keçir. Onlar fiqurların en, uzunluq və hündürlük kimi kəmiyyət xarakteristikalarının mövcud olduğunu dərk edirlər.

Sensor inkişaf istənilən praktik fəaliyyətin uğurla mənimsənilməsinin zəruri şərtidir.Görkəmli rus psixoloqu B.Q.Ananyev yazırdı ki, «Elm və texnikanın ən uzağa gedən nailiyyətləri yalnız düşünən deyil, həm də duyan insanın sayəsində əldə edilmişdir»[1].

Sensor tərbiyənin məzmununa uşaqların məkan və zaman təsəvvürlərinin formalaşdırılması, «yuxarı», «aşağı», «sağ», «sol» və s. məkan, «saniyə», «dəqiqə», «saat», «ay» və s. kimi zaman təsəvvürlərinin formalaşdırılması da daxildir.

Məktəbəqədər yaşda sensor inkişaf sensor tərbiyəyə əsaslanmaqla və onun vasitəsilə həyata keçirilir. Sensor tərbiyə Məktəbəqədər tərbiyə Proqramının məzmununda xüsusi yer tutur. Onun qarşısında duran vəzifələri üç əsas qrupa ayırmaq olar:

1. Uşaqlarda perseptiv əməliyyatlar sisteminin formalaşdırılması;
2. Sensor etalonlar sistemi- əşyaların xassələri, keyfiyyəti və münasibətləri haqqında təsəvvürlərin yaradılması;
3. Perseptiv əməliyyatlar və etalonlar sistemindən praktik və dərketmə fəaliyyətində müstəqil olaraq istifadə etmək bacarıqları formalaşdırmaq.

Məktəbəqədər yaş dövründə sensor tərbiyə uşaqların əqli tərbiyəsinin, onların idrak proseslərinin- duyğu, qavrayış, hafizə, təfəkkür, təxəyyül kimi proseslərinin ilk növbədə isə ətraf aləm haqqında təsəvvürlərinin formalaşmasında və inkişafında mərkəzi yerdə durur.

**Suallar və tapşırıqlar**

1. «Sensor inkişaf» dedikdə nə başa düşülür?
2. «Sensor mədəniyyət» və «Sensor etalon» anlayışlarını elmə ilk dəfə

[1] Ананьев Б.Г. Психология чуственного познания М., 1960, стр.50-51

kim gətirmişdir?

3. Bağça yaşı dövründə sensor inkişafın əsas xüsusiyyətləri hansılardır?
4. Uşaqlarda forma, rəng, kəmiyyət etalonlarının, miqdar və zaman münasibətlərinin formalaşmasında sensor tərbiyənin rolunu əsaslandırın.
5. Məktəbəqədər Tərbiyə proqramında sensor tərbiyə qarşısında hansı vəzifələr qoyulub?

## IV.8. Məktəbəqədər yaşda təfəkkürün inkişafı

Məktəbəqədər yaş dövründə uşağın ətraf xarici aləmi dərketmə imkanlarında əhəmiyyətli dəyişikliklər baş verir. Onun ilk uşaqlıq dövründə qazandığı sosial təcrübə yeni məzmun daşımağa başlayır: əyani-əməli təfəkkürdən tədricən **əyani- obrazlı təfəkkürə** keçid baş verir. Əgər ilk uşaqlıq dövründə o, əşyaların xassələrinə bələd olmaq üçün əşya və oyuncaqları sındırmaq üsulundan istifadə edirsə, məktəbəqədər yaşda o, öz idrak tələbatını yaşlılara ünvanladığı suallara aldığı cavablarla təmin edir. Bu dövrdə uşaqlarda dünyanı, həyat hadisələrini, onlar arasındakı daxili əlaqə və asılılıqları dərketmə tələbatı güclənir. Məktəbəqədər yaşın başlanğıcında uşağın formalaşmaqda olan **təxəyyülü və nitqi** onun təfəkkürünün inkişafında əhəmiyyətli rol oynayır. Rollu-süjetli oyunlar, xüsusilə qaydalı oyunlar məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün inkişafını stimullaşdırır. Onlar oyun prosesində real əşyaları onların əvəzediciləri ilə, əyani obrazlarla əvəz etməyi öyrənir, praktik əməliyyatları mənimsəyirlər. Uşaqların dərketmə fəaliyyətinin əsasını təşkil edən təfəkkür ixtiyari və qeyri-ixtiyari hafizə, inkişaf etmiş təxəyyül və nitqin bazasında formalaşır. Uşaq təfəkkürünün konkretliyi və obrazlığı bir sıra xarici ölkə psixoloqları (K.Büler, V.Ştern, C.Selli) tərəfindən vaxtilə əsaslandırılmışdır. Onlar uşaq təfəkkürünün obrazlığını

təfəkkürün ali formalarının başlanğıc mərhələsi kimi, nəzərdən keçirmişlər. ABŞ psixoloqu E. Klapared uşaq təfəkkürünün obrazlılığının daha xarakterik formasını **sinekretizm** adlandırmışdır. Onun fikrincə, sinekretizm həm də uşağın qavrayışında özünü göstərən əlamətdir. İsveçrə psixoloqu J.Piajenin fikrincə, sinkretizm məktəbəqədər yaşlı uşağa məxsus olan təfəkkür keyfiyyətidir. O,təfəkkürün **təhliləqədərki mərhələsini** səciyyələndirir. Uşaq sxemlərlə, bitişik, obrazlarla bağlı situasiyalarla, təhlil etmədən, parlaq, cəlbedici hissələrin ixtiyari şəkildə birləşdirilməsi yolu ilə düşünür. 5 yaşlı uşaqlar nağıl və hekayələri dinləyərkən ədəbi ifadələri, metafaraları çətin başa düşürlər. Məsələn, dinlənilən hekayədə «Şaxta qılınc kimi kəsirdi» ifadəsini eşidən uşaqlar **«Şaxtanın qılıncı itidir?»** və ya «Ustanın əlləri qızıldan idi» ifadəsini olduğu kimi, konkret mənada anlayırlar.

Nina (4 yaş 2 ay.) eynək taxmış qızı görüb soruşur:

- Nə üçün bu qız nənədir? (A.A.Lyublinskayadan)

Uşağın necə düşündüyü onun dərketmə fəaliyyətinin hansı əsaslar üzərində qurulduğu hələ XX əsrin əvvəllərindən başlayaraq psixoloqları ciddi düşündürürdü. Ötən əsrin 20-ci illərində «Uşaq necə düşünür?» sualına cavab axtaran məşhur psixoloq J.Piaje belə bir təcrübə aparmışdır.

O, müxtəlif məktəbəqədər yaşlı uşaqlara təbiət, kosmos,psixikanın hadisələrini, sadə maşın və cihazların quruluşu və işləmə prinsiplərini izah etmək tapşırığı vermişdir.Təcrübə zamanı o,qəribə vəziyyətlə qarşılaşmışdır: uşaqlar bu suallara cavab verərkən təbiətin, cansız əşyaların düşünmə, hissetmə , arzu etmə kimi qabiliyyətlərə malik olduğunu ön plana çəkirlər. « Günəş ona görə işıq saçır ki, insanlar üçün isti və işıqlı olsun», «Külək ona görə əsir ki, yelkənli gəmini irəli aparsın», «Gecə ona görə olur ki, insanlar yatsınlar». Uşaqlar belə hesab edir ki, guya təbiət insanların tələbat və ehtiyaclarını bilir, onların yaxşı və xoşbəxt yaşaması üçün qayğıkeşlik göstərir. Uşağın təfəkkürünün bu cür xüsusiyyətini J.Piaje **animizm** (latınca animus- ruh) adlandırmışdır. Rus psixoloqu A.V. Zaporojets qeyd etmişdir ki, subyekti gerçəkliyi dərk etməyə yönəldən fəal proseslər mürəkkəb üzvi və fizioloji funksiyalarla bağlıdır. Bu baxımdan təfəkkür də uşağın həyatı, təlimi və

tərbiyəsi prosesində meydana gələn mürəkkəb faliyyətdir. Təfəkkürün təzahürü uşaqda gerçəkliyə düşüncəli münasibət yaradır[1].

Təfəkkürün inkişafını yaşın funksiyası hesab edən bəzi Qərb psixoloqları belə hesab edirlər ki, məktəbəqədər yaşlı uşaqların təfəkkürü öz təbiətinə görə **analoji, fantastik** xarakter daşıyır. Kiçik yaşlı uşaqların məntiqi təfəkkürə malik olmadığı haqqında mülahizəni irəli sürən A.Vallon, J.Piaje və E. Mişo kimi psixoloqlar məktəbəqədər yaşlı uşaqların onlara verilən suallara verdikləri cəfəng cavablara istinad edirdilər. Məsələn, beş-altı yaşlı uşağa belə suallar verilir: «Nə üçün Ay göydən düşmür?» Uşağın cavabı: «Ona görə ki, o mıxla bərkidilib» «Nə üçün böyük gəmi batmır?» Uşağın cavabı: «Ona görə ki, o güclüdür».

Məktəbəqədər uşaqlıq illərində uşaqlarda təfəkkürün ilkin bazası təşəkkül tapır. Təfəkkürün inkişafı gedişində uşaqların ali psixi funksiyalarından biri olan əqli fəaliyyətində onların praktik fəaliyyətinə əsaslanan **ilkin ümumiləşdirmələr** nəzərə çarpır. Bu dövrdə uşaqların təhlil bacarıqları elementar səciyyəli olur, anlayışların və ümumiləşdirmələrin məzmununda əşyaların yalnız xarici, ikinci dərəcəli əlamətləri başlıca yer tutur. Məsələn, «Kəpənək quşdur, ona görə ki, uça bilir». «Toyuq quş deyil, uça bilmir». Uşaqlar yarpağı olmadığı üçün göbələyi bitki, kiçik olduqları üçün həşaratları canlı hesab etmirlər. Fəaliyyətin müxtəlif növləri – yapma, rəsm, quraşdırma, applikasiya və təlim tipli digər məşğələlər uşaqlarda təfəkkürün inkişafına stimul yaradır. Belə məşğələlərdə uşaqlar problem- situasiya məzmunu kəsb edən mürəkkəb məsələlərlə qarşılaşır, hadisələr arasındakı səbəb-nəticə əlaqələrini dərk etməyə yönəlirlər. Məsələn, gilin nəmliyi ilə onun yapışqanlığı arasında daxili əlaqə və asılılığın olduğunu dərk etməklə uşaqlar yapma üzrə məşğələlərdə müxtəlif fiqurların düzəldilməsi üçün praktik fəaliyyətə qoşulur, mühərrik oyunlar zamanı topun zərbə gücü ilə onun sürəti arasındakı əlaqəni dərk edirlər. İdrak maraqları, hər şeyi bilmək tələbatı

[1] А.В. Запорожец Изб. психол. труды. (в двух томах) том. 1. Психическое развитие ребенка. М., «Педагогика», 1986, стр. 193

uşaqlarda təfəkkürün inkişafının motivləşdirici amili rolunda çıxış edir. Bu dövrdə uşaqların təfəkkürü əsasən əyani- obrazlı xarakter daşıdığı üçün onların fikri fəaliyyəti bilavasitə praktik əməliyyatlarla, gözləri qarşısında olan cism və hadisələrlə bağlı olur. Qavrayış materialları üzərində əqli fəaliyyəti yerinə yetirən uşaqlarda nitqin inkişafı üçün əlverişli imkanlar yaranır, söz ehtiyatı sürətlə artır. Bu isə, öz növbəsində tədricən sözlü mücərrəd təfəkkürə keçid üçün yeni imkanlar açır. Doğrudur, məktəbəqədər yaşlı uşaqların ümumiləşdir-mələri əsil məntiqi əlamətlərdən xeyli uzaq olur. Onların ümumiləşdir-mələrində cismlərin xarici və əyani əlamətləri əsas götürülür.

Görkəmli İsveçrə psixoloqu, dünyada bir nömrəli uşaq psixoloqu kimi ad qazanmış J.Piaje uşaq təfəkkürünün özünəməxsus keyfiyyəti və xüsusiyyətlərə malik olması haqqında özündən əvvəlki təsəvvürlərə yeni baxış gətirmişdir. J.Piajenin tədqiqatlarını yüksək qiymətləndirən rus psixoloqu L.S. Vıqotski yazırdı: «Piajenin tədqiqatları uşağın nitqinin və təfəkkürünün inkişafı haqqında, onun məntiqi və dünyagörüşü haqqında… bütöv bir dövrü təşkil edir»[1]. J.Piaje uşaqlar üzərində apardığı tədqiqatlarda **sərbəst söhbət metodunu** tətbiq etməklə, elə suallardan istifadə edirdi ki, o, uşağın maraq dünyasına və mühakimə qabiliyyətinə uyğun olsun. Məsələn, «Buludun hərəkət etməsinə səbəb nədir?», «Qayıq nə üçün üzür»? və s.

Məktəbəqədər yaş dövründə uşaqlarda təfəkkürün fəal formaları əhəmiyyətli rol oynayır, onların fikri fəaliyyət prosesində müsbət dəyişikliklər baş verir. Bu yaş dövründə uşaqların qarşısına qoyulan fikri məsələlərin dairəsi sürətlə genişlənir. 3-6 yaşlı uşaqlar gündəlik həyatlarında müxtəlif fəaliyyət növləri ilə məşğul olurlar ki, bu da onların əşyalar və onların xassələri haqqında biliklərini zənginləşdirir. Bu yaş dövründə olan uşaqlar qarşılarına qoyulan praktik məsələlərin həll yollarını müstəqil olaraq seçir, müxtəlif priyomlara istinad edirlər. Psixoloji tədqiqatlar nəticəsində sübut edilmişdir ki,

[1] Выготски Л.С. Изб. психол. исследования. М., 1956, стр. 56-57

bu yaş mərhələsində praktik əməliyyatlardan əqli əməliyyatlara keçid prosesi yenidən qurulur.

Bununla belə, qeyd etmək lazımdır ki, kiçik məktəbəqədər yaşlı uşaqların (3-4 yaş) fikri fəaliyyətində yaş xüsusiyyətindən irəli gələn müəyyən məhdud cəhətlər də özünü göstərir. Belə ki, kiçik məktəbəqədər yaşlı uşaqlar heç də həmişə onların qarşısına qoyulan məsələlərin həlli üçün adekvat əməliyyatlardan istifadə edə bilmirlər. Onlar məsələnin həllində müvafiq əməliiyat formasını seçə bilmir, qaydasız və nizamsız xarakterli sınaqlara istinad edir, fiqurların uyğun kombinasiyalarını qura bilmədiklərindən özləri üçün də gözlənilməz olan qeyri- adi birləşmələr yaratmış olurlar. Psixoloji təhlil göstərir ki, bu yaş dövründə uşaqların nitqi və təlimatı anlama imkanları məhdud olduğundan, onlar adətən qarşılarına qoyulan məsələ və tapşırıq-ların şərtini təhlil edə bilmir və birbaşa olaraq istədikləri həll yolu əsasında qoşulurlar. «Kubiklərlə iş», «Həndəsi fiqurlarla tanışlıqlar», «Fiqurların uyğun yerlərə qoyulması» , «Məişət əşyaları ilə iş» adlı metodikalar əsasında aparılmış tədqiqatlar qeyd olunan fikirləri təsdiq etmişdir. Orta məktəbəqədər yaşlı uşaqlar (4-5 yaş) fikri fəaliyyət prosesində məsələləri həll edərkən **müşayətçi nitqdən- akkompanementdən** (L.S.Vıqotski) istifadə edirlər. Fiqurları müvafiq yerlərə qoyarkən 5 yaşlı qız deyir: Bu dayı evə gəldi, bu xala isə onu qarşılayır… yox, o, orada yemək bişirir. O hələ gəlməyib. O qız orada oturub qışqırır: «Ata gəldi».

Böyük məktəbəqədər yaşlı uşaqlarda (5-6 yaş) təfəkkür fəaliyyəti hissi dərketmə səviyyədən praktik-məntiqi istiqamətə doğru inkişaf edir. Hər hansı süjetli şəklə baxan uşaq fikrən hadisələrin məzmununu anlayır və öz nitqində onların kombinasiyasını yaradır. Fiqurlarla tanışlıqları yerinə yetirən böyük məktəbəqədər yaşlı uşaqlar təlimatı anlamaqla yanaşı, həm də fiqurların kortəbii deyil, məqsədyönlü qaydada kombinasiyası əsasında tələb olunan tapşırığı müvəffəq yerinə yetirməyə nail olurlar. Bu dövrdə uşaqların təfəkkür fəaliyyətində fərqləndirici xüsusiyyət məsələnin əvvəlcə əqli

səviyyədə (interiorizasiya), daha sonra isə praktik səviyyədə (ekstertorizasiya) icra edilməlidir. Məlumdur ki, təfəkkür əqli fəaliyyətin əsasıdır. Uşaqlarda əqli fəaliyyət üsullarının – təfəkkür əməliyyatlarının formalaşmasında fəaliyyət motivlərinin müstəsna əhəmiyyəti vardır. Kiçik məktəbəqədər yaş dövründə uşaqlarda əqli fəaliyyət motivlərinin əsasında oyun maraqları, məhsuldar fəaliyyət növlərinin nəticələri durur. Tədricən böyük məktəbəqədər yaşda uşaqlarda əqli fəaliyyət motivləri rolunda idrak maraqları çıxış edir. Məktəbəqədər dövrdə uşaqlarda əqli fəaliyyət üsullarının, bacarıq və vərdişlərinin formalaşması, əqli qabiliyyətlərin inkişafı aşağıdakı istiqamətlərdə baş verir.

1. Hissi dərketmə üsullarının əşyaları sensor izləmənin ümumi üsullarının formalaşdırılması;

2. Əsas əqli fəaliyyət sistemlərinin və təfəkkür əməliyyatlarının (analiz, müqayisə, ümumiləşdirmə, sintez, təsnifat və s.) formalaşdırılması. İdrak proseslərinin inkişafı.

3. Uşağın əqli fəaliyyətinin komponentlərindən biri kimi nitqin inkişafı;

4. Əqli fəaliyyətin ümumi metodu və elementar müstəqilliyinin formalaşdırılması;

Təfəkkürün inkişafının qısa təhlili onu göstərir ki, erkən uşaqlıq dövründə hissi dərketmə üsulları uşaqlarda daha erkən olmaqla genetik əsaslar üzərində inkişaf edir. Məktəbəqədər yaşda **idrakın hissi-əyani üsullarının**- qavrayış, əyani- əməli və əyani obrazlı təfəkkürün təkmilləşməsi davam edir. Uşaqların bu zəmində formalaşan biliklərinin əsas məzmunu təsəvvürlərdən ibarət olur. Məktəbəqədər yaşlı uşaqlarda əyani- obrazlı təfəkkürün formalaşmasında nitqin əhəmiyyəti durmadan artır,söz ümumiləşdirmə və təhlil aləti rolunda çıxış edirlər. Onun vasitəsilə uşaqlar əşya və hadisələri müqayisə edir. Uşağın əldə etdiyi təcrübə onda sözlü-məntiqi təfəkkürün formalaşması və inkişafı üçün zəmin yaratmış olur. Nəticədə, uşaqlarda **təfəkkürün məntiqi formaları** məhfunlar, hökmlər və

əqli nəticə kimi əməliyyat sistemlərinin yaranması təmin olunur. Məhfumlar vasitəsilə uşaqlar cism və hadisələrin mühüm, başlıca və fərqləndirici əlamətlərini dərk edir, hökmlər vasitəsilə əşya və hadisələr arasındakı əlaqə və münasibətləri, asılılıqları başa düşürlər.

Böyük məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün inkişaf etdirilməsi məqsədilə ailədə və bağçada aşağıdakı tipli tapşırıq və çalışmalardan istifadə etmək olar.

**1. Ümumiləşdirici anlayışı söylə:**

- Cümə , bazar, çərşənbə, bazar ertəsi;
- Fevral, iyun, dekabr, may;
- Qış, yaz,payız, yay;
- Ata, nənə,qardaş, bacı;
- Qırmızı, sarı, ağ, yaşıl;
- Pendir, qaymaq, şor, süd;

**2. Artıq sözü göstər:**

- Dayanmaq, qaçmaq, fikirləşmək, getmək;
- Rəna, Leyla, Abbasov Turan;
- Balta, çəkic, xətkeş, dırmıq;
- Xiyar, badımcan, nar, istiot.

Əqli nəticə uşaqlarda intellektual qabiliyyətlərin formalaşmasını təmin edir. Eksperimentlərin birində uşaqlardan müxtəlif əşyaların suda batması və ya üzməsi soruşulur. Eksperimentator 5 yaşlı uşağa açar göstərir və soruşur:

Eksp: bu açarı suya atsaq, o batacaq ya yox?

Uşaq: batacaq çünki dəmirdəndir və ağırdır.

Eksp: Bəs ağac qabığı necə?

Uşaq: O üzəcək. O ağacdandır, yüngüldür.

Eksperimentator növbəti mərhələdə uşağa dəmir qutu göstərir və soruşur:

Eksr: Bu qutunu suya atsaq o üzəcək, yoxsa batacaq?

Uşaq: Batacaq.

Eksperimentator qutunu suya atır və o batmır. Uşaq qutunu götürür diqqətlə baxır və qəmgin olur. Bundan sonra o deyir ki, qutunun içi boşdur, ona görə də üzür. Dəmir vedrə də üzə bilir. **(V.S.Muxinanın tədqiqatlarından)**

V.A.Suxomlinski yazırdı ki, uşağın beynini biliklər, həqiqətlər, qaydalar, düsturlar, anbarına çevirməmək üçün ona fikirləşməyi öyrətmək lazımdır.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün inkişafında təbiətə ekskursiyaların, onun vasitəsilə həyati situasiyaların təhlili əlverişli imkanlar yaradır. Bu zaman uşaqların diqqətini problemli situasiyalara yönəltməklə onların təfəkkür fəaliyyətini aktivləşdirmək mümkündür.

Bahar fəsli idi. Tərbiyəçi böyük qrupun uşaqlarını bağçanın yaxınlığındakı tarlaya gəzintiyə aparmışdı. Traktor torpağı şumlayırdı. Şumlanmış sahəyə çoxlu qarğa qonmuşdu. Onlar kotanın lap ardınca gedirdilər. Tərbiyəçi uşaqlardan soruşdu:

- Uşaqlar bu quşlar hansı quşlardır?

Röyal: Bu qarğalardır.

- T: Onlar nə axtarır?

- Uşaqlar çaşıb qalmışdılar.

- Birdən Tural dedi: Onlar soğulcanları, qurdları yeyirlər.

Uşaqlarda idrak maraqlarının formalaşması onların ümumi emosional həssaslığına və fəallığına əsaslanır. Çoxcəhətli fəaliyyət növləri vasitəsilə uşaqların idrak maraqları onların dərketmə prosesinə və biliklərinin məzmunca dərinləşməsinə gətirib çıxarır.

İlk idrak maraqları oyun və praktik fəaliyyətlə bağlıdır. Belə hallarda idrak maraqları dərketmənin güclü təhrikedici qüvvəsinə çevrilir. Təlim tipli məşğələlər vasitəsilə uşaqlarda düşünülmüş və məqsədyönlü idrak maraqları formalaşır. Bu maraqlar məktəbəqədər yaşın sonunda təlimin və müstəqil dərketmə fəaliyyətinin motivi rolunda çıxış edir.

Qədim yunan filosofu Aristotel **təfəkkürün motivini** heyrətdə görürdü. O qeyd edirdi ki, təbiətin sirrinin açılması qarşısında səmimi heyrət sürətli fikir axını üçün qüdrətli təkandır.

Belə situasiyalar uşaqlar üçün idrak əhəmiyyətli problemli situasiyalardır. Böyük məktəbəqədər yaşlı uşaqların əqli fəaliyyətində təfəkkürün bütün formaları özünü biruzə verir. Bu onların intellektual məsələləri həll etməsinə imkan yaratmış olur. Məktəbəqədər yaşda səciyyəvi

təfəkkür növü əyani- obrazlı təfəkkür olsa da, əqli fəaliyyət prosesində uşaqların istinad etdiyi əməliyyatlar bu təfəkkür növünün sərhədlərini aşır. Görkəmli rus psixoloqu A.N.Leontyev yazmışdır ki «…praktik əməliyyatlar kimi hər cür daxili, əqli əməliyyatlar da bu və ya digər üsullarla, yəni , müəyyən əməliyyatlar vasitəsilə həyata keçirilir». 6 yaşında uşaqlarda **sözlü-məntiqi təfəkkür** intensiv şkildə formalaşma mərhələsinə daxil olur. Uşaqlarda sözlü məntiqi təfəkkürün inkişafı ayrılmaz surətdə onların qazandıqdarı bilik və təsəvvürlər fondu ilə bağlı olur. Təfəkkürün bu növünün inkişaf səviyyəsi məktəbəqədər yaşlının təlimi və tərbiyəsinin xarakterindən xüsusilə, fikri əməliyyatların inkişaf səviyyəsindən asılıdır. Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür əməliyyatlarının inkişaf səviyyəsini müəyyən etmək məqsədilə aparılmış eksperimentlər nəticəsində təfəkkür əməliyyatlarının formalaşması səviyyəsinə görə psixoloqlar uşaqları 4 əsas qrupa ayırmışlar[1].

**I qrup- Etalonaqədərki mərhələyə aid edilənlər.** Onlar etalona uyğun təsvir edilmiş əşyaların formaca oxşarlığına deyil, ikinci dərəcəli əlamətlərə (məsələn, məzmunca oxşarlığa) istinad edirlər.

**II qrup – Sinkretik (bitişik) təfəkkür yönümlü uşaqlar.** Əşyanın digər mühüm və xarakterik cəhətlərinə istinad etmədən bir əlaməti əsas götürməklə yanlış nəticəyə gəlmək.

**III qrup- Obyektin mürəkkəbliyindən asılı olaraq qarışıq yönümlü uşaqlar**. Ümumi konturun daxilində yerləşən sadə obyekt və hissələri uşaqlar səhvən lazım olan etalona aid edirlər. (Məsələn, ayaqqabı və ütü).

**IV qrup – Adekvat yönümlü uşaqlar.** Onlar əşyanın formasını etalonla müqayisə edərkən ümumi konturla ayrı-ayrı hissələrin qarşılıqlı münasibətlərinin təhlilinə xüsusi əhəmiyyət verir. Əşyanı etalonla səhvsiz olaraq qarşılaşdırırlar. Səhvlər təsadüfi olur.

[1] Практикум по возрастной и педагогической психологии. (Под. ред А.И. Щербакова) М., «Просвещение», 1989, стр 95-96

Böyük məktəbəqədər yaş dövründə uşaqlarda təfəkkürü, məntiqi düşünmək bacarıqlarını inkişaf etdirmək məqsədilə aşağıdakı tipli qrafik test və süjetlərin təhlili nümunələrindən istifadə etmək məqsədəuyğundur.

Şəkil 9

Şəkil 9a

Şəklə baxın. hər bir xalçadan kəsilib götürülmüş uyğun hissəni yerinə qoyun.

Şəkil 10.

Hər bir kvadratın içinə qanunauyğunluq üzrə müvafiq fiquru çəkin.

Şəkil 11.

Şəklə baxın və rəssamın səhvlərini göstərin.

Şəkil 12

Şəkildə hansı fiqurlar unudulmuşdur?

**Suallar və tapşırıqlar**

1. Əyani- əməli təfəkkür forması ilə əyani- obrazlı təfəkkür arasındakı fərqi izah edin.
2. Uşaq təfəkküründün «sinkretizm» xüsusiyyəti nədə əks olunur?
3. Məktəbəqədər yaşlı uşaqlarda sözlü-mücərrəd təfəkküründün hansı ilkin xüsusiyyətləri nəzərə çarpır?
4. Məktəbəqədər yaş dövründə əqli qabiliyyətlərinin inkişafı istiqamətlərini göstərin.
5. Uşaqlarda təfəkkürün məntiqi formalarının formalaşması xüsusiyyətlərini səciyyələndirin.
6. Təfəkkürün inkişafı ilə uşağın nitqi arasındakı əlaqəni göstərin.
7. Təfəkkür əməliyyatlarının formalaşması baxımından uşaqları neçə qrupa ayırırlar.
8. Uşaqlarda intellektual qabiliyyətlərin diaqnostikasını hansı testlər vasitəsilə həyata keçirmək olar?

## IV.9. Məktəbəqədər yaşlı uşaqlarda diqqətin inkişafı

İdrak fəallığının intensivliyini əks etdirən psixi proses kimi diqqət ətraf xarici aləmi dərketmə fəaliyyətində mühüm yer tutur. Məktəbəqədər yaş dövründə uşaqlarda diqqət vacib psixi funksiyalardan birinə çevrilir, onun davamlığı xeyli artır, ixtiyari diqqətin təzahürləri meydana gəlir və inkişaf edir. Diqqətin əsasında uşağın həyatının ilk aylarında müşahidə olunan **bələdləşmə refleksi** dayanır. Bu, uşağın **qeyri-ixtiyari** diqqətinin təbii əlaməti kimi özünü göstərir. Həyatın iki-üçüncü ilində uşaqlarda ixtiyari diqqətin ilkin formaları meydana çıxır. Onlar yaşlıların sözlü göstərişi əsasında diqqətlərini tələb olunan obyektlər üzərinə yönəltməyə nail olurlar. Beş-altı yaşlarında uşaqlarda **ixtiyari diqqətin** elementar formaları yaranır. Məktəbəqədər yaşlı uşaqlarda ixtiyari diqqətin inkişafı onların məktəb təliminə hağırlığında mühüm amillərdən biridir. Kiçik və orta məktəbəqədər yaş dövründə uşaqlarda qeyri-ixtiyari diqqətin üstünlüyü aydın hiss olunur. Onların psixi fəaliyyəti ətraf xarici aləmin cismlərinin cəlbedici, parlaq əlamətlərindən asılı olur. Psixoloqların fikrincə, məktəbəqədər yaş dövründə diqqət, hafizə və təxəyyül kimi psixi proseslərin inkişafı oxşar əlamətlərə malikdir. Belə ki, həmin yaş dövründə qeyd olunan psixi proseslərin hər biri özünün niyyətsiz, qeyri-ixtiyari məzmunu ilə səciyyələnir. Məktəbəqədər dövrdə diqqətin inkişafında nəzərə çarpan başlıca üstünlük **diqqətin keçirilməsi** və **davamlığının** kəmiyyət göstəricilərinin artmasıdır.

Psixoloji tədqiqatlar vasitəsilə müəyyən edilmişdir ki, kiçik məktəbəqədər yaşlı uşaqlardan fərqli olaraq, böyük bağça yaşlı uşaqlar eyni bir fəaliyyətlə daha uzun müddət məşğul ola bilirlər. Rus psixoloqu

V.S.Muxinanın fikrincə, bu yaş dövrlərində uşaqların oyun müddəti 30-50 dəqiqədən artaraq 2 saata çatır[1].

Uşağın həyatında meydana çıxan yeni fəaliyyət növləri, ümumi əqli inkişaf potensialı və yaşlıların artan tələbləri uşaqlarda diqqətin ixtiyariliyinin artmasında əsas amil olur. Həyatın bu mərhələsində ixtiyari diqqətlə qeyri-ixtiyari diqqət növbələşir, lakin qeyri-ixtiyari diqqətin üstünlüyü aydın şəktldə nəzərə çarpır. Uşaqlarda ixtiyari diqqətin formalaşması və onun davamlı şəkil alması bilavasitə qavrayışdan və nitqin fəal mənimsənilməsindən asılıdır. Burada uşağın diqqətini idarə edən vasitələrin rolu da böyükdür. Psixoloqların fikrincə, ilk uşaqlıq dövründə belə ixtiyari diqqətin yaranmasına nail olmaq mümkündür. Bunun üçün ilk növbədə onların diqqətini istiqamətləndirən cəlbedici siqnallar olmalıdır. İlk uşaqlıq dövründən böyük məktəbəqədər yaş dövrünədək diqqət dinamik göstəricilərə malikdir. Rus psixoloqu R.S.Nemovun fikrincə, 3-4 yaşlı uşaqlar onlar üçün cəlbedici olan şəkillərə 6-8 saniyədən çox diqqətlərini cəmləşdirə bilmədikləri halda, 5-6 yaşlı uşaqlarda eyni bir şəkilə baxmanın müddəti iki dəfədən çox artaraq 12-20 saniyəyə çatır[2].

Məktəbəqədər yaşlı uşaqlarda **diqqətin davamlığı** fərdi fərqlərə malik olur. Bu isə onların **sinir sistemi tipindən həyat şəraitindən və fiziki sağlamlıq səviyyəsindən** asılıdır.

Uşaqlarda diqqətin ixtiyari formalarını tərbiyə etmək məqsədilə psixoloqlar belə bir eksperiment keçirmişlər: Uşaqlar onlara verilən suallara cavab verərkən «hə» və «yox» sözlərindən istifadə etməməli, «ağ» və «qara» rənglərin adını çəkməməli idilər. Uşaqlara aşağıdakı tipli suallar verilmişdir: «Sən müktəbə gedirsənmi?», «Parta hansı rəngdədir?», «Sən oynamağı sevirsənmi?», «Sən həkim görmüsənmi?», «Ot hansı rəngdə

[1] В.С.Мухина. Детская психология. М., «Просвещение» 1985, стр.252
[1] Р.С.Немов Психология М., «Владос», 1999, стр. 104
[2]

olur?» və s. Uşaq suallara mümkün qədər tez cavab verməli və bu zaman aşağıdakı təlimata əməl etməli idi:

1. Qadağan edilmiş rənglərin adını çəkmək olmaz;
2. Eyni rəngin adını iki dəfə çəkmək olmaz;

Bu eksperiment elə qurulmuşdu ki, o uşaqdan diqqəti daim gərgin vəziyyətdə saxlamağı tələb edirdi. Eksperimentin sonunda aydın olmuşdu ki, uşaqların çoxu təlimata əməl edə bilməmiş və çoxlu səhvlərə yol vermişlər.

Eyni təcrübə həmin uşaqlarla ikinci dəfə rəngli kartoçkalar dəsti vasitəsilə, oyun şəraitində aparılmışdır. Uşaqlar təlimatı dinlədikdən sonra ağ və qara rəngli kartoçkaları seçib kənara qoymuş, suallara qarşılarındakı kartoçkalara istinad etməklə cavab vermişlər.

Məktəbəqədər yaşlı uşaqlarda diqqəti inkişaf etdirmək məqsədilə oyunlardan və tapşırıqlardan istifadə etmək olar. Onlardan birinə nəzər salaq.

«Hə» və «yox» oyunu.

Uşağa deyilir ki, verilən suallara cavab verərkən «Hə» və «yox» sözlərini işlətmək olmaz. Cavab üçün istənilən başqa söz işlənilə bilər:

Məsələn:

- Sən oğlansanmı (qızsanmı)?
- Sən məktəbə gedirsənmi,
- Duz şirindirmi?
- Quşlar uça bilirmi?
- Sənin 4 yaşın var?
- Qar ağdırmı?
- İndi yazdırmı?
- Pişik quşdurmu?
- Armud meyvədirmi, (və s.)

Uşaqların psixi inkişafında diqqətin əhəmiyyəti olduqca böyükdür. Oyun prosesində, habelə təlim xarakterli müxtəlif məşğələlər vasitəsilə diqqətin ayrı-ayrı xassələrində keyfiyyət və kəmiyyət dəyişmələri baş verir. Bu yaş dövründə diqqətin inkişafında baş verən dəyişiklikləri 3 əsas qrupa ayırmaq

olar: a) diqqətin həcminin genişlənməsi; b) diqqətin davamlığının artması; c) ixtiyari diqqətin formalaşması.

Uşağın inkişaf etməkdə olan nitqi, davranışdakı sərbəstliyi, fəaliyyətin müxtəlif növləri məktəbəqədər yaşlının diqqətinin ayrı-ayrı xüsusiyyətlərinin, ilk növbədə onun **həcminin** genişlənməsinə təkan verir. Bu dövrdə baş verən dəyişiklik yalnız uşağın eyni vaxtda qavradığı obyuektlərin say artımında deyil, həm də qavrama prosesinin aydınlığında əks olunur. Uşaq onun üçün əhəmiyyətli və cəlbedici əşyalara daha çox maraq göstərir, yeni, idrak əhəmiyyətli maraqlar yaranır. «Bu nədən ötrüdür?», «Bununla nə edirlər?» tipli suallar onun diqqətinin motivləri kimi çıxış edir. Bu faktlar onu göstərir ki, uşağın diqqət obyektində yalnız hər hansı bir əşyanın özü deyil, həmin əşyanın digər əşyalardan asılılığı, ilk növbədə funksional əlaqələri dayanır. Uşaqlarda nitqi anlama qabiliyyətinin formalaşma səviyyəsindən asılı olaraq yaşlıların nitqi onların diqqət obyekti rolunda çıxış edir.

Tədqiqatlar nəticəsində sübut edilmişdir ki, böyük məktəbəqədər yaşlı uşaqlar artıq eyni vaxtda bir,iki hətta üç obyekti ardıcıl şəkildə izləməyə aydın şəkildə qavramağa nail olurlar. Həmin obyektlərin oxşar və fərqli cəhətlərini müəyyən etmək üçün tərbiyəçi tərəfindən istifadə olunan **müqayisə priyomu** nəticənin səmərəliliyini artırır. Bununla belə, məktəbəqədər yaşlı uşaqlar bir-birindən az fərqlənən və məzmunca mürəkkəb olan obyektləri fərqləndirmək-də çətinlik çəkir, səhvlərə yol verirlər. Məsələn, meşə və ya qış haqqında hekayə və ya şəkillərdəki əlamətləri, rəqəmli və ya hərfi işarələri qarışdırır, hər iki obyektə aid etməklə qavrayırlar.

Məlumdur ki, diqqətin davamlığı yaş artdıqca artır. Psixoloqlar və fizioloqlar belə hesab edirlər ki, **diqqətin davamlığı sinir hüceyrələrinin iş qabiliyyətindən asılıdır**. Ona görə də, məktəbəqədər yaşlı uşaqlar əqli fəaliyyət zamanı tez yorulur, onlarda dalğınlıq, diqqətin yayınması kimi hallar daha tez-tez baş verir. Əqli gərginlik tələb edən tapşırıqların icrası zamanı uşaqlar daha tez yorulur, çoxlu səhvlər buraxır, iş tempi zəifləyir. Uşaqlarla

müntəzəm təşkil edilən məşğələlər onlarda diqqətin davamlılığının dinamik artımına imkan yaradır. Belə məşqetdirici tapşırıqlardan biri eksperimental yolla rus psixoloqu V.V.Noçevkina tərəfindən tətbiq olunmuşdur. O, 6 yaşlı uşaqlarla **Burton testininin** xüsusi variantı əsasında təcrübələr keçirmişdir.

Təcrübə zamanı uşaqlara bir-necə sırada qarışıq şəkildə düzülmüş 5 müxtəlif həndəsi fiqurdan ibarət kartoçka verilmişdir. Uşaqlar sətirlərə mümkün qədər tez baxmalı, 3 dəqiqə ərzində kvadrat və üçbucaqlıların üstündən xətt çəkməli idilər.

6 gün belə məşqlər aparılmışdır. Birinci gün sətirlərdəki həndəsi fiqurların sayı 14 olduğu halda, altıncı gün onların sayı 51-ə çatdırılmışdır. Fiqurların sayı 4 dəfəyə qədər artsa da, birinci günlə müqayisədə buraxılan səhvlər 2 dəfə azalmışdı. Sübut olunmuşdur ki, sərbəst, yaradıcı oyunlar zamanı uşaqlarda dalğınlıq halları az olduğu halda, sözlü məşğələlər zamanı (say məşğələsi, dinlənilmiş nağıl və ya hekayə əsasında müsahibə, suallara cavab və s.) diqqətin gərginliyi və dalğınlıq halları daha yüksək olur. Qeyd etmək lazımdır ki, diqqətin davamlığı **uşaqlar arasındakı fərdi fərqlərdən** də asılıdır. Burada uşağın t**emperament xüsusiyyətlərinin** onun tərbiyə olunduğu şəraitin, tərbiyənin səmərəliliyinin də rolu böyükdür. Məktəbəqədər yaş dövründə ixtiyari diqqətin ilkin formaları təşəkkül tapmağa başlıyır, 6 yaşda bu müəyyən səviyyədə formalaşmış olur. Öz diqqqətini tərbiyəçinin tələblərinə tabe etmək, diqqəti idarə etmək bacarıqları uşaqların sistematik məktəb təliminə intellektual hazırlığının mühüm şərtlərindən birinə çevrilir.

### Suallar və tapşırıqlar

1. Məktəbəqədər yaşlı uşaqlarda diqqətin formalaşmasında bələdləşmə refleksinin rolunu izah edin.
2. Məktəbəqədər yaşda diqqətin formalarının inkişaf dinamikasını söyləyin.
3. Uşaqlarda diqqətin hansı xarakterik xassələri müşahidə olunur?

4. İxtiyari diqqətin formalaşmasında idrak maraqlarının rolu nədən ibarətdir?
5. Uşaqlarda ixtiyari diqqətin formalaşmasında oyunun və məşğələlərin rolunu əsaslandırın.

## IV. 10. Məktəbəqədər yaşda hafizənin inkişafı

Məktəbəqədər uşaqlıq illərində özünün intensiv inkişaf tempi ilə fərqlənən idrak proseslərindən biri də **hafizədir**. Bu dövrdə hafizənin inkişafında həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişikliklər baş verir. Qərb psixoloqlarından A.Bine, E.Meyman, C.Vruner, V.Ştern rus alimlərindən A.A.Smirnov, P.J.Zinçenko, A.A.Lyublinskaya, S.Q.Barxatova, T.N.Balariç, İ.A.Kornienko və b. Uşaqlarda hafizənin inkişaf xüsusiyyətlərini tədqiq etmək məqsədilə xüsusi tədqiqatlar aparmışlar. Məktəbəqədər yaşda qeyri-ixtiyari hafizə özünün üstün təzahürü ilə fərqlənir. Bu yaş dövründə uşaqlar öz qarşılarına nəyi isə yadda saxlamaq məqsədi qoymurlar. Bu proses uşaqların iradəsindən və şüurundan asılı olmayaraq baş verir. Qeyri-ixtiyari **yaddasaxlamanın** səviyyəsi uşağın fəaliyyət prosesində qarşılıqlı münasibətdə olduğu əşyaların xarakterindən asılıdır. Uşaq qarşısına qoyulmuş çoxsaylı şəkillərdən yalnız onlara tanış olanları, özünün keçmiş təcrübəsi ilə bağlı olanları seçib ayırır: «Eynəkdir-gözə taxırlar», «Qarpız»-mən atamla bazardan böyük qarpız almışdım. Məktəbəqədər yaşlı uşaqlarda hafizənin məlumat tutumu genişlənir, yadda saxlama üsulları təkmilləşir, onun müddəti artır. Hafizənin inkişafında yeni xüsusiyyət meydana çıxır: onun qavrayışından daha çox ayrılması prosesi baş verir. Əgər kiçik məktəbəqədər yaşda uşağın hafizəsindən əşyanın təkrarən qavranılması prosesində **tanıma** əhəmiyyəti rol oynayırsa, böyük məktəbə-qədər yaş dövründə mühüm hafizə aktı kimi **yadasalma** obrazları təsəvvürdə canlandırma qabiliyyəti daha böyük əhəmiyyət kəsb edir. Orta və böyük məktəbəqədər yaşlı uşaqlarda zəngin

hafizə təsəvvürləri özünü biruzə verir. Bu dövrdə obrazlı hafizənin intensiv inkişafı davam edir. Əşyaların və onların təsvirlərinin yadda saxlanılmasının həcmi və keyfiyyəti yüksəlir. Ona görə də məktəbəqədər uşaqlıq illərində onlar olduqca çoxlu xatirələr, məlumatlar və biliklər toplamağa nail olurlar.

Məktəbəqədər yaşda obrazlı hafizə və təxəyyülün inkişafında aşağıdakı başlıca dəyişikliklər baş verir:

1. Yadda saxlanılan təsəvvürlərin həcmi genişlənir.
2. Uşaqlarda qavrayış obrazları və təsəvvürlər daha ümumiləşmiş şəkil alır.
3. Hafizə təsəvvürləri daha da rabitəli və sistemli xarakter daşımağa başlayır.
4. Yadda saxlanılan obrazların mütəhərrikliyi artır. Uşaq onlarda müxtəlif fəaliyyət növlərində, müxtəlif situasiyalarda istifadə edir.
5. Uşağın təsəvvürləri mənalı və ifadəli xarakter daşımağa başlayır. Böyük məktəbəqədər yaşlı uşaqlar öz təsəvvürlərini müxtəltf kombinasiyalarla birləşdirərək yeni təxəyyül surətləri yaradırlar.

Məktəbəqədər yaşda hafizənin yeni, məhsuldar və mütərəqqi forması olan **sözlü-məntiqi hafizəyə** keçid prosesi baş verir. Hafizənin bu növünün formalaşmasında ixtiyari yadasalma və ixtiyari yaddasaxlama priyomları, uşağın hafizəsinin məhsuldarlığını təmin edir. Böyüklərin uşaqlarla tez-tez ünsiyyətdə olması, onun dünyagörüşünü genişləndirən söhbətlər etməsi, oxunmuş nağıl, hekayələrin, tamaşa və kinofilmləri müzakirə etməsi ixtiyari hafizəni məşq etdirir. Nəticədə, uşaqlar şer öyrənir, nağılı dinləyib onu danışır, mahnının ahəngini yadda saxlayır. Uşaqlarda sözlü-məntiqi hafizə tipi onlara şəkil üzrə hekayə tərtib etmək imkanı verir. Onlarda müşahidəçilik artır, oxşar hadisələri tutuşdurmaq, ümumi əlamətləri tapmaq fərqi görmək bacarıqları yaranır. Psixoloqların fikrincə, bir çox məktəbəqədər yaşlı uşaqlarda **görmə hafizəsinin xüsusi tipi kimi eydedik hafizə** diqqəti cəlb edir. Onun

obrazları özünün aydınlığı və parlaqlığı ilə qavrayış obrazlarını xatırladır, sanki indiki zamanla bağlıdır.

İnsan yaşa dolsa da, onun uşaqlıq illərindəki parlaq təssüratlar, surətlər heç də unudulmur, tam dəqiqliyi ilə yenidən xatırlanır. Görkəmli yazıçı İ.Əfəndiyevin «Geriyə baxma, qoca» romanında ədib «Muradın söylədikləri…» adlanan fəslində öz uşaqlıq təəssüratlarını oxucu ilə bölüşür: «Düzünü deyim ki, lap iki-üç yaşımdan görüb-duyduqlarımı elə aydın xatırlayıram ki, elə bil bu zaman mənim 13 – 14 yaşım varmış[1].

Görkəmli pedaqoq V.A.Suxomlinski yazırdı: «Bizlərdən kim məktəbəqədər yaşlı uşaqların **iti və möhkəm yaddaşına** heyran olmamışdır? Budur, 5 yaşlı uşaq ata və anası ilə birlikdə meşəyə və çölə gəzintidən qaytmışdır. O, bütövlükdə parlaq obrazların, mənzərələrin, hadisələrin təəssüratı altındadır»[2].

Kiçik və orta məktəbəqədər yaşlı uşaqlarda hələ də **mexaniki hafizə** güclü olduğuna görə, onlar əşya və hadisələr arasındakı məna əlaqələrini deyil, zahiri, qeyri-mühüm xarici əlamətləri daha yaxşı yadda saxlayırlar. Məsələn, kukla teatrına tamaşa edən 3-4 yaşlı uşaqlar tamaşanın məzmununa deyil, personajların hər birinin dediyi sözlərə daha çox diqqət yetirir. Onların sözlərini kəlmə-kəlmə əzbər yadda saxlayırlar.

Asif adlı 4 yaşlı uşaq yağışlı gündə onlara böyük qara çətirlə gələn qohumlarını bir dəfə görmüşdü. Xeyli vaxtdan sonra həmin kişi onlara çətirsiz gələrkən, Asif demişdi: «Dayı, sizin çətiriniz hanı?» Bu halda Asif çətirin pis hava şəraiti ilə bağlı olan bir əşya olduğunu, onlar arasındakı assosiasiyasını anlaya bilməmiş və yalnız çətiri və adamı yadda saxlamışdı.

Müəyyən edilmişdir ki, mexaniki hafizə uşaqların minemik fəaliyyətində indiqator rolunu oynayır. Yadda saxlamaq hər şeydən əvvəl, hadisənin mahiyyətini, mənasını və ardıcıllığını dərk etmək, başa düşmək deməkdir. Bu proses dərk ediləni, başa düşülənin təkrarlar və təmrinlər vasitəsilə

[1] Əfəndiyev İ. Geriyə baxma, qoca. B., «Yazıçı» 1981, s.48
[2] Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. B., «Maarif», 1979, s.144

möhkəmləndirməklə sıx bağlıdır. Düsturu yaxşı yadda saxlamaq üçün çoxlu məsələ həll etmək, çoxlu hesablama aparmaq lazımdır. Şerin bütün mətnini əzbərləmək üçün onu hissə-hissə öyrənmək, daha sonra, bir-neçə dəfə təkrar etmək yolu ilə əzbərləmək öyrənmənin səmərəli yoludur.

Böyük məktəbəqədər yaş dövründə uşaqların hafizəsində baş verən yeniliklərdən biri də **ixtiyari yaddasaxlamanın** meydana çıxmasıdır. Uşaqlar öyrənilən materialı niyyətli yadda saxlamaq üçün xüsusi, perseptiv əməliyyatlardan, minemik proseslərdən istifadə edərək onu tam və dəqiq yadda saxlamağa nail olurlar. Müəyyən edilmişdir ki, oyun prosesində uşaqlarda yaddasaxlamanın məhsuldarlığı daha yüksək olur. Bu uşağın həyatının bir hissəsi olan oyunun fəaliyyətin stimullaşdırıcı funksiyası ilə bağlıdır. Hafizənin ayrı-ayrı proseslərinin, ixtiyari formalarının yaranmasında fərqli cəhətlər özünü göstərir. Məsələn, **ixtiyari yadasalma** prosesi ixtiyari yaddasaxlamadan əvvəl başlayır, onu ötüb keçir. Uşağın məşğul olduğu fəaliyyətin motivlərindən, onun bu fəaliyyətə olan marağından asılı olaraq hafizə prosesləri sürətlənə və ya ləngiyə bilər. İxtiyari hafizənin inkişafı nəticəsində uşaqlarda zəruri minemik əməliyyatlar formalaşmağa başlayır. Məktəbəqədər yaşlı uşaqlarda ixtiyari yaddasaxlamanın inkişaf etdirmək məqsədilə müxtəlif tapşırıqlardan istifadə etmək olar. Məsələn:

1. Sözləri yadda saxla və təkrar et: qış,ev, kitab, ayı, çanta, pəncərə, sərçə, meşə, səhər, ütü.

2. Söz cütlərini dinlə və olduğu kimi yadda saxlamağa çalış. Uşağa on söz çütü söylənir:

| | |
|---|---|
| Göy- ay | Gəmi-dəniz |
| Bulud-yağış | Gül-güldan |
| İt-quyruq | Vedrə-su |
| Dovşan-kələm | Balıq-ot |
| Xalça-otaq | İnək-süd |

Bundan sonra söz çütlərinin biri uşağa xatırladılır. O, digər sözü özü deməlidir.

Gəmi-……. vedrə-……..

İt-…….. İnək-……

Xalça-……. Balıq-…….

Dovşan-…… Gül-……

Bulud-……. Göy-…….

Belə tapşırıqlar məktəbəqədər yaşlı uşaqlarda ixtiyari yaddasaxlamanın inkişafında əhəmiyyətli rola malikdir. Uşaqların yaşı artdıqca uzunmüddətli hafizədə cəmləşmiş informasiyalar get-gedə aktuallaşır, nəticədə **operativ hafizəyə** keçid prosesi baş verir. Müasir hafizə psixologiyası sahəsində aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, 3 yaşlı uşaq hazırki anda operativ hafizəsində olan yalnız bir informasiya vahidinə istinad etməklə əməliyyat aparmağı bacarırdısa, 15 yaşlı uşaqlarda bu vahidlərin sayı 7-yə bərabərdir. Uşaqların yaşı artdıqca onların hafizəsinin imkanları da artır. Uşaqlar üzərində tanınma və yadasalma prosesləri üzrə aparılmış tədqiqatlar da bunu sübut etmişdir.

4 yaşlı uşaqlar onlara göstərilən 12 şəkildən hamısını tanımağa nail olsalar da,cəmi 2-3 şəkli yada sala bilmişdilər. 10 yaşlı uşaqlarda sonuncu göstərici 8-ə bərabər olmuşdur. 3-4 yaşlı uşaqlarda görmə- **emosional hafizə tipi** dominantlıq təşkil edir. Musiqi və dilçilik sahəsində qabiliyyətli uşaqlarda eşitmə hafizəsinin imkanları daha yüksək olur. Uşaqların qarşısına qoyulan yaddasaxlama, yadasalma və tanıma xarakterli minemik vəzifələr onlarda ixtiyari hafizənin formalaşmasına, təkmilləşməsinə gətirib çıxarır. Böyük məktəbəqədər yaş dövründə uşaqların həyatında təlim tipli məşğələlər mühüm yer tutur. Onlar öyrədilən materialları mexaniki təkraretmə yolu ilə yadda saxlamağa nail olurlar. Əzbər yaddasaxlama üsulu eynilə birinci sinif şagirdlərində də özünü göstərir. Əslində əzbərləmə hafizənin xalis mexaniki işidir. Sətri öyrənilən material kimi, əzbər öyrənilən materialı da möhkəm və uzun müddət yadda saxlamaq mümkün deyil.

Son illər hafizə psixologiyası sahəsində aparılmış tədqiqatlar sübut edilmişdir ki, uşaqlarda hafizənin inkişafında **cinsi fərqlərin** də təsiri az

deyildir. Aydın olmuşdur ki, oğlanlarda və qızlarda beynin müxtəlif törəmələrinin yetişmə surəti fərqlidir. Sol və sağ yarımkürələrin inkişaf tempində fərqlər nəzərə çarpır. Qızlarda sol yarımkürənin inkişaf surəti yüksək olduğu halda, oğlanlarda bu proses sağ yarımkürənin inkişafında baş verir. Alimlər müəyyən etmişlər ki, sol yarımkürə sağ yarımkürəyə nəzərən daha artıq dərəcədə iradi aktların, sözlü – məntiqi hafizənin, rasional təfəkkürün, müsbət emosiyaların tənzimini idarə etdiyi halda, sağ yarımkürə qeyri-ixtiyari intuitiv reaksiyaları rassional fikri fəaliyyəti, obrazlı hafizəni, mənfi emosiyaları tənzimləyir. Odur ki, oğlanlarda və qızlarda hafizənin bu xüsusiyyətlərini nəzərə almaq vacibdir.

**Suallar və tapşırıqlar**

1. Məktəbəqədər yaşlı uşaqlarda diqqətin formalaşmasında bələdləşmə refleksinin rolunu izah edin.
2. Məktəbəqədər yaşda diqqətin formalarının inkişaf dinamikasını söyləyin.
3. Uşaqlarda diqqətin hansı xaraketerik cəhətləri müşahidə olunur?
4. İxtiyari diqqətin formalaşmasında idrak maraqlarının rolu nədən ibarətdir?
5. Uşaqlarda ixtiyari diqqətin formalaşmasında oyunun və məşğələlərin rolunu əsaslandırın.

## IV. 11. Məktəbəqədər yaşda təxəyyülün inkişafı

Məktəbəqədər yaş dövründə uşaqlar sistematik olaraq zənginləşməkdə olan əhəmiyyətli təcrübə qazanırlar. Bu təcrübənin məzmununda onların əldə etdikləri biliklər, bacarıq və vərdişlər, yaşanmış hisslərin izləri və s. əsas yer tutur.

Keçmiş qavrayış materialları əsasında yeni surətlərin yaradılması prosesi kimi təxəyyül, məktəbəqədər dövrdə uşağın hissi təcrübəsi ilə yanaşı yaradıcı təfəkkürünün mühüm komponenti kimi inkişaf etməyə başlayır. Psixoloqların fikrincə, artıq həyatın üçüncü ilindən başlayaraq uşaqlarda təxəyyül surətlərinin ilk təzahürlərini müşahidə etmək mümkündür. Uşağın həyatının əvvəlki dövründə əldə etdiyi təcrübə onun təxəyyül fəaliyyəti üçün material verir. İlk təxəyyül surətləri hələlik özünün kasıblığı, səthi məzmunu ilə fərqlənir və uşağın qavrayışı sensor səviyyədə dərketmə fəaliyyəti ilə ayrılmaz surətdə bağlı olur. Uşaq təxəyyül vasitəsilə qavradıqlarını tamamlamaqla kifayətlənməli olur. Psixoanalizin banisi Z.Freyd təxəyyülə uşaq şüurunun ilkin, başlanğıc forması kimi baxırdı. O, göstərirdi ki, erkən uşaqlıq dövründə uşaqda hakim olan «zövq prinsipi» onun fantaziya və şirin xəyallarında öz əksini tapır.

Uşağın yaşadığı həyat tərzi, əhatə olunduğu gerçəklik, yaşlıların təsiri onun təcrübəsini daha artıq dərəcədə zənginləşdirir. Təxəyyülün inkişafının əsasını təşkil edir.

Məktəbəqədər yaşlının yaradıcılığı onun təxəyülünün, idraki və praktik fəaliyyətinin məhsuludur. Yaradıcı fəaliyyət prosesində uşaqların yaratdığı obrazları heç də yaşlıların yaratdıqları bədii obrazlarla eyniləşdirmək olmaz. Çünki uşaqlar dərin ümumiləşdirmə imkanlarından məhrumdurlar. Onların yaratdıqları obrazlar az və ya çox dərəcədə ifadəliyi ilə diqqəti cəlb etsə, də özünün fraqmentarlığı , mühüm, başlıca əlamətlərin unudulması ilə xarakterizə olunur. Bu yaş dövründə uşaqlar müəyyən rəng seçimi imkanlarına malik olsalar da, rəng çalarlarını fərqləndirməkdə çətinlik çəkirlər. Onlar təsviri fəaliyyət prosesində rəsmin ifadə vasitələrindən – rəng, forma və kompozisiyadan kifayət qədər dəqiq şəkildə istifadə edə bilmirlər. Bu cəhət həm də məktəbəqədər yaşlı uşaqlarda rəsmetmə qabiliyyətlərinin formalaşmasından da asılıdır.

Xarici ölkə psixoloqlarından V.Ştern, K.Riççi, K.Büler, L.Mak-Karti, C.Selli, L.Ems, D.Ansbaxer, S.Q.Kaplanova, A.Y.Dudetski, O,M.Dyaçenko, E.Şalamon və b. uşaqlarda təxəyyülün inkişaf xüsusiyyətlərini öyrənmək məqsədilə tədqiqatlar aparmışlar.

Görkəmli psxoloq alim, professor Ə.Ə.Əlizadə qeyd edir ki, təxəyyülün başlıca funksiyası yaradıcılıqla bağlıdır. İnsan yaradıcılıq yoluna özünün müxtəlif qabiliyyətlərinin axarında gəlib çıxır. Bu yolun baş keçidi təxəyyül dünyasıdır[1].

Xüsusi tədqiqatlarla müəyyən edilmişdir ki, ilk uşaqlıq dövründən qazanılmış təcrübə uşaqlarda təxəyyülün inkişafının əsasıdır. Üç yaşlı uşaqlar konkret adamın – ana, bacı, tərbiyəçi, böyük qardaş və s. hərəkətlərini təsəvvürlərində canlandıraraq təqlidçilik əsasında onların nümunəsini təkrarlamağa çalışırlar. Uşaq gəlinciyin üzünü yuyur. Onlara ad qoyur, dovşanı yedizdirir, sadə oyunlar və əşyalarla hərəkətləri təqlidetmə vasitəsilə uşaqlarda təxəyyülün ilkin formaları meydana gəlir. Məktəbəqədər yaşlı uşaqlar sistematik olaraq zənginləşməkdə davam edən əhəmiyyətli təcrübə qazanırlar. Bu təcrübənin məzmununda ilk anlayışlar və təsəvvürlər, bacarıq və vərdişlər üstün yer tutur. Onların təsəvvürlərində fikirlərin, yaşanmış hisslərin izləri uzun müddət qalır. Məktəbəqədər yaşda qavrayış və obrazlı hafizə təxəyyül surətlərinin yaranması mənbəyinə çevrilir.

Rus psixoloqu A.A.Lyublinskaya uşaqlarda təsviri fəaliyyət üzrə təxəyyülün inkişafı dinamikasını öyrənmiş və belə qənaətə gəlmişdir ki, 3 yaşına qədər uşaqlar qələmi sadəcə olaraq vərəq üzərində hərəkət etdirməkdən həzz alır və çəkilən cızma-qara onlarda məmnunluq hissləri doğurur. 4 yaşdan sonra onlar nə isə məsələn, adam şəkli çəkir. Lakin onların çəkdikləri şəkillər eybəcər formada olur. Məktəbəqədər yaşlı uşaqların təsviri fəaliyyəti zəminində təxəyyülünün xüsusiyyətlərini öyrənən psixoloqun

[1] Əlizadə Ə.Ə. Müasir Azərbaycan məkbəbinin psixoloji problemləri. Bakı, «Pedaqogika» 2004, s.105

fikrincə, uşaq rəsmlərində obrazlar təhrif olunur və aşağıdakı əsas qüsurlar diqqəti cəlb edir.

1. Rəsmdə bədənin əsas hissələri çatışmır.
2. Bütün fiqurun o, cümlədən onun hissələrinin forması pozulmuş olur. (baş oval, kvadrat, üçbucaq formadadır. Barmaqlar oval və ya ştrixlə verilir.)
3. Bədən hissələrinin mütənasibliyi kəskin şəkildə pozulmuş olur. (baş böyük, qıçlar qısa, qollar uzun, bədən kiçikdir)
4. Bədən orqanlarının sayı ixtiyari qədərdir. Bir və ya üç qol, iki burun,iki ağaz və s.
5. Məkanda bədən orqanlarının və onun hissələrinin yerləşdirilməsində ciddi səhvlər: ağız və burun başdan kənarda çəkilir, qollar baş hissəyə bitişdirilir. Ayaqlar profilə çevrilib, hər iki göz sifətin bir tərəfindədir və s.
6. Əlavə detallar çəkilsə də, əsas hissələr unudulub: adamın kostyumunda düymələr, başda lent və şlyapa, ağızda qəlyan çəkilib, ancaq ayaqlar və əllər çəkilməyib və s.
7. Təsvirin şəffaflığı: şlyapanın altında baş, şalvarda qıçlar və s. görünür.

A.A.Lyublinskaya uşaqlarda rəsmetmə bacarıqlarının formalaşması prosesini 4 mərhələyə ayırmışdır: qələmi gəzdirmə, cızma-qara, sxemlər, sxemlərin olmaması (düzgün rəsmlər)[1]

Uşaqlarda yaradıcı qabiliyyətlərin formalaşması məntiqini araşdıran idealist baxımının tərəfdarları belə hesab edirdi ki, uşaqların yaradıcılığı real aləmi əks etdirir, genetik olaraq öz-özünə üzə çıxan, insanın təbiətinə irəlicədən qoyulmuş daxili, təhricedici qüvvələrin instinktləridir.

Frebel belə hesab edirdi ki, «yaratmaq» qabiliyyəti uşaq doğularkən ona hazır şəkildə verilir. ABŞ filosofu Viktor Louenfeld isə qeyd edirdi ki,

[1] А.А.Любинская. Детская психология. М., «Просвещение», 1971, стр.207-208

doğulduğu andan hər bir uşaq potensial yaradıcıdır. Həyat şəraiti uşağın inkişafına ya sürətləndirici, ya da ləngidici təsir edir.

Vaxtilə K.Marks təxəyyülü təbiətin böyük neməti adlandırmışdır. L.S.Vıqotskinin fikrincə, yaradıcılıq hazır elementlərdən yeni modellərin qurulmasıdır.

Məktəbəqədər yaşlı uşaqlarda təxəyyülün meydana gəlməsi şüurun işarə funksiyası ilə əlaqədardır. Uşaqlar öz fəaliyyətlərində, xüsusən oyun zamanı real əşyaları, situasiyaları hadisələri, fantaziya vasitəsilə yeni təxəyyül surətləri ilə əvəz edir, yeni obrazlar yaradırlar.

Nağıl, oyun, fantaziya, uşaq təfəkkürünün, nəcib hiss və istəklərin həyatverici mənbəyidir. Çoxillik təcrübə inandırır ki, əfsanəvi obrazların uşağın qəlbində yaranan estetik, əxlaqi və intellektual hisslər fikir axınını fəallaşdırır. Bu axın beyni aktiv fəaliyyət üçün oyandırır. Təfəkkürün canlı adacıqlarını fəal tellərlə birləşdirir[1]. Uşaq təxəyyülü oyun fəaliyyəti ilə sıx bağlıdır və bu prosesin gedişində üzə çıxır. Müxtəlif yaradıcı oyunlar nəinki uşağın şəxsiyyətinin hərtərəfli inkişafı üçün əhəmiyyətli rol oynayır, həm də dərk edilən gerçəkliyə uşağın bağlılığını təmin edir. Oyun vasitəsilə uşaqlar əhatə olunduqları həyat hadisələrinə, həyati situasiyalara cəlb olunur. Məktəbəqədər yaşlı üçün qavranılan hadisələrin, faktların, obrazlı şəkildə mənalandırılması xarakterik bir cəhətdir. Oyun zamanı uşaqlar yalnız gördüklərini əks etdirməklə məhdudlaşmır, təxəyyüul vasitəsilə bu situasiyanı canlandırır, ona öz münasibətlərini, arzularını da əlavə edirlər. Elə an yaranır ki, uşaq atlı oyununu ifa etməli olur. Bu zaman o,çubuğu minir, çubuğu at, özünü isə atlı hesab edr. Psixoloqların fikrində bir saat davam edən rollu oyunlar zamanı adi əl yaylığı uşaq üçün 10 müxtəlif məna kəsb edə bilər.: Məsələn. Bayraq, ilan, gəlin fatası, şərf və s. Bu yaş dövründə uşaqlarda bərpaedici təxəyyül surətləri daha üstün olur. Hekayə və nağılları dinləyərkən

[1] В.А.Сухомлински. Ürəyimi uşaqlara verirəm. Bakı, «Maarif» 1979, səh 205.

uşaqlar qəhrəmanları, ayrı-ayrı obrazları öz təxəyyüllərində canlandırır, onları fikrən görürlər.

Mən qürub edən Günəşi göstərib soruşuram:

- Günəş hara gedir?

Katya:

- «O öz qızıl bağında dincəlməyə gedir» deyə- cavab verir.

(V.A.Suxomlinskinin müşahidələrindən)

Süjetli şəkillərə tamaşa edən uşaqlar özlərini xəyalən orada baş verən hadisələrin iştirakçısı yerində təsəvvür edirlər. Lakin bunun üçün uşağın müəyyən biliklərə sahib olması, təəssürat və təsəvvürləp fondunun zənginliyi tələb olunur. Psixoloq A.N.Turianov uşaqlara «Vulkan nədir? sualı ilə müraciət etmişdir. Uşaqlardan biri demişdir: «Vulkan qorxulu heyvandır, soyuq yerlərdə yaşayır». Deməli, uşağın təsəvvürlər fondu bəsit olduğu üçün o, «vulkan» anlayışını təsəvvüründə canlandıra bilməmişdir. Bu fakt onu göstərir ki, məktəbəqədər yaşlı uşaqlarda təxəyyül surətləri onların əldə etdikləri təəssüratların mexaniki canlaqndırılması şəklində özünü biruzə verir. Belə surətlər düşüncəli, idraki deyil, **sensor- emosional** əsaslar zəminində yaradılır. Kiçik və orta məktəbəqədər yaşlı uşaqlarda **bərpaedici təxəyyül** surətləri xeyli inkişaf etsə də, hələ solğun olur. Onlar ixtiyari şəkildə ,qarşıya qoyulmuş məqsəddən asılı olaraq təsvirə uyğun dəqiq surətlər yaratmaqda onları beyinlərində canlandırmaqda çətinlik çəkirlər. Bu uşaqlarda həyat təcrübəsinin, təsəvvürlər fondunun kasıb olması və biliklərin məhdudluğu ilə bağlıdır. Məktəbəqədər yaşlı uşaqlar yaşlılardan eşitdikləri nağılları söyləyərkən buraya öz əlavələrini edirlər. Onlar tanış obrazları, hadisələri müxtəlif tərzdə kombinə edərək nə isə yeni bir şer yaratmağa cəhd göstərir, özlərindən nağıl və əhvalatlar uydurur çoxmərtəbəli, başı buludlara, ulduzlara çatan «evlər» tikir, oyuncaq maşınları toqquşdurub «qəza» yaradırlar. Rus psixoloqu K.İ.Çukovski qeyd edir ki, məktəbəqədər yaşlı uşaqlar dilin səs cəhətinə qarşı olduqca həssas olurlar. Uşağa müəyyən sözü və müəyyən söz

birləşməsini eşitmək kifayətdir ki, o, dərhal onu hər hansı bir əşyaya oxşadıb şüurunda onun obrazını yaratsın.

Zabil 5,2 yaş. biz avtomaşında Oğuz- Şəki şosse yolu ilə gedirik. O, uzaqda Şimalda görünən başı qarla örtülü çılpaq dağları göstərərək soruşur: «Ata, ora Ağdamdır?»

(Mənim müşahidələrimdən)

Bu psixi faktda uşaq «Ağdam» məfhumunu sözün hərfi mənasında qavradığı üçün başı ağ qarla örtülü dağın zirvəsini ağ dama bənzədirdi. Uşağın təxəyyülündə assosiativ rabitə konkret istinad əsasında yaranmışdır.

Dörd yaşlı Türkandan «Ayı nədir?-deyə soruşduqda o, heç bir mülahizə yürütmədən dərhal: «Qorxulu, böyükdür, bax belə»- deyə cavab verir». Məktəbəqədər yaşlı uşaqlar təxəyyül surətlərini yaradarkən adətən müəyyən istinad axtarırlar. Tədricən onlarda bu istinadlar aradan qalxır, reallıqda olmayan, fikri planda əşyalarla oyun fəaliyyətinə keçid- interiorizasiya baş verir. Uşaqlar konkret əşyalarla deyil, onların xəyali modelləri ilə əməliyyatlara qoşulurlar. Bu, artıq xüsusi psixi proses kimi təxəyyülün meydana gəlməsidir. «6 yaşlı Krill taxtın üstündə uzanaraq ətrafına oyuncdaqları qoymuşdur. Sakit bir saata yaxın yatır. Mən soruşuram:

- Sən nə edirsən? Xəstələnmisən?

- Yox. Mən oynayıram.

- Sən necə oynayırsan? – deyə xəbər alıram.

Sonra ona baxır, onunla nə baş verdiyi barədə düşünürəm. (V.S.Muxinanın gündəliyindən).

Rus psixoloqlarından O.M. Dyaçenko edir ki, təxəyyül də öz inkişafınqda digər psixi proseslərin ontogenetik inkişafda dəyişilməsi qanunlarına tabedir. Onun fikrincə, məktəbəqədər yaşın sonunda uşaqların bir çoxunda **yaradıcı təxəyyül** kifayət qədər sürətlə inkişaf edir. Uşaqlarda təxəyyülün inkişafı 2 əsas formada- müəyyən ideyaların yaranması və onların reallaşdırılması planının qurulması formasında özünü göstərir.

Yaradıcı təxəyyül uşağın fəaliyyəti prosesində ən başlıca olaraq oyun prosesində, özünü biruzə verir. Onlar quraşdırma, yanma, təsviri fəaliyyət və

applikasiya üzrə məşğələlərdə yaradıcı fəaliyyətə qoşulur, yeni, orijinal model və fiqurlar hazırlayır, müxtəlif rəsmlər çəkirlər.

Təxəyyül idraki- intellektual sferaya aid psixi prosesdir. O həm də uşaqlarda **affektiv-müdafiə funksiyasını** yerinə yetirir, böyüməkdə olan, özünümüdafiə qabiliyyəti zəif olan uşaq şəxsiyyətini ağır təəssüratlardan , ruhi sarsıntılardan qoruyur. Təxəyyülün idraki funksiyası vasitəsilə uşaq ətraf aləmi daha yaxşı tanıyır, qarşısına çıxan məsələni səmərəli və asan şəkildə həll edir. Affektiv təxəyyülün nəticəsində uşağın şüurunda öz «mən»i yaranır, onun başqa adamlardan daxilən ayrılması prosesi baş verir.

Məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlarda obrazlı təfəkkürün və təxəyyülün inkişafının əsas yolu əyani modelləşdirmə və əvəzetmə qabiliyyətlərinin formalaşmasına söykənir. Bu bacarıqlara sahib olan uşaq müxtəlif əqli məsələlərin həllində, real əşya və hadisələrin şərti əvəzedicilərini müəyyənləşdirir, əyani məkan modelləri yaradır.

Əvəzetmə qabiliyyəti insan ağlının fundamental xüsusiyyətlərindən biridir. İnkişaf etmiş formada o, müxtəlif simvol və işarələr şəklində təzahür edir. İnsan bu imkanları sayəsində elm və incəsənətin heyranedici nümunələrini yaradır. J.Piajenin fikrincə, insanda bu qabiliyyət ilk dəfə üç yaşın hüdudlarında müşahidə olunmağa başlayır.

**Suallar və tapşırıqlar**

1. Uşaq təxəyülünün xüsusiyyətləri haqqında tədqiqat aparan alimlərin adlarını sadalayın.
2. Uşaqlarda ilkin təxəyyül surətlərinin yaranmasında təqlidin rolu nədən ibarətdir?
3. Məktəbəqədər yaşlının təxəyyülünün xarakterik cəhətləri hansılardır?
4. Bərpaedici təxəyyül surətlərinin formalaşmasında əhəmiyyətli rol oynayan vasitələr hansıdır?
5. Təxəyyüldə idraki və emosional əlamətləri fərqləndirin.
6. Affektiv uşaq təxəyyülünün mahiyyətini izah edin.

## IV. 12. Uşaqların məktəb təliminə psixoloji hazırlığı

Uşaqların sistematik məktəb təliminə hazırlığı ciddi sosial-pedaqoji və psixoloji problemlərdən biridir. Elmi biliklərin sürətli inkişafı, informasiya yükünün və onun mənbələrinin çoxaldığı yeni, «Təhsil əsri» adlanan XXI əsr təhsil sistemi qarşısında yeni ciddi tələblər qoymuşdur. Yeni əsrin məktəbinin yaratmaq sahəsində səylər get-gedə artır, pedaqoq, psixoloq, fizioloqlarla yanaşı, sosioloq genetik antropoloqlar da dərin araşdırmalar aparırlar.

Uşaqların təlim yaşının müəyyən edilməsi və onların məktəbə hazırlığı məsələsi tarixən düşündürücü bir problem olmuşdur. Uşağın məktəb təhsili üçün optimal yaş dövrünün müəyyən edilməsi məsələsinə hələ XVII əsrdə münasibət bildirən Y.A.Komenski yazırdı ki, uşağın yaşı və əqli qüvvəsi oxumağa imkan verməzdən, hətta oxumağı tələb etməzdən əvvəl təlimə başlamaq lazım deyil. Ötən əsrin 30-cu illərində görkəmli rus psixoloqu L.S.Vıqotski qeyd edirdi ki, təlim üçün müəyyən optimal dövr vardır.Bundan irəliyə getmək və ya geri qalmaq təlim və inkişafı nəticələri baxımından həmişə zərəri olur. Rus psixoloqu A.N.Leontyev qeyd edirdi ki, məktəb yaşına çatmış uşaq bir il də evdə saxlanılarsa, valideynlər ona əvvəlki kimi yenə də körpə gözü ilə baxacaqlar, bu isə böhranı daha da kəskinləşdirəcək.[1]. Heç şübhəsiz böyük psixoloq burada uşağın məktəb yetkinliyinə çatması, məktəbə getmək istəyinin valideynlər tərəfindən təmin edilməməsi ilə bağlı yaranan böhranı, indiki halda, 6 yaşın böhranını nəzərdə tuturdu.

Hal-hazırda dünyanın 100 –ə qədər ölkəsində uşaqlar məktəb təliminə 6 yaşından qəbul edilirlər. Qeyd etmək lazımdır ki, bu problemin elmi-praktik səpkidə düzgün həll edilməsi ilk növbədə uşaqların məktəb təliminə funksional hazırlığını şərtləndirən amillərin, **«məktəb yetkinliyi»** meyarlarını düzgün müəyyənləşdirmək tələbini irəli sürür. Müasir fiziologiya və psixologiya elmlərində bu problem həm nəzəri, həm də təcrübi-eksperimental

[1] bax: Петровекий А.Н. Развитие личности и проблема ведущей деятельности. «Вопросы психологии», М., 1987, № 1, стр.22

yolla araşdırılsa da, vahid və bitkin bir konsepsiya mövcud deyildir. Bəzi mütəxəssislər uşağın məktəb təliminə cəlb edilməsində başlıca olaraq onun orqanizminin **morfofunksional, psixofizioloqii** inikşaf səviyyəsini başlıca meyar hesab edirlər. Onlar uşağın təlimə uyğunlaşmasını şərtləndirən çoxsaylı amillər içərisində uşaq orqanizminin funksional imkanlarının inkişaf səviyyəsini ön plana çəkirlər. Uşaqların məktəbə hazırlığını şərtləndirən «məktəb yetkinliyi» anlayışı uşaq orqanizminin məktəb təlimi şəraitində müəyyən biliklər məcmuyunu mənimsəməyə təminat verən morfofunksional və psixofizioloji inkişaf səviyyəsini əks etdirir.

Müasir dövrdə xarici ölkə psixoloq və fizioloqları uşaqların məktəb təliminə hazırlığını bir sıra mövqelərdən – **pasport və bioloji yaş** , **sosial** və **psixoloji yetkinlik** mövqeyindən əsaslandırırlar. Bu problemi araşdıran alman alimi N.Oster uşağın «məktəb yetkinliyi»ni pasport və bioloji yaşın yerdəyişməsi, xüsusilə, **süd dişlərinin daimi dişlərlə əvəz olunması** baxımından izah edir. Digər alman alimləri Ç.Roxe və Q.Ritze isə bu kriteriyaya az əhəmiyyət verir, retgenoloji müayinə vasitəsilə uşaq orqanizminin **sümük yaşının** müəyyənləşdirilməsi, skeletin sümükləşmə səviyyəsini daha obyektiv kriteriya hesab edirlər. Xarici ölkə alimlərrindən bəziləri uşağın məktəbə hazırlığını bioloji faktorlarla deyil, sosial faktorlarla, uşağın şəxsiyyətinin düzgün inkişaf səviyyəsi ilə əlaqələndirirlər.

Uşaqların məktəb təliminə hazırlığının nisbətən mükəmməl kriteriyaları amerikan alimi A.Anastazi tərəfindən irəli sürülmüşdür. O, belə hesab edir ki, uşağın məktəb təliminə hazırlığı onun bilik və bacarıqları, qabiliyyətləri, motivləri, bir sözlə, məktəb proqramını mənimsəmək üçün zəruri olan şəxsi keyfiyyətlərinin inkişaf səviyyəsi ilə müəyyən olunmalıdır.

Rus alimlərindən V.M. Antronova və A.O. Loseva belə hesab edirlər ki, məktəb təliminə hazırlığı şərtləndirən amillər arasında inkişaf etmiş obrazlı nitq, kifayət qədər lüğət ehtiyatı, geniş cümlə qurmaq və səsləri düzgün tələffüz etmək bacarıqları əsas yer tutur. Artıq 20 ilə yaxındır ki,

respublikamızda uşaqların məktəbdə təhsilə cəlb edilməsində 6 yaşından başlanılır və davam etdirilir. Hər il 1 sentyabr tarixədək 6 yaşı tamam olan uşaqlar I siniflərdə təhsil almağa başlayırlar. Uşaqların təlimə başlaması üçün pasport yaşı bir meyar kimi götürülsə də, onların heç də hamısı bu yaşda sistematik məktəb təliminə hazır olmurlar. Onların təlimə hazırlığı və qabil olmasını yoxlamaq bir çox amilləri kompleks şəkildə nəzərə almaq zəruridir.

Bu məqsədlə xüsusi diaqnostik metod olan Kern Yirosek testindən istifadə edərək «yetkin» və «orta yetkin» səviyyəli uşaqların kütləvi məktəblərin birinci siniflərinə cəlb etmək gözlənilən nəticəni əldə etməyə zəmin yaradır. Bu test dünya təcrübəsində sınaqdan çıxarılmış uğurlu bir metod kimi «məktəb yetkinliyini» müəyyənləşdirməkdə etibarlı nəticələr əldə etməyə imkan yaradır.

Kern Yirosek testi üç subtestdən ibarətdir:

1. Sxematik təsvirlə insan (kişi) fiquru çəkmək (əvvəlcədlən uşağa heç bir təlimat verilmir)

2. Qarşıya qoyulmuş vərəqdəki 3-4 sözdən ibarət sadə cümlənin (məsələn, «O sup yedi») köçürülməsi (sözləri iki sətirdə də vermək olar).

3. Üfiqi və şaquli olmaqla aralarındakı məsafə bərabər olan 10 nöqtədən ibarət sxemi olduğu kimi köçürmək.

Bu testin hər bir subtestindəki tapşırığın icrasına 10 dəqiqə vaxt verilir. hər bir tapşırığın icrası zamanı uşaq üzərində müşahidələr aparılır, hansı əl ilə işləməsi, sakit oturması və ya vurnuxması, qələmi əlindən salması, düz, yaxud səhv tutması, ona deyilmiş istiqamətləndirici sözlər və ya tərifl ər protokolda qeyd olunur[1]. 1 ən yüksək, 5 ən aşağı göstərici hesab olunur və aşağıdakı meyarlar əsas götürülür:

15 bal – uşaq tibbi – psixoloji müayinədən keçməlidir.

10-14 bal – uşaq məktəbə hazır deyil

6-9 bal- məktəbə əsasən hazırdır

[1] bax: L.Ş.Bağırlı. Məktəbə hazırlığın psixodioqnostikası. B., «Nərgiz» 2003 s.169-176

3-5 bal – uşaq məktəbə hazırdır.

Kern Yurosek testi uşaqların kompleks psixodioqnostikasını həyata keçirməyə imkan verir. Onun vasitəsilə 6 yaşlı uşaqların ümumi inkişafı, onların qabiliyyətləri, barmaqlarının hərəkət koordinasiyası və inkişaf səviyyəsi haqqında təsəvvürlər formalaşır. Bu test eyni zamanda **informativ-proqnostik** imkanlara da malikdir. Testin yerinə yetirilmə keyfiyyəti uşaq orqanizminin həm də bioloji yetkinliyi haqqında təsəvvür yaradır. Belə ki, psixoloqlar barmaq əzələlərinin dəqiq hərəkəti ilə mərkəzi sinir sisteminin yetkinliyi, nitqin inkişaf səviyyəsi ilə uşaqların təsviri fəaliyyəti, rəsmetmə qabiliyyəti arasında qanunauyğun əlaqənin olduğunu aşkara çıxarmışlar. Onlar belə bir arqumentə əsaslanırlar ki, uşağın nitqi nə qədər yüksək inkişaf etmişdirsə, onun rəsmetmə imkanları da bir o qədər yüksək olur. Uşaqların məktəbəqədər hazırlığında həyat şəraiti, mikrososial mühit, coğrafi ərazi və s. kimi amillərin də rolu böyükdür. Həyat ukladının aşağı olması, yoxsulluq kimi amillər uşaqların normal fiziki və psixi inkişafında heç də az rol oynamır. Düzgün və normal qidalanma, gigiyenik rejimin təmin edilməsi uşaq orqanizminin normal inkişafında böyük təsirə malikdir. Yoxsul mikrososial mühitdə tərbiyə olunan, baxımsız, əlverişsiz şəraitdə böyüyən uşaqların böyük əksəriyyətində əsəb, psixi və nitq sferasının funksional qüsurları emdokrin və digər sistemlərin xəstəlikləri müşahidə olunur ki, onlar da uşaqların ümumi intellektul və bioloji inkişafına ləngidici təsir göstərir. Qeyd olunan potologiya ilə məktəbə qəbul edilən uşaqların iş qabiliyyəti zəif olur, onlar dərsdə tez yorulur, təlimdə geridə qalır, şagird kollektivində bəzən özlərini aqressiv aparır, nəticədə «çətin uşaqlar» sırasına daxil olurlar.

İnsanın ontogenezdə somatik inkişafı bütün tarixi dövrlərdə bir problem kimi daim alimləri düşündürmüşdür. Arxivlərdə saxlanılan bir çox sənədlər qədim dövrlərdə insanların bioloji yaşının dinamikası haqqında məlumat əldə etməyə imkan vermişdir. Böyük Azərbaycan şairi M.Füzulinin yaşadığı XVI əsrdə uşaqların məktəbdə təlimə başlaması dövrü haqqında məlumata rast

gəlmək olar. Bu, şairin məşhur «Leyli və Məcnun» poemasında belə təsvir olunmuşdur:

Çün sürətlə dönüb zəmanə,
On yaşına yeddi ol yekanə.
- - - - - - - - - - - - - - - - - - -
İtmamə yetib tərəqqi sünnət,
Təlimi ümumə yetdi növbət.
Əsbab ona eyləyib mürəttəb,
Verdilər onunla zibi-məktəb.

Məsələn, orta əsrlərdə və sonrakı dövrlərdə qızlarda menstruasiya 16,5-17,5 yaşlarında başlandığı halda, hal-hazırda iri sənaye şəhərlərində yaşayan qızlarda bu proses 12,5-13 yaşlarında başlanır. Somatik inkişafdakı bu sıçrayışlar uşaq və yeniyetmələrin fiziki inkişafında da hiss olunur. Məktəb yaşlı uşaqlarda boy artımının davam etmə müddəti azalmış, bir sıra həyati proseslər intensiv xarakter almışdır. Yeniyetmələrin cinsi yetişkənliyi 100 il əvvəlki dövrlə müqayisədə 2 il tez başa çatır.

Uşaqların məktəbə fiziki hazırlığının təhlili göstərir ki, 6 yaşlı uşaqların böyük əksəriyyətində bu göstəricilər normaya uyğundur və bəzən onu ötüb keçir. Müasir uşaqlar 1929-1930-cu illərdəki yaşıdları ilə müqayisədə boy göstəricilərinə görə 5-7 sm uca, çəkiyə görə 3 kq artıqdırlar[1].

Planetdə müşahidə olunan **akselerasiya** adlandırılan hadisə – fiziki inkişafın sürətlənməsi insanın hərəki funksiyalarının inkişafında da hiss olunur. Akselerasiya coğrafi mövqeyindən iqlim, irqi və s. xüsusiyyətlərindən asılı olmadan planetin bütün ölkələrində müşahidə olunmaqdadır. Onun təsiri sosial vəziyyətindən asılı olmayaraq həm şəhər, həm də kənd əhalisi arasında özünü göstərir.

Akselerasiya bioloji və sosial amillərin təsiri ilə meydana gəlmiş tipik hadisədir. Burada hər bir nəslin fərdi həyati inkişafı, endogen dəyişikliklər

[1] bax.Дошкольная педагогика. /Под.ред.В.И.Логиновой, П.Г.Саморуковой/ в двух частях. Часть вторая. М. «Просвещение» , 1988, стр. 199

mühüm rol oynayır. Bir sıra tədqiqatlar akselerasiyanı yaradan amillər sırasına **bioloji amilləri**- atmosferdə zəif dozalı ionlaşdırıcı şüaları, radiaktiv təsirlərin artmasını, ətraf mühitin çirklənməsini, qidaların tərkibində bioaktiv maddələrin və stimulyatorların pestisidlərin, mineral duzların gübrələrin, qidaların kalori tutumunun həcmini və s. aid edirlər. Akselerasiyanı şərtləndirən **sosial** amillər sırasına urbanizasiya (şəhər əhalisinin təzələnməsi) ailələrin rifah səviyyəsi, informasiya və kommunikativ təsirlər, psixoneyrogen amillər, o cümlədən sosial mühitin gənc nəslə göstərdiyi seksual təsirlər də aid edilir. Bəzi alimlər akselerasiyanın uşaq və yeniyetmələrin yalnız fiziki deyil, həm də əqli inkişafına təsirini də nəzərə almağı zəruri hesab edirlər. Müasir uşaqlar məktəbə böyük potensial imkanlarla gəlir. Bu imkanların real qüvvəyə, şəxsiyyət keyfiyyətlərinə çevrilməsi üçün məqsədəyönəlmiş tərbiyəedici, öyrədici, formalaşdırıcı, inkişafetdirici pedaqoji proses lazımdır. V.A.Suxomlinski yazırdı: «Təlim uşaqlar üçün o vaxt maraqlı, cəlbedici olur ki, o, fikrin, hisslərin, yaradıcılığın, gözəlliyin, oyunun parlaq işığı ilə şəfəqlənir[1].

Uşaqların məktəbə hazırlığı kompleks bir problemdir. Onun anatomik-fiziki, sosial-pedaqoji və psixoloji komponentləri vardır.6 yaşın sonunda uşaqların cəmiyyətdə sosial mövqeyi dəyişir. O nəinki **məktəbli mövqeyinə** doğru inkişaf edir, həm də, ona doğru can atır, məktəbə getmək, məktəbli olmaq, oxumaq istəyir. Uşağın «davranışının sosioloji situasiyası» (L.S.Vıqotski) dəyişir. Böyük məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafında yeni bir xüsusiyyət **həssaslığın artması- senzitivlik** müşahidə olunur.

Bu özünü 2 əsas sferada: **birincisi**, əxlaqi- psixoloji normaların davranış qaydalarının mənimsənilməsində**, ikincisi,** sistematik təlim üsullarının və məqsədlərinin dərk edilməsində göstərir. Senzitivlik həmçinin uşaqların təlimə qabilliyində, savada yiyələnmə sahəsində də ciddi amildir.

[1] Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. B., «Maarif», 1979, s.143

6 yaşlı uşaqların sistematik məktəb təlimində uğurları onların bilavasitə təlimə hazırlığından asılıdır. Burada uşağın sağlamlığı, anatomik -fizioloji inkişaf səviyyəsi başlıca, həm də zəruri şərtlərdən biridir. Bu yaş dövründə uşağın orqanizminin fəal yetişməsi prosesi davam edir. Uşağın boyu hər ay orta hesabla 0,5 sm, çəkisi isə 200 qram artır. Bədənin mütənasibləşməsi davam edir. Uşaqların hərəki sferada müəyyən imkanları diqqəti cəlb edir. Onlar sərbəst gəzir, hoppanmağı, müxtəlif sürətlə qaçmağı, mayallaq aşmağı, sürünməyi və s. bacarırlar. Onların hərəkətləri plastik və ritmik olur və bu idman məşğələlərində, mütəhərrik oyunlar və musiqi məşğələlərində göstərdikləri fəallıqla müşayət olunur.

6 yaşında uşaqların boyu 119-120 sm-ə, çəkiləri 20,5-21 kq-a çatır. Bu dövrdə uşaqların baş beynində ciddi struktur və keyfiyyət dəyişiklikləri baş verir, çəki 1250 qrama çatır. Baş beynin böyük yarımkürələri, xüsusilə, ikinci siqnal sisteminin lokal mərkəzinin yerləşdiyi alın payı daha güclü inkişaf edir. Əsas sinir prosesləri olan oyanma və ləngimə proseslərinin cərəyan etməsində dəyişiklik baş verir. Ləngidici reaksiyaların imkanları və mümkünlüyü artır. Bu, uşağın davranışında və fəaliyyətində iradi keyfiyyətlərin yaranmasına gətirib çıxarır, onun tələblərə uyğunlaşmasını impulsivliyin ləngidilməsini arzuedilməz əməllərdən çəkinməsini şərtləndirir. Uşağın yeni şəraitə məktəb həyatına normal uyğunlaşması üçün bu çox mühüm amildir. Bununla belə, 6 yaşlı uşaqların anatomik – fizioloji imkanlarını şişirtmək heç də doğru deyil. Onlar dünənki bağça uşaqları, qayğısız balacalardır. Görkəmli Gürcü psixoloq və pedaqoqu Ş.A.Amonaşvili 6 yaşlı uşaqları «xüsusi xalq» adlandırmışdır. Bu yaşda uşaqların beyin kütləsini təşkil edən sinir hüceyrələrinin enerji tutumu olduqca azdır və gərgin zehni fəaliyyət zamanı sürətlə sərf olunaraq tükənir. Uşaqlara qarşı hədsiz tələbkarlıq, qadağanlar, hədsiz yüklənmə, ciddi rejim onlarda nevrozların, vegetativ nevrotik simptomların, nevrotik depressiyaların yaranmasına gətirib çıxara bilər. 6 yaşlı uşaqların barmaq və bilək sümükləri, əzələləri hələlik kifayət

qədər inkişaf etmədiyinə görə, onlar yazı təlimində xüsusilə çətinlik çəkirlər. Uşağın məktəbə fiziki cəhətdən sağlam gəlməsi çox mühüm amildir. Bununla belə, məktəbdəki təlim uğurları onun psixoloji hazırlıq səviyyəsi ilə də sıx şəkildə bağlıdır. Psixoloji hazırlıq uşağın cəmiyyətdə sosial mövqeyinin dəyişməsi və təlim fəaliyyətinin spesifik cəhətləri ilə şərtlənir. **Psixoloji hazırlığın** konkret məzmunu sabit xarakter daşımır, o daim dəyişir və zənginləşir. Rus psixoloqları B.Q.Ananyev, L.İ.Bojoviç, A.N.Leontyev, D.B. Elkonin və b. tədqiqatları uşağın məktəb təliminə psixoloji hazırlığını strukturunu müəyyənləşdirməyə gətirib çıxarmışdır. Psixoloji hazırlıq üç başlıca komponentlə müəyyənləşdirilir: **a) intellektual hazırlıq; b) şəxsi və sosial – psixoloji hazırlıq. c) iradi hazırlıq.**

Uşaqların **intellektual baxımdan təlimə hazırlığı** uzun illər boyu yanlış olaraq onların əqli inkişaf səviyyəsi, biliklərinin, lüğət fondunun həcmi və s. ilə ölçülürdü. Qeyd olunan amillər uşağın intellektual cəhətdən inkişaf səviyyəsi haqqında müəyyən təsəvvürlər yaratsa da, bütövlükdə onun inellektual hazırlığı haqqında bitkin nəticə əldə etməyə əsas vermir. Uşağın məktəb proqramlarında əks olunmuş təlim materiallarını mənimsəməsi üçün inkişaf etmiş idrak proseslərinin mövcudluğu, təfəkkür əməliyyatlarına sahib olması ən vacib amillərdən biridir.

Altı yaşlı uşaqların məktəbəqədər yaş dövründə əldə etdikləri bilik, bacarıq və təsəvvürlər fondu əlbəttə, heç də kasıb deyil. Lakin onların idrak imkanlarını hədsiz dərəcədə şişirtmək də doğru deyildir. Bu yaş dövründə təlim materiallarını mənimsəmək üçün **təfəkkürün məntiqi formaları** hələ kifayət qədər formalaşmadığına görə, **onlar yeni fəaliyyət növü olan təlimdə** xeyli çətindiklərlə qarşılaşırlar. Altı yaşın sonunda uşaqlarda hələ də əyani obrazlı təfəkkürün yüksək formaları üstünlük təşkil edir və bu onların intellektual hazırlığının ən başlıca yekunu kimi nəzərə çarpır. Məktəb təliminə intellektual baxımdan hazır olmayan uşaqlar dərs prosesində özlərinin passiv fəaliyyəti ilə seçilir. Nəticədə zəif mənimsəyən, təlimdə geridə qalan şagirdlər

sırasına düşürlər. Onların intellektual kütlüyü və korazehinliyi təlimə qabil olmadığı haqqında sonrakı təsəvvürlərin mənbəyində məhz uşağın məktəbə intellektual baxımdan hazırlığın lazımi səviyyədə olmaması durur.

Uşağın məktəb təliminə psixoloji hazırlığının vacib komponentlərindən biri də **şəxsi və sosial psixoloji hazırlıqdır**. Psixoloji tədqiqatlar sübut edir ki, artıq 4-5 yaşlarından etibarən uşaqlar məktəbliyə məxsus geyim əşyalarına, dərs ləvazimatlarına, məktəb zənginə və s. maraq göstərirlər. Bu, onlarda tələbat, motivləşmə sferasında yeni keyfiyyətlərin yarandığını «yeni sosial mövqeyin» (L.İ.Bojoviç), məktəbli mövqeyinin formalaşdığının ilkin təzahürü kimi özünü göstərir. Uşağın məktəbə şəxsi hazırlığı onun məktəb həyatına müəllimlərə, təlim fəaliyyətinə, yoldaşları ilə ünsiyyətə marağı səviyyəsində əks olunur və daha çox məktəb həyatının zahiri cəlbediciliyi ilə bağlı olur. Böyük məktəbəqədər yaş dövründə bu zahiri amillər sırasına daha ciddi amil- təlim, uşağın yazıb oxumaq həvəsi, istəyi də daxil olur. Uşağın təlimə psixoloji hazırlığı onun bilik, bacarıq və vərdişlər qazanmağa, ətraf aləm haqqında yeni informasiya əldə etməyə yönəlmiş **ifadəli maraqlarının məcmuyudur**. Uşağın yaşıdları dairəsinin genişliyi, sosial əhatəsinin zənginliyi onun normal psixi inkişafın mühüm şərtidir. Uşaq bağçasına gedən məktəbəqədər yaşlı uşaqlarla «ev uşaqları» arasında fərqlər məktəbdə təlimin başlanması ərəfəsində aydın göstərir. Müşahidələr göstərir ki, bağçaya gedən uşaqlarda inkişafın və sosial fəallığın göstəriciləri daha üstün olur.

Tez-tez uşaqlarını gəzinti və səyahətlərə, evdən kənar əyləncə yerlərinə aparan valideynlər özlərinin sosial təcrübələrini övladlarına daha səmərəli şəkildə ötürmək imkanı əldə etmiş olurlar. Burada ailənin rifah səviyyəsi valideynlərin təhsili, ayrıca mənzilin olması, ailə büdcəsinin zənginliyi, ailədaxili psixoloji iqlim kimi amillər ciddi təsirə malikdir.

Uşaqların sistematik məktəb təliminə psixoloji hazırlığında **iradi hazırlıq** mühüm yer tutur. 6 yaşın tamamında uşaqlarda iradi fəaliyyətin əsas ünsürləri formalaşmış olur. Uşaq qarşısına məqsəd qoyur, qərar qəbul edir, fəaliyyət

planı qurur, onu icra etmək üçün üsul və vasitələr seçir, qarşısına çıxan çətinlikləri aradan qaldırmaq üçün səy göstərmək təşəbbüsləri nümayiş etdirir. Bununla belə, ki, 6 yaşlı uşaqlarda fəaliyyətin ixtiyari formaları hələ kifayət qədər formalaşmadığı üçün, onların qarşıya qoyduqları məqsədlər hələ kifayət qədər davamlı və düşünülmüş xarakterdə olmur. Tapşırıqların çətinliyi, vaxt sərfinin çoxluğu məktəbin daxili intizam qaydaları, gün rejiminin tələbləri və s. uşaqlarda yorğunluq yaradır, onlarda diqqətsizlik və dalğınlıq hallarının yaranmasına səbəb olur.

Uşaqların təlimdə əqli fəaliyyəti oyun vasitəsilə stimullaşdırıldıqda, cəlbedici və rəngarəng vasitələrlə emosional cəhətdən motivləşdirildikdə, məhsuldar şəkil almağa başlayır. 6 yaşın tamamında uşaqların hərəkətlərində ixtiyariliyin səviyyəsi əhəmiyyətli dərəcədə artmağa başlayır, onların hərəkətləri şüurlu iradi hərəkətlərin obyektinə çevrilmiş olur. Onlar ailədə və məktəbdə yaşlıların göstərişi ilə əməyə cəlb olunur, növbətçilik edir, məsuliyyətliliyə alışdırılırlar. Uşaqlarda öz hərəkətlərinə cavabdehlik hissləri meydana gəlir, başladıqları işi sona yetirmək, məişət əməyində anaya kömək etmək təşəbbüsləri artır. Altı yaşlı uşaqlar öz davranışlarını daha əhəmiyyətli motivlərə tabe etməyə qadir olur, əxlaqi motivlərin ilk təzahürləri meydana çıxır, səliqəlilik təşəkkül tapmağa başlayır. Fəaliyyətin meydana gələn iradi tənzimi iş və hərəkətlərin ardıcıl və davamlı xarakter almasına, çətinliklərə müəyyən münasibətin formalaşmasına gətirib çıxarır. Bununla belə, bu yaş dövründə bütün uşaqlarda fəaltyyətin ixtiyari formalarının formalaşdığını söyləmək doğru olmazdı. Xarakterində iradi keyfiyyətlər yaşamüvafiq şəkildə formalaşmamış uşaqlarda tez bezikmə, yorulma, işdən yarımçıq yayınma, hətta çətinlik zamanı ağlama hallarına da rast gəlmək olur.

Beləliklə, altı yaşlı uşaqların məktəbə psixoloji hazırlığının başlıca yekunlarını aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Bu yaş dövrünün sonunda uşaqlar ətraf aləm haqqında müəyyən təsəvvürlərə, bacarıq və vərdişlərə, bilik ehtiyatına yiyələnmiş olurlar.

2. Məktəbəqədər uşaq müəssisələrində hazırlıq keçmiş altı yaşlı uşaqlar müəyyən səviyyədə iradi fəaliyyət üsullarına daha yaxşı yiyələnmiş olurlar. Bu, onların məktəb həyatına daha yaxşı alışmasını təmin edir.

3. Uşaqların intellektual, iradi və sosial psixoloji baxımdan sistematik təlimə funksional hazırlığının mövcud səviyyəsi onların təlim uğurlarının etibarlı təminatçısıdır.

Məktəbəqədər yaşlının məktəb təliminə hazırlığını öyrənmək üçün funksional struktur sxem[1]




[1] Практикум по возрастной и педогогической психологии (под ред. А.И. Щербакова) М., «Просвещение», 1987, стр.63

Pedaqoji-psixoloji tədqiqatlar sübut edir ki, 6 yaşlı uşaqların məktəbdə kütləvi təlimi bir sıra şərtlərin ciddi nəzərə alınmasını tələb edir.

1. 6 yaşlı uşaqların imkanlarını bilən və onlarla ünsiyyət yaratmağı bacaran yüksək ixtisaslı müəllimlərin olması;
2. Təlimin məzmunu, metod və formalarının həmin yaş dövrü üçün adekvatlığı;
3. Dərs məşğələlərinin oyun elementləri ilə zənginliyi və onların ənənəvi təlim formalarından fərqli olması;
4. Uşaqlar üçün müvafiq həyat şəraitinin: oyunlar üçün otağın, oyuncaqların, gəzinti və oyun üçün meydançaların olması. Belə şəraiti yaratmaq o qədər də asan deyildir. Odur ki, bir çox psixoloqlar bu problemin həllindən 20 il keçməsinə baxmayaraq hələ də 6 yaşlı uşaqların təlimi və tərbiyəsinin yaxşı təchiz edilmiş məktəbəqədər müəssisələrdə aparılması fikrini də israr edirlər.

Bununla belə, ötən 20 illik təcrübə göstərir ki, müasir ibtidai məktəb şəraitində uşaqların 6 yaşdan kütləvi təlimi gözlənilən nəticələri əldə etməyə tam təminat yaratmamışdır. Bir sıra məktəblərdə 7-8 yaşlı uşaqlar üçün nəzərdə tutulmuş ənənəvi təlim metodları və iş formaları dərsdə bir sıra neqativ təzahürlərə gətirib çıxarır: uşaqlar kəskin mənfi emosiyalar keçirir, müvəffəqiyyətsizlikdən sarsılır, məktəb tələblərini anlamır, müəllimdən qorxur, təlim yükünə davam gətirə bilmirlər.

Təlimin birinci ilinin məzmunu uşağın sonrakı məktəb həyatının fərəhli perspektivlərini açır. Xüsusi proqram və metodika əsasında məktəbdə təlim və tərbiyə alan altı yaşlı uşaqlar xüsusi hazırlıq keçmədən yeddi yaşdan təlimə cəlb olunan yaşıdlarını öz inkişafları baxımından üstələyirlər[1]

**Suallar və tapşırıqlar**

1. Uşaqların məktəb təliminə funksional hazırlığı nəyi əks etdirir?

[1] Амонашвили Ш.А. В школу – с шести лет. В. Кн: Педагогический поиск. М.,»Педагогика», 1989, стр.14

2. Uşaqların «məktəb yetkinliyi»ni hansı meyarlara müəyyən etmək olar?
3. Altı yaşlı uşaqların məktəbə hazırlığını müəyyən etmək üçün hansı testdən istifadə etmək olar?
4. Kern-Yirosek testinin mahiyyətini və onun tətbiqi metodikasını söyləyin.
5. Akselerasiya nədir? Onu doğuran amillər nədən ibarətdir?
6. Uşaqların məktəb təliminə psixoloji hazırlığının ünsürləri hansılardır? Onların məzmununu söyləyin.
7. Altı yaşlı uşaqların məktəbə hazırlığının əsas yekunlarını göstərin.

# V . FƏSİL Məktəblinin psixoloji xüsusiyyətləri

## V.1. Kiçik məktəb yaşı dövründə psixi inkişaf

Məktəb həyatının ilk dövrü 6-10 yaş mərhələsini əhatə etməklə ibtidai siniflərdə təhsil illərinə təsadüf edir. Qeyd etdiyimiz kimi, birinci sinifə daxil olmaqla uşaq sistematik təlimə cəlb olunur. Təlimin təsiri altında uşağın məktəbəqədər yaşda əldə etdiyi psixi imkanlar genişlənir, psixi proseslərin xassələrin yenidən qurulması prosesi baş verir. Uşağın həyatında **təlim aparıcı fəaliyyətə çevrilir.** Təlim əməyi kiçik məktəblinin gün rejimində başlıca yer tutur. Daha ciddi fəaləyyət növü kimi psixi inkişafının vasitəsinə çevrilir. Onun təsiri altında uşaqlarda psixi proseslərin ixtiyariliyi yüksəlir, **refleksiya** -özünənəzarət və daxili fəaliyyət planı formalaşır.

Bu yaş dövründə uşağın orqanizmi anatomik- fizioloji baxımdan sakit və bərabərsürətli tempdə inkişaf etməkdə davam edir. I-IV siniflərdə keçən təlim illərində uşaqların boy və çəki artımı mütənasib göstəricilərə malik olur. I sinifdə uşağın boyu 120-125 sm-dən artaraq IV sinifin sonunda orta hesabla 130-143 sm-ə çatır. Qızların boy artımında nisbətən üstün fərqlər müşahidə olunur. Kiçik yaşlı məktəblilərin çəkisi 4 ildə 6-10 kiloqram olmaqla artaraq 6 yaşda olan 20-21 kiloqramdan 27-38 kiloqrama çatır. Bu yaş dövründə qızlarla oğlanların boy və çəki artımında ciddi fərqlər müşahidə olunmur.

Bədənin boy artımı ilə yanaşı, skeletin sümükləşməsi prosesi də davam edir, lakin hələ tamamlanmış olmur. Skelet sistemində qığırdaq toxumaları çoxluq təşkil edir. Kiçik yaşlı məktəblinin orqanizmi özünün elakstikliyi və mütəhərrikliyi ilə fərqləndiyinə görə, bu yaş dövrü bədən tərbiyəsi və idman məşğələləri üçün əlverişli hesab olunur. Bədənin böyük əzəliləri kiçik əzəlilərə nisbətən tez inkişaf etdiyinə görə, uşaqlar üçün dəqiq hərəkətləri yerinə yetirmək çətinlik törədir. Barmaq buğumlarının sümükləşməsi yalnız bu yaş dövrünün sonunda başa çatdığı üçün, kiçik məktəblilər yazı işində tez yorulurlar. Yazı işlərini səliqəli yerinə yetirmək onlar üçün böyük çətinlik

törədir. Uşaqlarda əl barmaqları buğumlarını sümükləşməsi yalnız 9-10 yaşda, biləyin sümükləşməsi isə 10-12 yaşda başa çatır. Ürək əzələləri sürətlə böyüyür, baş beyni və bütün bədəni qanla yaxşı təchiz edir. Qanın tərkibində ağ qan cisimciklərinin- leykosidlərin miqdarı əhəmiyyətli şəkildə artır, orqanizmin xəstəliklərə qarşı təbii immun sisteminin müqaviməti xeyli yüksəlir. Fizioloqlar belə hesab edirlər ki, insanın bütün həyatı boyu ən az xəstələnmə halı məhz 8-10 yaşında müşahidə olunur. Baş beynin çəkisi 6 yaşda 1250 qr-dan 10 yaşında artaraq 1350 qr-a çatır. Bu yaşda beyin öz strukturu etibarı ilə yetkinləşir, böyük yarımkürələrin qabıq zonalarının ölçüləri normal yaşlı adamın ölçülərinin 80%-nə çatmış olur. Lakin sinir proseslərinin dinamikası hələlik kifayət qədər yüksək olmur. Ləngimə prosesinin oyanma üzərində üstünlüyü özünü göstərir. Oyanma və ləngimənin qarşılıqlı induksiyası sahəsində də dəyişiklik baş verir.

Uşağın məktəbə daxil olması onun həyatında böyük keyfiyyət dəyişikliklərinə gətirib çıxarır. Onun həyatının məktəb illərində müəllim başlıca simadır. O, uşaqların qarşısında məqsəd və vəzifələr qoyur, onların yerinə yetirilməsi yolları və vasitələrini göstərir, təlim tapşırıqlarının icrasına nəzarət edir və onları qiymətləndirir.

Uşağın məktəb təliminə başlaması onun həyatının «sosioloji situasiyası»nda (L.S.Vıqodski) ciddi dəyişikliklər yaradır. O, status – yeni məktəbli adı qazanır. Təlim vasitəsilə o, sistematik olaraq təbiət, cəmiyyət, insan fəaliyyətinin nəticələri haqqında elmi məlumatlara – bilik, bacarıq və vərdişlərə yiyələnir.

Uşağın qoşulduğu yeni fəaliyyət forması- təlim xüsusi fəaliyyət növü kimi oyun və əməkdən fərqlənir. Əmək fəaliyyəti yeni məhsulların yaradılmasına yönəldiyi halda, təlim elmi biliklərin mənimsənilməsinə xidmət edir. Uşaqlar bu prosesdə müəllimin rəhbərliyi altında elmi anlayışlar sisteminə, bacarıq və vərdişlərə yiyələnirlər.

Təlim yalnız öyrədici deyil, həm də tərbiyəedici və inkişafetdirici vəzifələrin yerinə yetirilməsini də təmin edir. Böyük rus pedaqoqu K.D.Uşinski yazırdı ki, təlim ciddi və gərgin əməkdir, uzunmüddətlidir, fikirlə zəngindir və alın təri tələb edir.

Birinci sinifdə təlimə başlayan uşaq yeni fəaliyyət növünə çətinliklə uyğunlaşır, o, məktəbin daxili rejiminə əməl etməli olur. Təlim tapşırıqlarını yerinə yetirir. Yeni adamlarda, yaşlılar və yaşıdları ilə, müəllim və şagirdlərlə qarşılıqlı münasibətlərə daxil olur. Uşağın yeni şəraitə – məktəbdə təlim şəraitinə maneəsiz uyğunlaşması onun ailədə və bağçada məktəbə hazırlanması və s. səviyyəsindən asılıdır. Psixoloji tədqiqatlar sübut edir ki, uşağın başqaları ilə şəxsi münasibətləri sistemi ilə onun təlim fəallığı arasında qarşılıqlı əlaqə mövcuddur. Rus psixoloqu E.İ.Kriçukun, fikrincə birinci sinifdə bu əlaqə xeyli zəif olduğu halda, dördüncü sinifdə xeyli yüksəlir. Uşağın şəxsiyyətlərarası münasibətlər sisteminə, mövqeyinə kollektivdəki sağlam psixoloji iqlim, onun yoldaşları ilə qarşılıqlı münasibətlərinin xarakteri, təlim fəaliyyətinə təsir göstərir. Sinifin ictimai rəyi uşaqların davranışında təsirli vasitə olur. Kiçik yaşlı məktəblilərin təlim fəaliyyətinin motivləşməsində müəllimin, ailənin və uşağın yaşıdlarının münasibətlər sistemi güclü stumullardan biridir. Dərsdə fərdi işin qrup və kollektiv iş formaları ilə növbələşdirilməsi hər bir uşağa öz fəaliyyətinin nəticələrini yoldaşlarının işi ilə müqayisə etməyə şərait yaradır. Bu isə təlimə marağın yüksəldilməsi vasitələrindən biridir. Birinci sinifdə təlimin öz xüsusiyyətləri vardır. Uşaqların oxu, yazı və hesablama vərdişlərinin, məsələ həlli bacarıqlarının formalaşdırılmasında sərt qadağanlar yolverilməzdir. Emosional stimullaş-dırma və oyun elementləri ilə qurulan təlim şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların yorğunluğunu aradan qaldırır, təlim materiallarının mənimsənilməsinə marağı yüksəldir.

Birinci sinifə yeni daxil olan şagirdlərin qarşılaşdığı çətinlikləri təhlil edən prof. M.Ə. Həmzəyev bunun səbəblərini aşağıdakı amillərlə izah edir.

1. Məktəbdə həyata keçirilən dərinləşmiş məhsuldar əqli iş uşaqlarda hövsələ, emosiyalarını saxlaya bilməyi, təbii hərəki fəallığı tənzim etməyi, diqqətin tədris məsələləri üzərində cəmləşdirməyi və saxlaya bilməyi tələb edir. Lakin kiçik məktəblilərin heç də hamısı bunlara əməl edə bilmirlər. Onların çoxu asanlıqla və tez yorulur.

2.Birinci sinfə qəbul olunmuş uşaqlar öz davranışlarını tənzim etməklə çətinlik çəkirlər. Onların çoxunda uzun müddət özünü eyni vəziyyətdə saxlamaq, özünü idarə etmək üçün iradi güc çatmır.

3. Məktəbdə məşğələ zamanı müəllim uşaqlara suallar verir, onları fikirləşməyə məcbur edir. Eyni iş ailədə də təkrar olunur. Bu cür gərcin əqli iş uşaqları asanlıqla yorur[1].

Kiçik yaşlı məktəblilərin ümumi intellektual inkişafında, onların proqramlar üzrə bilik, bacarıq və vərdişlərə yiyələnməsində **optimal səviyyədə təşkil olunmuş təlim fəaliyyətinin** müstəsna əhəmiyyəti vardır. Təlim oyun deyildir. Onun məzmununun özünəməxsus əlamətləri və daxili struktur komponentləri vardır. Rus psixoloqları D.B.Elkonin və V.V.Davıdov bu komponentləri 3 qrupa ayırmışlar.

1) Təlim vəzifələri

2) Təlim əməliyyatları

3) Özünənəzarət və özünüqiymətləndirmə əməliyyatları[2].

**Təlim vəzifələri** müəllimin şagird qarşısında qoyduğu idrak əhəmiyyətli tapşırıqlarda əks olunur. Onlar bir qayda olaraq özlərinin konkretliyi və praktik səciyyəsi ilə fərqlənir. Məsələn, şagirdlər qarşısında təlim vəzifəsi kimi şeri əzbər öyrənmək, oxunmuş hekayəyə plan tərtib etmək, məsələni həll etmək və s. qoyula bilər. Bu cəhətdən **ənənəvi təlimin** şagirdlərin qarşısında qoyduğu vəzifələrlə, **problemli və interaktiv təlimin** vəzifələri bir-birindən fərqlənir. Ənənəvi təlim şagirdlərin idrak fəaliyyətini hafizə üzərində qurmağa

[1] M.Ə.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. B., 2000, səh.25-26
[2] bax: Возрастные возможности усвоения знаний. (Под ред. Д.Б.Эльконина, В.В.Давыдова) М.,1966 стр.64

üstünlük verdiyi halda, yeni təlim tiplərində və texnologiyalarda təfəkkürün inkişafına daha üstün əhəmiyyət verilir. Şagirdlər təlim tapşırıqlarını daha optimal yollarla yerinə yetirməyə istiqamətləndirilir.

**Təlim əməliyyatları** şagirdləri fikri fəallığa yönəldən motivləşdirici vasitələrdir. Müqayisə, təhlil, tərkib, ümumiləşdirmə və s. kimi əməliyyatlar vasitəsilə şagirdlər əşya və hadisələr arasındakı əlaqə və münasibətləri müəyyən edir, konkret nəticəyə gəlirlər. Məsələn, kiçik yaşlı məktəblilər canlı və cansız təbiət, ilin fəsilləri, müxtəlif nitq hissələri, həndəsi fiqurlar və s. arasındakı oxşar və fərqli cəhətləri aşkara çıxarmaq üçün müqayisədən, yeni məfhumları mənimsəyərkən əsasən ümumiləşdirmə əməliyyatından istifadə edirlər. Təlim əməliyyatları şagirdlərin təlimə marağını stimullaşdırır.

**Özünənəzarət əməliyyatları** vasitəsilə şagirdlər icra etdikləri təlim tapşırıqlarını nümunə ilə tutuşdurur, müəllimin göstərişi ilə səhvlər üzərində iş aparırlar. Özünənəzarətin cari (addımbaşı) və yekun olmaqla iki əsas növü fərqləndirilir. **Özünüqiymətləndirmə** təlim tapşırıqlarının yerinə yetirilməsi prosesində uşağa öz fəaliyyətinin nəticələrini qiymətləndirmək ( çalışmanı yaxşı , yoxsa pis yerinə yetirdim?) imkanı verir. Onun vasitəsilə şagird öz qüvvələrini daha artıq dərəcədə səfərbərliyə alaraq təlimdə daha uğurlu nəticələr əldə etməyə yönəlir. Zəif oxuyan şagirdin fəalliyyətinin müəllim tərəfindən müntəzəm olaraq aşağı qiymətləndirilməsi onda öz qüvvəsinə inamsızlıq və təlimdə soyumasına gətirib çıxara bilər. V.A.Suxomlinski qeyd edlirdi ki, aşağı siniflərdə şagirdlərə verilən «2» qiymət onlarda dəhşətli qorxu hissi yaradır. Şagirdə «2» qiymət yazan müəllim sanki bu 2 ilə bərabər onun çantasına bir qamçı da qoymuş olur ki, evdə valideyn bu qamçı ilə uşağı cəzalandırır. Qiymət uşağa yalnız o vaxt verilməlidir ki, o bunu öz şəxsi səylərindən asılı olduğunu dərk etmiş olsun. Oxuyub yazmağı öyrənməmiş uşağa «2» qiymət yazmaq böyük pedaqoji səhvdir. **Təlim şagirdlərin öyrənmə üzərində qurulan spesifik məzmunlu fəaliyyət formasıdlır.** Onun özünəməxsus psixoloji komponentləri vardır. Rus psixoloqu N.D.Levitov

psixologiya elminə «mənimsəmənin psixoloji komponentləri» anlayışını gətirmişdir. O bu komponentlər sırasına aşağıdakıları daxil etmişdir.

1. Şagirdlərin təlimə müsbət münasibəti;
2. Materiala birbaşa hissi tanışlıq prosesləri;
3. Əldə edilmiş materialların fəal surətdə işlənilməsi kimi təfəkkür prosesi;
4. İşlənilmiş və əldə edilmiş informasiyaların yadda saxlanılması prosesi[1].

Təlim fəaliyyətinin strukturunda onun məzmununu əks etdirən komponentlər – **biliklər, bacarıqlar** və **vərdişlər** başlıca yer tutur. Təlim prosesinin mahiyyəti elmi biliklərin formalaşdırılmasından ibarətdir. Bu prosesdə başlıca cəhət uşaqların idrak imkanlarının, yaş xüsusiyyətlərinin nəzərə alınmasından ibarətdir. Uşaqların yaşı artdıqca, onlar sinifdən-sinifə keçdikcə, proqram materiallarının asandan- çətinə prinsipi üzrə qurulması təmin edilir. Biliklər gerçəkliyin insan təfəkküründə və praktikada yoxlanılmış inikasıdır. Onlar elmi anlayışlarda, faktlarda, qanun və qanunauyğunluqlarda hiss olunur. Məktəb proqramlarına daxil edilmiş materialları mənimsəməklə şagirdlər əşya və hadisələrin mühüm əlamətlərinin ümumiləşmiş sisteminə-elmi anlayışlar sisteminə yiyələnirlər. Təlim prosesində heç də həmişə şagirdlərin mənimsədikləri anlayışlar elmi mahiyyət kəsb etmir. Məktəb təcrübəsi göstərir ki, bir çox hallarda şagirdlər məfhumları (anlayışları) mənimsəyərkən əşya və hadisələrin başlıca və mühüm əlamətlərini kölgədə buraxır, qeyri-mühüm ikinci dərəcəli əlamətlərə istinad edərək yalnış nəticəyə gəlirlər. Məsələn, uşaqların bəziləri evdə rast gəldiklərinə görə siçanı ev heyvanları qurupuna, camışı suda-quruda yaşayanlar sinifinə və s. aid edirlər. Onların fikrincə, yalnız ağacdan asılan, görünən və yeyilən məhsullar meyvədir. Bir çox yabanı bitkilərin giləmeyvələri yeyilmədiyi üçün onların fikrincə, meyvə hesab edilə bilməz. «Quldar», «Mülkədar», «Zadəgan»,

[1] bax: Крутецкий В.А. Психология обучения и воспитание школьников. М., «Просвешение» 1976 стр152-153

«Kapitalist» və s. bu kimi anlayışları fərqləndirməkdə çətinlik çəkir, onları yanlış ümumiləşdirərək bəsit bir anlayışda – **«varlı adamlar»** anlayışında ifadə edirlər. Psixologiyada bu cür doğru olmayan ümumiləşdirmələr **generalizasiya hadisəsi** nəticəsində yaranır. Professor M.Ə.Həmzəyevin psixoloji tədqiqatlarında kiçik yaşlı məktəblilərin düzgün yazı vərdişlərinə yiyələnməsi prosesində bu hadisə geniş araşdırılmış, əhəmiyyətli nəticələr əldə olunmuşdur[1].

Rus pisixoloqu V.V.Davıdov məktəblilərdə anlayışların mənimsənilməsi prosesinin iki əsas yolunu-**emprik ümumiləşdirmə** (əşya və hadisələrin ümumi və mühüm əlamətlərinin müqayisə və qarşılaşdırma əsasında induktiv yolla müəyyən edilməsi) və **nəzəri ümumiləşdirmə** ( konkret bir əşya və hadisənin təhlili yolu ilə ona müvafiq əlamətlərin digər əşya və hadisələrdə deduktiv yolla aşkar edilməsi) müəyyən etmişdir[2].

**Təlimin məzmununda özünəməxsus yer tutan komponentlər sırasında bacarıqlar və vərdişlər** xüsusi yer tutur. **Bacarıqlar** konkret şəraitdə əldə edilmiş biliklərin tətbiqi imkanlarıdır. Bu imkanlara sahib olan şagird hər hansı şəraitdə mürəkkəb tapşırıqları düzgün əməliyyatlar vasitəsilə icra etməyə nail olur. Mürəkkəb, şüurlu fəaliyyət prosesinin ünsürlərindən biri olan, möhkəmlənmiş və avtomatlaşdırılmış düzgün fəaliyyət priyomları kimi **vərdişlər** təlim prosesində olduqca əhəmiyyətli rol oynayır. Kiçik məktəb yaşı dövründə şagirdlərdə formalaşan təlim əməyi vərdişləri onların gələcək intellektual inkişafının əsasıdır. Oxu və yazı, hesablama bacarıqlarının vərdişlərə çevrilməsi sayəsində şagirdlər sürətlə təlim materiallarını, ictimai tarixi təcrübəni mənimsəmək, müstəqil bilik əldə etmək imkanlarına sahib olurlar. Vərdişləri bir neçə qrupa ayırmaq olar. Onların sırasında **təlim, əmək, idman, gigiyenik** və s. kimi vərdişlər başlıca yer tutur. Təlim prosesində mühüm yer tutan **intellektual və yaxud əqli əmək vərdişlərinin** rolu xüsusi

[1] bax: M.Ə.Həmzəyev Şagirdlərin düzgün yazı vərdişlərinə yiyələnmə xüsusiyyətləri. B., «Maarif», 1984.
[2] bax: Давыдов В.В. Виды обобщения в обучении М., «Просвещение», 1972

əhəmiyyət kəsb edir. Məsələ həlli prosesində şagirdlərin mühakimələrini, ixtisar etmək yolu ilə həllin daha operativ, yığcam üsullarla aparılmasını buna misal göstərmək olar. Birinci sinifdə şagirdlərdə formalaşdırılan vərdişlər sırasında oxu vərdşləri diqqəti xüsusi olaraq cəlb edir. Oxu vərdişlərinin formalaşdırılmasında görmə, eşitmə və hərəkət analizatorları iştirak edir. Oxu materiallarının mənimsənilməsi prosesində təfəkkür əməliyyatları, xüsusilə təhlil və tərkib xüsusi rol oynayır. Oxu vərdişlərinin formalaşması olduqca mürəkkəb prosesdir. Uşaqlar bu prosesdə bəzi hərfləri qarışdırır, onları buraxır, ayrı-ayrı səsləri düzgün tələffüz edə bilmirlər. Birinci sinifdə savad təlimi prosesində qarşıya çıxan çətinliklərdən biri **hərfləri səsə çevirmək və səsləri birləşdirib söz yarada bilməməsi ilə bağlıdır.** Samitlərin ikili səsə malik olması (em,en,və ya mı, nı və s.) uşaqlarda **sözün səs tərkibini mənimsəməkdə** çətinlik yaradır. Psixoloji təhlillər birinci sinifdə yazı vərdişlərinin də formalaşdırılmasındakı xarakterik çətinlikləri və onların səbəblərini müəyyənləşdirməyə imkan verir. Müəllimin düzgün oturuş və yazı texnikası qaydalarına əməl etmək tələbi şagirdlərin diqqətində əsas yer tutduğuna görə, **uşaqlar orfoqrafik və kalliqrafik normalara** əməl etməkdə çətinlik çəkirlər. Orfoqrafiya qaydalarını gözləyən şagirdlər kalliqrafik normalarda və əksinə olmaqla səhvlərə yol verirlər. Hərfləri yaxşı yazmağa çalışan uşaqlar hərfburaxma hallarına yol vermiş olurlar.

Məqsədəyönəlmiş xarakter kəsb edən təlim fəaliyyəti kiçik yaşlı məktəblilərin idrak proseslərinin inkişafına, intellektual qabiliyyətlərin formalaşmasına əlverişli imkan yaradır. Oxu, yazı və hesablama sahəsində uşaqların əldə etdikləri ilkin bacarıq və vərdişlər onların kiçik məktəb yaşı dövründə müəyyən bilik fonduna, təsəvvürlərə və dünyagörüşünə yiyələnməsini təmin etmiş olur. Təlimin birinci pilləsi olan ibtidai siniflərdə tədris olunan ana dili, riyaziyyat, təbiətşünaslıq, təsviri incəsənət, musiqi və s. kimi fənlər şagirdlərin idrak maraqlarının inkişafına və genişlənməsinə, onların əqli inkişafına, fəal, yaradıcı və müstəqil fəaliyyətinə geniş meydan açır.

İnkişafetdirici səciyyə daşıyan təlim prosesi ibtidai sinif şagirdlərinin psixi proseslərinin inkişafını stimullaşdırır.

Kiçik məktəb yaşı uşaqların **qavrayışının** inkişafının məhsuldar dövrüdür. Birinci sinfə daxil olan uşaqların qavrayışı **repreduktiv** xarakter daşıyır. Təlimin ilk dövründə, xüsusən I-II siniflərdə şagirdlərin qavrayışı səthi, az fərqləndirici olması ilə seçilir. Bu dövrdə uşaqların qavrayışı ilə təfəkkürü arasında funksional asılılıq özünü göstərir. Onun nəticəsində uşaqlar qavrayış obyektlərini bəzən qarışdırır, yanlış müqayisə və ümumiləşdirmə əsasında doğru olmayan nəticələrə gəlib çıxırlar. Bu cəhət əşyaların, anlayışların müqayisəsi vasitəsilə onların oxşar və fərqli cəhətlərinin aşkara çıxarılması prosesində də müşahidə olunur. Bəzən onlar **hərfləri və rəqəmləri, həndəsi fiqurları qarışdırır,** əşyaların mühüm, başlıca əlamətlərinə əhəmiyyət vermədən qeyri-mühüm əlamətləri əsas götürürlər. Parlaq, al-əlvan, rəngli şəkillər, emosional cəlbedicilik yaradan obyektlər uşaqların diqqətini daha tez cəlb etdiyindən, onların qavrayış obyektində əsas yer tutmuş olur. Kiçik yaşlı məktəblilər təlimin ilk dövrlərində **müstəvi fiqurları ilə həcm fiqurlarını** qarışdırırlar. Şagirdlərin əksəriyyəti dairəni «şar», «top» kimi qavrayırlar. Psixoloji tədqiqatlar göstərirlər ki, I-II sinif şagirdləri **üçbucaq, dairə, kvadrat və düzbucaqlı** kimi müstəvi fiqurlarını digər fiqurlara nəzərən daha düzgün qavrayır və fərqləndirməyi bacarırlar. Kiçikyaşlı məktəblilərin qavrayışındakı səhvlərin əsas səbəblərindən biri onların **qavrayışının situativliyi** ilə bağlıdır. Məsələn, uşaqlar **üfiqi vəziyyətdə çəkilmiş düz xətti düzgün qavradıqları halda, şaquli vəziyyətdə çəkilmiş düz xətti düz xətt kimi qavraya** bilmirlər. Onlara görə, düz xətt yalnız üfiqi vəziyyətdə olur. Eyni hal üçbucağın duruş vəziyyəti dəyişdirilərkən də nəzərə çarpır. Məsələn, hipotenuz aşağı, yuxarı və ya sol tərəfdə çəkildikdə kiçik məktəblilər üçbucağı qavramaqda çətinlik çəkirlər. Birinci sinif şagirdlərinin qavrayışında özünü göstərən nöqsanlardan biri də hərflərin və rəqəmlərin yazılışı ilə bağlıdır. Onlar kitabdan və ya

lövhədən hərfləri və rəqəmləri köçürərkən bir sıra səhvlərə yol verirlər: hərfi və ya rəqəmi əks stiqamətdə çevrilmiş vəziyyətdə, bəzən isə, onlara əlavə ünsürlər artırmaqla və ya ixtisar etməklə yazırlar. Məsələn 5( ), 3 ( ), 6 (9) P (q). m (n), n (m), S ( ). Bu xarakterli səhvlərin səbəbləri **işarənin bitişik qavranılması** ilə bağlıdır. Kiçik yaşlı məktəblilərin qavrayışında müşahidə olunan qüsurlar eyni zamanda zaman və məkan münasibətlərinin, rənglərin, ölçülərin süjetli şəkillərin qavranılması prosesində də müşahidə olunur. III-IV siniflərdə şagirdlərin qavrayış prosesində müşahidə olunan nöqsanlar tədricən aradan qalxır. Lakin bu siniflərdə proqram materialları get-gedə mürəkkəbləşdiyinə görə, bu siniflərdə oxuyan şagirdlərin qavrayışında da müəyyən qüsurlar özünü göstərir. III-IV sinif şagirdləri riyaziyyat dərslərində ədədin hissəsini, hissəsinə görə ədədi tapmaqda, komponentlərlə əməl nəticələri arasındakı münasibətləri anlamaqda, sürət, zaman, məsafə, qiymət, miqdar və dəyər arasındakı asılılıqları anlamaqda çətinlik çəkirlər.

Kiçik yalı məktəblilərin **süjetli şəkilləri qavramasında** qarşıya çıxan çətinlikləri psixoloji planda tədqiq edən A.A. Lyublinskaya bunun səbəbini aşağıdakı amillərlə bağlı olduğunu qeyd edir:

1. Şəkilin strukturu;
2. Onun süjetinin uşağın təcrübəsi ilə yaxınlıq dərəcəsi;
3. Qoyulan sualın forması;
4. Uşağın ümumi mədəni səviyyəsi və müşahidəçilik bacarığı;
5. Onun nitqinin inkişaf səviyyəsi[1]

IV sinif şagirdləri rəssam K.Uspenski- Koloqrivovanın «Balıq tutmağa aparmadılar» rəsm əsəri üzrə inşa yazırdılar. Uşaqlara əsərin adı əvvəlcədən deyilməmişdi.

A.adlı şagirdin inşasından:

Burada ata və oğlu balıq tutmağa gedirlər. Qapıdan bir qız boylanır. Orada isə oğlanın əlində vedrə var. Toyuq həyətdə gəzir».

Əsərin adı şagirdlərə elan edildikdən sonra, onların cavabları başqa cür oldu: «Ata böyük oğlu ilə balıq tutmağa gedir. Balaca oğlanı onlar özləri ilə aparmırlar, o, kiçikdir.

[1] Люблинская А.А. Детская психология. М., «Просвещение» 1971, стр.180.

Balaca oğlan lapatka ilə torpaqdan soğulcan qurdu çıxartmışdı ki, onu da aparsınlar. Onu aparmadıqları üçün oğlan qəmgin olmuşdur. Qız ona baxıb gülür. Toyuq onun yığdığı soxulcanları yeyir. (S.L.Rubinşteynin tədqiqatlarından).

Kiçik məktəb yaşı dövründə təlim fəaliyyətinin təsiri ilə şagirdlərdə qavrayışın məqsədəyönəlmiş ixtiyari formaları meydana gəlir. III-IV siniflərdən başlayaraq uşaqların **qavrayışının fərqləndirmə imkanları artır** və o, produktiv, planlı və adekvat xarakter kəsb etməyə başlayır.Qavrayışın inkişafında diqqəti cəlb edən mühüm xüsusiyyətlərdən biri də müşahidəçiliyin keyfiyətcə yaxşılaşmasıdır. Uşaqların qavrayışının inkişafı əhəmiyyətli dərəcədə onların müşahidəçilik mədəniyyətinin formalaşma səviyyəsindən asılıdır. Müəllim uşaqların psixi fəaliyyətini müşahidə obyektlərinə yönəltməli, bunun üçün irəlicədən planlaşdırma aparmalı, müşahidənin məqsədini müəyyənləşdirməlidr. Şagirdlərin müşahidəçiliyinin inkişafında təlim ekskursiyalarının, məktəbyanı sahədə təcrübəçilik işlərinin, sərgilərə, xalq yaradıcılığı nümunələrinə, kolleksiyalara baxışların və s. xüsusi əhəmiyyəti vardır. Bu cəhətdən müqayisə metodunun rolu olduqca böyükdür.

Kiçik məktəb yaşı dövründə şagirdlərin **diqqəti** qeyri-ixtiyarilikdən ixtiyari formaya doğru inkişaf edir. Bununla belə, təlimin ilk dövründə , xüsusən I-II siniflərdə uşaqların diqqətinin zəif olması əsas xüsusiyyət kimi nəzərə çarpır. Kiçik məktəb yaşı dövründə diqqətin iradi tənzimi və iradə edilməsi imkanları xeyli məhdud olur. Ona görə də müllim dərs prosesində uşaqların psixi fəaliyyətini idarə etməkdə çətinliklə qarşılaşır, onu motivləşdirmək zərurəti ilə üzləşməli olur. Bu, keçici bir xüsusiyyət olub, uşaqların yaş xüsusiyyəti, onların psixi və fiziki imkanlarının hələlik zəif olması ilə bağlıdır.

Kiçik yaşlı məktəblilərdə diqqətin qeyri-ixtiyari forması əhəmiyyətli dərəcədə yaxşı inkişaf etmiş olur.Bu, uşaqların iradi keyfiyyətlərinin zəif olması və ikinci siqnal sisteminin tənzimedici funksiyasının kifayət qədər formalaşması ilə bağlıdır. Təlim diqqətin inkişafını stimullaşdırır. Diqqət psixi fəaliyyətin yönəlişliyi ilə bağlı olduğundan dərsdə şagirdlərin diqqətinin təlim vəzifələrinə və təlim işlərinə yönəldilməsi idraki əhəmiyyət kəsb edir. O, təlim

fəaliyyətində mənimsəmə fəaliyyətinin daxili faktoru kimi çıxış edir. Təlim materiallarının dərk edilməsi, qavranılması üçün əhəmiyyətli rol oynayır. Təlim prosesində diqqət əqli fəaliyyətin intensivliyinə və onun məhsuldarlığına ciddi təsir göstərir.

Kiçik yaşlı məktəblilərin diqqəti özünün seçiciliyi ilə fərqlənir. Uşağın diqqəti ilk növbədə onun üçün maraqlı və cəlbedici əhəmiyyət kəsb edən obyektlər üzərinə yönəlmiş olur. Onların diqqətinin davamlılığı o qədər də böyük olmadığından tez yayınır. Psixoloji tədqiqatlar göstərir ki, dərsdə I-II sinif şagirdlərinin diqqətinin davamlılığı 20-25 dəqiqədən artıq olmur. Ona görə də bu cəhəti daim dərsin təşkilində nəzərə almaq, iş formalarını növbələşdirmək, kiçik fasiləyə yer ayırmaq lazım gəlir. N.F.Dobrininin tədqiqatları sübut edir ki, artıq III-IV siniflərdə şagirdlər öz diqqətlərini fasiləsiz olaraq bütün dərs boyu dayanıqlı olaraq saxlamağı bacarırlar. Bununla belə, bu siniflərdə də rəngarəng tapşırıqlar şagirdlərin fəaliyyətini stumullaşdırılmasına onların təlim işlərinin tempinə faydalı təsir göstərir. Quru, cansıxıcı və yeksənək dərslər uşaqların diqqətinin yayılmasına, dalğınlıq hallarına səbəb olur.

Musa, IV sinif şagirdidir. Dərsdə sakit, üzü müəllimə tərəf oturmuşdur. Onun əyləşdiyi parta pəncərə tərəfdədir. O, intizamı pozmasa da, dərsin gedişinə fikir vermir. Şagirdlərdən biri lövhə qarşısında çaşmışdır. Uşaqlar ona baxıb gülsələr də Musa buna qəti əhəmiyyət vermir. Onun nəzərləri pəncərədən çöldədir. Bu, müəllimin nəzərindən qaçmadı. O pəncərədən baxanda həyətdə futbol oynayan uşaqları gördü. Onlar qapıçını bir-birinə göstərərək

Şəkil 13.Yorucu dərsdə.

nə isə barədə mübahisə edirdilər. Musa özünü ələ ala bilmir, fikrən özünü meydançada hiss edir. Müəllim Musaya sual verir, o isə anlaqsız şəkildə susmaqdadır. Ona görə də dərsdə onların diqqətini təlim tapşırıqlarına yönəltmək xeyli çətinlik törədir. İbdidai siniflərdə şagirdlərin diqqətini təşkil etmək üçün maraqlı, cəlbedici əyani vasitələrdən, didaktik materiallardan istifadə etmək faydalıdır. Dərsdə öyrədilən materiallar müəllim tərəfindən canlı, emosional və əyani formada şərh edildikdə, şagirdlərin diqqətinin məhsuldarlığı artır.

Diqqət bir psixi funksiya kimi fəaliyyətin təşkil və idarə olunmasında xüsusi rola malikdir. Psixoloji tədqiqatlar (A.N.Leontyev, N.F.Dobrinin, D.N.Uznadze, E.Titçener, N.V.Straxova və b.) göstərmişdir ki, I-II sinif şagirdlərinin diqqətinin həcmi 2-3 obyekti əhatə etdiyi halda III-IV siniflərdə bu göstərici tədricən 4-5 obyektə qədər artmış olur.

Məktəb təcrübəsi sübut edir ki, kiçik məktəb yaşlı uşaqlar dərs zamanı öz diqqətlərini məqsədyönlü şəkildə **paylamaqda və keçirməkdə** çətinlik çəkir, nəticədə müxtəlif xarakterli səhvlərə yol vermiş olurlar. Onlar diqqətlərini o zaman paylaya bilirlər ki, iki və daha artıq işi eyni zamanda yerinə yetirmək bacarıqları vərdişlərə çevrilmiş olsun. Məsələn, IV sinif şagirdləri riyaziyyat dərslərində həm müəllimin izahını dinləyir, həm də dərslikdəki məsələ üzrə plan tərtib edirlər. Eyni iş formaları təbiətşünaslıq dərslərində aparılan təcrübəçilik və müşahidəçilik işlərində də özünü göstərir. İbtidai sinif şagirdlərinin dərs prosesində tez-tez müşahidə olunan **dalğınlığı və diqqətsizliyi** onların təlim müvəffəqiyyətinə mənfi təsir göstərir. Diqqətsizlik və dalğınlığın əsas səbəbini çətin, zehni gərginlik yaradan fəaliyyət növlərində axtarmaq lazımdır. Uzunmüddətli gərgin iş uşaqların sinir əzələ sisteminə , xüsusilə, görmə və eşitmə analizatorlarının fəaliyyətinə mənfi təsir göstərir. Emosional təəssüratlarla yüklənmə nəticəsində kiçik yaşlı məktəblilərin beyin qabığında ləngimənin qüvvəsi artır. Uşağın gün rejimi düzgün təşkil edilməzsə, bu onun psixikasında və davranışında mənfi hallara yuxusuzluğa, əsəbiliyə, iştahasızlığa və s. gətirib çıxara bilər.

İbtidai təhsilin IV ilində uşaqların diqqətinin xüsusiyyətləri xeyli inkişaf edərək demək olar ki, yaşlı adamların diqqətinə yaxınlaşmış olur. Bununla belə, kiçik yaşlı məktəblilərin dəqqətində uşaqlığın bir çox xüsusiyyətləri hələ də özünü göstərir. Kiçik məktəb yaşı dövründə öz inkişaf tempinə görə diqqəti cəlb edən idrak proseslərindən biri də **hafizədir**. Məktəbə daxil olarkən uşaqlar müəyyən səviyyədə inkişaf etmiş hafizəyə, ixtiyari yaddasaxlama bacarıqlarına malik olsalar da, bunu tamamlanmış bir proses kimi qiymətləndirmək doğru olmazdı. Məktəbdə, sistematik təlim şəraitində uşaqların hafizəsində məktəbəqədər uşaqlıq illərinin bir sıra xüsusiyyətləri özünü biruzə verir. Bu yaş dövründə qeyri-ixtiyari mexaniki yaddasaxlamanın üstünlüyü hələ də özünü aydın şəkildə göstərir. Kiçik məktəb yaşının başlanğıcında uşaqlar parlaq, cəlbedici, al-əlvan və emosional təəssürat yaradan materialları daha yaxşı yadda saxlamağa nail olurlar. Rus psixoloqu A.A.Smirnov kiçik və orta məktəb yaşı dövründə hafizənin inkişaf xüsusiyyət-lərini müqayisəli təhlil edərək, belə qənaətə gəlmişdir ki, 6-14 yaşlı uşaqlarda mexaniki hafizə fəal surətdə inkişaf edir və o, informasiya vahidləri ilə məntiqi bağlılığa malik deyildir. İntensiv təlimin təsiri altında uşaqlarda hafizənin bütün növlərinin, xüsusilə, nisbətən sadə, mürəkkəb əqli əməklə bağlı olmayan növlərinin inkişafı davam edir. Bütövlükdə kiçik məktəblinin hafizəsi kifayət qədər yaxşı inkişaf etmiş olur və təlimin ilk üç-dörd ilində mütərəqqi forma alır. Bu, xüsusilə mexaniki hafizəyə aiddir[1].

Məlumdur ki, hafizə mürəkkəb psixi proseslərdən biridir. O, fərdin öz keçmiş təcrübəsini hifz etməsi, yadda saxlaması və sonradan yadda salmasından ibarət olan idrak prosesidir. Hafizə olmadan insanın ictimai- tarixi təcrübəyə, bilik, bacarıq və vərdişlərə yiyələnməsi qeyri mümkündür. Həyatın ilkin mərhələlərində hafizənin rolu olduqca böyükdür. Uşaqlıq illərində qazanılmış təsəvvürlər fondu və biliklər insanın sonrakı intellektual inkişafının

[1] Немов Р.С. Психология. Книга 2. М., «Владос», 1999, стр. 130-131

etibarlı təməlidir. Qavrayış, təfəkkür, təxəyyül və nitqin inkişafında hafizənin rolu əvəzsizdir.

Məktəb təhsili illəri hafizənin inkişafı üçün geniş meydan açır, onun ixtiyari, niyyətli və məntiqi formalarının formalaşmasını təmin edir.

Təlimin ilkin mərhələlərində, xüsusilə I-II siniflərdə şagirdlərin **əzbərçiliyə meylli olması** çox vaxt müəllimləri və valideynləri narahat edir. Əslində isə, bu tamamilə təbii və adi bir hal hesab edilməlidir. Kiçik yaşlı məktəblilər mexaniki yaddasaxlamanın köməyi ilə təlimin ilkin formalarını, oxu, yazı hesablama vərdişlərini mənimsəyərək tədricən daha yüksək hafizə formalarına doğru inkişaf edirlər. Hafizənin inkişafında keyfiyyət dəyişiklikləri baş verdikcə, şagirdlər tədricən mənalı və ixtiyari yaddasaxlamanın üsul və vasitələrinə yiyələnirlər.

Alman psixoloqu E.Meyman qeyd edirdi ki, uşaqlarda məntiqi hafizə yalnız 13-14 yaşlardan etibarən formalaşmağa başlayır. V.Ştern isə uşaq yaşlarında sözün mənasının az əhəmiyyət kəsb etdiyi fikrini irəli sürürdü.

Hafizə psixologiyası sahəsində tədqiqatlar aparmış rus psixolqlarından A.N.Leonyev, A.A.Smirnov, P.İ.Zinçenko, Z.M.İstomina, M.N.Şardakov belə qənaətə gəlmişlər ki, ilk hafizə aktı olan **yaddasaxlama** heç də birbaşa hifz etməni təmin etmir. Yaddasaxlama insanın müəyyən material üzərində aktiv fəaliyyətinin nəticəsidir. Fəaliyyətin yönəlişliyi və xüsusiyyətləri materialların yadda saxlanılmasının daimliyinə təminat verir. P.İ.Zinçenko qeyd edirdi ki, obyekt yalnız o halda yadda saxlanılır ki, **passiv qavrayış obyekti deyil, subyektin fəaliyyət obyekti olsun.** Göründüyü kimi hafizənin fəaliiyətində subyektiv amilin rolu böyükdür. İnsanın marağı, onun emosional vəziyəti, məsuliyyət hissi, hazırlıq səviyyəsi, materialı öyrənmkdə məqsədi hafizənin məhsuldarlığını, onun həcmini və xarakterini dəyişir.

Kiçik yaşlı məktəblilərdə hafizə əsasən **əyani – obrazlı** xarakter daşıyır. Təlimin ilk iki ilində uşaqlarda qeyri-ixtiyari yaddasaxlama əsaslı üstünlük təşkil edir. Birinci siqnal sistemi daha üstün rola malik olduğuna görə, onlar

qarşılarına konkret məzmuna malik olan minemik məqsədlər qoymaqda çətinlik çəkirlər. Ona görə də, bu yaş dövründə yaddasaxlama üsulu kimi təkrar xüsusilə üstün əhəmiyyət kəsb etmiş olur. Kiçik məktəblilərdə əlverişli yaddasaxlama üsulları formalaşmadığına görə, onlar əsasən mexaniki yaddasaxlamaya istinad etməli olurlar. Məktəb təhsili illərində dərsdə şagirdlərin qarşısında qoyulan təlim- idrak vəzifələri onlarda tədricən ixtiyari yadda saxlama priyomlarının formalaşmasına təminat yaradır. Belə minemik vəzifələr uşaqların hafizəsinin yenidənqurulması üçün yeni imkanlar yaratmış olur. Təlim fəaliyyəti kiçik məktəblidən keçilən materialları yadda saxlamaq üçün iradi səy göstərməyi tələb edir. Kiçik məktəblilərdə **ixtiyari hafizənin məhsuldarlığı** müəllimin şagird üçün yaratdığı təlim şəraitindən və şagirdin istifadə etdiyi yaddasaxlama üsullarından birbaşa asılıdır.

Məlumdur ki, kiçik yaşlı uşaqlarda dərketmə fəaliyyəti əsasən hissi qavrayış üzərində qurulur. Ona görə də, məktəbəqədər və kiçik məktəb yaşı dövrünün ilk mərhələlərində əyani materiala üstünlük vermək lazım gəlir. İbtidai siniflərdə Ana dili, riyaziyyat, təbiətşünaslıq , əmək təlimi, təsviri incəsənət dərslərində istifadə olunan əyani vasitələr, xüsusilə rəngli şəkillər uşaqlarda yaddasaxlamanın səmərəliliyinə faydalı təsir göstərir. Psixoloji tədqiqatlar sübut edir ki, ixtiyari yaddasaxlamanın səmərəliliyini şərtləndirən amillərdən biri də **şagirdlərin intellektual fəallıq səviyyəsidir.** Bu isə birbaşa olaraq müəllimdən, onun pedaqoji məharətindən, didaktik qabiliyyətlərindən asılıdır. O, şagirdlərdə tədris edilən materialları yaddasaxlama ustanovkaları mənalı yaddasaxlama üsulları formalaşdır-malıdır. Bu cəhətdən materialın məna yaxınlığına görə qruplaşdırılması, mətn üzrə plan tərtibi, məntiqi sxemlər ayrı-ayrı hissələrin müqayisə edilməsi, mövzudakı istinad anlayışlarının müəyyən edilməsi, əsas ideyanın tapılması və s. kimi priyomlara yiyələnmə zəruridir. Müşahidələr göstərir ki, kiçik yaşlı məktəblilər təlim materiallarını öyrənərkən qeyd olunan priyomlara deyil, ya əzbərçiliyə, ya da formal əlamətlərə üstünlük verirlər. Bu isə öyrənilən

materialları uzun müddət deyil, qısa müddət və sistemsiz yadda saxlamaya gətirib çıxarır. Bu çatışmazlığı aradan qaldırmaq yollarından biri də **nəzarət və özünənəzarətdir.** Şagirdlər öyrəndikləri materialların yaddasaxlama vəziyyətini yoxlamaq üçün dərsi öz-özünə söyləməli və ya bu məqsədlə yaşlıların nəzarətindən istifadə etməlidirlər.

Məlumdur ki, hafizə aktları içərisində öz əhəmiyyətinə görə **yadasalma** ikinci yerdə durur. Kiçik yaşlı məktəblilər təlim materiallarını mənalı yaddasaxlama üsulu ilə öyrənmədikdə, yadasalma prosesi də çətinləşir və **tanıma** səviyyəsində məhdudlaşıb qalmış olur. Çox vaxt kiçik yaşlı məktəblilər dərsi oxumaqla materialı öyrəndiklərinə əmin olurlar. Dərs vaxtı isə material lazımi səviyyədə öyrənilmədiyi üçün yaddasaxlama prosesi səviyyəsi isə məhdudlaşıb qalmış olur. Şeri və ya hekayəni mexaniki səviyyədə öyrənən şagird onları müəyyən hissələrdən başlayıb söyləməyə çətinlik çəkir, «mən başdan söyləyə bilərəm» deyirlər. Uşaqların yaşı artdıqca yaddasaxlama təlim materiallarının mükəmməl öyrənilməsinə tələbat yaradır. Bu zəmində şagirdlər təlim materiallarını fikrən daha yaxşı **«emal edir»,** ümumiləşdirmə və sistemləşdirmə kimi əməliyyatların rolu artır. Psixoloji müşahidələr göstərir ki, kiçik yaşlı məktəblilər istər bədii, istərsə də elmi-kütləvi mətnləri yadda saxladıqdan sonra, onu tam, sətri yadasalma əsasında nağıl etməyə daha çox yol verirlər. Bu cür təfsilatlı, sətri yadasalma **reminisensiya** adlanır.

Kiçik məktəb yaşı dövründə **aparıcı fəaliyyət forması olan təlimin** gedişində **təfəkkürün inkişafında** əhəmiyyətli dəyişikliklər baş verir.

Uşaqlarda təfəkkürün inkişaf xüsusiyyətlərinin öyrənilməsinə diqqət XX əsrin əvvəllərindən başlanılır. Bu dövrdə psixoloqlar uşaq təfəkkürünün spesifik xüsusiyyətlərini öyrənmək üçün onun nitqlə əlaqəsini başlıca faktor hesab edirlər. Bu sahədə ilk cəhdlər psixoloqlar **E.Meyman, V.Ştern** və **J.Piaje** tərəfindən göstərilmişdir.

Onlar uşaq təfəkkürünün bir sıra

xüsusiyyətlərini müəyyən etsələr də, bütövlükdə uşaq təfəkküründün inkişaf dinamikasını aydınlaşdıran, sadə formalardan mürəkkəb formalara keçidi şərtləndirən amilləri aşkar edə bilməmişlər. Onların əldə etdikləri başlıca qənaət bundan ibarət idi ki, guya 8-10 yaşadək olan dövrdə uşaq təfəkkürü mücərrədləşdirmə imkanlarından məhrumdur, təfəkkürün



Şəkil.14 Sabahkı dərslərimi hazırlamalıyam

məntiqi formaları uşaqlarda yalnız bu yaşdan sonra təşəkkül tapmağa başlayır. Bu konsepsiya ibtidai təlimin yeni, mütərəqqi sistemlərini yaratmaq təşəbbüslərini məhdudlaşdırır, savadlı, rabitəli nitqi formalaşdırmağın mümkünsüz olması fikri isə pedaqoqları çətin vəziyyətdə qoyurdu. Belə hesab edilirdi ki, 10 yaşınadək uşaqlar sözlü-məntiqi təfəkkür formasına malik olmadığı və sensomotor əməliyyatlar çərçivəsində qapanıb qaldıqları üçün, onlar fikri əməliyyatları yalnız əyani obrazlar üzərində və əşyavi - praktik səviyyədə yerinə yetirməyə qadirdirlər.

Uşaq təfəkküründü praktik- əşyavi fəaliyyət çərçivəsində məhdudlaşdırmaq cəhdləri bir qədər sonra alman psixoloqu **V.Kelerin** meymunlar üzərində apardığı təcrübələrin nəticələri əsasında daha da möhkəmləndirilmiş oldu. Digər alman psixoloqu **K.Büler** isə Kelerin bu təcrübələrindən sonra 5-6 yaşadək olan uşaqlıq dövrünü «şimpanzeyəbənzər yaş» adlandırmağa başladı.

Rus zoopsixoloqu N.N.Lodigina – Kotsun tədqiqatları bu fikirlərin doğru olmadığını, kiçik uşaqlarla meymunların əqli fəaliyyəti arasındakı mövcud fərqləri aşkara çıxarmağa imkan verdi. O, sübut etdi ki, təfəkkür və praktik fəaliyyət, təfəkkür və dil, təfəkkürlə hissi obraz arasında fövqəladə dərəcədə

mürəkkəb, dəyişkən və çoxcəhətli əlaqə və münasibətlər mövcuddur. Bu münasibətlər uşağın inkişafından asılı olaraq müxtəlif yaş mərhələlərində onun həll etdiyi məsələlərin xarakterindən asılı olarpaq dəyişir. Burada verilən tapşırıqların, müəllimin istifadə etdiyi öyrətmə metodlarının xüsusi rolu vardır.

Altı yaşlı Leylaya xalası belə bir məsələ verdi. «Dörd quş uçub ağaclara qondular. Onlar tək-tək qonanda bir quş, iki-iki qonduqda isə bir ağac artıq qaldı. Neçə ağac vardı?» Leyla məsələni bir neçə dəfə təkrar etsə də, onu həll edə bilmədli. Kömək üçün xalası kağızdan 3 ağac və 4 quş düzəltdi. Bu «ağacların» köməyi ilə Leyla məsələni düzgün və tez həll etdi.

Məktəbdə təlim prosesində uşaqların anlayış və təsəvvürlərinin həcmi genişlənir, onlar bütöv və dəqiq olur, fikirlərin həcmi və məzmunu dəqiqləşir. Anlayışları mənimsəmək vasitəsilə onlar biliklərə, bacarıq və vərdişlərə sahib olurlar.

Şagirdin öyrəndiyi hər bir anlayış öz-özlüyündə müəyyən məzmun kəsb edir. Anlayışın məzmununu dərk etmək üçün şagird müvafiq məntiqi təfəkkür səviyyəsinə malik olmalıdır. Məsələn, ətraf aləmlə tanışlıq dərslərində şagirdlərə «vəhşi heyvanlar» və «ev heyvanları» haqqında məlumat verən müəllim onların mühüm əlamətlərini qeyd edir, təhlil yolu ilə onların oxşar və fərqli əlamətlərini şagirdlərin diqqətinə çatdırır. Bu zəmində şagirdlərdə «vəhşi heyvanlar» və «ev heyvanları» anlayışlarının formalaşdırılmasına nail olur. Eyni yolla şagirdlər «iynəyarpaqlı ağaclar», «enliyarpaqlı ağaclar» «ilin fəsilləri» və s. kimi anlayışları mənimsəyirlər. Riyaziyyat dərslərində «vaxt ölçüləri», «uzunluq ölçüləri», «qiymət», «miqdar», «kəsr» və s. ana dili dərslərində nitq hissələri haqqında təsəvvürlər yaradılır. Məlumdur ki, hər bir anlayış ümumiləşdirmə əsasında formalaşır. Ümumiləşdirmə əməliyyatının mühüm şərti öyrənilən əşya və hadisələr arasında ümumi, xarakterik xassə və əlamətlərin aşkara çıxarılmasıdır. Təlim prosesində şagirdlərin istinad etdikləri ümumiləşdirmə əməliyyatlarının forması dəyişir.

I-II sinif şagirdlərinin ümumiləşdirmələrində adətən zahiri əlamətlər üstün olur. Günəş, bitki, heyvanlar və s. haqqında mühakimə yürüdən uşaqlar qeyd edirlər ki, «günəş işıq və istilik verir» , «alma ağacları böyüyüb bar verir, biz onun meyvələrini yeyirik», «inək bizə süd verir», «quşlar uçur və oxuyurlar» və s. Kiçik yaşlı məktəblilərin ümumiləşdirmələrində zahiri əlamətlər üstünlük təşkil etdiyinə görə, təbiətşünaslıq dərslərində müəllimin izahatına baxmayaraq, onlar yenə də balinanı diri bala doğmasına, onu südlə bəsləməsinə hava ilə tənəffüs etməsinə baxmayaraq yanlış olaraq yenə də balıq hesab edirlər.

Təlim prosesində kiçik yaşlı məktəblilərin idrak fəallığını artırmaq məqsədilə onları problemli situasiyalarla, hadisələr arasında səbəb-nəticə əlaqələrinin axtarışı istiqamətində düşündürücü məsələlərlə qarşılaşdırmaq faydalı nəticələr verir. Məsələn, III sinifdə təbiətşünaslıq dərsində müəllim şagirdlərə belə düşündürücü suallarla müraciət edir: «Quşlar okean və dənizlərin üzərində quru ərazilərlə müqayisədə daha böyük sürətlə uçurlar. Bunun səbəbi nədir? və s.

İbtidai təlimin sonrakı mərhələlərində uşaqların ümumiləşdirmələrində əhəmiyyətli dəyişikliklər baş verir. Onların ümumiləşdirmələrində əşya və hadisələrin daxili, daha mühüm əlaqə və asılılıqları ön planda durur. Məsələn, cansız təbiətin su, hava, metallar və başqa cismlərini ümumiləşdirərkən onların temperaturdan asılı olaraq sıxılması və genişlənməsi, formaca dəyişməsi kimi ən ümumi əlamətini əsas götürürlər. Bir sıra psixoloqlar (N.A.Mençinskaya, D.B.Boqoyavlenski, M.D. Qromoa, Z.M. Kalmıkova, Ə. Bayramov, Ş.Babayev və b) uşaqlarda **anlayışların formalaşması prosesini** öyrənmişlər. Onlar öz tədqiqatlarında iki başlıca məsələni diqqət mərkəzində saxlamışlar: birincisi, uşağın anlayışları böyük adamların anlayışlarından nə ilə fərqlənir və onların spesifik xüsusiyyətləri nədədir? **İkincisi,** təlim prosesində uşaqlarda lazımi anlayışları necə formalaşdırmaq olar? Psixoloqlar belə qənaətə gəlmişlər ki, uşaqlarda anlayışların yaranmasında şəxsi təcrübənin,

müxtəlif faktlarla tanışlığın böyük rolu vardır. Məsələn, «fel» anlayışının mənimsədilməsi üçün uşaqlara əşyalar və onların hərəkətinə aid bir sıra sözlər verilir. Müəllim «fel» anlayışının mənimsədilməsi üçün uşaqların əvvəlki biliklərinə, əşyaların kim?, nə? sualına cavab olan, ad bildirən sözlərə – isimlərə istinad edir. Uşaqlar lövhədə yazılmış sözlər sırasında onlara tanış olan sözləri suallar əsasında tapırlar. Sonra şagirdlər suallar seriyasından istifadə etməklə digər nitq hissələrini də müəyyənləşdirməyə nail olurlar. Şagirdlər görür ki, lövhədəki sözlər sırasında «qaçır» , «oturdu», «gəldi», «oxuyur» və s. kimi müxtəlif süallar doğuran sözlər də vardır. Bu sözlər hərəkətə aiddir və «fel» adlanır.

III-IV siniflərdə bu cür ilkin anlayışlar daha dərindən mənimsədilir. Bu, o deməkdir ki, həmin siniflərdə şagirdlər felin nitq hissəsi kimi daha dərin, incə əlamət və xüsusiyyətlərini öyrənirlər. Eyni köklü sözlərin mənimsədilməsinə həsr edilmiş dil dərslərində xarici oxşarlığı olan «gözəl», «gözəllik» və «gözəlləşir» tipli eyniköklü sözlərin təhlili əsasında kiçik yaşlı məktəblilər onların daha konkret məna çalarlarını öyrənməklə yanaşı, eyniköklü sözlərin şəkilçilər vasitəsilə müxtəlif nitq hissələri formasına düşə bilməsini, onların daha konkret qrammatik xüsusiyyətlərini mənimsəyirlər. Rus psixoloqlarından N.A.Mençinskaya, D.İ.Boqoyavlenski, E.N. Kabanova- Meller, N.A.Nepomn-yaşaya və b. kiçik yaşlı məktəblilərdə anlayışların formalaşdırılma-sının səmərəli yollarını elmi cəhətdən araşdırmışlar. Bununla yanaşı, V.V.Davıdov, D.B.Elkonin və b. psixoloqlar uşaqlarda anlayışların formalaşdırılmasının başqa metodlarını təklif etmişlər. N.A. Mençinskaya və Y.F. Çekmaryevdən fərqli olaraq onlar konkret biliklərdən tədricən mücərrəd biliklərə yiyələnməsi deyil, məktəb təliminin ilk mərhələlərindən başlayaraq uşaqlara mücərrəd anlayışların verilməsinin mümükünlüyü istiqamətindən çıxış etmişdir. Onların bu konsepsiyası ötən əsrin 60-cı illərindən qoyulmuş, L.V.Zankov tərəfindən formulə edilmiş «inkişafetdirici təlim» ideyasına əsaslanır.

Müasir ibtidai təlim sistemində inkişafetdirici istiqamət gücləndiyindən tədris proqramları və dərsliklərdəki mövzu və materiallar kiçik yaşlı məktəblilərin idrak fəaliyyətinin potensial imkanlarını maksimum hərəkətə gətirməyə xidmət edir.

Kiçik yaşlı məktəblilərin məktəb təlimi təcrübəsi sübut edir ki, xüsusi təşkil edilmiş təlim metodikası zəminində IV sinifdə təlimi başa çatdırmış uşaqlarda əşya və hadisələrin əyani əlamətlərinin ardıcıl olaraq nümayiş etdirilməsinə ehtiyac qalmır. Onlar əşya və hadisələrin mühüm, başlıca, fərqləndirici əlamətlərini **sözlü- məntiqi təfəkkür səviyyəsində mücərrədləşdirmə yolu ilə** müəyyən edə bilirlər.

Məsələn, IV sinifdə «yırtıcı heyvanlar» anlayışının formalaşdırılması prosesində şagirdlərin böyük əksəriyyəti əsas əlaməti- bu heyvanların həyat tərzini fərqləndirməklə yanaşı, qeyri-mühüm əlamətləri də sadalayırlar: «Onların bədəni tüklə örtülüdür», «iti dişləri var», «pəncələrində dırnaqları var» və s.

Məktəbdə müəllimin peşə ustalığından, öyrətmə metodikasından asılı olaraq, kiçik yaşlı məktəblilərdə nəinki konkret, həm də bəzi mücərrəd anlayışların formalaşdırılması mümkündür. Kiçik məktəb yaşı dövründə uşağın cəlb edildiyi yeni fəaliyyət növü olan təlim **təxəyyülün** inkişafı üçün yeni imkanlar açır. Bu imkanların əsasında uşağın məktəbəqədər yaş dövründə əldə etdiyi təsəvvürlər, biliklər, həyat təcrübəsi dayanır. Onların yaradıcı fəaliyyətinin bütün sahələrində təxəyyül obrazlarının təzahürlərini müşahidə etmək mümükündür. Kiçik yaşlı məktəblilərin yaratdığı obrazlar təcrübə ilə sıx bağlı olur. Əgər 3-4 yaşlı uşağa təyyarə modeli qurmaq üçün 2-3 çöp kifayətdirsə, kiçik yaşlı məktəbli üçün bu qaneedici deyil: gərək təyyarə «əsil təyyarə» olsun. Bu cəhət rəsm dərslərində də müşahidə olunur. Kiçik məktəblilər rəsm çəkərkən obyektin onlara məlum olan və ya gözü qarşısında olan bütün detallarını təsvir etməyə cəhd göstərirlər. Müşahidələr göstərir ki, kiçik yaşlı məktəblilər mövzu üzrə rəsm çəkərkən daha çox detalları verməyə

meyli olduqlarına görə rəsmdəki formaları tamamlamağa o qədər də əhəmiyyət vermirlər. Ona görə də, çox vaxt onların rəsmlərində təsadüfi assossasiyalar, təsvirin səthiliyi diqqəti cəlb edir.

Kiçik yaşlı məktəblilərdə **bərpaedici təxəyyül surətləri** öz məzmunu baxımından təsvirəuyğun surətlərin yaradılması ilə məhdudlaşır və yaradıcı surətlərə nəzərən daha dolğun olur. Onlar bir sıra spesifik cəhətləri ilə fərqlənir. Bununla belə, bu dövrdə uşaqların bərpaedici təxəyyül surətləri davamlı olmur, tez-tez dəyişir. Oxunmuş mətn üzrə rəsm çəkərkən uşaqlar mətnə aid olmayan başqa obyektləri də rəsmə daxil edirlər. Uşaqların **bərpaedici təxəyyülündə hafizə təsəvvürləri və görmə obrazları** üstün rola malikdir. Odur ki, kiçik yaşlı məktəblilərin təbiətə ekskursiya və gəzintilər vasitəsilə təəssüratlarının zənginləşdirilməsi olduqca vacibdir. III sinifdlən başlayaraq uşaqların təxəyyülü xeyli təkmilləşir və o, fikri fəaliyyətin tərkib hissəsinə çevrilir. Əmək təlimi, rəsm dərslərində **təxüyyül surətləri fikri fəaliyyətin yaradıcı məhsullarına çevrilir.** Uşaqların ən yaxşı əl işlərindən ibarət sərgilər buna konkret nümunədir. Kiçik məktəb yaşı dövründə, xüsusilə III-IV siniflərdə şagirdlərin yaradıcı təxəyyül obrazları realist məzmun kəsb etməyə, gerçəkliklə uyğunluq yaratmağa doğru inkişaf edir, təxəyyül surətlərinin yaradılması prosesində psixi fəaliyyətin ixtiyari formaları meydana gəlir. Uşaqların yaradıcı təxəyyül surətlərində real həyat hadisələri ilə yanaşı **fantastik obrazlar** da özünə yer tutmağa başlayır. Onlar ana dili dərslərində oxunmuş hekayə, təmsil və ya nağıllara Aid illüstrasiyalar çəkir, müxtəlif modellər hazırlayırlar. Məktəblilərdə təxəyyülün inkişaf etdirilməsində **düzgün pedaqoji rəhbərlik** mühüm şərtlərdən biridir.

Kiçik məktəb yaşı dövrü uşaqların **şəxsiyyət yönümündə inkişafında** kifayət qədər əhəmiyyətli dəyişikliklərlə müşayət olunur. Məktəb həyatı uşağın sosial münasibətlər dairəsini genişləndirir, onların yaşlılar və yaşıdları ilə qarşılıqlı əlaqələrinə geniş meydan açır. Uşaqların daxil olduğu məktəb həyatı başqa adamlar və kollektiv, təlim vəzifələri onların xarakteri və iradəsini

formalaşdırır, maraq dairəsi genişləndirir, qabiliyyətlərin inkişafını təmin edir. Uşağın şəxsiyyətinin formalaşmasına təsir göstərən fəaliyyət növləri içərisində təlimlə yanaşı, əmək, oyun, ünsiyyət, idman da əhəmiyyətli yer tutur. Şagirdin şəxsiyyətinin formalaşmasına təsir göstərən amilləri kompleks şəkildə araşdıran psixoloqlar aşağıdakıları xüsusilə ön plana çəkirlər:

1. Şagirdin böyüdüyü və yaşadığı cəmiyyətdə bərqərar olmuş ictimai varlıq və ictimai şüur;
2. Şagirdi əhatə edən sosial və təbii mühit: məişət və mədəniyyətin , yaşayış məntəqəsi və coğrafi regionun təbiəti və spesifik xüsusiyyətləri:
3. Uşağın doğulduğu və tərbiyə olunduğu ailə;
4. Qeyri-formal ünsiyyət mühiti: qonşular, dostlar, tanışlar, uşağın eyni vaxtda daxil olduğu müxtəlif cür insan qrupları;
5. məktəbdənkənar müəssisələrdə ictimai tərbiyə şəraiti;
6. Şagirdin oxuduğu və tərbiyə olunduğu məktəb.

Göstərilən bu amillər bir-birindən asılı deyildir, lakin onlar arasında sıx qarşılıqlı əlaqə mövcuddur və onlar bir-biri ilə qarşılıqlı olaraq şərtlənirlər. Məsələn, biz uşağın şəxsiyyətinin formalaşmasında **ailənin təsirindən** danışırıqsa, onda bu təsirdə ailənin özünə təsir göstərən bütün amilləri kompleks halda nəzərə almaq lazım gəlir. Eynilə bu təsiri məktəbdə axtararkən məktəbin özünə təsir göstərən sosial- siyasi, regional və s. kimi amillər nəzərə alınmalıdır.

Kiçik məktəb yaşı dövründə **əxlaqi davranışın** bünövrəsi qoyulur, əxlaqi norma və davranış qaydalarının mənimsənilməsi baş verir, şəxsiyyətin motivlər sahəsi formalaşmağa başlayır. I siniflə müqayisədə IV sinifdə uşaqların **əxlaqi şüurunda** əhəmiyyətli dəyişikliklər baş verir. Kiçik yaşlı məktiəblilərin mənəvi həyatında yeni keyfiyyətlər özünü biruzə verir: **əxlaqi biliklər, təsəvvürlər və mühakimələr** hiss olunacaq dərəcədə zənginləşir, onlar daha çoxcəhətli və düşüncəli olur, ümumiləşmiş xarakter alır. Bununla

belə, kiçik yaşlı məktəblilərin münasibətlər sistemində və xarakterində davamlı və möhkəmlənmiş davranış formaları hələlik çox mütəhərrik olur, xarakter hələlik formalaşma dövrünü keçirir. Kiçik yaşlı məktəblilərin davranışında ali sinir fəaliyyətinin tipoloji xüsusiyyətləri daha aydın təzahür edir. Utancaqlıq və qapalılıq, sinir sisteminin zəifliyi, impulsivlik və səbirsizlik, ləngimə prosesinin zəifliyini, bir fəaliyyətdən digərinə keçid zamanı müşahidə olunan astagəllik sinir proseslərinin az mütəhərrikliyinin təzahürü kimi özünü göstərir. Bu yaş dövründə uşaqların sinir sistemi plastikliyi ilə fərqlənir və bu uşağın davranışının xarici təsirlərdən birbaşa asılılığına səbəb olur. Uşaq öz davranışını iradi olaraq tənzimləməkdə çətinlik çəkir, onun xarici təsir və təhriklərdən asılılığı yüksək olur. Ona görə də, kiçik yaşlı məktəblilərin məktəbdə daxili intizam qaydalarını pozmalarını heç də həmişə onların tərbiyəsizliyi və intizamsızlığı kimi qiymətləndirmək doğru olmazdı. Bu dövrdə uşaqlarda müşahidə olunan yaş xüsusiyyətləri sırasında i**radənin ümumi zəifliyi** də diqqəti cəlb edir. Kiçik məktəblilərdə iradi səy qabiliyyəti, çətinliklərə qarşı dözümlülük zəif olur. Bu isə uğursuzluq zamanı uşaqlarda ruh düşkünlüyünə, öz qüvvə və bacarığına inamsızlığa gətirib çıxarır. Kiçik məktəb yaşı dövründə uşaqların **xarakterində** müşahidə olunan qüsurlar içərisində şıltaqlıq və tərsliyin səbəblərini psixoloqlar ailə tərbiyəsində buraxılan nöqsanlarda görürlər. Uşaq ailədə bütün istək və tələblərinin yerinə yetirilməsinə adət etdikdə, sonralar ona qarşı yönəldilən qanuni tələblərə qarşı özünəməxsus tərzdə etiraz edir, müqavimət göstərir.

II sinifdə oğlan dərs buraxmasının səbəbləri yazılmış kağız gətirmişdi. «Sən həqiqətən xəstə idin?» - deyə müəllim soruşduqda o cavab verməyərək susurdu. «Bunu həqiqətən anan yazıb?»- deyə müəllim soruşduqda oğlan yenə susurdu. «Bəs onda kim yazıb?» deyərək müəllim təkidlə yenə soruşduqda o, «heç kim! deyə kəskin cavab verdi. (L.A.Matveyevadan).

Bununla belə qeyd etmək lazımdır ki, məktəb yaşı dövrü **müsbət xarakter əlamətlərinin formalaşması** üçün böyük imkanlara malikdir. Təqlidçiliyə meyllilik, müəllimə inam, **təlqinə asanlıqla düşmə, tez**

**təsirlənmə** və s. kimi psixoloji xüsusiyyətlərin tərbiyə işində ciddi nəzərə alınması, bu imkanlardan uşaqlarda müsbət xarakter əlamətlərinin formalaşmasında istifadə olunması olduqca zəruridir.

T. adlı qızın 10 yaşı var. O həmişə şən həyatsevər və enerjilidir. Bununla belə o, həm də, sakit təbiətlidir. T. hər şeydə yaxşı cəhətləri tapmağı bacarır: Günəşli havada sevinir ki, yaxşı oynamaq, gizlənmək olar. Yağış yağanda da o bikef olmur, deyir ki, dərsdən sonra evdə oturub gəlinciyə paltar tikmək üçün yaxşı fürsətdir. Onun bütün sinif yoldaşları ilə səmimi münasibətləri var. T.yaxşı yoldaşdır, xeyirxahdır, rəfiqələrinin qayğısına qalır, o hər şeydə səliqəlidir, işgüzardır, sinifdə və evdə fəallıq göstərir, yaxşı növbətçilik edir, dərslərini yaxşı oxuyur, dəftər, kitabı təmiz və səliqəlidir. T. təşəbbüskar olmaqla yanaşı, həm də yaxşı icraçıdır. Onu hamı: böyüklər də, uşaqlar da sevirlər. (E.S. Maxlaxdan)

Uşaq ailədəki mövqeyindən narazıdırsa, ona öz fikrini söyləmək imkanı verilməlidir. Uşağın tərbiyəsində intizam qaydalarının ciddi gözlənilməsi onda güclü xarakter formalaşdırır. Uşağın narahatlığını başa düşən, yaşıdları ilə ünsiyyətini təmin edən, əylənməsinə şərait yaradan valideynlər onun sosial-psixi inkişafına əlverişli zəmin yaratmış olurlar. Uşaqlar həmişə ana qayğısına, ata nəvazişinə ehtiyac hiss edirlər. Lakin çox vaxt bu tələbat təmin edilmədiyindən uşaqların psixikasında neqativ təzahürlər, asosial hallar, çılğınlıq, dalaşqanlıq, kobudluq bəzən isə aqressiv davranış meylləri yaranmış olur.

«Azərbaycan kino incəsənətinin gözəl nümunələrindən biri olan «Ögey ana» filmində İsmayıl obrazı buna tipik nümunə ola bilər. Körpə yaşlarından anasını itirən, nənə himayəsində ərköyün böyüyən, atasının üzünü az-az görən bu uşağın psixoloji portretində uşaq şıltaqlığı, kobudluğu,intizamsızlığı ilə yanaşı, uşaq məsumluğu, kövrəkliyi və sadəlövhlüyünün təzahürləri çulğalaşmışdır. Kiçik yeniyetməlik dövrünə qədəm qoymuş bu uşağı artıq hər şeylə aldatmaq, qorxu və cəza ilə ipə-sapa gətirmək mümkün deyil, onun mehriban , həm də tələbkar Dilarə xanımla sosial əlaqələri, münasibətləri heç cür alınmır. Burada o vaxtlar hər adamda olmayan qol saatı kimi dəyərli hədiyyələr də gücsüzdür. İsmayılın «ögey ana» ilə normal münasibətlərini ətrafda olan çoxları- qonşu qarılar, nənə, uşağın yaşıdları da hər addımda korlayır, tikanlı sözlərlə oyanış dövründə olan uşağın heysiyyatına toxunurlar.

Adi tamaşaçı gözündə Dilarə xanım gözəl, xoşxasiyyət, xeyirxah və mehribandır. O, İsmayıl üçün əsil ana ola biləcəyinə, bu ailəyə bağlanacağına əmindir. Lakin psixoloji planda təhlilə əsasən deməliyik ki, Dilarə xanımın da səhvləri vardır. İsmayılla yenicə sahmana düşməkdə olan münasibətlərin pozulmasına məhz Dilarə səbəbkardır, onun güzəştə getmək fikri yoxdur. İsmayılın dərslərindən aldığı «2» qiymətləri məhz o ataya söyləyir, bununla da uşağın tikintiyə getmək üçün atadan aldığı razılığı pozur. Gərgin psixoloji-dramatik səhnələr də elə buradan sonra başlanır. Fikrimizcə, İsmayılın islah edilməsi, yaxşı oxuyan məktəbli olması bir-iki ayın işi deyil, işlər əvvəldən korlanmışdır. Dilarə «2»-ləri uşağın tikintiyə getmək ərəfəsində ataya bildirməsəydi, ögey ana ilə onun emosional-mənəvi əlaqələri daha asanlıqla yarana bilərdi. Hər halda həmin anda Dilarə bu güzəştə gedə bilərdi və getməli idi»

Ailə və məktəbin uzlaşdırılmış vahid tələblər sistemi kiçik məktəblilərdə intizamlılıq məsuliyyətlilik, müstəqillik, təşəbbüskarlıq və dözümlülük kimi əxlaqi- iradi keyfiyyətlərin, borc hissinin formalaşdırılmasının mühüm vasitəsidir.

Uşağa ziddiyyətli şeylər aşılamayaraq, onu ata bir cür, ana başqa cür təlqin etməməlidir. Əks halda, uşaq onların hansını dinləyəcəyini bilməyərək çaşır, hansının doğru olduğunu ayırd edə bilmir. Nəticədə həm ana, həm də atasına olan etimadını itirir. Uşaq ana, yoxsa atanın ona münasibətdə daha həlim olduğunu bir dəfə hiss edən kimi, öz səhvlərini ört-basdır etmək üçün həmişə bu vəziyyətdən istifadə edir. Ona həlim olan şəxsdən kömək istəməyə başlayır. Bu da uşağın həddən artıq ərköyünləşməsinə səbəb olur. Bəzi ailələrdə uşaq nadinclik etdikdə, sözə baxmadıqda dərslərini öyrənəmədikdə, xoşagəlməz işlər tutduqda valideynlər yerli-yersiz onu döyür. Bu isə uşağın düzgün tərbiyəsinə son dərəcə mənfi təsir göstərir: eyni zamanda valideyn uşağın gözündə nüfuzdan düşür. Döyülmək qorxusu vuyan uşaq yalnız müvəqqəti, yəni müəyyən vaxt çərçivəsində sözə baxır. Kimdən qorxursa, onun yanında özünü ədəbli, sözəbaxan kimi göstərir. Əslində bu, döyülmək qorxusu önündə uşağın zahiri itaətkarlığından başqa bir şey deyildir.

XIX əsrin ortalarında bu məsələyə öz münasibətini bildirən maarifpərvər ziyalı M.F.Axundov yazırdı: «…bu günə qədər anlamamışlar ki,

uşaqların tərbiyəsində çubuq və sillə vurmaq onların əxlaqını pozar, təbiətlərini alçaldar, fitri cövhərlərini bogar, qorxaq və yalançı edər»[1]

Tez-tez döyülən uşağın daxili aləmində sarsıntılar yaranır, heyssiyatı zədələnir, qüruru sınır, yavaş-yavaş buna öyrəşir və get-gedə reaksiya vermir. Beləliklə, başqa cəzalar da öz təsirini itirir. Bu mənada, hər şey üçün uşağı döymək çox təhlükəlidir.

## Suallar və tapşırıqlar

1. Nə üçün kiçik məktəb yaşı dövründə təlim aparıcı fəaliyyət növü hesab edilir?
2. Kiçik yaşlı məktəblinin anatomik-fiziki inkişafında baş verən dəyişiklikləri söyləyin.
3. Birinci sinif şagirdlərinin təlim prosesində qarşılaşdıqları çətinliklərin psixoloji təhlilini verin.
4. Təlim fəaliyyətinin əsas komponentləri hansılardır?
5. Mənimsəmənin psixoloji komponentlərini söyləyin.
6. Kiçik yaşlı məktəblilərin təfəkkürünün xüsusiyyətlərini təhlil edin.
7. Qavrayışın xüsusiyyətlərini söyləyin.
8. Kiçik məktəb yaşında diqqətin və hafizənin hansı xüsusiyyətləri üstünlük təşkil edir?
9. Kiçik yaşlı məktəblilərin təxəyyülü nə ilə səciyyələnir?
10. Kiçik məktəblinin şəxsiyyətinin əsas cəhətləri hansılardır?
11. 6 yaşdan məktəb təlimi zamanı meydana çıxan başlıca çətinliklər hansılardır?

[1] Sitat Ə.Ə.Əlizadə və A.N. Abbasovun «Ailə» (9-cu sinif şagirdləri üçün dərslik). V., «Maarif», 1989-cu il. Kitabdan götürülmüşdür. Səh.227.

## V. 2. Yeniyetmənin psixoloji xüsusiyyətləri

Fərdin ontogenezdə inkişafında 11 yaşdan 14-15 yaşadək olan inkişaf mərhələsi **yeniyetməlik dövrü** adlanır. Bu yaş dövrü kiçik yeniyetməlik (11-12 yaş) və böyük yeniyetməlik (13-15 yaş) olmaqla iki əsas mərhələyə ayrılır. Yeniyetməlik dövrü anatomik- fizioloji, psixi və sosial keyfiyyətlər baxımından həyatın bir mərhələsindən digərinə- **uşaqlıqdan yaşlılığa keçid dövrü** kimi xarakterizə olunur. Yeniyetməlik yaşı inkişafın xüsusi və mürəkkəb dövrüdür. Onu orqanizmin ümumi inkişafı gedişindən və həyat şəraitindən kənarda qiymətləndirmək olmaz[1]. Yeniyetməlik yaşı pedaqoji təsnifat baxımından şagirdlərin orta məktəb yaşı dövrünü əhatə etməklə VI-IX siniflərdə təhsil illərinə təsadüf edir. Şəxsiyyətin sosial, fiziki, mənəvi, əqli və s. cəhətdən yetkinləşməsi və formalaşmasında ciddi və əhəmiyyətli dəyişikliklər bu yaş dövründə özünün bariz təcəssümü, aşkar nəzərə çarpan təzahürləri ilə diqqəti cəlb edir. Rus yazıçısı M.F. Dosteyevskinin məşhur romanlarından biri məhz belə: «Podrostki» «Yeniyetmələr» adlanır. Burada heç də söhbət yeniyetmənin yaşından yox,onun özünü ideal yaşlı kimi aparmasından gedir. Psixoloji-pedaqoji ədəbiyyatlarda uşağın inkişafının bu dövrü **«çətin dövr»,** «böhranlı dövr», **«keçid dövrü», «ziddiyyətli dövr»** və s. kimi adlarla xarakterizə edilir. Bu yaş dövründə uşaqların orqanizmində baş verən coşğun, partlayışa bənzər dəyişikliklər, boy və çəki artımında kəskin sıçrayışlar, yeni kəmiyyət və keyfiyyət dəyişikliklərinə gətirib çıxarır. Yeniyetmə yaşı dövründə fiziki inkişafın mühüm amillərindən biri **cinsi yetişmə**, cinsi vəzilərin fəaliyyətə başlamasıdır. Cinsi yetişmənin başlanması müəyyən dərəcədə iqlim, milli-etnoqrafik amillərdən, habelə fərdi həyat tərzindən (sağlamlığın vəziyyəti keçirilmiş xəstəliklər, qidalanma, əmək və istirahət rejimi, mikromühit və s.) asılıdır. Müəyyən edilmişdir ki, **akselerasiya hadisəsi uşaqların cinsi yetişməsinin sürətlənməsinə** təsir göstərir. Hal-hazırda cinsi yetişmə,

[1] Дережнова К.П. Роль социалныхь и биологических факторов в развитие ребенка. М., «Медицина», 1983 стр.90.

oğlanların böyük əksəriyyətində 15-16, qızlarda isə 13-14 yaşlarda tamamlanır. 2003-cü ildə Azərbaycan Respublikasının «Ailə və nikah» məcəlləsində dəyişiklik edilərək, qızların nikah yaşı 18- dən 17-yə endirilmişdir. Müstəsna hallarda yerli icra hakimiyyəti orqanları nikah yaşını 1 ildən çox olmayaraq azalda bilər. Psixoloji tədqiqatlar uşaqlar arasında cinsi yetişmənin aşağıdakı variantlarını müəyyən etmişdir:

| | qızlarda | oğlanlarda |
|---|---|---|
| 1. Cinsi yetişmənin gec başlanması- | 12-17 yaş | 14-19 yaş |
| 2. Cinsi yetişmənin tez başlanması | - 13 yaş | 10-15 yaş |
| 3. Orta variantlar- | 10-15 yaş | 12-17 yaş |
| 4. Tez yetişmə | 10-12 yaş | 12-14 yaş |
| 5. Cinsi yetişmənin ləng başlanması | 13-15 yaş | 15-17 yaş |
| 6. Ləng yetişmə | 10-17 yaş | 12-19 yaş |

Yeniyetməlik dövründə daxili sekresiya vəzilərinin ifraz etdikləri hormonlar cinsi yetişməni sürətləndirir, ikinci cinsi əlamətlərin oğlan və qıza məxsus zahiri əlamətlərin yaranmasına səbəb olur. Bu yetişmə prosesində oğlanlarda cinsiyyət vəziləri androgen, qızlarda isə ekstrogen adlanan hormonlar ifraz edir və bu hormonlar qana daxil olur. Qanın kimyəvi tərkibində dəyişiklik yaranır. Cinsi hormonların təsiri ilə qızlarda cinsi yetkinliyin əlamətləri – menustrasiya dövrü başlanır. Döş vəziləri, oturacaq çanağı böyüyür. Oğlanlarda cinsi yetişmənin təsiri ilə yeni xarakterik əlamətlər yaranır. Onların səsi kobudlaşır, bığ yerləri tərləyir, tük örtüyü əmələ gəlir, cinsi məzmunlu yuxularda polyusiya halları baş verir.

Psixofizioloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yeniyetmə qruplarında da **akselerant və retartant** uşaqlara təsadüf olunur. Akselerantlar normal uşaqları iki il qabaqladıqları halda, retardantlar iki il geri qalırlar[1]. Fizioloqlar qeyd edir ki, 12-13 yaşlarında yeniyetmə uşaqların ali sinir fəaliyyətində də ciddi dəyişikliklər müşahidə olunur. Baş beyin qabığında

[1] Кон И.С. Психология старашеклассенника. М., «Просвещение», 1980, стр 33

ritmik elektrik fəallığı sıçrayışlı tempdə artır və bu öz qüvvəsinə görə insanın öz həyatı ərzində ən yüksək həddə çatmış olur[2].

Heç şübhəsiz, fiziki və cinsi yetkinliyə keçid dövründə yeniyetmənin orqanizmində baş verən bu təkamül onun psixi simasında təsirsiz qalmır. Uşağın boyu bu yaş dövründə ildə orta hesabla 8-10 sm, çəkisi 4-7 kq olmaqla artır, yeniyetmə yaşının sonunda bədən orqanları mütənasib forma almaqla yaşlı normal adamın bədən ölçülərinə yaxınlaşır. Bununla belə, bu yaş dövründə bədənin müxtəlif orqanları və sistemlərinin inkişafında müəyyən uyğunsuzluqlar da nəzərə çarpır. Bədən ölçülərinin əhəmiyyətli və qeyri mütənasib şəkildə böyüməsi yeniyetmələrdə hərəkətlərinin koordinasiyasının yöndəmsiz olmasına gətirib çıxarır.

Bədənin fiziki ölçülərindəki belə uyğunsuzluqlar yeniyetmədə müəyyən psixoloji effektlər yaradır: o, özünün yöndəmsiz görkəmdə olmasını dərk edir, bundan utanır, onu maskalamaq, ört-basdır etmək üçün qeyri-təbii ibarəli poza alır, kobudluğu ilə ətrafdakıların diqqətini xarici görkəmindən yayındırmağa çalışır. Onun görünüşü haqqında yüngül gülüş və ya istehza yeniyetmədə kəskin reaksiya doğurur, onda belə fikir yaranır ki, həqiqətən adamların gözündə gülməli və eybəcərdir. Döş qəfəsinin, ürəyin çəki artımı qandaşıyıcı damarların böyümə sürətindən geri qalır. Bunun nəticəsində baş beyin qanla kifayət qədər təchiz oluna bilmir. Mərkəzi əsəb sistemi sürətlə böyüyən bədənin hərəkətlərini nizama salmaq üçün birdən-birə uyğunlaşa bilmir. Qeyd olunan fizioloji uyğunsuzluq, xüsusilə kiçik yeniyetmə yaşlı uşaqlarda tez yorulma hallarına gətirib çıxarır. Bu hal uşağın ailədə və məktəbdə qeyri-adi davranışına səbəb olur. Bəzən valideynlər bunun səbəbini anlamadığından, təəccüblə deyirlər ki, V-VI siniflərdə hər şey yaxşı gedirdi: uşaqlar sözə baxan idilər, dərslərini səylə öyrənirdilər, səliqəli və hövsələli idilər. Birdən birə hər şey alt-üst oldu: uşaqlar səbrsiz, kobud və sərt oldular. Şərq nağıllarından birində deyildiyi kimi, kimsə onlara uzun qol-

[2] Лидерс А.Г. Психологический тренинг с подрастками. М., «Академа», 2003, стр.33

qıç verib ki, onlar da həmin qol-qıçla hər şeyə toxunur: ətrafdakı hər şey dağıdlır, atılır, yıxılır, sındırılır, çilik-çilik edilir.

Orqanizmdə baş verən fizioloji proseslər nəticəsində uşaqların rəftar və davranışında, **yaşlılar və yaşıdları ilə qarşılıqlı münasibətində** neqativ hallar tərslik, höcətlik, dikbaşlıq, əhvalın tez və kəskin dəyişməsi, mənfi emosiyalar, bəzən isə aqresiv təzahürlər, affekt tipli reaksiyalar meydana çıxır. Onlar yaşlıların tələblərinə mane olmaq istəyir, onlara müqavimət göstərir, balacaları buyurur, onlara göstərişlər verir, müstəqilliyə və sərbəstliyə can atırlar. Rus psixoloqu A.Q.Kovalev haqlı olaraq qeyd edir ki, burada söhbət heç də «yaş böhranı»ndan yox, yeniyetmənin yaşlılarla, xüsusilə müəllimlərlə və tərbiyəçilərlə münastbətlərinin böhranından gedir. Sübut edilmişdir ki, yeniyetməlik dövrü **fiziki keyfiyyətlərin inkişafı və formalaşması üçün senzitiv dövrdür.** Yeniyetməlik dövründə uşağın **müstəqilliyə artan tələbatı** ilə onu həyata keçirmək imkanları arasındakı ziddiyyət inkişafın **hərəkətverici qüvvəsi** rolunda çıxış edir. Bu ziddiyyətdən törəyən yaş böhranı yeniyetmənin yaşlılığa keçidini şərtləndirir. Romantik coşğunluq və … kobud hərəkətlər, əxlaqi cahillik, gözəlliyə valehlik və … gözəlliyə kinayəli münasibət- yeniyetməlik yaşının bu ziddiyyətləri müəllimlər və valideynlər üçün çoxlu xoşagəlməz hallar öyrədir»[1].

Psixoloqların fikrincə, «məktəb nevrozları»na daha çox məhz yeniyetməlik dövründə təsadüf olunur. Bəzən bu hal illərlə uzanır. Yeniyetmənin məktəb, pis qiymətlər üçün qorxusu, imtahanlar ərəfəsində dərin həyəcan və küyə düşməsi, müəllimlər, valideynlər, ümumiyyətlə, yaşlılarla kobudluğu məktəb nevrozlarının təzahürləridir[2]. Müasir məktəblilər arasında çox geniş yayılmaqda olan **emosional stress** halları uşaqların ümidsizliyə qapılması, uğursuz ailədə böyümə, həyat səviyyəsinin aşağı olması, valideynlərin cəmiyyətdə mövqeyini itirməsi və ya cinayət

[1] Сухомлински В.А. Vətəndaşın doğulması. B., Maarif, 1975, s.75
[2] bax: Юркевич В.С. Об индувидуальном подходе о воспитании волевых привычек. «Педагогика и психология», «Знание» , 1986, № 11 стр.30

məsuliyyətinə cəlb edilməsi, uşağın yaşlılar və yaşıdlar arasında istehza obyektinə çevrilməsi, fiziki cəhətdən şikəstlik və ya zahiri eybəcərlik ən əziz olan adamı itirmə böyüklərin cəzasından qorxu bir sözlə taleyin qəfil zərbəsi kimi törəyir.

Emosional stress gərgin psixoloji halətdir. O,xeyli müddət, bəzən aylarla davam edir, rühi sarsıntı, psixoloji üzüntü şəklində özünü biruzə verir. Müasir dövrdə zəlzələ, daşqın, epidemiyalar, yanğın, müharibə və s. kimi fövqəladə vəziyyətlər də stresin yaranmasına gətirib çıxaran səbəblər sırasına aid edilir ki, bunlara da **stressorlar** deyilir. Bütün bunlar heç şübhəsiz ən başlıca bir amildən – qorxu hissindən törəyir.

Tez-tez təkrarlanan və sürətli streslər məktəblilərdə xroniki emosional gərginliklərə, son nəticədə vegetativ sinir sisteminin və hormonal sistemlərinin xəstəliklərinə gətirib çıxarır.

Emosional siress keçirmiş uşaqların psixikasında müşahidə olunan potoloji hallar psixi enerji potensialının tükənməsi ilə bağlı olaraq ümidsizlik, qəmginlik, küskünlük, emosional kasıblıq, qaş-qabaqlılıq, ünsiyyətsizlik, arzu və istəklərin yoxluğu, tənhalığa çəkilmə, laqeyidlik, fəaliyyətsizlik, bəzən isə motivləşməmiş aqressiv davranış və kobudluqdur. Bütün bu hallar ünsiyyət deffekti, yəni ünsiyyət tələbatının təmin edilməməsi, uşağa qarşı nəvaziş, qayğı və mehribanlığın olmaması ilə bağlı olaraq meydana çıxır. Belə uşaqlar donuq görkəmdə olur, ətrafdakı hər şey onlara solğun görünür. Uşağın psixi həyatında həm verbal, həm də ekspressiv-emosional əlaqələrin zəif olması sosial əhatədə qeyri-formal psixoloji iqlim onların normal psixi inkişafına mənfi təsir göstərir.

Yeniyetmələk yaşı uşaqlıq yaşı dövrləri içərisində ən çətin və mürəkkəb dövr hesab olunur. Böyük Ukrayna pedaqoqu V.A.Suxomlinski bu dövrü obrazlı olaraq **«vətəndaşın doğulması» dövrü** adlandırmışdır. O, yazırdı: «Yeniyetmələk illərinə daxil olmaq elə bil insanın ikinci dəfə doğulmasıdır. Birinci dəfə canlı varlıq, ikinci dəfə vətəndaş, artıq təkcə ətraf aləmi deyil, həm

də öz-özünü görən, fəal düşünən, fəallıq göstərən şəxsiyyət doğulur»[1]. Yeniyetməlik dövründə təzahür edən mənfi xüsusiyyətlər keçici xarakter daşıyır. Bu yaş mərhələsində xarakterin əlamətləri, şəxsiyyətlərarası münasibətlərin əsas formaları stabilləşir, mənəviyyatın, **sosial yönəlişliyin təməli möhkəmlənir,** şəxsi özünütəkmilləşdirmə cəhdləri- **özünüdərketmə, özünütəsdiqetmə və özünüifadə** formalaşır. Bu keyfiyyətlərin formalaşmasın-da uşağın daxil olduğu yaşıdları qrupunun böyük rolu vardır. Bu sosial qrumlar yeniyetmənin şəxsiyyət məzmunlu mənəvi dəyərlərinin təşəkkülünü, adamlara qarşı seçici münasibətinin, ünsiyyət mədəniyyətinin formalaşmasını təmin edir. Lakin bu deyilənlərdən heç də belə yanlış qənaətə gəlmək olmaz ki, yeniyetməlik dövrü nə isə «şikəst», «əlil» bir yaş dövrüdür. Əksinə, **yeniyetməlik yaşı fəallıq, coşğun ehtiraslar, qaynayan enerji, böyük arzu və ideallar dövrüdür.** Yeniyetmənin coşub-çağlayan həyatını düzgün məcraya yönəltmək, onun təlimi və tərbiyəsinin təşkilində, idarə edilməsindcə qeyd olunan fizioloji və psixoloji xüsusiyyətləri nəzərə almaq olduqca vacibdir.

Yeniyetmənin şəxsiyyətinin formalaşmasında onun yaşlılar və yaşıdları ilə qarşılıqlı münasibətlərinin xüsusi rolu vardır. **Ünsiyyətə və başqa adamlarla qarşılıqlı münasibətlərə tələbat** bu yaş dövründə daha kəskin və gərgin bir xarakter alır, **əks cinsə maraq** artır. Qeyd etmək lazımdır ki, yeniyetməlik illərində yaşlılarla münasibətlər xeyli mürəkkəbləşir və ilk baxışda ziddiyyətli kimi görünür. Lakin bu heç də tamamilə belə deyildir. Bir tərəfdən yeniyetmələrin böyük hissəsi bu yaş dövründə öz valideynlərinə, müəllimlərinə daha çox bağlanırlar, digər tərəfdən isə, daha çox hüquqlar tələb edir, daha çox müstəqillik istəyir, artıq böyüdüklərini sübut etmək iddiasında olurlar. Psixoloq T.V. Draqunovanın tədqiqatları sübut edir ki, yeniyetmənin həmyaşıd uşaqlarla, xüsusilə yaxın yoldaşları və dostları ilə ünsiyyəti sadəcə olaraq təlim fəaliyyəti və məktəbin hüdudları ilə

[1] Suxomlinski. Vətəndaşın doğulması. B., «Maarif», 1975, səh.357

mühdudlaşmır, yeni maraq, məşğələ və münasibətlər dairəsini əhatə edərək onun üçün həyatın son dərəcə əhəmiyyətli olan müstəqil sahəsinə çevrilir. Yeniyetmə üçün yoldaşlarla ünsiyyət hətta o dərəcədə əhəmiyyət kəsb edir ki, onunla müqayisədə təlim ikinci plana keçir, doğma adamlarla ünsiyyətin rolu xeyli azalır. Bu cəhəti, adətən ilk dəfə ana hiss edir. O görür ki, oğlu və ya qızı artıq nə isə öz həyatı ilə yaşayır, öz sevinci və kədəri haqqında az danışır və ya heç danışmır, evdən küçəyə can atır[1].

Yeniyetmə küçədə özünü sərbəst, nəzarətsiz hiss edir, hər hansı borc və məsuliyyət daşımadığına əminlik duyur. Küçədə veyillənən **qeyri- formal liderlərin** təsiri altına düşən yeniyetmə ədəbsizliklə qarşılaşır, yoldan ötən qızlara sataşan küçə qruplarının əhatəsində əxlaqi deformasiyaya uğrayır. Fikrimizcə, bizim küçəyə inamsızlığımızın köklərini bunda axtarmaq lazımdır. Müəllim, tərbiyəçi və valideynlər bu amillərə kifayət qədər ciddi yanaşmadıqlarına görə, onların yeniyetmələrlə problemləri yaranır.

Amerikan etnoqrafı Marqaret Mud (1901-1978) əvvəlcə Samoa adasında (1928) sonra isə, yeni Qveneyada (1930) uşaqların böyüməsi, yaşlaşması məsələlərini öyrənərək belə qənaətə gəlmişdir ki, bu adaların sakinlərinin yaş dövrlərinin dəyişməsində heç bir böhran və ya münaqişələrə təsadüf olunmur. Əvvəlki cəmiyyətin nizamlı həyat ritminin axırında yeniyetmələr yaşlıların həyatına tədricən və çox asanlıqla qoşulurlar. Samoalı yeniyetmə qızlar amerikalı həmyaşıdları ilə müqayisədə ciddi seksual əlaqələr haqqında təsəvvürlər baxımından çox bəsit məlumatlara malikdirlər.

Qeyd etmək lazımdır ki, yeniyetmənin yaşıdları onun həyatında olduqca vacib rol oynayır. Onun daxili mövqeyində baş verən yeni psixi törəmələr yeniyetməni yaxşı yoldaş, yaxşı dost olmaq, kollektivdə və yaşıdları içərisində mövqe qazanmaq, sayılıb-seçilmək, onların hörmət və etibarına sahib olmaq tələbatları doğurur.

Zabil şəhər məktəbinin IX sinifində oxuyur. Yeni dərs ilinin başlanması ilə əlaqədar valideynləri ona təzə kostyum, ağ köynək, qalstuk almışdılar. Lakin o, qalstuku bağlamaq istəmirdi. Valideynlərin təkidindən sonra o, bir neçə gün məktəbə qaltukla getsə də, sonradan onu bağlamaqdan qəti imtina etdi. Səbəbini soruşduqda o, deyilirdi: Mən sizə

[1] bax: Yaş və pedaqoji psixologiya, II hissə, B., APİ-nin nəşri, 1978, səh.51

dedim ki, qalstuk lazım deyil. Uşaqlar qalstuk bağlayanları lağa qoyur, onları «ziyalı» deyə ələ salırlar. Qalstuk məsələsinə bundan sonra son qoyuldu.

Şagirdin belə mürəkkəb münasibətlər şəraitində özünü təsdiqləmək imkanları azalır. Odur ki, bir çox yeniyetmələr diqqət mərkəzində olmaq, öz cəhdlərini reallaşdırmaq üçün yalançı qəhrəmanlıq göstərmək, dərsdə intizamı pozmaq təşəbbüsləri göstərir, siqaret çəkməyə, avtomobil sürməyə və s. cəhd edirlər. Belə neqativ təzahürlər yeniyetmə üçün **özünütanıtma və özünütəsdiq** formasına çevrilir. Yaşıdaşları mühitində özünə yer tapa bilməyən bəzi yeniyetmələr **küçə qruplarına** qoşulur, **«avtonom əxlaq»** normalarını öyrənir, onların davranışında **«neqativ ustanovkalar»** müşahidə olunur. Yeniyetmələr onların həyatına soxulan adamları sevmirlər. Xarici görünüş həyatın çox mühüm və vacib tərəfidir. Paytaxtda, iri şəhərlərdə yaşayan yeniyetmə kənd və əyalətlərdəki yaşıdlarına nəzərən daha dəblə , açıq- saçıq geyməyə adət etmiş olur. Əyalətdə yaşayan yeniyetmə və gənclərin fikrincə, bu cür qadağanlar onlara qarşı haqsız münasibətin, ədalətsizlyin nəticəsidir.

Müasir dövrdə ailə tərbiyəsində atanın rolu məsələsi çox mürəkkəb və problemli bir şəkil almışdır. Bəzi ailələrdə atanın yoxluğu və ya onun öz sosial rolunu itirməsi uşaqların tərbiyəsində ananın təsirini gücləndirmişdir. Uşaq və yeniyetmələr öz sirlərini adətən yaşıd dostları və anaları ilə bölüşürlər. Rus psixoloqu Y.L.Kolominski məşhur ABŞ psixoloqu C.Morenonun «sosio-metriya» metodunun yeni modifikasiyası əsasında apardığı tədqiqat nəticəsində belə qənaətə gəlmişdir ki, hər bir sinifdə müxtəlif vəziyyətlərdə olan bir neçə uşaq qrupu mövcud olur:

**1. «Ulduzlar»** - emosional baxımdan təmin olunmuş, kollektivdə əlverişli mövqeyi olanq fəal uşaqlar. Uşaqların əksəriyyəti onlarla əylənmək, dostluq etmək, bir partada oturmaq, ictimai tapşırıqları birgə yerinə yetirmək istəyirlər.

**2. Üstün mövqeyə malik olanlar»** - onlar «ulduz» hesab edilənlərdən aşağı mövqeyə malkdirlər. Lakin sinifdə uşaqların xeyli hissəsinin onlara simpatiyası var.

**3. «Təcrid edilənlər»** - olduqca az sayda uşaqlarla münasibətləri olanlar.

**4. «Rədd edilənlər»**-ümumiyyətlə, sinifdə heç bir mövqeyi olmayan, arzuedilməz vəziyyətdə olanlar[1]. Bu təsnifat göstərir ki, **«təcridolunma» və «rədd edilmə»** uşağın kollektivdə, öz yaşıdları mühitində əlverişsiz mövqedə olduğuna dəlalət edir. Psixoloji tədqiqatlar (E.D.Bojoviç) sübut edir ki, yeniyetmənin kollektivdə yeri **«dostluqda düzlük», «dostu müdafiə etmək» «kişilik» , «iradi davranış»** kimi keyfiyyətlər əsasında müəyyənləşir.

Yeniyetməlik dövründə şəxsiyyətin formalaşması onlarda «avtonom ustanovkaların» mənimsənilməsi ilə paralel baş verir. Yoldaşına dəftəri köçürməyə verməyən, ona «şparqalka» ötürməkdən imtina edən, sinfin sirrini «satan» və s. şagirdlər pis yoldaş hesab edilirlər. Yeniyetmələrin özlərinə məxsus **«yoldaşlıq məcəlləsi»** olur. Müşahidələr göstərir ki, belə təşəbbüsləri sinifdə həmişə bir neçə şagird qaldırır, digərləri intizamın pozulmasına daxilən etiraz etsələr də, zahirən bunu biruzə verməkdən çəkinirlər. Çox vaxt sinifdə qızlar da belə hərəkətlərdə oğlanların mövqeyində durur, onları «satmaq» istəmirlər.

VIII sinifdə qış aylarında üç gün idi ki, dərslər pozulmuşdu. Tüstüdən sinifdə dərs keçmək mümkün deyildi. Uşaqlar gözlərinin yanışdığından, boğulduqlarından şikayət edirdilər. Müəllimlər peçin içinə baxır, bunun səbəbini başa düşmürdülər. Bayırda isə külək yox idi. Qızların etirazına baxmayaraq bütün oğlanlar sözü bir yerə qoyub peçin turbasının içərisinə odun soxmuşdular. Lakin müəllimlər, sinif rəhbəri nə qədər soruşsa da, heç kim bunun kim tərəfindən edildiyini öyrənə bilmədilər. Tüstünün səbəbi yalnız peçin turbaları söküldükdən sonra bəlli oldu.

Uşaqların tərbiyəsi məsələləri bütün tarixi dövrlərdə yaşlıları düşündürən bir problem olmuşdur. Qədim yunan filosofu Demokrit (e.ə.V-IV əsrlər).

[1] bax: Коломинский Я.Л. Психология личных взаимотношений в детском коллективе. Минск, 1969, стр. 114

**«Tərbiyə haqqında fraqmentlər»** adlı əsərində yazmışdır: «Uşaqların tərbiyəsi riskli işdir. Burada uğurlar böyük əmək və qayğının nəticəsidir və öz dəyərinə görə, heç nə ilə müqayisə oluna bilmədiyi kimi, uğursuzluğun kədəri də heç nə ilə müqayisəyə gəlmir»[1].

Yeniyetmələr əxlaqi tələbləri, norma və qaydaları, onların məzmununu düzgün dərk edə bilmədikləri üçün pedaqoqlar və valideynlər pedaqoji prosesdə xeyli çətinliklərlə qarşılaşırlar. Əlverişsiz şəraitdə yeniyetmələrin avtonom əxlaqı qanun pozuntularına gətirib çıxarır. Bunun aydın ifadəsini azyaşlı qanunpozan yeniyetmələrin həyatına aid çoxsaylı faktlarda görmək olar. Yeniyetmələrin romantik, qeyri-real təsəvvürlərini, daxili enerjisini, hərəki fəallığını yarışlara, idman məşqlərinə, bədii mütaliəyə, kompüter və xarici dil kurslarına, rəqs və musiqi müsabiqələrində iştiraka yönəltmək, onların asudə vaxtını səmərəli təşkil etmək müsbət nəticə verir. Təlimə, ictimai borca məsuliyyətsiz münasibətlərinin qarşısını almağa xidmət edir.

Düzgün istiqamətləndirilmiş əxlaqi təsəvvürlər, davranışın ictimai normaları yeniyetmənin şüurunda özünə yer tapır, onlarda idealların – **«əsil insan» haqqında təsəvvürlərin ümumiləşmiş obrazını** yaradır. Bu, yeniyetmənin davranış və fəaliyyətinin təhrikedici qüvvəsinə çevrilir, özünü və başqalarını qiymətləndirmək amili olur. Müsbət idealların formalaşması təlim-tərbiyə işinin səmərəliliyindən asılıdır. Yeniyetmənin yad idealları tərbiyə işində əngəllər yaradır. Kiçik yeniyetmələrin idealları adətən konkret bir şəxslə- müəllim, böyük qardaş, ata, müharibə qəhrəmanları və s. ilə bağlı olduğu halda, böyük yeniyetmələrin idealları daha ümumiləşmiş xarakter kəsb edir, konkret adamlardan, ədəbi və kino qəhrəmanlarından ayrılır. Yeniyetmələk dövründə **ideal obrazlar uşaqların özünümüqayisə vasitəsinə,** özünün və başqalarının hərəkətlərini qiymətləndirmə meyarına, şəxsiyyətin **özünütərbiyə amilinə** çevrilir.

[1] Демокрит. Фрагменты о воспитании. В кн: Хрестоматия по истории зарубежной педагогики. М., «Просвешение», 1981, стр.10

Yeniyetməlik dövrü uşaqlığın digər mərhələləri ilə müqayisədə özünüdərketmənin daha yüksək inkişaf səviyyəsi ilə fərqlənir. O, insanın özünün özü tərəfindən dərk edilməsi prosesidir. Bu prosesdə **refleksiya-özünü,** öz hərəkət və davranışını başqalarının gözü ilə görmək və qəymətləndirmək əsas yer tutur. Psixoloqların fikrincə, insanın öz daxili aləminə yönəlmiş maraq hissi məhz ilk dəfə olaraq bu yaş dövründə meydana gəlir. Bu, yeniyetmədə özünüdərketmə tələbatının- öz xarakterinin əlamətlərini anlamaq, öz imkanlarını qiymətdəndirmək, öz hisslərini, psixi vəziyyətlərini təhlil etmək ehtiyaclarının yaranması ilə şərtlənir. Özünüdərketmə və özünüqiymətləndirmə yeniyetmənin şəxsiyyət baxımından inkişafında əhəmiyyətli rol oynayan yeni psixi törəmələrdir. Burada **mənlik şüuru**-yeniyetmənin özü haqqında bilikləri və təsəvvürləri əsas yer tutur. Mənlik şüurunun mənbəyində özünü başqaları ilə müqayisə etmək tələbatları durur. Yoldaşlarını səciyyələndirən yeniyetmə onlara özünün baxışları və qiymətləndirici mühakimələri ilə yanaşır. Məsələn, «O həmişə düzünü deyir», «O, yaxşı oxuyur» və s.

Yeniyetmələrdə mənlik şüurunun formalaşması onların sonrakı psixi inkişafına güclü təsir göstərir. Psixoloqlar yeniyetmənin **əxlaqi şüurunun** tərkibində «mən» obrazının 3 formasını – **«real mən», «»əxlaqi mən», «ideal mən»i** fərqləndirirlər[1]. Mənlik şüurunun formalaşmağa başlaması və inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinə, ətrafdakılar, yaşlılar və yaşıdları ilə qarşılıqlı münasibətlərin xarakterinə öz təsirini göstərir. Yeniyetmənin mənlik şüurunun əsasını ətrafdakı adamların onun haqqında formalaşmış təsəvvürləri və qənaətləri təşkil edir. Yaş artdıqca, yeniyetmə özünüdərketmə və özünüqiymətləndirmə əsasında öz şəxsi keyfiyyətlərini təhlil edir, özü haqqında təsəvvürlərə malik olur. Bu prosesdə əsası kiçik məktəb yaşı dövründə qoyulmuş refleksiyanın mühüm rolu vardır.

[1] Практикум по возрастной и педагогической психологии (Под ред А.И.Шербакова) М., «Просвешение» 1987, стр 125

Bir çox hallarda yeniyetmənin özü, öz imkanları haqqında təsəvvürləri qeyri-adekvat, yüksək iddia fonunda təşəkkül tapır. **Yüksək özünüqiymətləndirmə** ilə kollektivdə, ailədə və yoldaşları arasında onun real mövqeyi uyğun gəlmədikdə, mənəviyyatı və heysiyyatı təhqir olunduqda yeniyetmə ilə ətrafdakılar arasında münaqişələr yaranır.

Yaşlı və təcrübəli riyaziyyat müəllimi VIII sinifdə dərs keçirdi. Lövhə qarşısında on dəqiqədən çox dayansa da, dərsi danışa bilməyən qız haqlı «iki» qiymətini alaraq öz partasına doğru yönəldi. Öz yerində əyləşən kimi pıçıldadı: «Eşşək!» Bu söz xeyli bərkdən səsləndi. Sinif sanki donmuşdu, müəllimin reaksiyasını gözləyirdi. Elə sakitlik idi ki, saatın tıqqıltısı eşidilərdi. Birdən müəllim nəzərlərini qıza tərəf yönəldərək təbəssümlə dilləndi: «Yəqin ki, elə də var, bala. Madam ki, sizi öyrətməyi boynuma götürmüşəm, amma bacarmıramsa, deməli belədir». Qız hönkürüb ağladı[1].

Rus tədqiqatçısı A.İ.Belkinin fikrincə, yeniyetməlik dövründə mənlik şüurunun mühüm bir cəhəti kimi **cinsi mənlik şüuru** da təşəkkül tapır. Onun iki əsas forması- konstant və **konseptual cinsi mənlik şüuru** fərqləndirilir. Konstant mənlik şüuru bütün cinsi davranış aktlarında iştirak edir, cinsi davranışa nəzarət funksiyasını yerinə yetirir. Konseptual cinsi mənlik şüuru isə əsasən stress şəraitində, şəxsiyyət üçün bu və ya digər situasiyada mühüm məna kəsb edən, ümumiyyətlə həyatı əhəmiyyətə malik olan problemləri həll etmək zərurəti meydana çıxdıqda aktivləşir[2].

Yeniyetmənin şəxsiyyətində mühüm yer tutan psixi keyfiyyətlərdən biri kimi əxlaqi şüur vasitəsilə uşaqlar etik anlayışlara və təsəvvürlərə yiyələnir, başqalarının rəftar və davranışını «əxlaqi etalonlar»la müqayisə etməyi bacarırlar. Şərəf, ləyaqət, təvazökarlıq, iftixar, ciddilik, təkidlilik, səmimiyyət və s. kimi mücərrəd etik anlayışları onlar düzgün mənalandıra bilirlər. Məsələn, **təkidlilik** odur ki, adam öz üzərinə ən çətin işlər götürür, işi axıra çatdırır, çətinlikdən qorxmur» (13 yaş). «Təvazökarlıq- hər şeydə təbii görünməkdir; geyimdə, danışıqda və davranışda (15 yaş).

1.Сборник задач по общей психологии. (под ред. В.С. Мерлина) М., «Просвещение», 1974, стр. 142
[2] Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. B., «Maarif», 1986, s.58-59

Yeniyetmənin mənlik və əxlaqi şüurunda baş verən dəyişiklər onun psixi simasında yeni bir xüsusiyyətin –**«yaşlılıq hissi və meylinin»** yaranmasına səbəb olur. «Yaşlılıq hissi» yeniyetmənin şəxsiyyətinin başlıca xüsusiyyətidir. O, yeniyetmənin yeni sosial mövqeyini, yaşlılar aləminə sürətlə və bərabərhüquqlu üzv kimi daxil olmaq, «dinləyici uşaq əxlaqı»ndan yaşlıların bərabərhüquqlu əxlaqına keçidi əks etdirir. Yeniyetmədə şəxsi ləyaqət hissini qorumaq və təsdiq etmək cəhdləri güclənir[1]. Professor Ə.Ə.Əlizadənin fikrincə, «yeniyetməlik dövründə «yaşlılıq hissi»nin formalaşmasının əsas mənbəyi bilavasitə cinsi yetişkənliklə bağlı deyil. Hətta yaşlılıq hissi cinsi yetişmənin başlanmasına qədər də meydana çıxa bilər, yəni mənşəcə tamamilə sosial mahiyyətli ola bilər[2]. Yaşlılıq hissi yeniyetmənin fəal surətdə ətrafdakıların onu yaşlı adam, böyük kimi qəbul etmələrinə yönəldilmiş davamlı cəhdlərində, ibarə və davranışında ifadə olunur. Doğrudan da, 13-15 yaşlı yeniyetmələrin bu qənaətə gəlmək üçün müəyyən obyektiv əsasları olur: cinsi yetişmə, boy və çəki artımının nəticəsi olan zahiri dəyişkənliklər, ictimai həyata fəal müdaxilə, əldə edilmiş uğurlara görə yaşlıların rəğbətinə sahib olma onların fəaliyyətində əsas göstəriciyə çevrilir.

Yeniyetmənin özünü yaşlı adam kimi aparma hissi və meyli onun həyatının müxtəlif sahələrində ifadə olunur. Yeniyetmə ailənin həyatında yaşlı adam kimi iştirak edir, kiçik məktəblidən fərqli olaraq, biliklərə müstəqil surətdə yiyələnməyə başlayır; onların oğlan və qızlarla romantik münasibətlərində də bu cəhət aydın nəzərə çarpır: yeniyetmə oğlan və qızlar bir-biri ilə görüş təyin edir və yaşlılar kimi əylənirlər (birlikdə gəzintiyə çıxır, müxtəlif gecələr təşkil edirlər və s.)[3]. Böyükləri təqlid etmə yolu ilə yaşlılar aləminə daxil olmağa çalışan yeniyetmələr məhz onlar kimi geyinməyə, saç düzəltdirməyə, dəbdə olan paltar almağa meyl edir, kosmetikaya maraq göstərir, əl çantası, daraq, güzgü gəzdirir, qara eynək taxırlar. Professor

[1] Психология (Под ред. А.Ц.Пуни) М., «Физкультура и спорт», 1984, стр 144.
[2] Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. B., «Maarif», 1986, səh.92
[3] E.M. Quliyev, Q.E.Əzimov, Ə.Ə.Əlizadə. Yaş və pedaqoji psixologiya. II hissə, B., APİ-nin nəşri, 1978, s.41

Ə.Əlizadənin qeyd etdiyi kimi, əslində yaşlılığın bütün sirlərini ilk dövrlərdə onlar məhz zahiri görkəmin cizgilərində axtarırlar[1]. Yeniyetmə oğlanlarda «kişi», qızlarda isə «qadın» etalonu potensial rolun nümunəsi kimi görünür. Onların rəftar və davranışında uyğun rolun daşıyıcı keyfiyyətləri, sərvət meylləri formalaşmağa başlayır. Yeniyetmənin psixi həyatında meydana çıxan bir çox xüsusiyyətlər cinsi yetişkənliklə bağlı olduğuna görə, onların cinsi tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirilməli, tərbiyə işinin ümumi sistemində bu məsələ xüsusi diqqətlə araşdırılmalıdır. Cinsi yetişmə fiziki yetkinliyin çox mühüm və xüsusi bir tərəfidir. Son onilliklər ərzində uşaq, yeniyetmə və gənclərin cinsi tərbiyəsi məsələləri xüsusilə kəskin bir problem kimi diqqəti cəlb etməkdədir. Bu, hər şeydən əvvəl cinsi **yetişmə prosesinin bioloji yaşı üstələməsi,** daha erkən olaraq baş verməsi ilə bağlıdır. Bununla belə, milli əxlaq qaydalarına zidd olan yad təsirlərin cəmiyyətimizə sürətlə müdaxilə etməsi, yeniyetmə və gənclərin pozucu və bayağı əxlaq qaydalarına aludəçiliyi, çox vaxt isə onların təsiri altına düşməsi danılmaz həqiqətdir. Bu yaş dövründə uşaq və yeniyetmələri tərbiyənin yad, iyrənc təsirlərindən qorumaq çox çətindir. Tərbiyə işində cinsi tərbiyə və maarifləndirmə işlərinə diqqət artırılmalı, tibbi, gigiyenik, sosial-psixoloji baxımdan cinsi tərbiyə işi elmi əsaslar üzərində qurulmalıdır.

Statistika azyaşlıların internet klublara, disko- barlara, qadağan edilmiş kinofilmlərə, gizli əyləncə yerlərinə hədsiz maraq göstərdiyini, valideyn nəzarətindən kənarda qalaraq yeniyetmə yaşında ikən ana olmuş qızların acınacaqlı taleyini əks etdirir.

Yeniyetmə yaşında meydana çıxan tipik hadisələrdən biri də **ilk məhəbbət hissidir.** Bu yaş dövründə yeniyetmənin cinsi yetişmə prosesinin gedişində əks cinsə seçici simpatik münasibətin təzahürü kimi ilk məhəbbət hissi baş qaldırır. Valideynlər və pedaqoqlar çox vaxt bu hissin qüvvəsini lazımi səviyyədə qiymətləndirə bilmədikləri üçün yeniyetmənin bu incə

[1] Ə.Ə.Əlizadə . Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B., «Pedaqogika», 2004 s.324

duyğularını ələ salır, istehza edir və gülüş obyektinə çevirirlər. Məhəbbət hissi VI-VIII siniflərdə oxuyan uşaqların psixoloji aləmində bir şimşək kimi çaxır, məftunluq və vurğunluq, atəşin sevgi kimi ecazkar qüvvə sehri ilə onları qəfil «yaxalayır». Zəngin, dolğun həyat şəraitində oğlanlarla qızlar arasında münasibətin intim mahiyyəti ideal, təmiz, nəcib meyl və yaxınlaşma istəyi ilə örtülmüş olur[1]. Yeniyetmələrdə daxili hisslərin ecazkar qüvvəsi baş qaldırır, toxunulmaz ülvi duyğular onların bütün varlığına elə güclü təsir göstərir ki, sanki o sehrli bir qüvvənin çıxılmaz təsiri altına düşmüş olur. Bu yaşda onların uşaq məsumluğu ilə çulğalaşmış ilk məhəbbət hissinə ehtiyatla və hörmətlə yanaşmaq lazımdır.Əks halda yeniyetmələr onları ələ salan müəllim və valideynlərdən bərk «inciyir», onlara etinasızlıq göstərir. Professor Ə.Ə.Əlizadə qeyd edir ki, belə hallar yeniyetmələrdə **stress və frustrasiya halları**

**Şəkil 15.**

**doğurur,** yeniyetmənin ata-anadan qəlbən uzaqlaşmasına gətirib çıxarır. Onlar bu cəhətləri öz məktublarında, **gündəliklərində** qeyd edirlər: «Mən istəyirəm ki, çətin dəqiqələrdə anam bir dost kimi mənimlə birlikdə olsun. Lakin biz bir evdə yaşasaq da, mən onun qızı olsam da, o, indi məndən uzaqdadır, mənim üçün yaddır. Eşidirsənmi ana?».

- Mən yenə də S. ilə dostluq edirəm. O, məndən bir yaş böyükdür. O, mənə oxumaq üçün çox maraqlı kitablar gətirir. Mənim bilmədiyim hadisələrdən danışır. Hər şey nə qədər də yaxşı idi. Lakin anam? O, bizə görüşməyi qadağan edir və mən onu aldatmağa məcburam[2].

Yeniyetmənin bu hisslərinə hörmətsizlik edənləri V.A. Suxomlinski **«insana əl qaldıran cani»**yə bənzədirdi.

[1] В.А.Сухомлински. Vətəndaşın doğulması. Bakı,» Maarif», 1975, səh.235
[2] Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. B., «Maarif», 1986, səh.206

Yenəyetmələr ailə şərəfini yüksək qiymətləndirirlər. ONlar içki düşkünü olan valideynlərə mənfi münasibət bəsləyirlər. Atanın mənəvi cəhətdən düşkünlüyü, ananın qohum-qonşu arasında pis ad çıxarması və ya yetiyetməyə sonradan bəlli olan şübhəli keçmişi onun ürəyini ağrıdır, onu dost-tanış yanında isitehza və lağ obyektinə çevirir, xəsalətli edir.

Yeniyetmənin intellektual sferasında yaranan başlıca psixi yenilik **mücərrəd təfəkkür** imkanlarının genişlənməsidir. Təfəkkürün bu ali növü yeniyetmələk dövründə əyani- obrazlı təfəkkürü üstələyir və şagirdlərin riyaziyyat, fizika, kimya və s. kimi dəqiq elmləri mənimsəməsində əhəmiyyətli rol oynayır. Burada biliklərin mənimsənilməsi ilə təfəkkürün inkişafı arasında ikitərəfli əlaqə yaranır: yeni biliklərin əldə edilməsi təfəkkürün təkmilləşməsini stimullaşdırır, təfəkkürün inkişafı isə biliklərin sistemləşməsinə, onların təcrübədə tətbiqi bacarıqlarının inkişafına aparır. Yeniyetmələr müstəqil bilik əldə etməkdən, tədqiqatçılıq fəaliyyətindən emosional məmnunluq hissi duyurlar. Düşünmək, müstəqil «kəşflər» etmək onların xoşuna gəlir. Yeniyetmələrin təhsil aldıqları siniflərdə təlimi təşkil etmək xeyli çətinləşir. Dərslər onlar üçün maraqsız, emosional baxımdan cəlbedici olmadıqda, onların təlimə münasibəti dəyişir, maraqlar sönür. Rus didaktı Q.İ.Şukinanın tədqiqatları göstərmişdir ki, eyni bir sinifdə oxuyan yeniyetmələrin idrak maraqlarında böyük fərqlər nəzərə çarpır. Bir qrup şagirdlərdə maraqlar amorf xarakter daşıyır, dəyişkənliyi və situativliyi ilə səciyyələnir. Digər qrup yeniyetmələrdə maraqlar geniş tədris fənlərini, bütövlükdə təlim fəaliyyətini əhatə edir. Üçüncü qrup yeniyetmələrdə isə köklü, dominant maraqlar aydın təzahür edir[1]. Yeniyetmlik dövründə intellektual inkişafın mühüm xüsusiyyəti ondan ibarətdir ki, təfəkkür keyfiyyətcə yeniləşərək digər psixi proseslərin, hər şeydən əvvəl **qavrayış və hafizənin** inkişafına əhəmiyyətli təsir göstərir. Bu dövrdə yeniyetmələrdə qavrayışın mənalılığı artır və o, xüsusi nəzəri idrak fəaliyyəti kimi **müşahidəçiliyə** çevrilir. Erkən yaşlı uşaqlardan fərqli olaraq,

[1] Щукина Г.И. Проблема познавательного интереса в педагогике. М., «Просвещение», 1971, стр.208

yeniyetmənin hafizəsində məntiqi ünsürlər, yaddasaxlamanın məntiqi üsulları daha əhəmiyyətli şəkildə əks olunur. Onlar keçmiş materiallarla yeni material arasında da mürəkkəb assosiasiyalar yaratmağı bacarırlar. Fəndaxili, fənlərarası və lokal assosiasiyalar buna misal ola bilər. Bu özünü yeniyetmələrin mənalı yaddasaxlamanın xüsusi priyomlarından istifadə etməsində göstərir. Hafizədə saxlanılan materialın həcmi və yaddasaxlamanın sürəti artır, mexaniki hafizəyə nəzərən, **sözlü-məntiqi hafizə** daha sürətlə inkişaf edir, hafizənin məhsuldarlığı artır, kiçik yaşlı məktəblilərdən fərqli olaraq onlar bütövlükdə materialı deyil, yalnız müəyyən qayda və qanunları əzbərləyir, mövzunun qalan hissələrini «öz sözləri» ilə söyləyirlər. Çox vaxt yeniyetmələr dərsə hazırlaşarkən yaddasaxlamanın nəticəsini **tanıma** ilə yoxlayırlar. Kitabı açıb oxuduqları səhifəni gözdən keçirir və onlara elə gəlir ki, hər şey onlara tanışdır, hər şeyi bilirlər. Lakin dərsdə onlar bu yeniliyi doğrultmağa nail olmurlar. Yaşlı adamlarla müqayisədə yeniyetmənin intellektual imkanları, bilik və təcrübəsi xeyli məhdud olsa da, bu yaş dövrünün sonunda intellektual inkişafı xeyli yüksək səviyyəyə çatmış olur.

Orta məktəb yaşı dövründə **diqqətin** inkişafında xeyli üstün cəhətlər yaranır. Diqqətin **davamlığı** və **həcmi, paylanması** kimi xüsusiyyətləri keyfiyyətcə yeni istiqamətdə inkişaf edir, onların ixtiyariliyi yüksəlir. Bununla belə, yeniyetmələrin təlim fəaliyyətində diqqətin bir sıra mənfi halları da nəzərə çarpır, təəssürat və yaşantıların bolluğu, coşğun fəallıq və impulsivlik, mütəhərrik davranış onlarda diqqətin tez-tez yayılmasına və davamsızlığına gətirib çıxarır. Psixoloqlar bu halın səbəblərini müxtəlif amillərlə- iş şəraiti, materialın məzmunu, şagirdin əhval-ruhiyyəsi və psixi vəziyyəti ilə əlaqələndirirlər. Diqqətin seçiciliyi yeniyetmələrdə çox aydın xarici ifadəyə malik olur. Sevmədiyi bir dərsdə dalğın və diqqətsiz olan bir şagird başqa bir dərsdə özünü olduqca diqqətli aparır, fəallıq göstərir. Yeniyetmələrlə təlim prosesində növbəli, cəlbedici, fəal iş formaları, maraqlı dərslər onların təlimə cəlb edilməsində əhəmiyyətli rol oynayır. N.F.Dobrınının tədqiqatları sübut

etmişdir ki, yeniyetmələrdə iradi səylə əlaqələnmiş ixtiyari diqqət **ixtiyaridən sonrakı diqqət** adlandırılan diqqətin məhsuldar fəaliyyətinə təminat yaradır. Yeniyetməlik dövründə qiraət, monoloji və dioloji, yazılı və şifahi nitq intensiv şəkildə inkişaf edir. V-IX siniflərdə qiraət texnikası vərdişləri- oxunun sürəti, ifadəliliyi, düzgünlüyü və şüurluğu kimi keyfiyyətlər bütöv bir kompleks yaradaraq uzun bədii mətnlər bədii ifadə tərzi ilə əzbər söyləmə qabiliyyətləri səviyyəsinə doğru yüksəlir. Şagirdlər müəyyən tədbirlərdə sərbəst çıxış edir, aparıcılıq bacarıqlarını nümayiş etdirir, telefonla uzun müddət dialoq yarada bilirlər. Yeniyetmə siniflərində oxuyan uşaqlar sərbəst mövzuda yaradıcı inşalar yazır, mətn üzrə plan tərtib edir. Onlar öz fikirlərini müxtəlif arqumentlərlə əsaslandırır, **disput və müzakirələrdə** fəallıqla iştirak edirlər.

Kiçik yaşlı məktəblilərlə müqayisədə yeniyetmələrin idrak maraqlarının inkişafında mütərəqqi dəyişikliklər nəzərə çarpır. Onlarda yaranan seçici maraq (lazımlı və lazımsız, əsas və vacib olmayan) fənlərə qarşı olan münasibətlərə özünü göstərir. Onlar vacib hesab etdikləri fənlərə daha çox diqqət yetirir, müxtəlif mənbələrdən sərbəst istifadə etməklə biliklərini zənginləşdirmək və dərinləşdirmək təşəbbüsləri göstərir, dərsdən sonra müxtəlif hazırlıq kurslarına gedir, xarici dilləri , kompüteri öyrənməyə xüsusi diqqət yetirirlər. Bütün bunlar isə yeniyetmədə **özünütəhsil motivlərinin** meydana çıxmasına işarədir. Müasir yeniyetmələrin çoxu özünütəhsili gələcək peşə hazırlığının başlıca amili hesab edirlər.

Yeniyetməlik dövrü yalnız ziddiyyətlər, böhran və çətinliklər dövrü deyil, həm də böyüyən orqanizmin, formalaşan şəxsiyyətin zəngin imkanlarının reallaşması və genişlənməsi dövrüdür. Əgər pedaqoq və valideynlər bu yaş dövrünün müsbət cəhətlərini, üstünlüklərini nəzərə alaraq inkişaf üçün səfərbərliyə alsalar, çətinlikləri uğurla aradan qaldırmaq mümkündür.

**Suallar və tapşırıqlar**

1. Yeniyetməlik hansı yaş dövrünü əhatə edir?
2. Nə üçün bu yaş dövrünü «çətin dövr», «böhranlı dövr» adlandırırlar?

3. Yeniyetmə yaşında hansı anatomik-fizioloji dəyişikliklər baş verir?
4. Cinsi yetişmənin təhlilini verin və onun variantlarını söyləyin.
5. Bu yaş dövründə uşaqların psixo-emosional sferasında hansı xüsusiyyətlər yaranır?
6. Yeniyetmələk dövrünün psixoloji effektləri haqqında nə deyə bilərsiniz?
7. Yaşlılıq meyli və hissi nəyi ifadə edir?
8. Yeniyetmənin mənlik şüuru və əxlaqi şüurunun xüsusiyyətlərini söyləyin.
9. Yeniyetmənin «avtonom ustanovkaları» nəyi əks etdirir?
10. Nə üçün bu yaş dövründə uşaqların tərbiyəsini yad təsirlərindən qorumaq lazımdır?
11. Yeniyetmənin təlim fəaliyyətinin xüsusiyyətlərini söyləyin.
12. Yeniyetmələk yaşında idrak proseslərinin təhlilini verin.

## V.3. Erkən gəncliyin psixologiyası

Erkən gənclik fərdin ontogenezdə inkişafının ən əhəmiyyətli mərhələlərindən biridir. 15-18 yaşları əhatə edən bu yaş mərhələsi yaşlılıq və yetkinlik dövrünə real keçidin yekunu, yeniyetmələk dövründə özünü göstərən yeni psixi keyfiyyətlərin dolğunlaşması və tamamlanması ilə səciyyələnir. Böyük məktəb yaşı romantika, böyük coşğunluq, gənclik arzuları, öz qüvvəsini nə isə böyük işlərə həsr etmək, yaradıcı təşəbbüslərin genişlənməsi dövrüdür. Bu yaş dövrü şəxsiyyətin bir sıra xüsusiyyətlərinin cilalanması kimi qiymətləndirilir. Bu dövrdə gəncin fərdiyyəti, onun mənəvi və sosial siması formalaşır, ictimai fəaliyyətə maraq və şəxsi məsuliyyət hissi artır, **həyatda öz yerini tapmaq meyli** yaranır. Gənclik illərində oğlanlar və qızlarda uşaqlar üçün tipik olan əlamətlər tədricən onların həyatından silinib gedir, yaşlılara məxsus psixi keyfiyyətlər, xassə və əlamətlər formalaşır, get-gedə

möhkəmlənərək davamlı xarakter kəsb edir. Böyük türk şairi N.Hikmət deyirdi ki, gənclik arzu, inam, igidliyə həvəs deməkdir. Gənclik- lirika və romantikadır. Bu, gələcək üçün tükənməz arzulardır. Bütün yaxşı əməllərin başlanğıcıdır.

Ötən əsrin 60-cı illərində inkişaf etmiş xarici ölkələrdə baş vermiş gənclərin etiraz hərakatlarının səbəblərini araşdıran Qərb alimləri qeyd edirdi ki, yaşlılarla gənclərin, atalarla oğulların münaqişəsi tarixi bir münaqişədir. Atanın hakimiyyətinə və əmlakına sahib olmaq arzusu nəsillər arasındakı münaqişənin əsas səbəbidir. M.Mud, E.Firidenberq belə hesab edirdilər ki, nəsillər arasındakı münaqişələr get-gedə sürətlənəcəkdir. Məsələyə fərqli mövqedə yanaşan digər alimlər (L.Foyer, D.Yankeloviç) isə bu mövqe ilə razılaşmır və qeyd edirdilər ki, burada yeni heç nə yoxdur: atalarla oğullar arasındakı münaqişə tarixən həmişə mövcud olmuşdur. Sadəcə olaraq müasir dövrdə onun miqyası güclü şəkildə genişlənmişdir[1].

Şəxsiyyətin təşəkkül tapması bu yaş dövrünün sonunda əsasən başa çatır: İnsan fiziki cəhətdən yetişir, həyati seçimi və təmayülü dəqiqləşir, bəzən ömür boyu davam edən dostluq başlanır, əsil ilk məhəbbət yaranır. İlk gənclik yaşı yüksək heysiyyat, öz ləyaqətini ciddi anlamaq və tam müstəqilliyə meyl etmək cəhdi ilə səciyyələnir.

Erkən və ya ilk gənclik dövrü adlandırılan bu yaş dövrü orta məktəbin IX-XI siniflərində təhsil illərinə təsadüf edir. Bir sıra psixoloqlar ilk gənclik dövrünü müxtəlif adlarla adlandırmışlar. Məsələn, rus psixoloqlarından L.S.Vıqotski bu yaş mərhələsini **pubertat yaş dövrü,** D.B.Elkonin isə **böyük yeniyetməlik dövrü** kimi xarakterizə edirdi. L.İ.Bojoviç belə hesab edirdi ki, böyük məktəb yaşı dövründə psixi inkişafda özünü göstərən ən mühüm xüsusiyyət insan cəmiyyətində özünütəyinetmə, imkan və cəhdlərin dərk edilməsidir. Böyük məktəb yaşı dövründə gənclərin malik olduqları psixi imkanlarla yaşlıların, cəmiyyətin artan tələbləri arasında yaranan ziddiyyət **psixi inkişafın hərəkətverici qüvvəsinə** çevrilir.

[1] bax: Кон И.С. Психология ранней юности. М., «Просвещение», 1989, стр.13

Qəbul edilmiş yaş dövrlərinin təsnifatında ilk gənclik dövründə aparıcı fəaliyyət növü **təlim- peşə fəaliyyəti** hesab edilir.

Böyük məktəbli və ya ilk gənclik dövründə psixi inkişafın sosial situasiyası (L.S.Vıqotski) yeniyetməlikdə yaranan psixi törəmələrin təkmilləşməsi üçün əlverişli zəmin yaratmış olur. Böyük məktəblinin müstəqil həyatın astanasına daxil olması onun inkişafı üçün tamamilə yeni sosial şərait yaratmı olur. O, öz həyat yolunu təyinetmə, peşəseçmə ərəfəsində olduğu üçün onun daxili mövqeyində özünəməxsus psixoloji dəyişiklik yaranır: təlimə və əməyə münasibətində ictimai və şəxsi dəyərlər ön plana çıxır. Onlar bu fəaliyyət növlərinin insanın həyatında rolunu və əhəmiyyətini düzgün anlayır, təlimə öz gələcəkləri mövqeyindən yanaşır, bu günə gələcəyin mövqeyindən baxırlar. Bununla belə, erkən gənclik dövründə məktəblilərdə yeniyetmələrin psixikasına məxsus qüsurlar aradan qalxsa da, hələ də yeniyetmə psixikasının «izləri»nə təsadüf olunur.

Erkən gənclik orta məktəb yaşı dövrünün sonudur. Bu dövrdə məktəblinin fiziki keyfiyyətlərinin inkişafında əhəmiyyətli dəyişikliklər davam edir. Cinsi yetişkənlik başa çatır, ikinci cinsi əlamətlər aydın xarici təzahürə malik olur. Boy artımının sürəti zəifləyir, bədənin çəki artımı dinamik xarakter alır. Əzələlərin inkişafı sürətlənir, yaşlı adamın qüvvəsinə yaxınlaşır. Ürək-dammar sisteminin inkişafı normallaşır, qan təzyiqi müvazinətli forma alır, daxili sekresiya vəzilərinin fəaliyyəti ritmik vəziyyətə düşür, skeletin sümükləşməsi əsasən tamamlanmış olur, baş beyin strukturlarının inkişafı davam edir, bədən ölçüləri mütənasib forma alır. Fizioloji tədqiqatlar vasitəsilə müəyən edilmişdir ki, 8 yaşda əzələ çəkisi bədənin ümumi çəkisinin 27%-ni , 15 yaşda 32%-ni təşkil etdiyi halda, 17 yaşda bu göstərici 44%-ə çatır[1]. Bütün bu keyfiyyətlər böyük məktəblilərin istənilən fiziki və əqli işə dözümlülüyünü təmin etmiş olur, oğlan və qızların bədəninin xarici görünüşündə cəlbedici simmetriya yaranır, «qadınlıq» və «kişilik» etalonlarına yaxınlaşır. Bu yaş

[1] Возрастная и педагогическая психология. М., «Просвещение», 1984, стр.234

dövründə yeniyetməlik üçün səciyyəvi olan coşqun və qeyri- bərabər boy artımı, orqanizmin sürətli inkişafı başa çatır, fiziki inkişafın nisbətən sakit dövrü başlanır. Boyun uzununa böyümə tempi yavaşıyır, əzələ gücü və onun iş qabiliyyəti artır, döş qəfəsinin həcmi genişlənir. Böyük məktəb yaşı dövründə sinir sisteminin, xüsusilə beynin inkişafında dəyişikliklər baş verir. Beyinin hüceyrədaxili strukturları mürəkkəbləşir, onların funksional imkanları artır. Nəticədə təlim və əmək prosesində böyük beyin yarımkürələrinin təhlil-tərkib fəaliyyətinin mürəkkəb təzahürləri yaranır. Məşhur İsveçə psixoloqu Klaparetd qeyd edirdi ki, uşaqlıq və gənclik illəri inkişafın təkamül mərhələləridir. Yetkinlik (yaşlılıq) dövründə bu təkamül prosesi tamamlanır. Bununla belə fiziki görünüşdə nəzərə çarpan bəzi qüsurlar erkən gənclik dövrünü yaşayan məktəbliləri daim narahat edir. Təbii yetkinləşmə əlaməti kimi üzün dərisində əmələ gələn sızanaq və piqment ləkələri qızların kosmetikadan istifadəsinə yol açmış olur. Onların bir çoxu bədənin eninə inkişafından qayğılanır, kökəlmədən qorxur, incə və zərif görünmək üçün bəzən pəhriz saxlayır, normal qidalanmırlar.

Erkən gənclik dövründə insanın mənəvi qüvvəsi intensiv şəkildə inkişaf edir, onun əxlaqi siması formalaşır, xarakteri müəyyənləşir və dünyagörüşü təşəkkul tapır. Şəxsiyyətin qazanılmış yeni keyfiyyətləri böyük məktəblinin məktəbdə, ailədə və ictimai münasibətlər sistemində mövqeyinin dəyişməsinə güclü təsir göstərir. Bü dəyişkənliklərin yaranmasına səbəb olan ən ciddi amil yaş amilidir. Müasir 15-18 yaşlı gənclər fiziki və mənəvi yetkinliyin bir çox əlamətlərinə malikdirlər. Onlarda cinsi yetişmə başa çatmış olur. Bu isə onlara bu yaş mərhələsinin sonlarında ailə qurmaq hüququ verir. Gənclər **sosial məşğulluq** və **əmək hüququ** əldə edir, pasport almaqla, hərbi xidmət yaşına çatmaqla həqiqi hərbi xidmətdə əsgər vətəndaş borcunu yerinə yetirirlər. Gənclər həyatda, cəmiyyətdə baş verən ictimai, siyasi, iqtisadi və mənəvi proseslərdə fəal iştirak edir, ən mühüm siyasi hüquqlardan biri olan **seçki hüququ** qazanmış olurlar. Onlar həyata, əməyə, başqa adamlara yetkin

münasibət bəsləyirlər. Bununla belə, təəssüf doğurucu hal ondan ibarətdir ki, bir sıra yeniyetmə və gənclərdə həyata istehlakçı münasibəti, yüngül və pozğun həyat tərzinə meyl, əməyə münasibətdə infantil əlamətlər özünü göstərir. Zəngin həyat tərzi ilə yaşayan bəzi gənclər vaxtlarının çoxunu disko-barlarda, gecə klublarında yüngül əyləncə yerlərində keçirir, tüfeyli həyata meyllənmiş olurlar.

15-18 yaşlı gəncləri heç də tam yetkinləşmiş, öz həyatını müstəqil surətdə müəyyən etməyə qadir olan təcrübəli adam hesab etmək olmaz. Onların həyata baxışındakı mühakimələri bəzən səhv olur, ilk sınaqlarda büdrəyən gənclərdə ümidsizlik, sabaha inamsızlıq hissləri baş qaldırır. Gənclərin coşub-çağlayan romantik idealları çox vaxt həyatın reallaqları ilə toqquşmada «sınır», dözüb dayana bilmir.

Böyük məktəb yaşında **əxlaqi şüurda** və **davranışda** keyfiyyət dəyişiklikləri yaranır. Onların həyata baxışlar sistemi- dünyagörüşü formalaşır, əxlaqi əqidə meydana gəlir, mürəkkəb əxlaqi anlayışlar təşəkkül tapır. Bu yaş dövründə məktəblilərdə **dosta tələbat hissi,** yaranır, şərəf, ləyaqət, borc, namus, qeyrət, xəyanət, yoldaşlıq və s. kimi mürəkkəb etik anlayışların düzgün anlaşılması diqqəti cəlb edir. Görkəmli psixoloq M.Ə.Həmzəyev qeyd edir ki, gənclər öz yoldaşlarında yüksək əqli və əxlaqi keyfiyyətlərin olmasını arzulayırlar[1]. Əxlaqi şüur və davranışdakı bu yeni keyfiyyətlər böyük məktəblilərə ictimai həyatda fəal mövqe tutmaq, mənəvi davranışda başqalarına nümunə olmaq imkanı verir. Ətraf aləmdə baş verən hər bir şey gənc ürəyi narahat edir, həyəcanlandırır, şəxsi bir şey kimi hiss edilir[2].

Erkən gənclik dövründə ünsiyyət və emosional həyat keyfiyyətcə yeni məzmun kəsb edir. Mənəvi və sərvət müstəqilliyi, sərbəst seçim imkanları artır. Bunlar böyük məktəbli gənclərin təlimə, əməyə, ictimai hadisələrə, başqa adamlara münasibətində , davranışın ümumi yönəlişliyində aydın ifadə olunur. **Həyatda öz yerini müəyyən etmək** böyük məktəblinin sosial-psixi

[1] M.Ə.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. B., 2000, s.39
[2] В.А.Сухомлински. Vətəndaşın doğulması. B., «Maarif», 1975, səh.353

inkişafının əsas motivinə çevrilir. Böyük məktəb yaşlı şagirdlərdə idrak motivləri, geniş sosial motivlər və fəaliyyətin nəticəsinə yönəlmiş motivlər, psixi inkişafın başlıca təhrikedici qüvvələri kimi təzahür etməyə başlayır.

Rusiya PEA-nın əməkdaşları böyük məktəblilərin müxtəlif ünsiyyət formalarına və müxtəlif tərəfdaşlarla qarşılıqlı münasibətlərə olan tələbatlarını öyrənərək belə qənaətə gəlmişlər ki, böyük məktəblilərin valideynlər və dəgər yaşlılarla ünsiyyətə olan tələbatı yaxın dosta- həmyaşıda olan tələbatına nəzərən daha formal xarakter kəsb edir. Bu nəticələri aşağıdakı cədvəldən də görmək olar.

Böyük məktəblilərin ünsiyyət tələbatı və real ünsiyyət (faizlərlə)[1]

| tərəfdaşlar | Reqlamentləşmiş ünsiyyət | | Reqlamentləşməmiş ünsiyyət | |
|---|---|---|---|---|
| | Ona olan tələbat | Real ünsiyyət | Ona olan tələbat | Real ünsiyyət |
| Valideynlər və yaxın qohumlar | 4,7 | 70,8 | 66,6 | 29,2 |
| Müəllimlər | 8,3 | 95,7 | 10,9 | 4,3 |
| Digər yaşlılar | 2,6 | 98,6 | 6,5 | 1,4 |
| Yaxın dost-həmyaşıd | 0 | 0 | 68,2 | 56,2 |
| Digər həmyaşıdlar | 4,6 | 68,4 | 24,3 | 31,6 |

İngilis psixoloqu Con Koulmenin 11-13 yaşlı yeniyetmələr və 15-17 yaşlı gənclərlə «Tamamlanmamış cümlələr» metodikası ilə apardığı tədqiqatın nəticələri bu baxımdan maraqlıdır. O, oğlan və qızlara «Ətrafımda heç kim olmayanda…» və «Əgər insan təkdirsə…» tipli cümlələri tamamlamağı tapşırmışdı. Alınmış cavablar müsbət (məsələn: «Ətrafımda heç kim olmayanda mən xoşbəxtəm, ona görə ki, istədiyim hər şeyi edə bilərəm») və mənfi (məsələn: «Adam tək olanda o əsəbləşməyə başlayır») olmaqla təsnif edilmişdir. Müəyyən edilmişdir ki, yeniyetməlikdən gəncliyə doğru müsbət mühakimələrin sayı artır, mənfilər isə azalır. Əgər yeniyetmələr bunu xəlvət

[1] bax: Кон И.С. Психология ранней юности. М., «Просвещение», 1989, стр.115

guşə kimi qiymətləndirirsə, böyük məktəblilər darıxdırıcılıq hesab edirlər.. Utancaqlıq yeniyetmə və gənclərin şəxsi həyatında ən geniş yayılmış kommunikativ çətinlikdir.

Erkən gənclik dövrünü dünyagörüşünün formalaşması baxımından ən səmərəli dövr kimi nəzərdən keçirmək olar. Geniş həcmli biliklərə yiyələnən gənc malik olduğu çoxcəhətli məlumatları sistemə salmağa fəal surətdə meyl edir. O ümumiləşmiş nəzəri biliklərin, prinsip və qanunauyğunluqların öyrənilməsinə xüsusi maraq göstərir. Bütün bunlar böyük məktəblilərdə nəzəri təfəkkürün səviyyəsinin yüksəlməsində, idrak fəaliyyətində mücərrəd təfəkkürün rolunun artmasında öz əksini tapmış olur. Gənclərin artan idrak imkanları onların fərdi hazırlığa saatlarla vaxt sərf etməsində, biliklərə səylə yiyələnməsində **idraki özünütəkminləşdirmə tələbatlarında** ifadə olunur. Böyük məktəb yaşı dövrü təbii- elmi, fəlsəfi, əxlaqi, estetik,siyasi, hüquqi dünyagörüşü formalarının təməl prinsiplərinin yaranması və möhkəmlənməsi ilə müşayət olunur. Bu prosesdə şagirdlərin intellektual inkişaf səviyəsi mühüm amillərdən biri kimi xüsusi rol oynayır. Əxlaqi- etik normaların mənimsənilməsi, cəmiyyət həyatında baş verən ictimai- siyasi hadisələrə emosional yanaşma şəxsi həyat yolunun seçilməsi, gənclik dövründə dünyagörüşü formalarının təşəkkülündə mühüm amilə çevrilmiş olur. Erkən gənclik dövründə ümumbəşəri və milli dəyərlər əsasında əxlaqi keyfiyyətlərin formalaşması prosesi intensiv xarakter kəsb etməyə başlayır. Gənclər elm, mədəniyyət, incəsənət sahəsində ictimai sərvətlərə seçici münasibət bəsləyir, **cəmiyyətin demokratikcəsinə yeniləşməsinə** fəal həyat mövqeyindən **yanaşır, vətəndaşlıq funksiyalarını** mənimsəyirlər.

Erkən gənclik dövründə **yaşlılıq hissi güclənir, mənlik şüuru və əxlaqi şüuru**n inkişafında yeni əlamətlər meydana çıxır. Böyük məktəblilərdə «susma mövqeyi» aradan qalxır, haqsızlığa qarşı barışmaz münasibət özünü göstərir. Onlar ailə şərəfinə, **milli heysiyyata** hörmət bəsləyir, bu dəyərləri qorumağı özlərinə borc hesab edirlər.

Bu cəhətlər İ.İsaxlının «Dəli Kür» romanındakı gənc Şamxalın obrazında öz bədii həllini tapmışdır. Atası Cahandar ağanın evə başqa bir qadını -Allahyarın arvadını qaçırıb gətirməsi onu sarsıdır, bu halı o, anasına qarşı hörmətsizlik hesab edir, həmin qadını evdən qovmaq təşəbbüsündə anasına tərəfdar çıxır.

Çoxsaylı psixoloji tədqiqatların nəticəsi sübut edir ki, insanın yaradıcılıq sahəsindəki nailiyyətləri statistik baxımdan heç də onun məktəbdəki təlim müvəffəqiyyəti ilə bağlı deyildir. Darvin, Hegel, Napaleon, Nyuton,Eynşteyn, Vaqner, Verdi, Şiller, Heyne, Svift və başqaları məktəbli və ya tələbəlik dövründə qabiliyyətsiz hesab olunmuş və ya ortabab şagird kimi yaşıdlarından fərqlənə bilməmişlər. Psixoloqlar belə hesab edir ki, məktəb proqramları ciddi surətdə reqlamentləşmiş xarakterlidir. Uşaq və gənclərin yaradıcı qabiliyyətləri isə sinifdən kənarda, asudə vaxt zamanı onların məşğul olduğu elmi dərnəklərdə, sərbəst oyun formalarında daha parlaq və tam şəkildə üzə çıxmaq imkanı qazanmış olur[1].

Böyük məktəb yaşlı şagirdlər özlərinin emosional aləminin zənginliyi, hisslərinin əxlaqi tərbiyəlilik səviyyəsinə görə yeniyetmələrdən xeyli irəli getmiş olurlar. Onlar həyat hadisələrinə münasibətlərini əxlaqi ölçülər baxımından müəyyən edirlər. Ona görə də, ilk gənclik yaşında yaşanmış hisslər özlərinin davamlılığı, dərinliyi ilə seçilir. Oğlanlar və qızlarda həyat hadisələrinin təsiri ilə **ambivalent hisslər, ziddiyyətli emosional vəziyyətlər** yaranır. X sinifdə oxuyan gənc bir qıza yazdığı məktubunda bu sətirlərə yer vermişdi:

«Mən bilmirəm, səni sevirəm, yoxsa nifrət edirəm. Mənə elə gəlir ki, bu hisslər məndə qorxulu dərəcədə bir-birinə qarışmışdır. Öz-özümə sual verirəm: «Nə üçün mən səni sevməliyəm?» Cavab tapa bilmirəm. Həm də fikirləşirəm ki, nifrət etmək üçün də əsasım yoxdur. Bəlkə, sənə qarşı münasibətdə qəribə vəziyyətə düşməyimin səbəbini anlamaqda mənə kömək edəsən?» (N.D.Levitovun tədqiqatlarından)

Gənclər belə hallarda öz hərəkətlərinin doğru olub-olmadığını başqa adamların verdikləri qiymətlər əsasında müəyyən etmək tələbatı hiss edir, daha təcrübəli, yetkin adamların dəstəyinə ehtiyac duyur, daxili yaşantılarını

[1] Кон И.С. Психология ранней юности. М., «Просвещение», 1989, стр.76

başqaları ilə bölüşdürmək istəyirlər. Onun təzahürü kimi böyük məktəblilərdə yaşıdları ilə yaranan yoldaşlıq hissini misal göstərmək olar. Onun daha aydın ifadəsi şəxsi dostluq ünsiyyətində üzə çıxır. Gənclərin dostluğu özünün bir sıra cəhətlərinə görə yeniyetmələrin dostluğundan fərqlənir. Belə ki, gənclərin dostluq hissinin motivləri daha dərin olur və bu yaşda dostluq hissinə daha böyük tələblər verilir: qarşılıqlı inam, doğruçuluq, sədaqət, maraq və istəklərdə ümumilik, qarşılıqlı kömək, hörmət və qarşılıqlı anlaşma. Gənclik illərində dostluq qarşılıqlı münasibətlərin və emosional bağlılığın daha davamlı formasına çevrilir. Bu yaş dövründə o, uşaq və yeniyetmələrin yaşıdları ilə münasibətinin ötəri formalarından keyfiyyətcə fərqlənir, seçici məzmun daşımağa başlayır. Gənclərin dostluğunda emosional bağlılıq, dostun yaşantılarına- sevinc və kədərinə səmimi şərik olma motivləri daha davamlı və möhkəm olur. Bunun nəticəsidir ki, gənclik illərində əsası qoyulan dostluq münasibətləri adətən bütün həyat boyu davam edir.

İlk gənclik illərində məktəblilərin emosional sferasında əhəmiyyətli dəyişikliklər baş verir. Onlarda həyatın, insan fəaliyyətinin müxtəlif sahələrinə aid şəxsi əhəmiyyətli münasibətlərin dairəsi xeyli genişlənir. Əldə edilmiş təcrübə, öz **hisslərini təqdim etmə qabiliyyətləri** gənclərə şəxsi həyatlarında baş vermiş bir sıra uğursuzluqları, xoşagəlməz halları «ağrısız», dözüm və səbrlə yaşamaq imkanı verir. Dostluqda, sevgidə uğursuzluq-qızların vəfasızlığı, oğlanların etibarsızlığı gənclərin şəxsi həyatında çox böyük zərbə təsiri bağışlayır. Çox vaxt böyük məktəblilərin şəxsi həyatında baş vermiş halların ifadəsini onların sifətlərindən duymaq olur. Bununla belə, böyük məktəblilər, X-XI sinif şagirdləri yaşlılar aləminə qorxu və həyəcanla deyil, sərbəst daxil olmaq imkanlarına malik olurlar.

Gənclik dövrünə aid psixoloji səpkidə yazılmış ilk əsər alman filosofu və psixoloqu E.Şprangerin «Gənclik yaşının psixologiyası» (1924) adlı əsərdir. O, psixologiyanın başlıca məqsədini şəxsiyyətin mədəniyyət və tarixlə sıx bağlı olan daxili aləmini dərk etməkdə görürdü. E.Şprangerin fikrincə, gənclik yaşı

qızlarda 13-19, oğlanlarda 19-22 yaşları əhatə edir, bu dövr mənəvi inkişaf mərhələsidir və o, psixofizioloji proseslər kompleksi ilə sıx bağlıdır.

1934-cü ildə alman psixoloqu K.Bülerin «Üç nəsil gənclik gündəliyində» adlı əsəri çap olunmuşdur. O, bu əsərində 93 gənclik gündəliyinin (38 oğlan, 55 qız) təhlilini vermiş və qızların oğlanlara nəzərən daha çox gündəlik yazmağa meylli olduqlarını aşkara çıxarmışdır. 1929-cu ildə rus psixoloqları V.E.Smirnovanın «Gənclik yaşının psixologiyası», 1929-1931-ci illərdə isə L.S.Vıqotskinin «Yeniyetmənin pedologiyası» adlı əsərləri çap olnmuşdur.

Son illər psixoloq və pedaqoqlar yeniyetmə və gənclərin **seksual davranış meyllərinin güclənməsi,** xoşagəlməz nəticələrə gətirib çıxaran hallar haqqında həyəcanla danışırlar. Yeniyetmə və gənclər arasında seksual davranış şablonlarının mənimsənilməsi, azyaşlılar arasında pozğun qrupların artması diqqəti cəlb edir. Onların seksual davranışını situativ amillərin təsiri ilə dəyişir və hətta patoloji formalara (onanizm, pettinq, erkən cinsi həyat, homoseksualizm və s.) keçir. Müəyyən edilmişdir ki, seksual davranış formalarının artmasında paqnoqrafik film və jurnallar, pozğun adamlar və s. əsas rol oynayırlar. Burada pula, hədiyyə ilə ələ alma, qızın qohumları və rəfiqələri ilə yaxınlıq kimi dolayı vasitələrin də təsiri böyükdür. Ona görə də, yeniyetmələrlə müqayisədə böyük məktəblilərin emosional aləmi yaşanılmış hisslərin daha yüksək dərəcədə diferensiasiyası baxımından daha zəngin və dərin təəssüratlarla diqqəti cəlb edir. Bütün bunlar isə öz növbəsində onların ali hisslərinin əxlaqi, intellektual və estetik aləminin dərinləşməsinə və genişlənməsinə gətirib çıxarır. Böyük məktəblilərin əhvalları özünün davamlılığı və düşüncəli xarakteri ilə seçilir. Onlarda öz emosional vəziyyətlərini tənzimləmək, ona nəzarət etmək qabiliyyətləri xeyli yüksəlmiş olur. Erkən gənclik illərində şəxsiyyətin başlıca psixoloji keyfiyyətləri, o cümlədən xarakterin baza əlamətləri kifayət qədər davamlı forma alır. Bu keyfiyyətlərin təşəkkülündə **iradi keyfiyyətlərin** xüsusi rolu vardır. İradi fəaliyyətin şüurlu şəkildə idarə edilməsi: **özünütənzimetmə,**

**özünüinandırma, özünütəhriketmə, özünübəyənmə** və s. bu kimi iradi aktlar gənclərin xarakterində davamlı iradi keyfiyyətlərə çevrilir. Bunların zəminində böyük məktəblilərin motivlər sahəsi yaranır, onların şəxsiyyətinin istiqaməti müəyyənləşmiş olur. Böyük məktəblilərin təhrikedici qüvvələr aləmində yüksək dərəcəli mənəvi tələbatlar- ünsiyyət, dostluq, yüksək biliyə və dünyagörüşünə, başqaları üçün nümunəyə, ətrafdakıların rəğbət və hörmətinə, sevgisinə sahib olmaq meylləri aktuallaşır. Gənclərin həyatında aydın perspektivli cazibəli məqsədlər meydana çıxır, seçici münasibət yaranır. Böyük məktəbli yaşında əxlaqi hisslərin, norma və qaydaların, davranış prinsiplərinin mənimsənilməsi prosesi güclənir. Yaşlılıq hissi, əxlaqi şüur və mənlik şüuru müəyyən inkişaf həddinə çatır, gənclərin müstəqil həyata hazırlığının mühüm şərtinə çevrilir. Bununla belə, ABŞ psixoloqu L.Kolberq belə hesab edir ki, 16 yaşlı uşaqların yalnız 10%-i əxlaqın yüksək norma və prinsiplərinə yiyələnmiş olurlar. Bu səviyyəni **postkonvensial əxlaq** adlandıran L.Kolberqə görə, əxlaqi davranış, ictimai rifaha yönəlmiş və hamı tərəfindən qəbul edilmiş prinsiplər, başqa adamlara və özünə hörmət və s. bu yaş mərhələsində bütün uşaqların şüurlu davranış normalarına çevrilmir[1].

Böyük məktəb yaşı dövründə gənclərdə milli mənlik şüuru təşəkkül tapır. Onların şüurunda **milli mənəviyyat, adət-ənənələr, milli əxlaqi və dini dəyərlər, yurda bağlılıq milli düşüncə tərzi** və s. kimi xüsusiyyətlər əks olunmağa başlayır. Gənclər etnik şüurun subyektinə, milli dil isə onların etnik şüurunun daşıyıcısına çevrilir. Böyük məktəblinin etnik şüuru ona milli kimliyini müəyyən etməyə imkan yaradır, milli özünüdərketməsinə təkan verir. Coşub çağlayan romantik arzuları reallaşdırmaq, idman sahəsində qələbə qazanmaq, ali məktəbə daxil olmaq, əmək fəaliyyətinə başlamaq, ailə qurmaq və s. kimi daha dəyərli gənclik arzuları gənclərin fəallığının mənbəyi rolunda çıxış edir. Gənclərin fəaliyyətinin **təhrikedici qüvvələrinin** təsiri altında onlarda **ikinci və yaxud törəmə iradi keyfiyyətlər** olan qətiyyətlilik, cəsarət,

[1] Немов Р.С. Психология М., «Просвещение», 1990, стр.71-72

özünü ələ amaq, səbrlilik, inam və s. ilə yanaşı daha yüksək əxlaqi dəyərlərdən törəyən üçüncü və daha yüksək iradi keyfiyyətlər- məsuliyyətlilik, intizamlılıq, işgüzarlıq və təşəbbüskarlıq artmağa başlayır. İradi fəaliyyətin strukturunda mühüm yer tutan iradi səy – daxili və xarici maneələrin aradan qaldırılmasına yönəlmiş psixi fəallıq, iradənin tam səfərbərliyi yüksəlir, subyekt tərəfindən daxili psixi akt və vəziyyətlərin dərk olunması prosesi kimi refleksiya özünün yüksək səviyyəsinə çatmış olurlar. Böyük məktəblilərdə formalaşmış əxlaqi dəyərlər və prinsiplər onların iradi fəaliyyətində yaranan **motivlər mübarizəsində** ictimai yönəlişliyi şərtləndirmiş olur. Ədaləti müdafiə etmək, haqqın tərəfində durmaq, köməksizə, qocalara yardım etmək, şikəst adamlara əl uzatmaq, rəhmdillilik kimi əxlaqi keyfiyyətlər iradi fəaliyyətdə qabarıq şəkildə üzə çıxmış olur. Böyük məktəb yaşında gənclərin şəxsiyyətinin psixoloji strukturunda baş verən dəyişikliklər ideallar, gənclik arzuları və romantikadır. Bu xüsusiyyətlərin ilkin təzahürləri yeniyetməlik dövründə müşahidə olunsa da, gənclik yaşında onlar daha da cilalanır, yüksək dəyərlər baxımından qiymətləndirilərək seçilir. Yeniyetmələrin həyat idealları konkret bir şəxsin simasında ( sevimli müəllim, valideynlər, kino və bədii ədəbiyyat qəhrəmanları, estrada ulduzları müğənni və idmançılar və s.) meydana gəldiyi halda, ilk gənclik dövründə bu, daha çox əxlaqi dəyərlilik, ictimai və şəxsi əhəmiyyətlilik, şəxsiyyət- insani keyfiyyətlər baxımından qiymətləndirilir və bütöv ümumiləşmiş obraz təsiri bağışlayır. Psixoloq L.Y.Dukatın tədqiqatlarına görə, IV sinifdə şagirdlərin 100, V sinifdə 99, VI sinifdə 94, VII sinifdə isə 80%-nin idealı konkret xarakter daşıyır. Yaş artdıqca, konkret idealların miqdarı tədricən azalır, ümumiləşmiş ideallar isə təzahür etməyə başlayır[1]. Gənclər həyatın mənasını «özünü insanlara həsr etməkdə», «əməksevər, faydalı vətəndaş olmaqla», «halal zəhmətlə şəxsi səadətə nail olmaqda», «şərəf və ləyaqət sahibi olub, heç kimin qarşısında borclu olmamaqda», «gözəl peşə və ailəyə, pula, avtomaşına sahib olmaqla»

[1] bax: E.M.Quliyev, Q.E. Əzimov, Ə.Ə.Əlizadə. Yaş və pedaqoji psixologiya. B., APİ-nin nəşri, 1978, səh.49

və s. görürlər. Gənclərlə keçirilmiş sorğulardan aydın olur ki, onların çoxu şəxsi xoşbəxtliyi yaxşı peşə, qazanclı iş və vəzifədə görürlər. Son illər gənclərin nüfuzlu ixtisaslara meylinin artması da bunu sübut edir. Hüquqşünas, həkim, kompüter, biznes, gömrük işi, xarici dil və s. ixtisaslara axının güclənməsi səbəbləri arxasında gənclərin öz gələcək həyatlarını firavan görmək, yaxşı pul qazanmaq arzuları dayanır. Gənclərin arasında firavan həyata meylin qeyri-ənənəvi sferada yaşından asılı olmayaraq varlı adamla ailə qurmaq, xarici ölkələrdə rəqs qruplarında, restoranlarda işləmək, intim xarakterli reklam çarxlarına çəkilmək «ulduz» olmaq, açıq-saçıq geyinmək və s. milli- mənəvi dəyərlərimizin deformasiyaya uğradığını əks etdirir. Pul ehtirası, iqtisadi çətinliklər çox vaxt milli-mənəvi norma və prinsiplərin aşınmasına gətirib çıxarır. Təhsili yarımçıq qoyub, məktəbdən yayınaraq vaxtlarını yüngül əyləncə yerlərində keçirən gənclərin gələcək taleyi bu gün cəmiyyətdə böyük narahatlıq doğurur.

Erkən gənclik dövründə böyük məktəb yaşlı uşaqların emosional aləmində baş verən ən böyük dəyişikliklərdən biri **məhəbbət hissidir**. Bu, öz məzmunu baxımından kiçik məktəblilərin rəğbət, yeniyetmələrin ilk məhəbbət hissindən əhəmiyyətli şəkildə fərqlənir.

Yeniyetmələrdə əks cinsə qarşı şəxsi simpatiya əsasında yaranan sevgi hissi ötəri, cəlbedici xarakter daşıdığı halda, erkən gənclikdə bu hiss özünün dərinliyi, gücü və həqiqi sevgi olması ilə seçilir. Erkən gənclik dövründə fərdi intim dostluğa tələbat hissi güclənir. Qızlarda cinsi yetişmənin bir qədər tez başlanması ilə əlaqədar onlarda bu tələbat oğlanlardan xeyli əvvəl hiss olunur. Bu yaş dövründə cinsi yetişmə başa çatdığından aydın ifadəli seksual çalarlarla xarakterizə olunur. Lakin bu heç də bütün gənclər

tərəfindən dərk edilmiş, düşüncəli məzmuna malik deyildir. Oğlanlardan fərqli olaraq qızlarda əks cinsə olan münasibət fiziki yaxınlıq fonunda deyil, daha artıq dərəcədə nəzakətliliyə, ünsiyyətə, nəvazişə və mənəvi- emosional yaxınlığa olan tələbatlarla şərtlənmiş olur. Oğlanlarda isə hissi-erotik əyləncə, tam diffuz erotizm meylləri əvvəlcə güclü olsa da, sonralar bu, qızlara qarşı həssas, qayğıkeş və nəzakətli münasibətlə əvəz olunmağa başlayır. Bu məsələnin mahiyyətinə varan V.A.Suxomlinski yazırdı: «Məhəbbət hissi mürəkkəb təkamül mərhələsi keçir. Dəliqanlı gənclik ehtirasları öz yerini ürək bağlılığına, məsuliyyət və borc hissinə verir. Əxlaqi cəhətdən nikaha hazır olmayan cahil adamlara bu, məhəbbətin sönməsi kimi görünür[1]. Bu cür **psixo-seksual dəyişikliklər** valideynlər və müəllimlərdən gənclərdə cinslərarası münasibətlərin tərbiyəsi işində yüksək diqqətlilik, tələbkar münasibətin və məsuliyyətin olmasını xüsusilə ön plana çəkir. Gənclərin tibbi-gigiyenik baxımdan maarifləndirilməsi də başlıca vəzifədir. Nikahaqədər cinsi yaxınlaşmanın xoşagəlməz nəticələrə gətirib çıxaracağı barədə onlarda təsəvvürlərin formalaşdırılması, milli adət-ənənələrə hörmət hissinin tərbiyə edilməsi olduqca vacib məsələlərdir.

Rus psixoloqları V.A.Krutetski və İ.S.Lukinin fikrincə, yeniyetməlik yaşı dövründə şəxsi rəğbət, əyləncə, bağlılıq, hətta ilk məhəbbət hissinin təzahürlərindən danışmaq daha doğru olar. Lakin dərin, güclü, təsirli hiss kimi məhəbbət ilk gənclik dövründə yaranır. Bu təsadüfi olmayıb böyük məktəblinin şəxsiyyətinin, xüsusilə onun emosional həyatının ümumi inkişafı ilə bağlıdır. Böyük məktəblinin bir şəxsiyyət kimi xüsusiyyətləri onun dostluq- məhəbbət hissində bütün aydınlığı ilə əks olunur[2].

Məhəbbət təkcə bioloji hadisə deyil, o daha çox insanın mənəviyyatı ilə bağlıdır. Oğlan, qız, kişi-qadın arasındakı məhəbbət insanın bütün varlığı, ümumi inkişaf səviyyəsi, ictimai fəaliyyəti, dünyagörüşü, marağı, duyğuları, təxəyyülü ilə sıx bağlıdır. O, çox müqəddəs, elmi təhlilə gəlməyən ülvi, incə,

[1] Сухомлинский В.А. Как воспитывать настоящего человека. М., «Педагоэика» 1989, стр.216
[2] bax: Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. B., «Maarif», 1986, səh.170

dərin, eyni zamanda mürəkkəb bir fenomendir. Sevgi ehtirası möcüzəli hissdir, onun öz qanunları, öz buxovları vardır.

Gənclərin məhəbbəti bir qayda olaraq, pak, təravətli, davamlı, müxtəlif yaşantılar, daxili həyəcan və ehtiraslarla zəngindir, özünün lirik təbiəti, atəşin yanğısı ilə daha yüksək, nəcib duyğu kimi nəzərə çarpır. Bu cəhəti xüsusi fərqləndirən məşhur ispan yazıçısı M.S.Servantes yazırdı: «Sevgi elə bir eynək taxır ki, ondan baxanda kasıblıq zənginlik kimi, od zərrələri qızıl və mirvari kimi görünür»[1]. Ciddi və cəlbedici məhəbbət, emosional yaxınlığa meyl məhz ilk dəfə erkən gənclik yaşında meydana gəlir. 15-16 yaşda bu hissin artıq ciddi mənəvi tələbata, insan həyatında, ünsiyyət fəaliyyətində güclü amilə çevrlməsindən söhbət gedə bilər. Bu yaş dövründə məhəbbət sadəcə olaraq əks cinsə yönəlmiş adi həvəs primitiv cinsi instink deyil, insani, sosial –mənəvi bağlılıq, başqası qarşısında məsuliyyət və borcudur. Məhəbbətin seçici faktorları sırasında xarici görkəm, gənclik və sağlamlıq əsas amillər kimi ön planda durur. Məhəbbətin ilk mənbəyi gözəllikdir. Bu hiss yer üzərində həyatın, sivilizasiyanın qüdrətli mənbəyidir. O,insanın yalnız şəxsi həyatına, əmək və ictimai fəaliyyətinə deyil, həm də, onun psixikasına və hərtərəfli inkişafına səmərəli təsir göstərir. Gənclər arasında tanışlıqdan başlanan, yoldaşlıq və dostluğa keçən simpatiya çox vaxt məhəbbətə çevrilir. Dərinləşən şəxsi intim münasibətlər onlar arasında məktublaşma, telefonla əlaqə, görüş təyinetmə, birgəgəzinti rəqs və s. formaları qarşılıqlı əlaqələrdə ifadə olunur. Hal-hazırda yeni mobil rabitə vasitələri,internet sevən gənclər arasında əyləncəli ünsiyyətə imkanlar açmışdır. Məhəbbət intim hisslərdən biri kimi gənclərin inkişafının bütöv bir kompleksi-fizioloji, psixoloji və psixoseksual amillərin bitkin sistemidir. Gənc olan hər bir adamı belə bir sual həmişə düşündürür: görəsən, insan öz həyatında neçə dəfə sevə bilər, Bu suala aydın cavaba tanınmış rus sosioloqu A.Q.Xarçevanın fikirlərində rast gəlmək olar. O, yazır: «Yüngül düşüncəli adamlarda təsadüfi yaxınlıq və

[1] İpə-sapa düzülməmiş incilər. Bakı, «Azərbaycan dövlət nəşriyyatı», 1981, səh.117

əyləncə fiziki yaxınlıqla nəticələnir. Əgər «məhəbbət» dedikdə belə əyləncə nəzərdə tutulursa, onda görünür ki, insan həyatda dəfələrlə sevə bilər»[1].

Orta məktəbin yuxarı siniflərində təhsil alan gənclər arasında uzun illər boyudur ki, psixoloqların **«gənclik gündəlikləri»** adlandırdıqları zəngin psixoloji tədqiqat materialları geniş yayılmışdır. Gənclərin fikri fəaliyyətinin məhsulu kimi bu gündəliklər yaş psixologiyasının tədqiqat obyekti kimi zəngin faktlar mənbəyidir. Gənclər öz gündəliklərində həyatlarında baş verən hadisələri, ən intim hisslərini qeyd edir, adətən onları gizli saxlayırlar. «Gənclik gündəlikləri»ndən bəzi nümunələrə nəzər yetirək:

- «Mən elmi işçi olmaq, Vətənə fayda verə biləcək nə isə yeni bir şey kəşf etmək istəyirəm, Eyni zamanda istəyirəm ki, ailəm olsun, yaxşı xanım olum. İstəyirəm ki, hər şeyi bacaran, yaxşı görünən, cəlbedici qadın olum. Belə qadın mənim üçün nümunədir. (Lena 17 yaş SSRİ EA-nın Ümumi və Pedaqoji Psixologiya İnstitutunun materiallarından).

«Hörmətli Mənsurə! Hamı dostluqdan yazır. Amma mən dostluqdan yox,həyatdan yazmaq istəyirəm. Çünki sən bu il orta məktəbi qurtarırsan. Yeni həyata qədəm qoyursan. Tələbəlik həyatına! Gözəl, bir-birindən şirin arzularla dolu gəncliyə qədəm qoyacaqsan! Bilirəm, mütləq sevəcək və seviləcəksən. Sənə məsləhət verirəm ki, sevdiyin adamı yoxlayasan, əgər onda həqiqi məhəbbət varsa, heç onda da sevmə. Onun mütləq iradəsini yoxla! Namusunu yoxla! Çünki iradəsiz və namussuz adamlarda sevgi heç bir vaxt olmayıb, olmaz da. (Münəvvər X sinif . prof Ə.Ə.Əlizadənin tədqiqatlarından).

- 16 yaşlı Tanya redaksiyaya ünvanladığı məktubunda yazırdı: «Valideynlərim məni başa düşmürlər!. Məni sevdiklərini söyləyirlər. Məgər adamı belə sevərlər? Həmişə şübhələr, suallar: «harada idin? Kiminlə idin?». Xəlvəti mənim məktublarımı oxuyurlar. Daim məni danlayırlar. Beş qiymət alanda tərifləmirlər, deyirlər belə lazımdır. Üç alanda isə həmişə qalmaqal düşür. Heç səbəbini də soruşmurlar. Sadəcə olaraq danlayırlar. Bütün bunlar övlada məhəbbətdəndir hə?» (A.İ.Şerbakovun tədqiqatlarından)

Bunlardan fərqli olaraq, şagirdlərin bir-birinə ötürmə yolu ilə özləri haqqında məlumat əldə etmək istədikləri «Xatirə dəftərləri» də psixoloji fikrin inkişafında əhəmiyyətli rol oynayır. Belə dəftərdə xatirə yazan hər bir şəxs əvvəlcə özü haqqında məlumat verir, sonra ardıcıl sıralanmış suallara cavablar yazır. Lakin bu yazılar ünvanlı və imzalı olduğu üçün bəzən onların

[1] Гребенников И.В. Основы семейной жизни М., «Просвешение» 1991, стр.46

çoxu yeniyetmə və gənclərin əyləncə dairəsində məhdudlaşıb qalır, qeyri-səmimi olması ilə seçilir. Belə dəftərlərdə konformist mövqe aydın görünür, çox vaxt psixoloji portretlər reallıqla uyğun gəlmir. Tanışın, yoldaşın və dostun «ürəyini sındırmamaq» naminə gənclər bu yazılarında qeyri-səmimi mövqe nümayiş etdirsələr də, elmi psixologiya üçün bu dəftərlərdə xeyli material-gənclərin maraq və meylləri, dünyagörüşünün səviyyəsi, istək və arzuları hissləri tələbatları və idealları cəmlənmiş olur.

«Xatirə dəftərləri»ndən götürülmüş bəzi nümunələr bu cəhətdən maraqlıdır:

- «Biz 6 il bir yerdə oxumuşuq. Bu 6 ildə biz bir-birimizə bacı-qardaşdan artıq olmuşuq. Əsil dost dar gündə tanınar. Biz də dar günlərimizdə bir-birimizi sınamış və tanımışıq».

- «Hörmətli, unudulmaz sinif yoldaşım, Səkinə! Siz bu dörd ildə həmişə mənimlə mehriban olmusunuz. Təkcə mənimlə yox, bütün siniflə siz həmişə mehriban olmusunuz. Səkinə, sizin bu dörd ildə bizə etdiyiniz hörmət və mehribanlıq heç vaxt unudulmayacaqdır. (prof. Ə.Ə.Əlizadənin tədqiqatlarından)

Müasir sivilizasiya, ictimai münasibətlərin xarakterində baş verən proseslər hal-hazırda dərin **sosiodinamik və psixodinamik dəyişikliklərə** gətirib çıxarmışdır. Gənclərin həyata baxışında, həyat hadisələrinə münasibətdə yeni yönəlişliklər, fəal mövqe yaranmışdır. Milli-mənəvi dəyərlərə, tarixi keçmişə, bu günə və gələcəyə münasibətin yeni perspektvləri diqqəti cəlb edir. Gənclərin psixologiyasında mütilik, qeyri-tənqidi itaətkarlıq kimi xüsusiyyətlər get-gedə aradan qalxır, cəsarət və tolerantlıq, vətənpərvərlik, demokratik baxışlar, vətəndaşlıq mövqeyi və mübarizlik güclənir.

Böyük məktəb yaşlı şagirdlərin təlim fəaliyyəti öz xarakteri və müzmunu etibarilə yeniyetmələrin təlim fəaliyyətindən fərqdənir. Yuxarı siniflərdə tədris olunan yeni fənlər, proqram materialllarının məzmunca mürəkkəbləşməsi böyük məktəblilərin fəallığına və müstəqilliyinə yeni tələblər verir. Tədris olunan mövzuları yüksək səviyyədə mənimsəmək üçün böyük məktəblinin

**nəzəri təfəkkürünün** yüksək inkişafı tələb olunmur . Yeniyetmənin öyrənmə üsulları ilə böyük məktəb yaşı dövrünə aid proqram tələbləri arasında ziddiyyət meydana gəlir. Bu ziddiyyət böyük məktəblinin özünütəhsil bacarıqları ilə aradan qaldırılır.

Böyük məktəb yaşı dövründə şagirdlərin təlimə münasibəti də dəyişir və ciddi xarakter alır. Onlar böyüdükcə təcrübələri artır, maraq dairəsi genişlənir. Gənclər müstəqil həyatın astanasına gəlib çatmış olurlar. Təlimə dərk edilmiş, şüurlu münasibət, gələcək müstəqil həyatda biliklərin, bacarıq və vərdişlərin əhəmiyyətli daha aydın dərk olunur. Biliklərə tələbat hissi müasir gənclərin xarakterik cəhətlərindən biridir. Onlar dərk edir ki, «təhsil əsri» adlandırılan XXI əsrdə elm və bilik real kapitaldır, onlara sahib olmağın yolu isə məktəb və təhsildən keçir. Böyük məktəb yaşı dövründə təlimə, fənlərə seçici münasibət yeniyetmələrdən fərqli olaraq peşə maraqları və peşə istiqaməti ilə bağlı olur. Onlar məktəbi bitirdikdən sonra öz həyat yollarının istiqamətini dərk edərək hansı yolu seçəcəklərini, hansı peşəyə sahib olacaqlarını qəti təyin etmiş olurlar. Bu dövrdə şagirdlərin idrak maraqları daha geniş və davamlı xarakter kəsb edir. İdman, texnika, elmin ayrı-ayrı sahələri, elektronika, ictimai- siyasi, fəlsəfi- etik problemlər gənclərin maraq dairəsində əsas yer tutmağa başlayır. Həyatda öz yerini müəyyən etmək böyük məktəblinin inkişafının sosial şəraitinin başlıca komponentinə çevrilir.

Böyük məktəblinin təlimə şüurlu münasibəti idrak proseslərinin inkişafını stimullaşdıraraq onların ixtiyari formalarının yaranmasını təmin etmiş olur. Qavrayış, hafizə, təfəkkür və təxəyyül kimi psixi idrak prosesləri həmçinin diqqət bu yaş dövründə iradi və idarə olunan, tənzimlənən proseslər kimi özünü göstərir, onların gəncin həyati məqsədləri və fəaliyyət istiqamətlərindən asılılığı müşahidə olunur. Müşahidəçilik əhəmiyyətli dərəcədə inkişaf edərək şəxsiyyətin idrak qabiliyyətlərindən birinə çevrilir. Hafizənin inkişafı dinamik şəkildə davam edir. **Sözlü-məntiqi** və **mənalı yaddasaxlama** özünün yüksək həddinə çatır. Buraxılış və ali məktəblərdə

**test imtahanlarına** hazırlıqla əlaqədar böyük məktəblinin hafizəsi hədsiz dərəcədə yüklənir və gərginliyə məruz qalır. İxtiyari hafizə dominant hafizə növü olmaqla həm təlim, həm də ictimai həyat proseslərində fəal və aparıcı rol oynayır. Keçilmiş mövzular və öyrənilən digər materiallar üzrə böyük məktəblilər mənalı yaddasaxlama üsullarına, bu məqsədlə plan, sxem və konspekt tərtibi kimi vasitələrə daha çox istinad edirlər. Böyük məktəb yaşı dövründə davamlı həyat maraqlarından asılı olaraq diqqətin seçiciliyi artır, onun intellektual fəaliyyətdə rolu və əhəmiyyəti yüksəlir. Gənc diqqətini ilk növbədə onun üçün davamlı və əhəmiyyətli olan obyektlərə doğru yönəldir. Təlim prosesində təfəkkür fəaliyyətə gətirilən biliyə, həm də bilik əldə etmə vasitəsinə çevrilir. Təlimdə, xüsusilə yoxlama yazı, laboratoriya və praktik işlərin icrası zamanı fikri fəaliyyətin rolu və əhəmiyyəti yüksəlir. Təfəkkür fəal, müstəqil və yaradıcı məzmun kəsb edir, **fikri əməliyyatlar** habelə isbat, ümumiləşdirmə, mücərrədləşdirmə, əsaslandırma, səbəb-nəticə asılılıqlarını aşkar etməyə yönəldilmiş fikri əməliyyatlar fəal şəkildə üzə çıxır. Təfəkkürün inkişafı nitqin obrazlılığına, məntiqiliyinə, öz fikrini sərbəst ifadə etmək bacarıqlarının formalaşmasına gətirib çıxarır. Gənclərin nitqinin strukturu mürəkkəbləşir, lüğət fondu zənginləşir və ünsiyyət fəaliyyətində verbal imkanlar artır. Böyük məktəb yaşı dövründə nitq mədəniyyəti və nitq etiketi xeyli dərəcədə inkişaf edərək ümumi mədəni səviyyənin mühüm amilinə çevrilir.

## Suallar və tapşırıqlar

1. Erkən gənclik dövründə fiziki inkişafın əsas yekunu nədən ibarətdir.
2. Gənclik dövründə əsas fəaliyyət növü hansıdır?
3. Erkən gənclik dövründə şəxsiyyətin formalaşması xüsusiyyətlərini söyləyin.
4. Gənclik yaşında hisslərin əsas xüsusiyyətlərini təhlil edin.
5. İradi fəaliyyətin əsas cəhətləri hansılardır?

6. Gənclik dövründə məhəbbət hissi və əks cinsə münasibətin psixoloji mahiyyətini söyləyin.
7. «Xatirə dəftərləri» və «Gənclik gündəlikləri»nin psixologiya elmi üçün əhəmiyyəti nədən ibarətdir?
8. Erkən gənclik dövründə peşəyönümü və ictimai fəallıq nədə əks olunur?
9. Gənclərin milli mənlik şüuru nədə ifadə olunur?

## Əlavələr [1]

**Şagird şəxsiyyətinin öyrənilməsi və pedoqoji- psixoloji xarakteristika-sının tərtibi üçün nümunəvi sxem ( əlavə 1)**

**I. Ümumi məlumatlar.**

Şagirdin adı və soyadı
Təvəllüdü
Sinif
Ümumi fiziki inkişaf
Sağlamlığın vəziyyəti
Ailədə həyat şəraiti. Ailə tərbiyəsinin əsas istiqamətinin düzgünlüyü.

**II. Təlim fəaliyyəti.**

1. Təlim müvəffəqiyyəti (aldığı qiymətlər, ayrı-ayrı fənlər üzrə mənimsəmə göstəriciləri).
2. Ümumi əqli inkişaf (ümumi görüş dairəsi və məlumatlılığı)
3. Nitqin inkişafı (söz ehtiyatı, nitqin obrazlılığı, emosionallağı, öz fikrini şifahi və yazılı şəkildə ifadə etmək bacarığı)
4. Təlimə qabilliyi:

- diqqətin xüsusiyyətləri (ixtiyari diqqətin inkişafı və onun keçirilmə, davamlılıq səviyyəsi, paylama qabiliyyəti);
- Təlim materialını anlama sürəti:;
- İxtiyari və mənalı hafizənin səviyyəsi və xarakteri (mexaniki və ya sözlü-məntiqi hafizə, ixtiyari yaddasaxlama üsulları, yaddasaxlamanın sürəti və davamlılığı, yadasalmanın asanlığı, hafizənin fərdi xüsusiyyətləri)
- təfəkkürün inkişafı (əşya və hadisələrin mühüm və ikinci dərəcəli əlamətlərini fərqləndirmə bacarıqları, ümumi və mücərrəd anlayışları mənimsəmə səviyyəsi, müqayisə, ümumiləşdirmə, müstəqil nəticə çıxarmaq bacarıqları, həll yolunu tapma sürəti.

5. Təlim işində çalışqanlığı.
6. Dərsə marağı və təlimə münasibəti (təlimə marağın olub-olmaması, daha çox maraq göstərdiyi fənlər, qiymətə, müəllim və valideynlərin tərifinə münasibəti, təlim fəaliyyətinin əsas motivi)
7. Oxumaq bacarıqları (gün rejiminin gözləməsi, kitabla müstəqil işləmək, plan tərtib etmək və s. bacarıqları)

**III. Əmək (əmək dərsləri, evdə və məktəbdə ictimai- faydalı əmək)**

1.Əməyə münasibət . Əməyə hörmətlə, yoxsa etinasız yanaşır? Əməyin ictimai əhəmiyyətini dərk edirmi, əməyi sevirmi? Əmək prosesində onu daha çox nə cəlb edir?
2. Əmək bacarıq və vərdişləri, onları asanlıqla qazanırmı?
3. Əməkdə mütəşəkkilliyi və intizamlılığı.
4. Əməkdə səy vərdişləri.

[1] Əlavələrin hazırlanmasında. «Контрольные работы по психологии» M., «Просвещение», 1989 adlı vəsaitdən istifadə olunmuşdur.

5. Əməyin hansı  növünə daha çox hörmət bəsləyir.

**IV. İctimai fəaliyyət və fəallıq.**

1. Kollektivin ictimai həyatına münasibəti (kollektivə hörmət edir, etinasızlıq göstərir, yaxıd mənfi münasibət bəsləyir?)
2. Ölkənin ictimai həyatına marağı (Qəzet oxuyurmu, radioya uşaq asırmı, ictimai hadisələrin müzakirəsində iştirak edirmi?)
3. İctimai vəzifəni yerinə yetirir. (Daim, epizodik, heç vaxt).

**V. Şagirdin şəxsiyyətinin istiqaməti və xüsusi qabiliyyətləri.**

1. Maraqları. Uşağın maraqlandığı hər şeyi sayın: (texnika, rəsm, musiqi, idman, kolleksiyaçılıq və s.) Dərinlik və fəallıq baxımından maraqların xarakteri, bədii, elmi, kütləvi, əyləncəli ədəbiyyata göstərdiyi maraq).
2. Hər hansı fəaliyyətdə (musiqi,rəsm və s.) xüsusi qabiliyyətinin təzahürü.
3. Gələcək planları və arzuları (VI sinifdən sonra oxuyan uşaqlar üçün nəzərdə tutulur.)

**VI. İntizamlılığı.**

1. Davranışın ümumi xarakteristikası.
2. Məktəb rejiminin gözlənilməsi.
3. Yaşlıların tələbini yerinə yetirməsi. Uşağın davranışındakı tipik qüsurları göstərməli.

**VII.Kollektivlə qarşılıqlı münasibəti və məktəbə münasibəti.**

1.Kollektivdə vəziyyəti.
2. Sinif yoldaşlarına münasibəti.
3. Kollektivdə öz mövqeyi ilə razıdırmı?
4. Məktəbə münasibəti (məktəbə həvəslə gedir, yoxsa valideynlərin və müəllimlərin qorxusundan).
5. Müəllimlərə və tərbiyəçilərə münasibəti. Onlar arasında əlaqə varmı?

**VIII. Temperament və xarakterin xüsusiyyətləri.**

1. Xarakterin müsbət və mənfi xüsusiyyətləri aydın ifadə olunurmu? (adamlara, təlimə, əməyə, özünə münasibətdə ifadə olunan xarakter əlamətləri) Xarakterin iradi ədamətləri (müstəqillik, tərslik, dözümlülük və s.)
2. Temperamentin xüsusiyyətləri ( emosionallıq, iş qabiliyyəti, mütəhərriklik və s.)
3. Üstün görünən əhvalı (şən, qəmgin, ümimdsiz). Əhvalın davamlılığı, onun dəyişməsi nə ilə bağlıdır.

**IX. Ümumi pedaqoji- psixoloji nəticələr.**

1. Şagirdin formalaşdıqda olan şəxsiyyətinin əsas üstünlükləri və qüsurları, onların daxili və xarici səbəbləri. (ailə tərbiyəsi şəraiti, xəstəliklər, müəyyən qabiliyyətlərin olmaması və s.)
2. Müəllimin şagirdlə gələcəkdə tərbiyə işində aparmalı olduğu mühüm peqaqoji, psixoloji vəzifələr.

## Sinif kollektivinin öyrənilməsi və xarakteristika tərtibi üçün nümunəvi sxem (əlavə 2)

1. **Ümumi məlumatlar** (sinif kollektivi və onun formalaşması tarixi (şagirdlərin sayı, onlardan oğlanlar və qızlar, onların sayı və yaş tərkibi, sinifdə qalanlar, kollektiv nə vaxt formalaşmışdır, başqa kollektivlə birləşmə olmuşdurmu? Sinif rəhbərlərinin dəyişməsi və s.)

2. **Sinif kollektivinin təşkili və rəhbərlik (**sinifin təşkiledici nüvəsi, onun fəalları; sinif nümayəndəsi və onun işi; sinfin fəallarının xarakteristikası; Kollektivdə qeyri-formal liderlərin sayı, onların sinif kollektivinə təsirinin xarakteri, onlara sinfin fəallarının münasibəti. Kollektivdə «təcrid edilən» və «rədd edilənlər»in sayı; kollektiv daxilində qarşılıqlı münasibətlər: ümumi mənafe və maraqlar, qarşılıqlı tələbkarlıq, dostluq, qarşılıqlı yardım və hörmət); kollektivdə tənqid və özünətənqid; oğlanlarla qızlar arasında qarşılıqlı münasibətlər, kollektivin ayrı-ayrı üzvləri arasındakı münasibətlərin səbəbləri;

sinif rəhbərinin şəxsiyyəti (təhsili, ümumi mədəniyyəti, təşkilatçılıq qabiliyyətləri, şagirdlərin psixologiyasını bilməsi və s.) onun kollektivdə nüfuzu və ona təsiri.

**3. Kollektiv fəaliyyətin məzmunu və xarakteri:** təlim fəaliyyəti (müvəffəqiyyət və intizamın ümumi xarakteristikası; ayrı-ayrı şagirdlərin təlim göstəriciləri, sinif rəhbərinin təlim keyfiyyətini yüksəltmək sahəsində fəaliyyəti: dərs zamanı sinifdə intizamın səviyyəsi: təlim prosesində müşahidə edilən mənfi hallar və s.

Kollektivin dərsdənkənar həyatı: siyasi hadisələrə, musiqiyə, ədəbiyyata, idmana və s. maraq; kollektivin ümumməktəb tədbirlərində iştirakı;

İctimai-faydalı əmək və onun kollektivin sinifdənxaric həyatında yeri; əməyin növü və onun yerinə yetirilmə xarakteri; şüurlu intizamın təzahürləri.

4. **Ümumi nəticələr.** Kollektivin inkişaf səviyyəsi (mərhələsi). Ümumi emosional iqlimin xarakteri (ruh yüksəkliyi, həyatsevərlik, sükunət, gərgin-əsəbi və s.) Kollektivin həyatının təşkilindəki əsas nöqsanların müəyyən edilməsi və onun aradan qaldırılması yolları.

## Dərsin psixoloji təhlili üçün nümunəvi sxem (əlavə 3)

### I. Dərsdə şagirdlərin bilik, bacarıq və vərdişləri.

1. Dərsdə şagirdlər hansı biliklərdən istifadə etdilər? Onların səviyyəsi.
2. Dərsdə anlayışların formalaşdırılması prosesi necə cərəyan etdi?
3. Dərsdə şagirdlərin vərdişləri və onların inkişaf səviyyəsi.
4. Dərsdə şagirdlərin bacarıqları və onların səviyyəsi.
5. Dərsdə bacarıq və vərdişlərin formalaşması şəraiti.

**II. Dərsdə şagirdlərin idealları, əqidə və baxışlarının formalaşdırılmasının psixoloji şəraiti.**

1. Dərsdə şagirdlərin elmi dünyagörüşünün inkişaf etdirilməsi şərtləri.
2. Dərsdə şagirdlərin əqidə və ideallarının təzahür səviyyəsi.

**III. Şagirdlərin təlimə münasibəti və dərsdə təlim işinin motivləri.**

1. Dərsdə şagirdlərin təlimə münasibətində hansı cəhətlər üstün əks olunurdu? Şagirdlərin təlimə mənfi münasibəti hiss olunurdumu? Bunun səbəbi nə ilə bağlıdır?
2. Dərsdə şagirdlərin fəaliyyətini təşkil etmək üçün müəllim hansı motivlərdən istifadə edirdi?

**IV. Dərsdə şagirdlərin idrak fəaliyyəti.**

1. Təfəkkür:
- şagirdləri fikri fəaliyyətə hansı amillər təhrik edirdi? Dərsdə problemli vəziyyətlər yaradılırdımı? Şagirdlərin problemin həllində iştirakı və fəallıq;
- dərsdə şagirdlərin əqli fəaliyyət üsullarının xarakteri və onların səviyyəsi;
- şagirdlərdə hansı əqli keyfiyyətlər təzahür edirdi? Müəllim onların formalaşdırılmasına necə münasibət bəsləyirdi?
- dərsin müxtəlif mərhələlərində şagirdlər tərəfindən fikri məsələlərin həllinə məllim necə nəzarət edirdi? Hər bir şagirdin fəaliyyətinə müəllimin nəzarəti necə idi?

2. **Hafizə.**
- şagirdlərin təlim materiallarını yadasalma prosesinin xüsusiyyətləri. Müəllim bu prosesə necə nəzarət edirdi?
- dərsdə təlim materiallarının unudulması halları müşahidə olunurdumu? Onların səbəbləri.
- şagirdlərin təlim materiallarını yaddasaxlaması prosesinə necə rəhbərlik edilirdi?
- **Təxəyyül**
- dərsdə şagirdlər tərəfindən hansı obrazlar yaradılmalı idi? Bu təmin olundumu?
- şagirdlər tərəfindən təxəyyül surətlərinin yaradılması prosesində hansı qüsurlar müşahidə olunurdu?
- uşaqların təxəyyül fəaliyyətinin səmərəliliyinə təsir edən amillər.

**V. Dərsdə şagirdlərin psixi vəziyyəti.**

1. Dərs zamanı şagirdlərdə hansı psixi vəziyyətlər müşahidə olunurdu?
2. Onların səbəbləri nə ilə bağlı idi?

Dərsin təhlilində aşağıdakı mümkün səbəblərə diqqət yetirilməlidir:
- şagirdlərin fiziki vəziyyəti (dalğınlıq, yorğunlüq, sağlamlıq durumu və s.)
- dərsdə və tənəffüsdə şagirdə edilmiş təsirlər.

- dərsin təşkili və gedişi, təlim materialının xarakteri, iş meterialları, sinfin səliqə-sahmanı, müxtəlif əyani və texniki vasitələr, dərsin tempi, müəllimin əhvalı və davranışı, psixi vəziyyəti, şagirdlərin fəaliyyətinin nəticələri və onun qiymətləndirilməsi xarakteri və s.

**VI. Dərsdə müəllimin fəaliyyəti və davranışı.**

1. Müəllim dərsdə şagirdlərə hansı yeni bilik, bacarıq və vərdişlər aşılaya bildi?
2. Müəllimin daha qabarıq görünən pedaqoji və psixoloji qabiliyyətləri.
3. Müəllimin hansı şəxsi keyfiyyətləri və xarakterinin hansı əlamətləri dərsin uğurlu və ya qüsurlu olmasına səbəb oldu?

## Ədəbiyyat

## Azərbaycan dilində


1.Alparslan Öz yazıçı. Alkoqollu içkilər, siqaret və digərləri.( türk dilindən çevirən M.Musaoğlu) Ankara, 1997

2. Ə.S.Bayramov,Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri.B., «Maarif»,1967

3.Ə.T.Baxşəliyev. XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı.II hissə, B., ADPU, 1996

4. Ə.T.Baxşəliyev. XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı. III hissə.B., ADPU, 1998

5.Bağırlı L.Ş. Məktəbə hazırlığın psixodioqnastikası. B., «Nərgiz» 2003

6.Çələbiyev N.Z. Psixodioqnostika məsələləri. B.,ADPU, 2003

7.Ə.Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B., «Pedaqogika», 2004

8. Ə.Ə.Əlizadə, Q.E.Əzimov, E.M.Quliyev. Məktəblinin psixologiyası B.,ADPU,1990

9. Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. B., «Maarif» 1986

10.Ə.Y.Seyidov. Azərbaycanda redaqoji fikrin inkişaf tarixindən. B., «Maarif», 1987.

11.M.Ə.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. B.,2000

12.İpə-sapa düzülməmiş incilər.B., «Azərnəşr» ,1981

13.Ə.Ə.Qədirov,İ.N.Məmmədov. Yaş psixologiyası.B., «Maarif» ,1986

14.E.M.Quliyev.Kiçik məktəblinin psixologiyası.B.,ADPU,2003

15. E.M.Quliyev,Q.E.Əzmov.,Ə.Ə.Əlizadə Yaş və pedaqoji psixalogiya. B., APİ. 1978

16. E.M.Quliyev. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri. B. ,ADPU,1995

17. E.M.Quliyev. Yaş psixologiyasının tədrisi məsələləri. B.,ADPU,1997

18.Z.M.Mehdizadə. Uşaq psixologiyası. I hissə,B., APİ,1982

19. Z.M.Mehdizadə. Uşaq psixologiyası. II hissə,B., APİ,1984
20. Z.M.Mehdizadə. Uşaq psixologiyası. III hissə,B., APİ,1988
21. Maslov M.S. Uşaq xəstəlikləri.B., «Azərnəşr»,1961.
22. Nəcəfov C.Ə. və b. Uşaq anatomiyası və fiziologiyası.B., 2001
23.N.Tusi. Əxlaqi-nasiri. B., «Elm», 1980.
24. V.A.Suxomlinski. Vətəndaşın doğulması.B., «Maarif» ,1975
25. V.A.Suxomlinski. Ürəyimi uşaqlara verirəm. B., «Maarif» ,1979

**Rus dilində.**


1. Азаров Ю.П. Радость учить и учиться М., Изд-во политической литературы. 1989.
2. Ананьев Б.Г. О методах современной психологии. В.кн:Психологические методы. Л.1976.
3. Ананьев Б.Г. Психология чувственного познания. М., 1960
4. Ауербах Ш. Генетика (пер-с английского) М., 1966
5. Аникеева Н.П. Воспитание игрой. М., «Просвещение», 1987
6. Божович Е.Д. Психологические особенности развития личности подростка. М. «Знание», 1979.
7. Венгер Л.А.,Венгер А.Л. Домашняя школа мышления. М., «Знание», 1985.
8. Воспитание детей в игре (Составители А.К.Бондаренко, А.И.Матуисик).М., «Просвещение», 1983.
9. Возрастная и педагогическая психология. (Матюхина М.В.,Михальчик Т.С. Прокина Н.Ф. и др.) М., Просвещение», 1984.
10. Гребенников И.В. Основы семейной жизни. М., Просвещение», 1991.
11. Гримм Г.Основы конституциональной биологии и антропометрии. М., «Медицина», 1967.
12. Давыдов В.В.Проблемы развивающего обучения. М., «Педагогика», 1986.
13. Детская практическая психология.(Под ред. Т.Д.Марцинковской) М.,»Гардарики» 2003.
14. Джайнотт Дж.Х. Родители и дети.(Перевод с английского)М.,«Знание»,1986
15. Дорожнова К.П. Роль социальных и биологических факторов в развитии ребенка. М., «Медицина», 1983.
16. Запорожец А.В. Изб.психологические труды. Том 1. Психическое развитие ребенка.(Под.ред.В.В.Давыдова,В.П.Зинченко) М.,»Педагогика», 1986
17. Зденек Хелус. Понимаете  ли вы ученика? (Перевод с чешского) М., Просвещение», 1987.
18. Казакова Т.Г.Рисуют младшие дошкольники. М., Просвещение», 1980.

19.Ковалев С.В.Психология современной семьи. М., Просвещение», 1988.
20.Коломинский Я.Л.,Панько Е.А.Учителю о психологии детей шестилетнего возраста. М., Просвещение», 1988.
21.Кочубей Б. Почему люди разные? «Семья и школа» М.,1986 № 12
22. Крутецкий В.А. Основы педагогической психологии. М., Просвещение», 1972.
23. Кон И.С. Психология старшеклассника. М., Просвещение», 1980.
24. Кон И.С. Психология ранней юности. М., Просвещение», 1989.
25.Кузнецова Л.В.Гармоническое равитие личности младшего школьника. М., Просвещение, 1988.
26.Лидерс А.Г. Психологический тренинг с подростками М., «Академа» 2003.
27.Люблинская А.А. Детская психология М., Просвещение, 1971.
28. Люблинская А.А. Учителю о психологии младшего школьника. М., Просвещение, 1977.
29.Максимов В.Г. Педагогическая диагностика в школе. М., «Академа», 2002.
29. Мудрост воспитания. (Книга для родителей) М., «Педагогика», 1989.
30.Мухина В.С.Детская психология.М., Просвещение, 1985.
31.Мухина В.С. Психология дошкольника. М., Просвещение, 1975.
32.Николаева В.С. В школе и после школы вместе. М., Просвещение, 1989.
33. НемовР.С. Психология. (Книга 2) М., «Владос», 1999.
34.Немов Р.С. Психология М., Просвещение, 1990.
35.Обухова Л.Ф.Детская психология.(Теория,факты,проблемы) М., Просвещение, 1995.
36.Общая психология. (Под ред.В.В.Богословского, А.Г.Ковалева, А.А.Степанова. М., Просвещение, 1981.
37.Панов Е.Н. Знаки, символы, языки, М., «Знание», 1980.
38. Практикум по возрастной и педагогической психологии. (Под. ред. А.И.Щербакова) М., Просвещение, 1987.
39. Проблемы психологии личности М., «Наука» , 1982.

40.Психическое развитие младших школьников (Под ред.В.В.Давыдова) М., «Педагогика», 1990.
41.Пунский В.О. Азбука учебного труда. М., Просвещение, 1988.
42.Психические особенности слабоуспевающих школьников. (Под ред. И. Ломпшера) М., «Педагогика», 1984.
43. Педагогический поиск М., «Педагогика» 1989.
44.Печора К.Л.,Пантюхина Г.В.,Голубева Л.Г. Дети раннего возраста в дошкольных учреждениях. М., «Просвещение» 1982.
45.Петровский А.В.Развитие личности и проблема ведущей деятельности. «Вопросы психологии», М., 1987, № 1
46. Популярная психология для родителей (Под ред А.А.Бодалева (М., «Педагогика», 1989.
47. Психология (Под ред. А.Ц.Пуни) М., «Физкультура и спорт», 1984
48.Прихожан А.М., Толстых Н.Н. Дети без семьи. М., «Педагогика», 1990
49.Рудик П.А. Психология. М., «Физкультура и спорт», 1976
50.Ротенберг В.С., Бондаренко С.М. Мозг, обучение, здоровье. М., «Просвещение» 1989.
51.Развитие познавательных способностей в процессе дошкольного воспитания. (Под ред. Л.А.Венгера) М., «Педагогика», 1986.
52.Развитие мышления и умственное воспитание дошкольника. (Под ред.Н.Н. Поддякова, А.Ф. Говорковой) (М.,»Педагогика», 1985.
53.Смирнова Н.С., Соловьева В.С. Биологический возраст человека М., «Знание», 1986
54. Смирнова Е.О. Детская психология М., «Владос», 2003.
55. Смирнова Е.О. Психология ребенка. М., «Просвещение» 1997.
56.Соколова Ю.Тесты на интеллектуальное развитие ребенка четырех лет. М., «Эсмо», 2003
57.Соколова Ю.Тесты на готовность к школе ребенка шести-семи лет.М., «Эсмо»,2003.

58. Соколова Ю.Тесты на интеллектуальное развитие ребенка пяти-шести лет М., «Эксмо», 2003

59.Столяренко Л.Д.Основы психологии.(Практикум).Ростов-на Дону, «Феникс» 2002.

60. Сухомлинский В.А.О воспитании. (Составитель С.Соловейчик) Изд-во политической литературы, М., 1973.

61. Сластенин В.А., Исаев И.Ф., Шиянов Е.Н. «Педагогика» М., «Академа», 2003

62. Сухомлинский В.А. Как воспитывать настоящего человека. М., «Педагогика» 1989.

63.Тайчиков М.Г. Воспитание и самовоспитание школьников.М., «Просвещение», 1982.

64. Фрдман Л.М., Волков К.Н. Психологическая наука- учителью. М., Просвещение »1985

65. Фридман Э.П. Занимательная приматология. М., «Знания», 1985

66. Хельмут Штольц. Каким должен быть твой ребенок.(перевод с немецкого) М., «Просвещение» 1987.

67.Чалабиев Н.З. Психолого-педагогические возможности усвоения математики учащимися- шестилетками первого класса. (Автореферат кандиатской диссертации) Б.,1991

68.Щукина Г.И. Проблема познавательного интереса в педагогике. М., «Просвещение» 1971.

69. Эльконин Д.Б. К проблеме периодизации психического развития в детском возрасте. (Хрестоматия по возрастной и педагогической психологии М., 1981

70.Юркевич В.С. Об индувидуальном подходе о воспитании волевых привычек («Педагогика и психология») М., «Знание», 1986, № 11

# M Ü N D Ə R İ C A T

**Giriş**

**I fəsil. Uşaq psixologiyasının ümumi məsələləri.**

I.1. Uşaq psixologiyasının mövzusu, vəzifələri və başqa elmlərlə əlaqəsi.

I.2. Uşaq psixologiyasının tədqiqat metodları

I.3. Uşaq psixologiyasının inkişafının qısa tarixi xülasəsi.

**II fəsil. Psixi inkişafın ümumi qanunauyğunluqları.**

II.1. Psixi inkişafın zəmini və şərtləri.

II.2. Psixi inkişaf və fəaliyyət.

II.3. Psixi inkişaf və ünsiyyət.

II.4. Psixi inkişaf və təlim.

II.5. Psixi inkişafın yaş dövrləri

**III.fəsil Çağalıq, körpəlik və ilk uşaqlıq dövründə uşağın inkişafının psixoloji xüsusiyyətləri.**

III.1. Yeni doğulmuş uşağın anatomik-fizioloji və psixi xüsusiyyətləri

III.2. Körpəlik dövründə uşağın inkişafının ümumi səciyyəsi

III.3. Körpəlik dövründə idrak proseslərinin inkişafı.

III.4. İlk uşaqlıq dövründə idrak proseslərinin inkişafı.

III.5. İlk uşaqlıq dövründə şəxsiyyətin inkişafı.

**IV.fəsil.Məktəbəqədər dövrdə uşağın inkişafının psixoloji xüsusiyyətləri.**

IV.1. Məktəbəqədər dövrdə uşağın inkişafının ümumi səciyyəsi.
IV.2. Məktəbəqədər dövrdə uşaq fəaliyyətinin psixoloji səciyyəsi
IV.3. Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin inkişafı.
IV.4. Məktəbəqədər yaşda hisslərin inkişafı.
IV.5. Məktəbəqədər yaşlı uşaqlarda iradənin inkişafı.
IV.6. Məktəbəqədər yaşda nitqin inkişafı.
IV.7. Məktəbəqədər yaşda sensor inkişaf.
IV.8. Məktəbəqədər yaşda təfəkkürün inkişafı.
IV.9. Məktəbəqədər yaşda diqqətin inkişafı.
IV.10. Məktəbəqədər yaşda hafizənin inkişafı.
IV.11. Məktəbəqədər yaşda təxəyyülün inkişafı.
IV.12. Uşağın məktəb təliminə psixoloji hazırlığı.

**V.fəsil. Məktəblinin psixoloji xüsusiyyətləri.**

V.1. Kiçik məktəb yaşı dövründə psixi inkişaf.
V.2. Yeniyetmənin psixoloji xüsusiyyətləri.
V.3. Erkən gəncliyin psixologiyası.
Ədəbiyyat siyahısı.
Əlavələr.
Mündəricat